Molla Kərbəlayi
NÜSRƏT QIZILAĞACLI

# QIZILAĞAC DÜNƏN VƏ BU GÜN



QIZILAĞAC DÜNƏN VƏ BU GÜN

Molla Kərbəlayi
NÜSRƏT QIZILAĞACLI



KƏRBƏLAYİ NÜSRƏT

МАСАЛЛЫ РАЈОНУ




**Molla Kərbəlayi Nüsrət**
**Qızılağaclı**

# QIZILAĞAC DÜNƏN VƏ BU GÜN

"ADİLOĞLU" nəşriyyatı
BAKI-2003

*Bu kitabı dünyasını dəyişmiş atam Nəsrullah, anam Züleyxa və həyat yoldaşım Məsuməxanımın xatirəsinə ithaf edirəm.*

*Redaktor:* *Balabəyim SALAYEVA*
*Korrektor:* *Qulu VƏCİOĞLU*

***Kitabda respublikamızın dilbər guşələrindən olan Qızılağacın dünənindən və bugünündən İlhamla söz açılır. Bu sahəyə ilk dəfə müraciət edildiyindən kitab böyük maraq doğurur. Kitaba daxil edilmiş yazılar müəllifin gərgin əməyi və ciddi axtarışlarının bəhrəsidir. Ümid edirik kitab oxucular tərəfindən maraqla qarşılanacaq və geniş əks - səda doğuracaqdır.***

N $\frac{5002568974}{121-2003}$ sifarişlə

© N.Nəsrullayev



# ÖN SÖZ ƏVƏZİ

## Dini və mənəvi dəyərlər yolu

Ulu Tanrı İslam peyğəmbərinə söz ilə müraciət edib, ona “oxu!” deyib. Müqəddəs kitabda sözə verilən bu qiymət, yəqin ki, bu sahədə biliyi olan Kərbəlayi Nüsrəti düşündürüb və belə bir işə sövq edib. Axı, insanı əbədi yaşadan sözdür. Dəyərli söz əvəzsiz bir incidir.

Kərbəlayi Nüsrət bacarıqlı din xadimidir. O, Qızılağac kənd məscidinin axundu, həm də kəndin mollasıdır. Bununla yanaşı, kəndin ağsaqqalı və ziyalısıdır. Kərbəlayi Nüsrət kənd camaatı və ətraf yerlərin din xadimləri arasında tanınır, sayılır. İdarə etdiyi hüzr məclisləri, dini bayramlar və dini mərasimlərlə əlaqədar keçirdiyi tədbirlər onu elmli və səriştəli din xadimi kimi ucaltmışdır. Bu isə böyük fəxrdir.

Kərbəlayi Nüsrətin qələmindən çıxan “Qızılağac dünən və bu gün” kitabı kənd sakinlərini və onu tanıyanları ürəkdək sevindirir. Yazdığı kitab onun istedadına yeni bir istiqamətindən xəbər verir. Bu da təqdirəlayiqdir. Kərbəlayi Nüsrətin işıq üzü görəcək kitabı haqqında mənə rəy yazmaq təklif ediləndə, düzü, bir az çəkindim, çətinlik hiss etdim. Düşündüm ki, dini və dünyəvi elmlərdən bəhrələnmiş bir insanın qələmindən çıxan kitab haqqında rəy söyləmək o qədər də asan olmayacaq. Ancaq yaxşı əməl sahiblərinin gördüyü işi Tanrı rizasına qiymətləndirməyin özü də savabdır.

"Qızılağac dünən və bu gün" kitabını oxuyub tanış olduqca bu işin mümkünlüyü aydın oldu. Doğrudan da, müəllif böyük zəhmət bahasına dəyərli bir əsər yaratmışdır. Kitabdakı yazıları oxuduqca doğma Qızılağacın şanlı və qədim keçmişinə səyahət edir, bu günü ilə tanış olur, işıqlı qələbəsinə sonsuz ümid hissi ilə baxırsan. Əsər insanları xalqın keçmişinə hörmətlə yanaşmağa, unutqan olmamağa, vətənpərvərliyə, kökə-soya, dini və mənəvi dəyərlərə bağlılığa, xeyirxah işlər görməyə, el yolunda xidməti olan şəxslərdən ibrət götürməyə, ülvi hiss və əməllərə səsləyir.

Müəllifin məqsəd və məramı da budur. O, dönə-dönə bu fikri aşılamağa salışır ki, yer üzünün əşrəfi olan yaxşı əməllər sahibi olmalıdır. Bunun üçün səy etməli və kamillik zirvəsinə can atmalıdır. Ulu Tanrı da yaratdığı insandan bunu istəyir. Müəllif həmin həqiqəti əsər boyu yüksələn xətt üzrə inkişaf etdirir.

Kərbəlayi Nüsrət oxuduğu, eşitdiyi və gürdüyü həyat həqiqətlərindən rəvan bir dillə söz-söhbət açır, insana yeni ruh və zövq verir. O, insanları xeyirxahlığa, mənəvi ucalığa, kamilliyə çağırır. Hiss edirsən ki, o, istəyinə əsasən nail olub. Çünki yazdıqları real hadisələrdir. İnsanlar bir çox hadisələrin iştirakçısı və icraçısı olmuşlar.

Lakin müəllif bütün bunları yaradıcılıq süzgəcindən keçirmiş, ümumiləşdirmələr aparmış, şifahi xalq ədəbiyyatı nümunələrinə, klassiklərə, müasirlərinə müraciət etmiş, müqəddəs kitabımız "Quran"dan





yaradıcılıqla faydalanmışdır. Onun həmçinin ərəb, fars, rus dillərini bilməsi kitabın yazılması üçün tarixi məxəz və materialların orijinaldan istifadəsinə şərait yaratmışdır. Faktların zənginliyi də bunu göstərir. Repressiya və təqiblər dövrünün günahsız qurbanları olmuş din xadimləri barədə verilən məlumatlar olduqca təsirli və yadda qalandır. Elmli, bilikli olduqlarına və əqidələrinə görə günahlandırılan insanların acı taleyinə şərik olur, onları məhv edən məkrli qüvvələri lənətləyirik.

Kənddə XIX əsrin 2-ci yarısından sonra fəaliyyət göstərən dini mədrəsələrin və dünyəvi məktəblərin tarixinin araşdırılması oxucular üçün maraqlı olacaq. Çünki müəllif bu sahəyə müraciət etməklə dəyərli iş görmüşdür. Müəllifə görə, İNSAN varlıqların əşrəfi, kainatın bəzəyi olmaqla dünyaya gəlişindən son mənzilə kimi insanlığa xidmət etməlidir. Kitabın müasir dövrdə vətənimizə layiq vətəndaşlar yetişdirilməsində təsiri çox ola bilər və olacaqdır.

Borcumuz kitabı dərk etmək və həyatımızda olan çatışmazlıqları aradan qaldırmaqdır. Müəllif istəyir ki, kitabı oxuyanlar onu ehkam kimi qəbul etməsinlər, yazılanlara yaradıcılıqla yanaşsınlar.

Kitabda sitat, atalar sözü və poetik nümunələrdən yerli-yerində istifadə ona yeni nəfəs gətirir, oxunaqla edir. Deyilənlər müəllifin geniş dünyagörüşə malik olduğundan xəbər verir. Ona görə də görülən işi təqdir etmək və qiymətləndirmək lazımdır. Yəqin ki, Kərbəlayi Nüsrət

pərəstişkarlarını bundan sonra da yeni əsərləri ilə sevindirəcəkdir. Ulu Tanrı yardımçın olsun, Kərbəlayi Nüsrət!

Fikrimi Qulu Vəcioğlunun ona həsr etdiyi "Elə adın kimi..." şerindən bir bəndlə bitirirəm:

*Elmindən soraqdır yazdığın kitab,*
*Bu da el-obaya xidmətdi, ey dost.*
*Elmin yollarında çəkilən əzab,*
*İnsana əbədi şöhrətdi, ey dost!*

**B.Salayeva**





## BİSMİLLAHİR-RƏHMANİR RƏHİM

*İsmin ilə başladım, ey arizular məhzəri*
*Ey olan zati qəni, ey gəncü dövlət sərvəri*
*Ey səxavət mənbəyi, ey varlığı icad edən*
*Ey qədim mülkü fənasız, ey dəyişməz cövhəri.*
*Ey ümmə lütv edib, şadlıq səfasın bəxş edən.*

*Ey təbibi qəlb olan, ey həll edən müşkülləri*
*Tövbə qıldı bir günah etmişdisə qəlbim mənim*
*Bilmiş ol səhvü xətasın, əfv qıl bu müztəri.*
*Qibləgahım, olmaram qul səndən özgə kimsəyə*

*Tanrısan, ruzi verənsən, yoxdu səndən digəri*
*Ən böyük bir rütbəyə yüksəldi səndən qəddimiz*
*Səndən oldu qəlbimiz hər gizli sirrin məzhəri,*
*Qəlbim nurunla açdım, nə olar açsan nitqimi.*

*Verdiyin nemətlər olsun taki, dillər əzbəri,*
*Nitq verdinsə gözəl söz söyləmək də lütv qıl*
*Şerin ilə zahir olsun gizli hikmət zivəri.*
*Lütvün əlası sözün bilməkdədir mənasını.*
*Həmd qıl, vermiş Füzuli, həmsənə bu gövhəri.*

Bu misraların tə'siri altında yazmağa başladığım bu kitabı doğma kəndimin dünəninə və bu gününə həsr etmşəm. Çünki hər kəs yaşadığı torpağı, məxsus olduğu xalqı yaxşı tanımalı, onun dünənindən və bu günündən xəbərdar olmalıdır.

Həyatda yaşadığım dövrlərdə kamillik zirvəsinə çatmağa səy göstərdim. Həyatım boyu insanlara xidmət etməyi özümə lazım bildim, əsl borc saydım.

Ağlım kəsəndən həyatda ən işıqlı arzularımdan biri də o, olub ki, doğulub boya-başa çatdığım kəndin tarixini yazım. Fəqət bu sahədə öyrəndiklərimin kifayət etməməsi zaman-zaman

məni bu işdən çəkindirmişdir. Həyatda ilk addım atmaq həmişə çətindir.

Oxuduqlarım, eşitdiklərim və gördüklərim sanki məni bu işə ruhlandırırdı.

Çünki kəndimizin tarixini bilən yaşlı baba və nənələr dünyasını dəyişdikcə bu işə tələbat özünü daha aydın şəkildə büruzə verirdi.

Məhz bu kimi fikirlərin işığında ulu Tanrının köməkliyi ilə bu məsul isə girişməyi qərara aldım.

Atalar yaxşı buyurublar: bir işə başlamazdan əvvəl onun hara gedib çıxacağını götür-qoy etmək lazımdır. Mən də yüz ölçdüm, bir biçdim və gördüm ki, bu çətin və şərəfli işin axırı uğurlu nəticə verər.

Salam doğma Qızılağacım, o taylı-bu taylı, 9 iqlimli Azərbaycanın dilbər guşələrindən biri olan sevimli kəndim. Sən dünənin və bu gününlə sabaha örnək olan bir məskənsən.

Bəli insan doğulduğu torpağı və doğmaların sevə bilmirsə başqalarını da sevə bilməz. Hər bir kəsə vətən məhəbbəti doğulub boya-başa çatdığı torpağa məhəbbətdən aşılanmalıdır.

İnsan kəndinin və doğmalarının timsalında Azərbaycan və onun vətəndaşlarını ürəkdən sevməlidir. Uşaqlıqdan ana südü, ata öyüdü və ülvi hisslərlə boy atan hər bir kəs vətənini ürəkdən sevər. Belə halda Vətən müqəddəsləşər. Bu yolda xoşbəxtliklə yanaşı, hər cür çətinliklərə də dözə bilər. Doğma kəndimin tarixindən, dünənindən və bu günündən yazmaqda mənə yardım ol, ulu Tanrı! Çətin məqamlarda ilham ver, yol göstər! Həqiqi eşq və istəklə sənə sığınanları həmişə xoşbəxt görmüşük.

***Uymadım şöhrətə, sərvətə, ada,***
***Ruzunu bəxş edən ulu Tanrıdır.***
***İnam yaşatmışdır məni dünyada***
***Nagüman yaşamaq böyük günahdır.***





Xalqın tarixindən xəbərsizlər ona layiq övlad ola bilməzlər. Ey kəndim! Sən qədim bir varlıqsan. Səni sevmək azdır, səni öyrənmək gərək! Səni öyrənmək və sevmək azdır, səni sevə-sevə öyrənmək, öyrənə-öyrənə sevmək gərək!

Axtarışlar keçmişi bizə çatdırsa da, keçmiş üçün deyil, bu günü dərindən daha yaxşı dərk etmək və indiki insanlara daha yaxşı anlatmaq üçündür. Qədim tarixi bilmək üçün həmin keçmiş dövrə gərək müraciət edəsən.

## QIZILAĞAC

***Qədim bir tarixsən əzəldən bəri***
***Şöhrətin olubdur dillər əzbəri***
***Sən mənim ömrümün gözəl səhəri***
***Xoşbəxtlik torumsan, kəndim Qızılağac.***

***Nə çoxdur sinəndə qədim abidə***
***Qoynunda yer verdi neçə şəhidə***
***Səndən ilham aldı yazan şair də***
***Dahilər yurdusan, kəndim Qızılağac.***

***Əsəndə Xəzərdən şimal küləyi***
***Döyünər qızların sevən ürəyi***
***Sənsən cavanların arzu, diləyi***
***Hüsnünə vurğunam, kəndim Qızılağac.***

***Talış dağları uzaqda qalır,***
***Viləş ilməsini sinəndə çalır,***
***Bülbül qızıl gülü burda axtarır.***
***Bağlı-bağçalı, kəndim Qızılağac.***

*Qızılağac qoruğu başımın tacı*
*Şöhrət qazandırır ona turacı.*
*Yaşıl libasıdır söyüd ağacı*
*Tükənməz sərvətli kəndim Qızılağac.*

*Sakinləri şirin dillə danışar,*
*Qonağını gülər üzlə qarşılar,*
*Son tikəsin yarı bölər bağışlar,*
*Bax belədir mənim kəndim Qızılağac.*

*Cavanlar özünə toy-büsat qurar,*
*Vağzalı sədası kəndə yayılar,*
*Arzuman bu toydan bir ilham alar,*
*Toylu-büsatlı kəndim Qızılağac.*

*Arzuman Əliyev*

*VƏTƏNİ SEVMƏK İMANDANDIR.*
*(Mühəmməd pey. ə.)*

## QƏDİM QIZILAĞAC

*Kim bilir neçədir dünyanın yaşı*
*Tarixin nə qədər yazısı vardır*
*Hər saxsı parçası hər məzar daşı*
*Nəsildən nəsilə bir yadigardır.*

Qızılağac! Nəsillər yadigarı, adı ilə dünyanın alim, səyyah, din xadimlərinin, bilicilərin yaddaşına, qədim tarixi ilə əsərlərinə həkk olunan, qəlblərdə silinməz iz buraxan doğma kəndim. Neçə-neçə mərd mübarizlər, xeyirxah insanlar, dindar və din xadimləri, ziyalı, alim, şair, dövlət adamı və s. yetişdirən kəndim. Həmişə mavi Xəzərin həzin-həzin laylası ilə gecələyən, xəfif küləyi ilə yenidən oyanıb sakinlərinə yaşayıb-yaratmaq ümidi bəxş edən, doğma diyar...





Allahın yer aləminə bəxş etdiyi tükənməz sərvəti olan, dünyada öz gözəlliyi ilə tanınan cənnət timsallı dilbər guşə - qədim diyar, doğma kəndim! Sənin qoynunda gəzdim. Həmişə məni bu gəzintilər fikrə, xəyala qərq edirdi. Bu fikr-xəyal sənin haqqında eşitdiklərimi, gördüklərimi, oxuduqlarımı cəm edib gələcək nəslə çatdırmaq idi. Sən dünənin və bu gününlə sabaha örnək olan, doğma və əziz məskənsən!

Adın təmiz, havan təmiz, solun dəniz, sağun dəniz, qəlbdə əziz, sözdə ləziz, nemətləri əvəzsiz kəndimiz...

Qızılığac! Bu ad haqqında çoxlu rəvayətlər söylənilib. Ancaq ad iki məfhumla bağlıdır: biri qızıl-sərvət, dövlət, o biri ağac-uca əzəmətli, vüqarlı. Bu kənd həmişə nəzər nöqtəsi olub. Qızılağac və cənub bölgəsi üzrə ən qədim məlumatı yunan tarixçisi Heredot, coğrafiyaşünas Strabon və Plutarx vermişdir. Bizim eradan əvvəl 168-90-cı illərdə məşhur alim Ptolomeyin hazırladığı xəritədə Xəzər dənizinin sahilində Qızılağac şəhəri göstərilib. O qeyd edib ki, Qızılağac şəhəri Viləş çayının Xəzərə töküldüyü yerin qərb sahilindədir. Heredot və Strabon öz əsərlərində Qızılağacın Midiya ərazisində yerləşməsini qeyd ediblər. Makedoniyalı İsgəndərin vaxtında Qızılağac Midiya dövləti tərkibində olmuşdur. Bunu Plütarx özünün "İsgəndər Zülqərneyn" əsərində işıqlandırıb. O, yazır ki, İsgəndər Daranın vaxtında İrana hücum etmiş və Daranı məğlubiyyətə uğradaraq (e.ə. 331-ci il) onu həlak etmişdir. İsgəndər bu qələbədən sonra öz adamları ilə Hirkana (Lənkəran ərazisindədir) gəlmiş, oradan Qızılağaca gəlib Neftçalaya getmişdir. İsgəndər uzun müddət Neftçalanı mühasirə şəraitində saxlamışdır.

Azərbaycanın coğrafi mövqeyi, o zamanlar dünya ticarət yolları mərkəzində yerləşməsi, onun iqtisadi inkişafında müəyyən rol oynamış, qədim şəhərlərin daha da böyüyüb dünya ş.hrəti qazanmasına, iri ticarət mərkəzinə çevrilməsinə səbəb olmuşdur. O cümlədən bu torpağa tarixçilər, coğrafiyaşünaslar, alimlər gələrək, bu ərazimizin qədim şəhər və abidələri haqqında qeydlər aparıblar.

Şəhərin mövcud olduğu yer indiki Həzi təpəsi adlanan ərazi olub. Həmin şəhər o ərazidə böyük sahəni əhatə edirmiş. Şəhər haqqında məlumat əldə etmək üçün respublika arxeologiya idarəsi 1964-70-ci illərdə Həzi təpəsində bir neçə gün axtarış aparıblar. Axtarışa çoxlu vəsait tələb olunduğu üçün işi davam etdirməyiblər. Traktorla qazıntı işləri aparılarkən tunc, dəmir dövrünə aid məişət alətləri tapılıb. Bu tapıntılar Qızılağac şəhəri haqqında tarixi yazanların yazılarını təsdiqləmək üçün əsasdır.



*Həzi təpəsi.*

Ağsaqqal, dünya görmüş əcdadlarımız tərəfindən söylənilən rəvayətləri, Ağaverdi müəllim belə nəql edib. Eşitdiklərimə görə, Qızılağac şəhəri Həzi təpəsi adlanan yerdə mövcud olub. Şəhərin rəhbəri quruculuq, abadlıq işlərinə çox əhəmiyyət verən olub. Növbəti quruculuq abadlıq işlərini tezliklə başlayıb qurtarmaq üçün səfərbərlik elan edir. O, kiçik yaşlı iş qabiliyyəti olanlardan tutmuş qocalara qədər iməciliyə cəlb edir.

O cümlədən əməl və hərəkətləri ilə seçilən hörmətli ağsaqqal Sultan pir (qoca Sultan) də bu səfərbərliyə cəlb edilir. Sultan, qoca ağsaqqal, qoca bir adam. Yay günləri onun səhhəti üçün əlverişli deyildi. Sultan pirə məsləhət görürlər ki, şəhər ərazisində olan daşlı quyudan su çəkib nəvəsi ilə birgə işçilərin xidmətində dursun. (Daşdı quyu indi də qalır). Suyu şirindir.





1970-ci illərdə Ağaverdi müəllim Ağaəli oğlu onun suyundan istifadə etmək məqsədilə baxımsızlığa məruz qalan quyunu zir-zibildən təmizlətdirir. Quyunu təmizləyənlər deyir ki, o quyuya gün batan tərəfdən saxsı borularla su gəlir. Quyudan suyu kənd hamamına dəmir boru ilə gətirmək məqsədi ilə iş görüldü, lakin tamamlanmadı. O quyunun suyundan at və əl arabaları ilə indi də evlərə gətirirlər.



*Daşlı quyu.*

Sultan pir (qoca Sultan) öz nəvəsini götürüb səfərbərlik işlərində iştirak edənlərə xidmət göstərmək üçün Daşlı quyunun yanına gəlir. Dolu vedrəni dərin quyudan çəkib yanındakı səhəngə tökür (səhəng bişmiş palçıqdan hazırlanan su qabıdır, yayda suyu çox sərin saxlayır).

Sultan pir səhəng dolusu suyla bir neçə dəfə ustalara xidmət göstərir. İsti hava şəraitində işləyən ustalar yenə su tələb edirlər. Sultan pir yorulub, ehtiyacı ödəmək qüvvəsinə malik olmadığını bilir. Nə etməli? İşdən yayına bilməyəcək. Çarə ancaq Allaha yalvarmaqdadır. Qoca öz dövrünün seçilmiş insanlarından idi. Allah belə şəxsləri həmişə kəramətlə başqalarına nümunə göstərir:

*Gərək haqqı duysun haqq olsun ürək*
*Əməlçin qiymət verəndi Allah*
*Məndən söyləməkdir səndən eşitmək*
*Əşhədu əl-la ilahə illəllah.*



***Sultan pir ziyarətgahı.***

Sultan pir yenə vedrəni quyudan doldurub səhəngə tökür. Hər tərəfdən su tələb edirlər. Sultan səhəngi götürüb onu səsləyən ustanın yanına gedir. Usta su qabını götürüb qocanın əlində olan səhəngə yaxınlaşdırır. Usta səhəngin ağzın həmin su qabına yaxınlaşdırır. Usta baxıb görür ki, səhəngdən su tökülmür. Bu vaxt deyir: "Ay Sultan, nə üçün boş səhəngi gətirmisən? Axı bizə su lazımdır." Sultan deyir: "Tək Allah şahiddir ki, səhəngdə su var." Usta səhəngi əlinə alıb baxır görür isti yay günündə səhəngdəki su buza dönüb. Sultandan bu kəraməti görən usta təşviş içərisində dostlarına xəbər verir. Sultan pir və yanında olan nəvəsi hadisənin cərəyan etməsini görəndə ordan uzaqlaşırlar. Xəbər şəhərin başçısına çatır. Sultan piri tutub saxlamaq haqda göstəriş verir. Həmin vaxt Sultan pir qiblə səmtinə üz tutub yeyin addımlarla hərəkət edir.





Arxaya nəzər edəndə görür ki, onu təqib edirlər. İndiki qəbristanlıqda olan ocağın yerində onu təqib edənlərin gözünün qabağında qeyb olur. Şah gəlib o yerə çatanda hara getdiyini soruşur. Deyirlər ki, burada, gözümüzün qabağında yox oldu. Həmin yerdə şah iki qəbr tərtib elətdirir. Böyük qəbir Sultan pirin, kiçik qəbir isə nəvəsinindir. O gündən həmin yer ziyarətgaha çevrilir.



***Sultan pir ziyarətgahında qəbir.***

Sonradan qəbirlərin üstündə bina inşa edilib. Ona "Ocaq" adı veriblər. Sultan pir ocağı kimi məşhurlaşıb Ocağı ziyarət edən inamlı, etiqadlı şəxslər ondan bəhrələnib nemətləndirildiklərinə görə onun adı dillər əzbəri olub. Son zamanlarda hətta Dağıstan vilayətindən bu ocağa gələn ziyarətçilər deyiblər ki, bu ocaq Dağıstanda çox məşhurdur. İndi də qonşu rayon və kəndlərdən Ocağa gələn ziyarətçilər çoxluq təşkil edir: Kəramət sahibi olan Sultan pirin və nəvəsinin o yerdə qeybə çıxdığı gündən o ərazi qəbiristanlıq üçün vəqf olunub. İslam şəriətində qəbristanlıq yol üstündə, camaatın çox gediş gəliş yerində təşkil edilməlidir. Şəriət vəfat edənləri o yerdə dəfn etməyi lazım bilir ki, orada kəramətli insanlar, seyidlər, müctəhidlər, din xadimləri, imam və imamzadələr dəfn olunsun. Qəbristanlıq yaşayış yerindən uzaq olsa da belə o şəxslər orda dəfn olunmuşsa, gərək vəfat edəni aparıb o

qəbristanlıqda dəfn edəsən. Ona görə ki, Allah təala o şəxslərə xatir orda dəfn olanlara öz mərhəmətin şamil edər.

Bu qəbristanlıqda Nəcəfül-Əşrəfdə təhsil alan alimlər, din xadimləri, seyidlər, kəramət sahibləri, ziyalılar və mömin insanlar dəfn olunmuşdur. Allah rəhmət eləsin.

"Həzi təpəsi" deyilən yerdə olan şəhər, deyilənlərə görə, zəlzələ nəticəsində batmış, şəhərin qala divarlarından əlamət nümunələri indi də mövcuddur. Düşmən təhlükəsinin qarşısını almaq məqsədilə şəhərin ətrafı qala divarı ilə əhatə olunmuşdur. Qala divarlarındakı bürclərdə gözətçilər durarmışlar...

Artıq "Həzi təpə"sində qazıntı işləri aparmağın vaxtı gəlib çatıb. Xalq şairi Rəsul Rza demişkən:

***Kim zirvəyə qalxar deyin,***
***Yollar boyu hər pilləni,***
***Bir günləri, yüz illəri,***
***Qəlbimizlə,***
***beynimizlə,***
***ömrümüzlə***
***doldurmasaq.***

## QIZILAĞAC (ALNUS)

Qızılağac ağacı Qozağacıkimilər fəsiləsindən birevli, ayrıcinsli ağac və ya kol cinsli. Kənarı dişli yarpaqları növbə ilə düzülür. Əksəriyyəti erkən yazda, hələ yarpaq açmamış çiçəkləyir. Çiçəkləri sırğacıqlarda yerləşir. Meyvəsi birtoxumlu fındıqçadır. Paxlalı bitkilər kimi, qızılağacın da köklərində yumrucuq bakteriyaları olur. Qızılağac 100 il, nadir halda isə 300 ilə qədər yaşayır. Əsasən çayların sahilində, münbit, yaxşı aerasiya olunan, çox rütubətli torpaqda, bəzi növləri isə qumluq və daşlıq yerlərdə bitir.

Şimal yarımkürəsində 42-47, keçmiş SSRİ-də 10-15, o cümlədən Azər.SSR-də 3 növü yayılmışdır. Ürək yarpaqlı Qızılağac





(A.Subcordata), boz Qızılağac (A.Insana) və saqqallı Qızılağac (A.Bardata). Boz Qızılağacın hündürlüyü 15-20 m-ə qədərdir. Qabığında çoxlu aşı maddəsi var. Ürəkyarpaqlı Qızılağacın hündürlüyü 28-30 m-ə (bəzən 35 m-ə) diametri 160 sm-ə çatır. Oduncağı qırmızımtıl olur. Qabığında aşı maddəsi var. Saqqallı Qızılağacın hündürlüyü 20 m-ə (bəzən 25 m-ə) qədərdir. Bu növ, rütubət və işıqsevən, tez böyüyən ağacdır. Qızılağacın havada qızaran açıq rəngli, yüngül oduncağı mebel, tara istehsalında, sualtı və yeraltı qurğularda tikinti materialı kimi işlədilir. Bəzi növlərinin qozalarından alınan tiktura kolit və dezinteriyanın müalicəsində, qabığı boyaqçılıqda, bir çox növü isə yaşıllaşdırmada istifadə edilir.

## QIZILAĞAC

***Əzəldən gözümdə hər şeydən uca,***
***Dünyada hər şeydən əzizsən mənə.***
***İsti qucağında qanadlandıqca,***
***Duyuram ülvüsən, təmizsən mənə.***

***Uyub laylasına mavi Xəzərin***
***Bu həyat eşqiylə dalğalanırsan.***
***Sənin bu gününü görməyənlərin***
***Oduyla hər axşam, səhər yanırsan!***

***Çıxıbsan ağ günə ay doğma-məskən,***
***Sənsən sevincimə, dəmimə ortaq.***
***Hayana üz tutsam səni qəlbimdən***
***Kim deyər mümkündür, vurub çıxarmaq.***

***Sənin ətəyindən tuta-tuta mən***
***Gələcək günlərə ümüdlə baxdım.***
***Həyatın sevinci, qəmi içindən***
***İnamla yüksəliş yoluna çıxdım.***

**Qulu Vəci oğlu.**

## QIZILAĞAC

Azərb. SSR Masallı rayonunda kənd. Qızılağac Sovetliyinin mərkəzi Rayon Mərkəzindən 15 km, Viləş çayının sağ sahilindən 3 km aralı, Kalinovka, Por-İliç şose yolu kənarında Lənkəran ovalığındadır. Əhalisi 5000 nəfər. Tərəvəzçilik heyvandarlıq və taxılçılıqla məşğuldur. 2 orta məktəb, klub, 3 kitabxana, tibb məntəqəsi, rabitə şöbəsi, arxeoloji abidələrdən dəmir dövrünə aid kurqan ("Həzi təpəsidir").

Qızılağac orta əsrlərdə Xəzər dənizi limanları ilə ticarət əlaqəsi saxlayan yaşayış məntəqəsi idi. Əhali gəmiçilik və balıqçılıqla məşğul olurdu.

Qızılağacda əkinçilik və maldarlıq inkişaf etmişdi. Gilan və Mazandarana gedən karvan yolu Qızılağacdan keçirdi. Qızılağac 15 əsrədək Avropa və yaxın şərq arasındakı ticarətdə mühüm yer tuturdu.

**Qeyd**: 15 əsrədək yəni 1500 il.



*Kəndin küçələrindən biri..*





## QIZILAĞAC QORUĞUNDA

***Suda sona qoşa-qoşa,***
***Arzu gəlir bil, baş-başa.***
***Təbiət də bir tamaşa,***
***Qızılağac qoruğunda.***

***Göy sulara düşəndə ay,***
***Quşlar qalxar alay-alay.***
***Hünərin var onları say,***
***Qızılağac qoruğunda.***

***Dəniz yenə ləpələnir,***
***Sahilə nur səpələnir.***
***Qoca könül körpələnir,***
***Qızılağac qoruğunda.***

***Qüvvət gəlir diləyimə,***
***Ümidimə, istəyimə.***
***Söz yol tapır ürəyimə,***
***Qızılağac qoruğunda.***

**Qulu Vəci oğlu**

## QIZILAĞAC QORUĞU

Dünyada tanınan əsrarəngiz təbiət lövhəsidir, guşəsidir, salnaməsidir. Qızılağac qoruğu Lənkəran-Bakı dəmiryolu və şosse yolunun sağında Sarı yarımadasının sonunda yerləşən körfəzlə başlanır. Bu yerlərdə quşların məskən salmasının tarixi qədimdir. Lakin bundan qoruq kimi istifadə edilməsi təbiətsevərləri əsasən XX əsrin əvvəllərindən maraqlandırmışdır.

1913-cü ildə bir qrup rus aliminin təşəbbüsü ilə burada qoruq təşkil etmək nəzərdə tutulmuşdur. Lakin I dünya müharibəsinin başlanması işi ləngitmişdir.

1926-cı ildə su quşlarının qışlamasını mühafizə etmək məqsədi ilə addım atıldı. Azərbaycan SSR Xalq Torpaq Komissarlığının göstərişi ilə burada hər cür quş ovlamaq qadağan edildi. Ovçuluq üçün sifariş yerinə çevrildi. 1929-cü il 3 iyunda SSRİ Xalq Komissarları Sovetinin qərarı ilə Dövlət qoruğu elan edildi. Bundan sonra qoruqda, nəinki ovçuluq, hətta təsərrüfat işlərinin bütün növlərini aparmaq qadağan olundu. Qızılağac qoruğu 38 dərəcə 58 dəqiqə və 39 dərəcə 20 dəqiqə şimal en dairəsi arasında yerləşməklə sahəsi hazırda 88,36 min hektardır. Okean səviyyəsindən 24-28 metr aşağıdır. Qızılağac qoruğu böyük körfəzin bütün hissəsinin, kiçik Qızılağac körfəzinin Şimal və Şimal Qərb ovalığını təşkil edir. Qızılağac qoruğu necə yaranmışdır? Bir az əvvələ qayıdaq. Böyük Qızılağac körfəzi iki əsr bundan əvvələ qədər genişlənmiş dərin sulu körfəz olmuşdur. Bu körfəz Lənkəranla Muğan düzənliyini bir-birindən ayırmışdır.

Çünkü o dövrdə körfəzə suyu çox olan çaylar axırmış. Belə çaylardan Viləş, Aquşə Qumbaşı çaylarının axıtdığı sular körfəzin suyunu şirinləşdirir, balıqların və quşların yaşaması üçün gözəl şərait yaradırmış. Çayların gətirdiyi lil və meşə qırıntıları körfəzin dənizlə qoşulan yerində bir neçə ada əmələ gətirmişdir. Böyük və kiçik Külakin (Alı bulağı), Solonets, Baklan İtdişi, Sarı. Bu adalar yarandıqca eyni zamanda onaların çıxıntıları olan dillər də əmələ gəlməyə başlamışdır.

Gürdili, Xaçdili, Lebyati, Qoban dili, İvanov və Lapatin dilləri bu dövrlərdə meydana çıxmışdır. İllər keçdikcə Xəzərin suyunun azalması, səviyyənin enməsi ilə belə kiçik adalar, dillər birləşərək böyük sahəli Sarı adasının yaranmasına səbəb olmuşdur. Sarı adası da bir hissədən vaxtaşırı quruya yaxınlaşmış, nəhayət 1939-cu ildə quru ilə birləşərək yarımadaya çevrilmişdir.





Yarım ada Qızılağac körfəzini dənizdən ayıraraq qapalı hövzə-Böyük və Kiçik Qızılağac körfəzini əmələ gətirmişdir. Böyük Qızılağac körfəzi Kürdili vasitəsilə dənizdən ayrılaraq: 40,5 min hektar sahəni əhatə etmişdir. Körfəzin ən dərin yeri 2,5 metrdir. Onun qərbində Sarı yarımadası vasitəsilə ayrılan kiçik Qızılağac körfəzi yerləşir ki, sahəsi 15 min hektardır. 1956-cı ildə Sarı yarımadası cənub tərəfdən damba (süni bənd) vasitəsilə Port-İliç torpağı ilə birləşdirilmiş, nəticədə kiçik körfəz Xəzər dənizindən ayrılmış, buraya axan Qumaşı və Viləş çaylarının suyunun təsirindən şirinləşmişdir. İndi kiçik körfəzin uzunluğu 16,7 km eni 6,7 km, dərinliyi 0,5-2,5 metrdir. Kiçik körfəz böyük körfəzlə üç süni kanalla birləşdirilir. Bunlar: Balıq keçici, qəza və ötürücü kanallardır. Balıq keçirici və ötürücü kanalın vəzifəsi kiçik körfəzə balığı ötürmək, qəza kanalı isə suyu müəyyən səviyyədə saxlamaqdır. Ötürücü kanallar qoruğun içərisində yerləşir. Balıq keçiricinin vəzifəsi balıqları kürü tökməyə körfəzə ötürmək, bundan sonra onları və yetkin körpələri körfəzdən dənizə ötürməyə xidmət etməkdir.

Kiçik körfəzin şimalında, qoruğun qərb hissəsində Kalinovka limanı yerləşir. Ondan bir az yuxarıda Lopatin, Ərmənçay (iti gur axan çaya deyilir) və Ağquş axarları vardır. Onların ümumi sahəsi 10090 hektardır. Buraya Sələdçi, Ağquş və Viləş çaylarının qolu axır.

Qoruğun su tutumlarından başqa ətrafında quru hissəsi də vardır. Onun eni 3-4 km, uzunluğu isə 30 km-dir. Relyefi əsasən düzənlikdir. Bəzi az sulu yerləri vardır.

Qızılağac qoruğunun iqlimi aşağıdakı kimidir: orta illik temperatur +13°-14°S-dir. Yay aylarında, xüsusən iyul-avqustda yüksək temperatur +43°S-dir. Soyuq aylarda, yanvarda temperatur - 2,4-3,7°S-dir.

Bəzi illərdə körfəzdə mənfi 4-5°S soyuqlar bir-iki ay çəkir. Belə vaxtda körfəzin suyunun tamamilə və ya bir hissəsinin

donması müşahidə olunur. Hətta bütün sahə buzla örtülür. Bu da quşların qışlamasını pisləşdirir, onları tələf edir. Məsələn 1924-25, 1934-35, 1968-69, 1971-72, 1972 və 1975-76-cı illərdəki sərt soyuqları buna misal göstərmək olar. Belə hallarda quşlar öz yerlərini dəyişirlər. 1970-ci ildən sonra quşların bəziləri Qızılağac qoruğundan köçmüş Qara dəniz, Dunay çayı sahillərində özlərinə məskən salmışlar.

Körfəzin florası da maraq doğurmaya bilməz. Rəngbərəng fiziki-coğrafi quruluşa, iqlimə malik. Qızılağac qoruğunda yarımsəhra, kol, çəmənlik, su-bataqlıq bitkilərinə təsadüf edilir. Buranın florasında 310 növə, 189 cinsə malik 51 bitki ailəsi yaşayır. Qoruğun faunasına gəldikdə məməlilərin 23 növü, 273 növə qədər quş, 12 növ sürünən, 47 növ balıq yaşayır. Qoruqda 270-ə qədər quş növü var. Qızılağac qoruğunda 7 dəstəni əhatə edən 27 növ məməli heyvan yaşayır. Bunlardan ağ diş yereşən (belazubka) və Zaqafqaziya kirpiləri səciyyəvidir.

Daşlıq dərəsi (kunix) ailəsindən olan porsuq, çay samuru və gəlincik əndək də görmək olar.

Sürünənlərdən 12 növ təsadüf edilir. Bunlardan 2 növ tısbağa (bataqlıq və Xəzər tısbağası) 3 növ kərtənkələ, koramal, zolaqlı kərtənkələ biçimli ilanbaş kərtənkələciyə, 7 növ ilana təsadüf edilir. Kor ilan, kələz ilan, gürzə, su ilanları və s. vardır.

Qızılağac qoruğu balıq faunasına görə hələ keçmişdən böyük ad qazanmışdır. Böyük Qızılağac körfəzində 41, kiçikdə 31 növ balıq yaşayır. Tarixi məlumatlara görə 1911-15-ci illərdə hər il onun sahilə yaxın yerlərindən 120 min sentnerə qədər balıq tutulurmuş. 1953-56-cı illərin məlumatında isə hər il orta hesabla 25 min sentner balıq ovlamışdılar. Tədqiqatlar müəyyən etmişdir ki, Qızılağac körfəzində əsasən külmə, çəki, çopa, durna balığı, qırmızı qanad, Xəşəm, şamayi, nakka tikanlı balıq, okun sıf və başqa balıqlar vardır.





Burada Cənub Xəzər balıq idarəsinin balıqyetişdirmə məntəqələri fəaliyyət göstərir. Hər il buraya 250-300 milyon fərd körpə balıq, xüsusən 50 milyon ziyad körpəsi buraxılır.

Ata-babalarının instinktlərinə sadiq qalan quşların bəziləri yenə də, Qızılağaca pənah gətirir. Burada hər il 270 növ müxtəlif növ quşlar yuva düzəldərək nəsl artımı qayğısına qalır. Belə quşlardan sarı vağı, böyük baklanları, Misir vağını, turacı, qırmızı burun dalğıc ördəyi, Qara dəniz ördəyi, ispan sərçəsini göstərmək olar. Burada ölkəmizin və respublikamızın Qırmızı kitabına salınmış 20 növ quşa rast gəlirik. Qu quşu, qırmızı qaz, Mərmər cürə, göydimdik, dövdaq, bəzgək, durna, sultan toyuğu, qızıl qaz, hər növ vağ və qara hacıleylək, qütan, turac, talış qırqovulu, boz kəklik, ərsindimdik qaranoz və başqaları.

SSRİ Nazirlər Sovetinin 27 dekabr 1975-ci il tarixli qərarına əsasən qoruğun ərazisi Xəzərkörfəzi su bataqlıqı beynəlxalq qoruq elan edilmişdir. Qoruğun mövcud olduğu illər ərzində buradakı heyvanat və bitki aləmi həm qorunur, həm də onlar üzərində elmi-tədqiqat işləri aparılır. Son illər kiçik Qızılağac körfəzinin sularında lilləşmə prosesi güclənmişdir. Körfəzin sahəsinin 50 faizini qamışlıq basmışdır. Bunun nəticəsində su mənbəyi xeyli azalmışdır. Azərb. SSR Dövlət Plan və Respublika Dövlət Təbiəti Mühafizə Komitəsi hələ 1993-cü ilin aprel ayında Qızılağac Dövlət qoruğunun təbiəti mühafizə fəaliyyətinin yaxşılaşdırılması tədbirləri barədə qərar layihəsi hazırlamışdılar.

Qərar layihəsində Kiçik Qızılağac körfəzinin Qızılağac dövlət qoruğunun tərkibinə daxil edilməsi və qoruğun bütün quru sərhədləri ətrafında 1 km enində mühafizə zonasının yaradılması nəzərdə tutulmuşdur. Həmçinin qoruq ərazisində bütün təsərrüfat obyektlərinin köçürülməsi göstərilmişdir.

Qızılağac Dövləğ qoruğu elan olunmasının 50 illiyi 1979-cu ildə qeyd edilərkən Bakıda nəşr olunan “Гызылагачский Государственный Заповедник им С.М.Кирова” və 1988-ci ildə Leninqradda E.N.Qolovanov tərəfindən “Мир птиц” kitablarda

qısa məlumat vermişdilər. 1988-ci ilin son aylarında səkkiz dəqiqəlik "Qızılağac" adlı telefilm çəkilmişdir.

Nəhayət deməliyəm ki, qoruğun adının mənşəyinə gəldikdə, söz əsl Azərbaycan mənşəlidir. Onun sahilində çox qədimdən Qızılağac şəhəri yerləşdiyi üçün bu ad ona verilmişdir.

XVII-XXIII əsrlərdə burada bir qala olmuş (qalanın izləri indi də qalır) onun içərisində yarpaqları qızılı rəngə çalan böyük Hirkan qızılağacı vardır. I Şah Abbas burada Səfərətxanasını yerləşdirmişdir. Şahlar və dövlət nümayəndələri Lənkərana gələndə Şah Abbas həmin ağacın altında nümayəndələri qəbul edirmiş (1613-cü ilin 19 dekabrında I Şah Abbasın burada rus-dövlət zədəganı Mixail Tixonovu qəbul etməsi haqqında yazılı sənəd vardır).

Orta əsr Avropa səyyah və diplomatlarından Şarli Autaş, Con Buryus, Adan Oleari, Bell Con və başqaları Qızılağacda olmuşdur. A.P.Volinski 1715-18-ci illərdə Azərbaycanda və İranda olmuş, Şamaxı, Təbriz, Qəzvin, Astara, Lənkəran və s. şəhərlərlə bərabər Qızılağac haqqında da məlumat vermişdir.

XVIII əsrin 30-cu illərində rus hidroqrafları Qızılağac limanını tədqiq etmişlər. Şəbpərə (Netopı), Meşə şəbpərəsi (natizius) və netopırı cırtdan şəbpərəsi vardır. Bunlar əsasən köhnə tikililərə və çardaqlara sığınırlar.

Adi dovşanlara da rast gəlinir. Doqquz növ gəmiriciyə təsadüf edilir. Kiçik ərəbdovşanı, qara siçovul, adi meşə siçanı, çöl su siçanı, boz siçovul nisbətən çoxdur. Qoruğun ən böyük gəmiricisi bataqlıq qunduzu və nutriyadır. Hələ 1931-32-cii llərdə qoruğun kiçik körfəzinə artıb törəmək məqsədilə Nutriya buraxmışdılar. 1935-ci ildə qışın sərt keçməsiylə onların böyük sürüsü məhv olmuşdur. 1959-cu ildə 396 ədəd nutriya buraxılmış, onlar sürətlə artmışdır. 1969-70, 1971-72 və 1975-76-cı illərdə sərt soyuqlarda bunların bir çoxu qırılmışdır. Qalanları yenidən çoxalmışdır.





Pəncə ayaqlardan burada az miqdarda Xəzər su itisi yaşayır. Dırnaqlılardan qoruqda təkcə qabana təsadüf edilir. Sayı təxminən minə qədərdir. Qızılağac qoruğunu tədqiq edənlər göstərir ki, 1924-25-ci illərdə baş verən şiddətli soyuqlarda körfəzin səthi buz təbəqəsi ilə örtülmüş vəhşi heyvanlar buraya ayaq açmışlar. Sarı adasına gedib özlərinə etibarlı yerlər seçib çoxalmışlar. Maraqlıdır, belə yırtıcılardan 1977-ci ildə çəkisi 36,5 kq olan erkək canavar öldürmüşdülər. İndi də buralarda bala canavara və iri fərdlərə təsadüf edilir. Çaqqal, tülkü, qamışlıq pişiyi çox olur.

Çox maraqlı bir məlumatı oxucuya çatdırmaq istəyirəm.

Oxucu bilsin ki, onun doğma kəndi olan Qızılağac çox-çox qədimlərdə də görkəmli din alimlərinin əsərlərində vəsf edilib.

Mən 1991-ci ildə İranın Məşhəd şəhərində şəhid olan 8-ci imam Əli ibn Musa Rzanın ziyarətində oldum. Ziyarətdən sonra kitab mağazalarına gedirdim. Görkəmli din alimlərinin əsərləri ilə maraqlanırdım. Birdən gözüm Şeyx Səduq (r) "İləmuşşəraye" (İslam hökümlərinin fəlsəfəsi) kitabına sataşdı. Tez onu satıcıdan tələb eylədim. Baxıb gördüm ki, şəriətdə məni düşündürən məsələlərə bu kitabda cavablar daha dolğun şərh olunub. Kitabı alıb motelə gəldim. Axşam namazına qədər mütaliə etdim. 38-ci bölmədə mənim kəndim Qızılağacın coğrafi mövqeyi yazılıb. Nə böyük tapıntı, gözəl məlumat oldu bu. Çünki mən həmişə kəndimin keçmişi barədə ağsaqqallardan nə qədər sorğu-sual etmişdimsə, ancaq bu məlumatı almamışdım. Mən kəndimin adını öz əsərlərimdə qeyd edən görkəmli din xadimləri haqda bu yazı ilə oxucuya məlumat versəm inşaallah onların ruhunun şadlığına səbəb olmuş olaram. Əsərin müəllifi Şeyx Səduq (ə) çoxlu dini kitabların müəllifidir.

**Haşiyə:** Şeyx Səduq (p) islam aləminin ən fəzilətli qüdrətli və məşhur alimlərindən hesab olunur. Onun əsl adı Əbu Cəfər Muhəmməd ibn Hüseyn ibn Musa ibn Babaveyh Qumidir. (lakin şeyx Səduq ləqəbi ilə məşhurdur).

O Hicrətin 305-ci, başqa rəvayətlərdə 311-ci ilində Qum şəhərində dünyaya göz açmışdır. Atası Əli ibni Hüseyn dövrünün ən məşhur alimlərindən olmuş, oğlunun islam aləminin görkəmli alimlərindən biri kimi yetişməsinə böyük təsir göstərmişdir.

Bəzi mənbələrdə mərhum Şeyx Səduq (r) un 300 cild kitab yazdığına rast gəlirik. O Hicrətin 381-ci ilində Tehran yaxınlığındakı Rey şəhərində vəfat etmişdir və "Şah Əbdul-Əzim" məqbərəsində dəfn olunmuşdur. Onun müqəddəsliyinə işarə olunan bir hadisə nəql edilir. Hicrətin1238-ci ilində Fətəli şah Qacar dövründə şiddətli yağışın təsirindən sel Şeyx Səduq (r)-ın məqbərəsini yuyub aparır. Məqbərənin təmiri zamanı möcüzənin şahidi olurlar. Görürlər ki, neçə yüz il bundan əvvəl dəfn olunmuş şəxs çürüməmiş, hətta saqqalında, əlində, üzündə, ayağında həna rəngləri solmamışdır. Lakin kəfən dağılmışdır. Allahın əmri ilə bir hörümçək onun bədəninin aşağı hissəsini torla örtmüşdür. Həmin kitabda müəllif 38-ci bölmədə yazır:

**QEYD**: Əllamə Molla Məhəmməd Baqir Məclisi (r) "Biharul Ənvar" kitabında Səlbidən rəvayət nəql edib buyurur. Əshabi Rəs Həzrəti Süleyman (ə) dan əvvəl yaşamış və onların yaşadığı yerdə olan çayın adı Araz (başqa mənbələrdə Ərəss) olub. Bu çayın uzunluğu 800 km-dir. Asiyanın şərqindən başlayıb Qızılağac körfəzində Xəzər dənizi ilə qovuşur. Həmin çay hal-hazırda Azərbaycan respublikasını İran İslam Respublikasından ayırır.

Avestada (120 min inək dərisi üzərinə yazılmış olan atəşpərəstlərin müqəddəs kitabı) bu çay "Dantya" kimi qeyd edilir. "Əshabi Rəs" sözü bu çayın adı ilə çox əlaqəlidir. Məcuslar (yəni atəşpərəstlər) əhli kitabdırlar. Onlara Zərdüşt adında Allahın peyğəmğəri məbus olmuşdur. Zərdüşt Miladdan qabaq 968-ci ildə, yəni 2956 il öncə Cənubi Azərbaycanda, Urmiya şəhəri yaxınlığında anadan olmuşdur. İslam tarixçilərinin





demək olar ki, hamısı (Bəlazuri, Həmzə İsfanı, İbn Əl-Fəqih, Qəzvini, Yaqut Əl-Həməvi və başqaları) Zərdüştün Təbriz yaxınlığındakı Şizdə doğulduğunu deyirlər. Oda sitayiş, oda inamın Urmiya şəhəri ətrafında xarabalıqları indi də qalır. El arasında deyirlər ki, bu məbəd üç min il bundan əvvəl tikilmişdir. Bəziləri Zərdüştü eramızdan 2000-1800-ci illərə, hətta 6000-cı ilə aid etsələr də, digərləri eradan əvvəl VII yüz ildə yaşadığını bildirirlər. Lakin atəşpərəstlər öz peyğəmbərini öldürüb dinlərində çoxlu uydurmalar vücuda gətirdilər. Onların əqidəsində su, torpaq, od, külək və s. ünsurlər çox müqəddəs və sitayişə layiqdir. Allah-taala bəni İsrail peyğəmbərdən olan Hənzələ ibn Səffanı onlara məbus etdi. Lakin onlar peyğəmbərin nəsihətinə qulaq asmadılar, öz adətlərinə əməl etdilər. Bu vaxt Hənzələ ibn Səffai onlara qarğış etdi. Allah təala onun qarğışını yerinə yetirdi. İbadətgahları, xüsusi ibadət etdikləri ağac tar-mar oldu. (Bu haqda din kitablarına və Qurana müraciət et) Bəli, bu faktlar göstərir ki, Qızılağac şəhəri, Qızılağac körfəzi çox qədim tarixə malik olan yaşayış məskəni olub. Demək, hər bir qızılağaclı yaşadığı, anadan olduğu kəndin tarixi qədimliyi ilə fəxr edə bilər.

Tarixi qədim olan yerin tarixi nailiyyətləri də olur. Antik dövr tarixçisi Herodot (e.ə.490-425) Qızılağac haqqında əsərlərində xəbər verib. Coğrafiyaşünas Stqabon (e.ə.64-24) Qızılağac şəhəri barədə belə qeydlər aparıb "Qızılağac şəhərinin əks tərəfində sahildən 1,5 mil aralı 2 ada keoxol, Alı bulax yerləşir. (xəritədə Əli bulaq) Ali bulaxın uzunluğu 3 mildir.

**Haşiyə**: Dənizə bələd olan kənd sakinləri Əli bulağı sözünü Alı bulağı kimi tələffüz edirlər. Məqsəd adanın adında yox, onun qədimdən mövcud olmağındadır. O bulaq indi də qalır. Kənddən 30 km aralıdır. Onun suyu şirindir. Quşlar və çöl heyvanları orada rahatca yaşayırlar. Orada nar, əncir ağacı da var. Çoxlu gürzə ilanı da olur.

IX əsr ərəb tarixçisi Kudəfi Qızılağacın sakinləri haqqında xatirələrində yazırdı: "Sədaqət və səmimiyyətinə görə onlara heç kim çatmaz. Ancaq başlarına nə gəlirsə sadəlövhlüklərindən gəlir". Əslən Moskva zadəganlarından olan Kazanlı səyyah İvan Vçexob Stepan Afanasyevlə 1614-cü ildə oktyabrın 23-də Tiflisdən 50 verst aralı məsafədə yerləşən I Şah Abbasın düşərgəsində olduqlarını, 26 oktyabrda Şah Abbasla söhbət etdiklərini, Qızılağacadək gəldiklərini və burada Tixonovun nümayəndələri ilə birləşib Lyangarana (Lənkərana) getdiklərini yazıb. Səyyah daha sonra qeyd edib ki "I Şah Abbas Qızılağacdan Lyanqarana getdi və oktyabr ayının 27-də, mənimlə birlikdə, rus ordusunun rəsmi təmsilçisi Mixaylovla Lyanqarana gəlməyimizə dair göstəriş verdi".

İsgəndər bəy Mumşi "Tarixi-alamarayi-Abbasi" adlı əsərində göstərilib ki, I Şah Abbas (1587-1629) 1609-cu ildə Şeyx Səfihəddin qəbrini ziyarət edib qayıtdıqdan sonra, Qızılağacda ova çıxıb. Bəli, bu deyilənlər Qızılağacın əlverişli yaşayış və istirahət yeri olduğuna əsasdır. Ona görə ki, ən nüfuzlu, hörmətli şəxslər buranı özlərinə müvəqqəti məskən biliblər. Tarixçi alim S.İbrahimov "Azərbaycanın XX əsr tarixinə dair oçerklər" kitabında göstərilir ki, Muğanda hökmranlıq edən Ağqoyunlu Uzun Həsənlə Sultan Əbu Səid arasında 1469-cu ildə qanlı müharibə başladı. Sultan Əbu Səid öz ordusunu Muğan-Mahmudabad-Qızılağac arasında yerləşdirdi. Qeyri bərabər döyüşdə Əbu Səidin ordusu məhv edildi. Amansız müharibə nəticəsində isə kəndlər dağıdıldı.

Haqqında danışılan hər üç yaşayış məntəqəsi Masallı ərazisinin Qızılağac səmtindədir..

XVII əsrin məşhur kilsə xadimi, rusiyalı zadəgan Atremey Suxanov IV kitabında "Rəştdən Qızılağaca qədər və Gilan vilayətinin sonuna kimi" (1638-ci il) əsərində növbəti səfəri haqqında belə yazırdı: "Biz yolumuzu davam edib 5 mil yol gedə-





rək Qızılağacadək 4 dərin çayın üstündəki körpüdən keçdik. Sahilə çıxan kimi bizi, yerin sahibi ilə birlikdə 100-ə qədər təmiz geyimli atlı qarşıladı. Burada yarım milə yaxın düzənlik və Viləş çayı yan-yana dayanıb. Gilan dağı sola keçmiş sanki qədim Mokan (Muğan) tərəfə kiçik evlərə yönəlmişdir. Uzaqdan baxanda dağın ətəyindən bir çox kəndlər görünürdü". Rusiyada səfarət nümayəndəliyində işləyən şotlandiyalı həkim Bel gündəliyində qeyd edib ki, "1717-ci ilin dekabr ayının 2-də Lanqara (Lənkərana), oradan isə 5 ağac (30 km) aralıda yerləşən Qızılağaca getdik".

A.R.Volinski Qızılağacın ticarət və relyefi barədə geniş qeydlər aparmışdır. O, Qızılağacı belə təsvir etmişdir: Güman etmək olar ki, burada vaxtı ilə qala divarları olmuş və onları su yuyub aparmışdır.

**Haşiyə:** Qızılağac şəhərinin və eləcə də Qızılağac limanının qalıqları indinin özünədək qalmaqdadır. Liman XX əsrin 20-30-cu illərinədək mövcud idi. Bütün bunları bu kitaba daxil etməkdə məqsədim odur ki, indi adi yaşayış yeri kimi təsir bağışlayan Qızılağacı gələcək nəsillərə öz tarixi keçmişi ilə xatırladım.

Çünki bu xatiratlardan təsirlənən cavanlar ondan faydalana bilər, Qızılağac haqqında daha məzmunlu kitablar yazarlar. Ona görə mən arzu edərdim ki, gələcək nəsil bu kitabdan təsirlənsin və yaşadığı müddətdə xalqına fayda versin.

***Hər kəs bircə dəfə gəlir dünyaya.***
***İnsanı yaşadan imandır, atam.***
***Ruh təmiz, əqidə bakir olmalı***
***Ruha qüvvət verən inamdır atam.***

***Soyuğu, istini bilə bilməsən***
***Ağlaya bilməsən, gülə bilməsən***
***Xalq üçün, el üçün ölə bilməsən.***
***Həyat başdan-başa dumandır, atam.***

*Haqqın haqq yolunu getməyənlər də,*
*Təmiz amalına yetməyənlər də,*
*Uca çinar kimi bitməyənlər də,*
*Ömür ömür deyil, gümandır, atam.*

*Barama qurduna tər yarpaq verən*
*Varı yox eləyən, yoxu var edən.*
*İnsana hidayət yolun göstərən*
*Vahiddir, Tahirdir, Sübhandır, atam.*

Bəli, hidayət yoluna insan Allah köməkliyi ilə yetir. Heç kəs 15-20 il bundan qabaq əsaslana və deyə bilməzdi ki, qədim tarixli yaşayış məntəqəsi olan Qızılağacda Musa xan kimi tarixi şəxsiyyət olub. O, Cənub zonasında ilk Talış xanlığının bünövrəsini qoydu.

Ancaq tarix unudulmur və yaddan çıxmır. Kimdir Musa xan? Elə isə bu yazıya diqqət edin. 1386-1405-ci illərdə Muğan ərazisi temurilərin, XV əsrdə Ağqoyunlu və Qaraqoyunluların, XVI əsrdə isə Səfəvi dövlətinin tərkibində idi. XVIII əsrdə Səfəvi dövləti zəiflədikdən sonra, şah İsmayıl Xətainin və onun ordusunun qılıncı qanı bahasına birləşdirdiyi vahid Azərbaycan dövləti səriştəsiz şahların günahı üzündən süquta uğradı. Yerlərdə yeni-yeni hakimlər meydana gəlirdi. Belə hakimlərdən biri də qızılağaclı Musa xan oldu. İran şahlığının zəifləməsindən istifadə edib səltənətini gücləndirmək məqsədi ilə Musa xan böyük qoşun toplayaraq Lənkəran və Astara üzərinə hücum etdi. Qələbə ilə Qızılağaca qayıdaraq xanlığın mərkəzini Astaraya köçürməyi planlaşdırdı. O düşünürdü ki, xanlığın mərkəzini Astarada yerləşdirsə, gələcəkdə yeni, əlverişli yaşayış məntəqələrini özünün nəzarəti altına keçirər və ərazilərini genişləndirər. Musa xan az bir zamanda mahalda qüdrətli, basılmaz bir xan kimi tanındı. Hətta o, İran şahına itaət belə etmək istəmədi.

1722-ci ildən etibarən Azərbaycan əraziləri ruslar tərəfindən işğal edilməyə başlandı. Rus ordusu Xəzər sahili əraziləri işğal





edərək müvəqqəti idarəetmə adı altında öz tabeçiliyinə qatmaq istədi. Yeni müstəmləkələr qazanmaq siyasəti yürüdən Rusiya dövləti bilavasitə ordunun iştirakı ilə, I Pyotrun göstərişi əsasında Azərbaycanın müxtəlif yerlərində hərbi istehkamlar yaratdı. İstehkamlardan biri Ərkivanda, biri isə Qızılağacda inşa edildi. İstehkamları inşa etməkdə I Pyotrun yürütdüyü siyasətin məqsədi ondan ibarət idi ki, bu ərazilərin qonşuluğunda yerləşən İran dövləti heç cəhdlə Azərbaycanın Rusiyanın əsarətinə keçirilməsi prosesinə maneçilik törətməsin. Rusiya çox gözəl başa düşürdü ki, o yalnız hərbi qüvvələrin köməyi ilə Azərbaycanda öz hakimiyyətini möhkəmləndirə bilər.

1732-ci ildə İranda Nadir şah taxt-taca sahib çıxdı. İran dövlətini gücləndirməyi qarşısına məqsəd qoyan Nadir şah ölkənin hüdudlarına göz gəzdirdi. O, qonşuluğunda ağalıq etmək istəyən xaçpərəstlərlə heç cür razılaşmadı. Bundan qorxuya düşən rus qoşunları müvəqqəti də olsa, Azərbaycanın cənub ərazilərindən geri çəkildi. Talış mahalı ilə birgə Muğan da, Nadir şahın tələbi ilə yenidən İran şahlığının ərazisinə qatıldı. Nadir şah 1736-cı ildə Muğana gəldi və Muğan ağsaqqallarının hüzurunda şahlıq tacını başına qoydu. Tariximizə "qara ləkə" kimi düşən "Gülüstan", "Türkmənçay" sülh müqavilələri də iştirakçıların öz aralarında apardıqları sövdələşmələrdir. Rusiya ilə İran arasında razılaşdırılmış (1813-cü il) Gülüstan, (1828-ci il) Türkmənçay müqavilələrinə əsasən Azərbaycan əraziləri yarıya bölünərək Rusiya və İranın tabeliyinə keçirildi. Rus qoşunları yenidən cənub bölgəsində möhkəmlənmək üçün var qüvvə ilə çalışdı. Hətta ruslar, ukraynalılar köçürülərək Azərbaycanın müxtəlif ərazilərində məskunlaşdırıldı. Bu isə rusların Azərbaycanda müvəqqəti deyil, əbədi yerləşərək, hökmranlıq etmək siyasətindən xəbər verirdi. Elə də oldu, ruslar Azərbaycan torpağında məskunlaşıb hökmranlıq etdilər. 1920-ci ilə qədər Masallı və onun kəndləri Lənkəran qəzasına daxil idi.

## VİLƏŞ ÇAYI KƏNDİN İÇƏRİSİNDƏN KEÇİRDİ

Qədim Qızılağac kəndinin içərisində evlərin indi əhatəsində olan bir yer var. O yerin adı "Quru çay"dır. İndi də o cür adlanır. Bəs necə olub, bu yer belə adlanıb? Keçmişə nəzər salaq. Ağsaqqallar kəndin keçmişini həmişə xatırlayırlar. Mən də onların söhbətinə diqqətlə qulaq asıb qeydiyyat aparırdım. O cümlədən "Quru çay" əhvalatı öz tarixi ilə diqqəti çox cəlb edirdi. Adını eşitdiyimizin yaranma səbəbini də gərək öyrənək. Ad varsa, deməк bu ad mövcud olana verilib.

***Bilsək əcdadının qədrini uca***
***Adın ləkələnməz dünya durduqca***
***Nə qədər ki, vardır əlində qüdrət***
***Kərəm sahibi ol, göstər kəramət.***
***(Sədi)***

Mərhəmət göstərib o söhbətləri edənlərə həyatım boyu minnətdaram. Onlar mənə böyük tarix söyləyiblər. Viləş çayı böyük çaylardan biridir. Tarixi mənbələrdə Viləş çayın adı eramızdan əvvəlki minilliklərdə çəkilir. Eramızın 90-168-ci illərində Ptolomey Xəzər dənizinin xəritəsini çəkərək Viləş çayının Qızılağac körfəzinə töküldüyünü göstərir. Viləş subtropik zonanın yeganə iri dağ çayıdır. Mənbəyini Yardımlı və Lerik ərazisindən, Talış Silsilə dağ yamaclarından götürür. Uzunluğu 115 km, hövzəsinin sahəsi 935 $km^2$-dir. Neçə-neçə billur dağ çeşməsinin, bumbuz bulaqların suyu birləşir, Viləşçay yaranır. Bu cür vəsf edilən Viləş kəndimizin içindən keçirdi. Ləmsə (Kalinovka) kəndinin qabaq hissəsindən onun istiqaməti Qızılağaca idi. Həmin vaxtlar da çay indiki "Quru çay" adlanan yerdən keçərək, rəvayətə görə kəndin qiblə səmtində olan "Ülgə" adlanan körpüdən keçərək Xəzərə tökülərmiş. Digər rəvayətə görə çay





kəndə "Quru çay"dan "Şkola" qabağındakı yolun yerindən axıb Həsəncan kişinin evinin arxasından keçərək dənizə tökülərmiş. Hər iki söylənəndən biri düzdür: Məqsəd haradan keçməsindədir. Bəs nə səbəb oldu ki, çay istiqamətini dəyişdi. Yenə müdrik ağsaqqal sözünə ehtiyac var. Görək onlar nə deyir.

Ağaverdi Ağaəli oğlu, Seyid Rəsul, Həsəncan, Mir Musa ağa və s. əhvalatı belə söyləyərdilər.

Viləş çaylar içərisində ən şıltaq çaydır. Suyu gah çox olur, gah da az. Suyun az vaxtında kəndin kiçik yaşlı sakinlərindən biri suya düşərək boğulur. Bunu görən camaat gələcəkdə belə qurbanların çox olacağını fikirləşir. Odur ki, Məsim adlı ağsaqqal (bu şəxsin kənddə nəticələri çoxluq təşkil edir) məsləhət görür ki, çayın kəndə gələn axın istiqamətini dəyişdirsinlər. Məsim kişinin yeddi oğlu var imiş. Bu işi Məsim kişi öz üzərinə götürür və yeddi oğlu ilə Ləmsə (Kalinovka) kəndinin qabağından kəndə gələn çayın istiqamətini dəyişmək üçün çığır açırlar. Çayın kəndə gələn yerinə isə bənd vuraraq möhkəmlədirlər. Yay fəslində suyu az olan çayın axını məcrasını dəyişir, indiki istiqamətdə yol tutur. Əvvəl çayın axını olan yerə su gəlmədiyindən yerin adı "Quru çay" qaldı. Şair ~~Məmməd~~ Aslan (Sarəng) Viləşə həsr etdiyi şerdə deyir: Əziz Kazım

***Ax Viləş qəlbimdə qanlar tək***
***fəqanlar tək, Viləş.***
***... Könlümə lay-layçalan sənsən***
***kamanlar tək Viləş...***

## ŞƏRQ-CƏNUB-ŞİMAL YOLU

*Dünyanın əşrəfi sayılan insan.*
*Hamımız bir yolun müsafiriyik.*
*Ömrün merdianı adlanan yolda*
*Beşikdən məzara doğru gedirik.*

*Bu yolun ağ rəngli qara çaları*
*Bu yolun daşı da tikanı da var*
*Bu yolun bürkülü qarı şaxtalı*
*Bu yolun sökəni tikəni də var.*

*Keçirik getdikcə bir iz salırıq.*
*Tarix unutmayır iz salanları*
*Pislər lənət ilə damğalandıqca*
*Unutmaq olmayır mərd insanları.*

*Eheyy... Adəm oğlu ayıq-sayıq ol,*
*Tərk edir dünyanı namərd də, ər də.*
*Sən elə yaşa ki, elə yaşa ki,*
*Yaşaya biləsən xatirələrdə.*

Bəli, bu yol çox qədim tarixə malikdir: Bu yol Şərqlə Şimalı birləşdirən yeganə quru yolu olub. Həm də məsafə cəhətdən yaxın olub. O dövrlərdə İran ilə Bakı arasında əlaqə yaradıb. Həmin yola "poçt yolu" və bəzən də "ağ yol" deyərdilər.

Əslində bu yol "İpək yolu" hesab edilir. İndi isə yaşlılar içərisində həmin yola "Poçt yolu" və ya "Ağ yol" da deyirlər. Bəzi tarixi mənbələrə görə bu yolu 1823-cü ildə tam rahat yol şəraitinə gətirib yetiriblər. Lakin başqa tarixi mənbələr isə bu tarixin çox qədimliyini göstərir. Həcc, ziyarət, ticarət məqsədi ilə şərqə gedənlər çox qədimdən bu yolla gediblər. Bu yolun Qızı-





lağac şəhərinin tanınması üçün az xidməti olmayıb. Ona görə ki, Ptolomey, Heredot, Strobon kimi dahi şəxsiyyətlər Qızılığac şəhəri haqda öz əsərlərində xəbərlər veriblər. Yaxın zamanlarda isə, Dövlət başçılarının o yerdə istirahət etməsi də həmin şəhərin və yolun istiqamətindən xəbər verir.

Dərbənd-Köytəpə-Qızılağac-Lənkəran-Astara-İran yolunun qədimliyini söylədim. Bu qədimliyə əsas Böyük səyyah Əbdürrəşid ər Bakuvinin (XIV əsrin ikinci yarısı və XV əsrin əvvəllərində yaşayıb) yazdıqlarıdır.

Əbdür-Rəşid Ər Bakuvi Orta əsr Şərqinin tanınmış səyyahı, coğrafiyaşünası və astronomu olmuşdur. Bakuvi çox səyahət etmişdir. Bir çox ölkə və şəhərlərdə olmuşdur. Bakuvinin Qahirəyə getməyini belə zənn edirlər. O vaxt Bakıdan Qahirəyə iki yolla getmək mümkün idi.

1-ci yol Bakı-Səlyan-Qızılağac-Lənkəran Astara-Ərdəbil Təbriz, Mionə, Zəncan, Həmədan, Bağdad, Qüds, Qahirə.

2-ci yol Şamaxı, Gəncə, Tbilisi, Batumi, Qara dəniz, Bosfor boğazı, Qahirə. Tədqiqatçılar 2-ci yolun yaxın olduğunu qeyd etsələr də, o yolun üzərində həmişə qanlı döyüşlər olduğu üçün Bakuvinin birinci yol ilə Qahirəyə getməsini qeyd edirlər. Bu tarix yolun orta əsrlərə və ondan da daha qədim olmasına əsasdır.

Böyük səyyah Hacı Zeynalabdin Şirvani İraqdan İrana gəlir. Sonra Gilandan talış dağlarını aşaraq Lənkərana (o zamanLəngərkunə adlanırdı) Qızılağac-Göy Təpə yolu ilə gedib Şirvana çatır. 1846-cı ildə A.A.Bakıxanov da bu yol ilə İrana gedib. Yolun marşrutu Quba-Bakı-Səlyan-Qızılığac-Lənkəran-Astara-Ərdəbil olub. Mirzə Nəsrulla Bahar (1834-1883) XIX əsrin görkəmli şair və səyyahı olub. İlk səyahəti zamanı Şamaxıdan Məşhədə yola düşmüşdür. Onun üçün ən münasib yolu bu ardıcıllıqla qeyd edirlər.

Şamaxının quşçu və Çaylı kəndlərindən, Böyük və Kiçik hərəmi dağlarından keçib Hacıqabula, Səlyana, Qızılağac-Lənkəran-Astara-Ərdəbilə getmişdir.

1856-cı ildə S.Ə.Şirvani (1835-1888) də bu yol ilə Kərbəla və Nəcəf şəhərinə getmişdir.

M.Ə.Sabir (1862-1911) Məşhəd ziyarətində olarkən şəhərdə vəba xəstəliyi başlayır və orada çox qalmayaraq bu yolla Tehran-Qəzvin-Rəşt-Ərdəbil-Astara-Lənkəran-Qızılağac-Səlyan-Şamaxıya qayıdır.

Abbas Səhhət (1874-1918) 1894-cü ildə Məşhədə 20 yaşında ikən bu yol ilə getmişdir. Hacıqabul-Səlyan-Qızılağac-Lənkəran-Astara-Ərdəbil marşrutu ilə hərəkət edib. Azərbaycanın qərb rayonlarına, İrana, Kərbəlaya, Həccə gedənlər, Ənzəlidən habelə Purman, Allahverdi, Cəbrail, Xarin, Barkin vətəkələrindən balıq və balıq məhsulları aparmağa gələnlər Bakıya taxıl, Yardımlıya, Lerikə, İrana Bakı nefti aparanlar Qızılağacda qalmağı özlərinə lazım bilirmişlər. Bu gediş dəniz vasitəsilə idi.

A.A.Bakıxanov deyib:

*Ey Qüdsi, gözəldir öz məskənin*
*Hər bir yerdən xoşdur sənin vətənin*

Əziz oxucu xoşdur sənin kəndinin tarixindən söyləmək, elə isə "Poçt yolu" adlanan yola qayıdaq.

1927-ci ildə Göytəpə-Qızılağac-Lənkəran istiqamətindəki magistral yolun Qızılağac hissəsində təmir işləri aparıldı. Bu zaman hakimiyyətə qarşı çıxanlar yolun təmir edilməsini istəməyərək maneçilik törətdilər. Lakin həmin şəxslər tutularaq cəzalandırıldılar.

O vaxtlar Rusiya, hətta Bakı ilə gediş-gəliş yolu yalnız dəniz vasitəsi ilə mümkün idi. Gəmiylə Qızılağaca, 1922-cü ildən Port İliç limanına gəldikdən sonra fayton yolu ilə yalnız Qumbaşı, Boradigah, Ərkivan-Qala bazarı xətti ilə Masallı kəndlərinə getmək olardı.

Sovet hakimiyyəti illərində Masallı-Cil (Lənkəran kəndi) istiqamətində 2-ci asfalt yol çəkildi. Daha sonralar isə 1938-ci





ildə Bakıdan cənub rayonlarına nisbətən qısa vaxtda çatmaq üçün hazırki Bakı-Astara magistral yolu çəkildi.

SSRİ hökuməti Cənub zonasının mühafizəsi üçün Qızılağac ərazisində hərbi təyyarələr üçün böyük sahədə tikinti apardı. 1949-cu ildə hərbi qarnizon poçt yolunun üstündə inşa edildi və o gündən yolun fəaliyyəti dayandı.

Qəsbkar XI Qızıl ordu da həmin yol ilə gedib. Onun keçdiyi yola "Şkola" qabağında xatirə abidəsi qurulmuşdu.

1990-cı ildə sökülüb dağıdıldı.

## DƏNİZ YOLU

Qızılağacda olan limana böyük yük gəmiləri, barjlar Rusiyadan taxta-şalban və digər zəruri məhsullar gətirərək Cənub Zonasının adamlarına yetirərdilər.

Dəniz sahilində o dövrdə taxta emal edən sex, balıq vətəgələri və digər xidmət sahələri mövcud idi. Qızılağaclı sahibkarlar gətirilən materialları müştərilərə satardılar. Bu yerdə olan liman bölgələr üçün əlverişli idi. Çünkü limandan yükü vaqon yolu vasitəsi ilə poçt yoluna çıxardıb rahat aparırmışlar. Görkəmli şair M. Hadinin bu fikri yadıma düşdü.

*Əmdiyim südlə içdiyim suyu mən*
*Borcluyam həm sənə, sevimli vətən*
*"Ey Vətən, ey zəmilərin gözəli*
*Mislini görmədim cahan gözəli*
*Ey mənim qibləgahım, vicdanım.*

Bəli hamı bu vətən torpağına borcludur. Bu borc ondan ibarətdir ki, onun tarixin biləsən. Dahi Koppenə görə dünyada olan

on bir iqlimin doqquzu Azərbaycandadır. Onun yeddisi isə cənub zonasında. Əli Abdullah Şeyx Baba Kuhi Bakuvi (933-105) Şamaxıdan Şiraza gedərkən Kürün sol sahil boyunca Səlyana gəlir. Oradan Qızılağaca və Lənkərana, Astara, Rəştə gedir. Ehtimal ki, bu gediş dəniz nəqliyyatı ilə olub. Afanasiy Nikitin dəniz yolu ilə Mazandarana (1466-cı il) getmişdir.

Qızılağac qədim liman şəhəri kimi şimalda və şərqdə tanınırdı.

Həştərxan vilayətindən gediş-gəliş daha çox olub. Liman şəhəri olan Qızılağaca dünyanın müxtəlif yerlərindən iş adamları gələrək fəaliyyət göstəriblər. Onlardan biri əslən ukraynalı olan Purman adlı iş adamı olub. Purman mühəndis olub. İndiki Purman adlanan yerdə böyük vətəgə yaradıb. Tutulan balıq növlərindən alıcı təşkilatlara həm balıq, həm də balıq məhsulları satardı. Bu şəxsin vətəgəsində Qızılağacdan işləyənlər çox olub. Onlardan biri Bədəl kişi olub. O deyirdi ki, Purman hətta ağ balıq da ovlatdırıb kürüsünü və ətini satdırardı.

Əziz oxucu, dünya maraq dünyasıdır. O cümlədən bizim kəndin keçmişidə çox maraqlı faktlarla xatırlanır. O faktın biri Qızılağac ərazisində o dövrdə mövcud olan 3 km-dən çox uzunluğunda vaqon yoludur. Bu üçüncü nəqliyyat yolunu liman sahibləri alıcı təşkilatlara rahatlıq olmaq üçün inşa ediblər. Həmin yol limandan ta poçt yoluna kimi gələrmiş. Limandan gətirilən yükləri kiçik vaqonlara yükləyərmişlər. Vaqonların dartı qüvvəsi at, öküz və bəzən də yelkən olub. Uzun müddət və əsrlər keçməsinə baxmayaraq, vaqon yolundan əsər-əlamət olmasa belə yenə həmin yola el içində "Vaqon yolu" deyilir. O vaxt Qızılağacda adamların bəziləri neft ticarəti ilə məşğul olublar. Belə ki, Bakıdan gətirilən nefti xüsusi tutumlu qablara boşaldıb vaqon yolu vasitəsilə poçt yoluna gətirərmişlər. Vaqon yolu Azərbaycan Dəmir yolu tarixində ilk yoldan biridir. Onu da deyim ki, indiki Bakı-Astara dəmir yolu 1940-cı ildə qısa müddətə çəkilib başa





çatdı. 1941-ci ildə istifadəyə verildi. Bu yolun Böyük Vətən müharibəsi illərində, aclıq illərində cənub zonasına çox xeyri oldu. Həmin dəmir yolu Qızılağac ərazisi olan Qasımlı stansiyasından keçərək kənd ilə Bakı arasında əlaqə yaradır. Həmin dövrlərdə Qızılağacın yerli sakinləri, təxminən 24 mindən çox idi. 1914-cü ilə kimi isə 17 mindən çox olduğunu söyləyirdilər. Qızılağac ticarət üçün azad zona idi. Buna görə də kənardan çoxlu alıcılar gələrdilər. O alıcılara mədəni xidmət göstərməyi də Qızılağaclılar o vaxtlar özlərinə lazım biliblər. Həmin vaxtlarda indiki ATS-dən 40 metr aralı bazara kimi olan cərgədə ikimərtəbəli binalar olub. Keçmiş ağsaqqallardan bəziləri onları gördüklərini də söyləyirlər. Birinci mərtəbədə dükanlar, ikinci mərtəbədə isə mehmanxanalar olub. Həmin dövrdə Xəzərin ərazisi kəndə yaxın idi. Dənizin ləpələri "Sadıq dayı diki" deyilən təpəni döyərmiş.

Bu dik kənddən 200 metr aralı olan bir yerdədir. Ağsaqqallardan, həmin dövrlərdə Həştərxana gedib-gələnlərdən eşitmişəm ki, Həştərxanda Qızılağac adına küçə də olub.

Birinci dünya müharibəsinə qədər Qızılağaca hər yerdən gələnlər olurdu. Müharibədən sonra bu əraziyə gələnlərin marağı azaldı. Sahibkarlar ehtiyat edərək sərmayə qoymadılar. Lənkəran qəzasında daxili ticarət getdikcə genişlənirdi. Lənkəran şəhəri, Xol-Təklə, Qala-Bazarı (Masallı) Qızılağac, Prişib, Boradigah, Astara və Lerik kəndləri qəzanın əsas bazası hesab olunurdu. Qəzada xarici ticarət də genişlənirdi. Bu ticarət başlıca olaraq dəniz vasitəsi ilə olurdu. Əsas ticarət limanları, Lənkəran şəhəri, Astara və Qızılağac kəndi idi. 1906-cı ildə Lənkəran limanı vasitəsilə kənara 1 milyon 306,661 pud, Astara vasitəsilə 1 milyon 234 min 128 pud, Qızılağac vasitəsilə 505,922 pud mal göndərilmişdir. Bu mallar düyü balıq, kürü, taxıl, tərəvəz meşə materialları və bu materiallardan hazırlanmış müxtəlif şeylər

idi" (N.Əlizadə. Lənkəran qəzası zəhmətkeşlərinin Sovet hakimiyyətinin qələbəsi və möhkəmləndirilməsi uğrunda mübarizəsi tarixindən Bakı 1963, səh.9.)

Lənkəran qəzasında sovetlər uğrunda mübarizə Oktyabr İnqilabının təsiri altında xüsusi qüvvət və qüdrətlə genişlənməyə başladı. 1918-ci ilin yanvar ayında Lənkəran Qəzasının Xırmandalı, Boradigah, Qızılağac və digər kəndlərinin sakinləri torpaq komitəsi təşkil etdilər.

Bu komitənin vəzifəsi kəndliləri torpaq ilə təmin etməkdən ibarət idi. Eyni zamanda qəzanın zəhmətkeşlərinə kömək məqsədi ilə Bakı sovetinin silahlı qüvvələri 1918-ci il mart ayının 14-də Bakıdan gəmi ilə Lənkərana göndərildi. Bu hissələr mart ayının 15-də qəzaya gəlib, bolşevik təsirinin güclü olduğu Qızılağac və Nikolayevka (Kalinovka) ilə üzbəüz sahildən 3 km uzaqda dənizdə dayandılar.

**Qeyd:** Nikolayevkada (Kalinovka) olan ruslara qızılağaclıların əvvəlcə münasibəti çox pis olmuşdur. Hətta qızılağaclılar onlarla dava etmək dərəcəsinə çatmışdılar. Lakin dövrün nüfuzlu ağsaqqalı olan Kərbəlayi Əliəkbərin sözü öz təsirini göstərmişdir. Kərbəlayi Əliəkbər qızılağaclılara deyib: "Onu da bilin ki, ruslar Nikolayevdəki ruslarla qurtarmır. Əgər münaqişə yaratsaq Şimaldan gələn rusların qarşısında dayana bilmərik. Gəlin mehribançılığı üstün tutaq". O gündən Nikolayevkada olan ruslarla mehriban münasibət saxladılar. Kərbəlayi Əliəkbərin bu tövsiyəsi peyğəmbər (ə)-in ***"qonşu-qonşuya yaxınlıq etsə mömin olar"*** kəlamını xatırlatdı.

Qızılağac və Nikolayevka (Kalinovka) kəndlərinin sakinləri Bakı sovetinin silahlı qüvvələrini duz-çörəklə qarşıladılar. Qızılağac və Nikolayevka (Kalinovka) kəndlərinin sakinlərindən təşkil olunmuş partizan dəstələri mart ayının 17-də Bakılı döyüşçülərlə birlikdə quldur dəstələrinə qarşı döyüşlərə başladılar.





Martın 20-21-də düşmənə ağır zərbələr endirildi. Mart ayının 30-da I və II Yeddioymaq kəndləri ətrafında gedən gərgin vuruşmalarda əksinqilabi qüvvələr, demək olar ki, tamamilə əzişdirildi və qənimət olaraq onlardan 2 pulemyot, çoxlu tüfəng və parton ələ keçirildi. Sovet silahlı qüvvələri düşməni cənuba - Lənkəran şəhərinə doğru sıxışdırmağa başladılar. 1918-ci il aprelin axırında və mayın 1-ci yarısında qəzanın 16 kəndi düşməndən təmizləndi. Qızılağac kəndinin sakinləri 1918-ci il aprelin 28-də keçirilən ümumi yığıncaqda Bakı sovetinin nümayəndəsinin məruzəsini dinlədikdən sonra belə qərar qəbul etdi. "Biz Qızılağac icmasının kəndliləri Sovet hakimiyyətini həm mərkəzdə və həm də yerlərdə zəhmətkeş xalqın yeganə xilaskarı kimi tanıyırıq və xalq komissarları sovetinə tam etimad göstəririk... Bolşeviklərlə tam həmrəyik və sosialist ideyalarının həyata keçirilməsi işində var qüvvəmizlə onlara kömək edəcəyik. ("Известия Бакинского Совета" qəzeti 22 may 1918-ci il №95).

1920-ci ilin may ayında XI Qızıl Ordunun ayrı-ayrı hissələri Lənkərana, həmçinin Ərkivana köməyə gəldilər. Qızıl Orduya Boradigah, Masallı, Ərkivan, Bədəlan, Türkoba, Nikolayevka, Qızılağac, Xırmandalı, Mahmudavar və digər kəndlərin də əhalisi kömək edirdilər. XI- Qızıl Ordu döyüşçüləri əksinqlabi dəstələrə qarşı bir sıra müvəffəqiyyətli döyüş əməliyyatları aparırdı.

**Haşiyə:** Qızılağac kəndində doğulan Axund oğlu Əhməd Azərbaycanda rusların hakimiyyəti ilə heç zaman barışmazdı. O, son sözündə özünü Sovet hakimiyyətinə qarşı barışmaz düşmən, tutduğu yoldan dönməyən bir müsavatçı kimi göstərmişdi.

## KƏNDİN İNQİLAB DÖVRÜ

1920-ci ilə kimi Qızılağac kəndində olan 17 min yerli sakin yavaş-yavaş kənddən uzaqlaşırdılar. Ona görə ki, limana qarşı rusların münasibəti kəskinləşirdi. 1-ci dünya müharibəsi və 1917-ci il burjua inqilabı da Qızılağacda öz təsirini göstərdi. Xəzər dənizilə Antanta ittifaqına daxil olan general Denikinin qüvvələri Xəzərdə Qızılağacdan 3 km məsafədə cəmləşdi. Dənizdən kəndi top atəşinə tutdular. İlk atılan top indiki 2 saylı məktəbin yaxınlığında Telli adlı bir qadının üstünə düşərək onu məhv etdi. Mərminin təsirindən həmin yerdə böyük çökəklik yarandı. 2-ci top xırda kolluğa düşüb, Möhsi oğlu Həmidin dili orda tutulur (o yer Rəşid kişinin evinin yanıdır).

Denikinin gəmisindən atılan topu susdurmaq üçün Kalinovkadan bir təcrübəli topçu gətirirlər. O vaxt kəndxuda olan Kərbəlayı Ələkbər vəd verir ki, o topu susdursan sənə çoxlu hədiyyə verəcəyik. Trofim adlı şəxsin atası 1-ci dəfə topu istiqamətləndirir, ancaq hədəfi vura bilmir. Kərbəlayı Ələkbər "dayan doldurum" silahını dayayır onun kəlləsinə deyir bu dəfə onu susdura bilməsən, səni öldürəcəyəm. O şəxs elə istiqamət götürür ki, atdığı topdan çıxan mərmi Denikinin gəmisində düz topun lüləsindən keçir və gəmi məhv olur. Denikin və sağ qalanlar qaçır. Gəmi (barj) batır. İndi də batdığı yerdə gəminin qalıqları qalır. Bunu dənizçilər həmişə görüblər.

İnqilabdan əvvəl Qoçu Məmməd adlı şəxsin igidliyi də bütün ətrafa bəlli idi. Hətta o Koba (İ.V.Stalin) ilə birgə qaçaqçılıq etmiş, Koba onun şəxsi qonağı olmuşdu. İndi də onun Stalinlə birgə (1902-ci il) çəkdirdiyi şəkil nəvəsində qalır. Stalinin onun qoçaqlığına ehtiyacı var idi. Lənkəran bankını çapıb talayandan sonra Qoçu Məmməd onu gəmi ilə Səlyana qədər apartdırır. Qoçu Məmmədin inqilabi fəaliyyəti ağsaqqallar tərəfindən söylənilir. Qızılağac kənd sakini, ziyalı Sudeyf Həsən oğlu





Məlikov deyir: "Mənim atam Həsən Zülfüqar oğlu deyərdi: Məhərrəm ayında evimizin qabağındakı zəncir təkkəsində (indiki ATS-in yerində) İmam Hüseyn (ə)-ın əza mərasimində iştirak edərdi. İçəriyə gələn əzadarların ayaqqabılarını Qulam Səfərov cütləyərdi. Birdən gördüm Qulam içəri daxil oldu, mənə dedi: Həsən, səni Qoçu Məmməd çağırır. Mən bayıra çıxdım. Qoçu Məmməd məni qaranlıqda durduğu yerdən səslədi, mən getdim onun yanına, gördüm onun yanında iki nəfər başqa şəxslər də var. Qoçu Məmməd mənə dedi: Həsən, mənim qonaqlarımı Səlyana apara bilərsən? Mən dedim: Qoçu Məmməd, dəniz çox qorxuludur, özü də nəzarət güclüdür gedə bilmərəm. Qoçu Məmməd dedi: Həsən, sənə təcrübəli gəmiçi olduğun üçün müraciət edirəm. Nə çox gəmiçi, özü də sən Səlyana getsən, nə qədər pul istəsən, verəcəyəm.



*Koba (İ.Stalin) və Qoçu Məmməd*

Mən qiyməti yüksək məbləğ dedim ki, o, razı olmasın və bu işdən əl çəksin. Qoçu Məmməd dediyim məbləği eşidən kimi, dedi razıyam, gəl kolluğun yanına (o yer indi kəndin qırağında,

rəhmətlik Məmməd Ələkbər oğlunun evinin yanıdır). Mən razılıq verdim, gedib qonşum Əşrəf Balağa oğlunu yatağından durğuzdum, onunla Qoçu Məmməd deyən yerə getdik. Gördüm orda bizi Qoçu Məmməddən başqa iki nəfərdə gözləyir. Qoçu Məmməd qonaqları mənə möhkəm tapşırdı. Biz gəmini suya saldıq, onlardan biri gəminin baş tərəfində əyləşdi. Dənizə gələrkən bizə verdiyi çantanı bizdən aldı. Gəminin baş tərəfində oturan şəxs çantaları öz yanında saxladı. Həmin şəxsin çiynində beşatılan tüfəng və belində mauzer markalı tapança vardı, o biri şəxs isə mənim yanımda əyləşdi. Mən onlara dedim: gərək siqaret çəkməyəsiz, ona görə ki, dənizdə xüsusi nəzarətçilər var, bizi görə bilərlər. Nəhayət gəlib Səlyana çatdıq. Həmin iki nəfərin biri özündə olan çantadan əlavə pul çıxardıb bizə verdi və dedi, mən Kobayam. Hər ikisi çantaları götürüb sahilə çıxdılar. Deyilənlərə görə həmin çantadakı pullar, Lənkərandakı bankdan götürülən pullar olub. Biz qayıdıb kəndə gəldik. Qoçu Məmməd bizə razılığını bildirdi. Qoçu Məmmədin Məmməd adında (Şirin bala da deyərdilər) bir oğlu var idi, ixtisası müəllim idi". Südeyif Məlikov deyir ki, Məmməd müəllim Hacı Hüsyen evində mənə dərs deyib (Hacı Hüseyn evi Əhəqulunun evidir). İ.Stalin hakimiyyətdə olanda Qoçu Məmməd ilə olan dostluğa xatir onun oğlu Məmmədi öz yanına çağırtdırır. Lakin o vaxt kənd soveti M.Əlizadə onun yaşamadığı haqqında məlumat verir. Ancaq Məmməd müəllim yaşayırdı sonradan ikinci Dünya Müharibəsinə gedib qayıtmayıb. 1997-ci ildə Məmməd Qoçu Məmməd oğlunun İtaliyada yaşamağı haqda kəndə xəbər gəldi... İtaliyada onun sağ qalıb-qalmamağı haqda məlumat əldə edə bilmədik. Hətta onun insani keyfiyyətləri haqda indi də Xıl kəndində söhbət edirlər.

Qoçu Məmmədin başçılığı ilə Xıl kəndi təhlükəyə məruz qalacaqdı. Belə vaxtdə Xıl ağsaqqalları məsləhət görürlər ki, Qızılağacdan Xılda gəlin olan Qöncə adlı qadını Şıxlar kəndinin qabağı ilə Xıl kəndi arasında olan yerə göndərək, Qoçu Məmməd gələndə yaylığın atsın onun ayaqlarının altına. İndi Xıla məxsus olan Qızılağac istili adlanan yerdə Qönçə onları qarşılayır.





**Haşiyə**: İkinçi dünya müharibəsindən əvvəl indiki Gəyəçöl kəndinin arxa tərəfi olan ərazi və Bakı-Astara şosse yolunun sağ tərəfində olan yerlər hamısı Qızılağac kəndinə məxsus idi. O yerlərdə kənd camaatı çəltik əkərmişlər. Şosse yolunun sol tərəfində yoldan 1 km aralı həmin istil indi də o adla adlanır. Ərazisi 42 hektardır. Qoçu Məmməd çoxlu adamla Xıla tərəf gəlirdi. Adamların əllərində yandırıcı məşəl və qılınc! Qadın yaylığını başından açıb Qoçu Məmmədin atının ayaqları altına atır. Qoçu Məmməd bu vaxt qadının hərəkətindən təsirlənir. Qərəzçilik mövqeyindən əl çəkir, üzün tutur atlılara və deyir: qayıdın gedək. Mən Xılı bacımız Qönçəyə bağışladım. Bu qadın əslən qızılağaclı idi. Sadıqov Mürüvvətin bibisi sayılırdı. Xılda gəlin idi. Oğlanları Kitabəli, Niyəzəli Xılda yaşayıblar. Qadın özü çox sədaqətli olub ərinə qarşı. Gözəl xasiyyətli olması haqda Xıl camaatı söhbət edirlər. O söhbətlərin biri budur: Xıl kəndinin arxa tərəfi, yəni indiki Bakı-Astara şosse yolu o vaxt olmayıb. Həmin ərazi sıx meşəlik olub. Qadının əri Zaman kişi səhər namazından sonra tüfəngi götürüb həmin əraziyə ova çıxır. Alatoranlıqda qaraltı görür. Onu ovlayır. Öz ovunu kürəyinə atıb evinə gətirir. Səhər açılır, hər tərəf işıqlaşır. Zaman kişinin arvadı görür ki, kişi öz inəyinin balasını ovlayıb. Onun könlü bu hadisədən pərişan olmasın deyə qadın əlinə bir padnos götürüb çala-çala, oynaya-oynaya ərinin qabağına tərəf gəlir və bu sözləri deyir:

Zamanım ceyran vurub, Zamanım ceyran vurub, kişi kürəyindəki ovu yerə qoyur baxıb görür ki, ovladığım öz inəyimin danasıdır. Qadın öz xoş rəftarı ilə ona deyir: "Ay Zaman, qurban

olsun canına. Elə bilirəm ki, dana yox ceyran vurmusan. İndi də bu söhbətləri Xılda eşitmək olar. Nə isə...

Qoçu Məmməd haqqında çoxlu yadda qalan hadisələr söyləyirdilər. Bu hadisələrdən müxtəsər də olsa danışmaq yaxşı olar. Bir gün başqa kəndlərin birindən bir camış heyvanı qızaraq kəndin bazar meydanına daxil olur. Bazarda olan adamlar camışın xətər yetirəcəyindən qorxub qaçırlar. Bu zaman Qoçu Məmməd bağlaması qoltuğunda hamamdan çıxırmış. Vəziyyəti belə görəndə bağlamanı yerə qoyub camışa tərəf gəlir. Əl ataraq camışın buynuzların tutur. Nə qədər cəhd edirsə görür ki, camış güc gəlir. Bu vaxt o, camışın boynunu əyir. Dizlərini yerə qoyub güc vuraraq camışı yıxır yerə, belindən xəncəri çıxardıb başını kəsir. Deyirlər ki, o həmişə belində xəncər gəzdirərmiş.

Qoçu Məmmədlə eyni dövrdə çox mərd, mübariz insanlar olub. Ancaq igid Qoçu Məmmədi namərd bir tüfəng gülləsi ilə həlak edir. Qoçu Məmməd qonşu Yeddioymaq kəndinə tək-tənha gedərkən xəndəkdə pusquda duran Hüseyn adlı bir şəxs arxadan onu vurmuşdu. Dövrünün adamları onun dəfninə gəlir. Özünə məxsus keyfiyyətləri ilə tanınan Məşədi Əzim onun cənazəsi bərabərinə gələrək deyir: Ay Qoçu Məmməd, mənə 7 güllə vurdun, ölmədim. Halbuki mən səndən gücsüz idim. Sən isə bir güllə ilə öldün. Məşədi Əzim bu sözləri deməklə sübut edir ki, ölüm əcəli gəldi, güllənin az-çoxu şərt deyil.

Şirməmməd də Qoçu Məmməd ilə inqilabi hərəkatda ihtirak edib. Yazıçı Yusif Şirvan "Buludlar dağılanda" kitabını yazanda Qızılağaca gəlib Şirməmməd kişi ilə görüşüb, yazıçının məqsədi onun inqilabi fəaliyyətini öz kitabında əks etdirmək idi. Lakin Şirməmməd kişi sovet hökumətinin qorxusundan inqilabi fəaliyyətdə iştirak etmədiyini deyir. Yazıçı Yusif Şirvan isə ona deyib: Şirməmməd kişi, mən sənin Leninqraddakı inqilabi muzeydə şəklini görmüşəm. O şəkil Həştərxanda sən gəmiyə çiynində silah dolu yeşikləri





yükləyərkən çəkiblər. Şirməmməd kişi qorxudan boyun durmayaraq inqilabi fəaliyyəti haqda məlumat vermir. Yusif Şirvan onun inqilabi fəaliyyətini işıqlandıra bilməsə də öz əsərində qızılağaclıların alicənablılığını, səmimi, mehriban, qayğıkeş insan olmaqlarını qeyd edib.

Həmin dövrlərdə Abdurrəhman Balağa oğlu da inqilabçı olub. S.M.Kirov, N.Nərimanov, İ.Stalin ilə birlikdə fəaliyyət göstərib. Deyilənlərə görə, sözündə düz və mehriban insan olub.

Kərbəlayi Əliəkbər çox nüfuzlu şəxsiyyətlərdən biri olub. O, kənddə kəndxuda işləyərmiş. Bir gün bir nəfəri öldürürlər. Kərbəlayi şübhələndiyi adamı çağıtdırır. Onunla ölən adam haqqında sorğu-sual aparır. Həmin şəxs deyir: Kərbəlayi, mənim bu işdən xəbərim yoxdur. Kərbəlayi Əliəkbər deyir: de sən öləsən mən vurmamışam. O şəxs deyir: Kərbəlayi kişi kişiyə hər iş üçün "Sən öl" deməz. Onu mən vurmuşam. Ölən şəxsin adamları işi belə görəndə bu mərdliyinə görə onun günahından keçirlər. Axund oğlu Əhməd də mübariz insan olub. O Sovet hökumətinin barışmaz düşməni idi. 1920-ci ildəki hadisələr kənd camaatının kənddən çıxmalarına səbəb oldu. 1920-ci ilin may ayındı Qızıl Ordunun hissələri yerli bolşeviklərlə birləşərək Sovet hökumətini bərqərar etmək üçün ayağa qalxdılar. Bolşeviklər Qızılağac və Nikolayevka (indiki Kalinovka) kəndinin inqilabçı gəncləri ilə əvvəlcədən apardıqları danışıqlara əsasən dəniz yolu ilə göstərilən kəndlərə gəldilər. Məqsəd yerlərdə əhalini əks inqilabi qüvvələrə qarşı birbaşa açıq mübarizəyə səsləmək və onları bu prosesə hazırlaşdırmaqdan ibarət idi. Gənclərin inqilabi mübarizəsinə səs verən kənd sakinləri də silaha sarılaraq bakılı bolşeviklərin rəhbərliyi altında birgə mübarizəyə başladılar. Çox çəkmədi ki, Qızılağac və Nikolayevka kənd sakinlərinin mübarizəsinə qonşu kəndlər də qoşuldular. Bolşeviklərin üstünlük qazandığı kəndlərdə torpaq kəndlilərə paylandı və kollektivləşmə dövründə paylanmış

torpaqlar geri alındı. Kənd camaatının kənddə yaşayış səviyyəsi çətinləşdiyi üçün 1920-ci ildə Port-İliç və Sarı adasına köçməyə başladılr.

**Haşiyə:** 1922-ci ilə kimi Port-İliçin adı yerli camaat tərəfindən rus sözündən olan "pereval" adlanırdı.

"Pereval"-ın mənası aşırımlı keçid deməkdir. Bu ad ona Sarı adasına və Qızılağac körfəzinə su keçidi yolu olması ilə əlaqədar verilmişdir. 1940-cı ilə kimi Bakı-Lənkəran dəniz yolu ilə işləyən sərnişin paroxodları Port-İliçdə dəniz sahilində tikilmiş liamnın körpüsünə yan alırdılar. 1941-ci ildə Bakı-Astara dəmir yolu işə düşdükdən sonra Port-İliçdəki dəniz-sərnişin limanında istifadə edilir. XIV Ümumbakı Partiya komitəsinin qərarı ilə 1942-ci ildə V.İ.Leninin şərəfinə Port-İliç adlandırıldı. Bu münasibətlə V.İ.Leninə konfrans teleqram göndərdi. Həmin ildən Qızılağacdan Port-İliçə işləmək üçün gedənlərin sayı artdı.

**Haşiyə:** Sarı yarımadası Lənkəran rayonunda Xəzər dənizinin qərb sahilində, Lənkəran-Bakı dəmir yolu və şosse yolundan, rayon mərkəzindən 17 km Şimalda yerləşir. Kiçik Qızılağac körfəzini Böyük Qızılağac körfəzindən ayırır. Şimal tərəfdən Qızılağac qoruğu ilə Cənub-Şərqdən Xəzər dənizi suları ilə, Qərbdən isə Port İliç torpağı ilə əhatə olunmuşdr. Tarixi çox qədimdir. Rus səyyahı A.Suxanov 1638-ci ildə burada olması haqqında IV kitabının 5-ci fəslinlə məlumat verib. 1917-1920-ci illərdə Azərbaycanda Sovet hakimiyyəti uğrunda mübarizə aparan Lənkəran inqilabçılarının müdafiə yeri olmuşdur.1929-cu ildən başlayaraq Xəzər dənizinin su səviyəsinin enməsi nəticəsində ada nisbətən böyümüşdür. 1956-cı ildə Sarı adası, Port-İliç şəhəri torpağı ilə, torpaq yolla bəndlə birləşdirilmiş, və o ada şəklindən yarımadaya çevrilçişdir. Deyilənlərə görə ona bu ad torpağı, qumu sarı olduğu üçün verilmişdir.





Hacı Zeynalabdin Şirvani (1780-1838) Sarı haqqında qiymətli məlumat verir.

1941-1945-ci ildəki müharibə Qızılağac kəndinə də öz təsirini göstərdi. Cəbhədə şəhid olanlardan əlavə çoxlu sayda yerli sakin aclıq, sıxıntılıq təsirindən dünyalarını dəyişdilər. Allah rəhmət eləsin. Kənddə cəbhədə şəhid olanların adlarını əbədiləşdirmək üçün onların xatirəsinə abidə ucaldılmışdır. Hər il 9 May Faşizm üzərində qələbə günü kənd ictiamiyyəti tərəfindən sağ qalan müharibə veteranlarının görüşü keçirilir. Onlara icra hakimiyyəti və bələdiyyə idarəsi tərəfindən hədiyyələr verilir. Şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad edilir.



*Abidə. 1941-1945-ci il.*

## BÖLGƏDƏ İLK MƏKTƏB

Qızılağac kəndi liman, ticarət və ziyarət yolunun üstündə bərqərar olduğu üçün hələ bir neçə yüz il bundan əvvəl İrana, Kərbəlaya ticarətə gedən, Ənzəlidən, habelə Pirman, Allahverdi, Cəbrayıl, Xarin, Barkin vətəgələrindən balıq aparmağa gələnlər, Bakıya taxıl, Yardımlıya, Lerikə, Muğana Bakı nefti aparanlar Qızılağac kəndindən keçərkən orada qalmalı olarmışlar.

Bunu nəzərə alaraq o dövrün xeyirxah qocalarından olan Xalıq Kərimov öz pulu ilə burada qonaqların gecələməsi üçün ikimərtəbəli "hücrə" tikdirmişdi ki, qonaqlar orada rahat gecələsinlər. Bir müddət keçdikdən sonra körfəzlə əlaqə zəifləyir. "Hücrə"-yə pənah gətirənlərin sayı azalır. 1885-ci ildə bu binanı məktəbə çevirmişlər. Burada bir və ikinci sinifə kimi dərs keçilərmiş. Dərslər əsasən rus dilində aparılırmış. Proqrama şəriət dərsi də daxil edilmişdir. Məktəbin ilk müəllimi Lətif Abdullayev olmuşdur. Ondan sonra isə ilk qızılağaclı müəllim Mirzə Əhməd Şükürzadə burada dərs deməyə başlamışdır.

1894-cü ildə bu məktəbdə Mirzə Ağarəhim müəllim rus dilindən, onun qardaşı Molla Əbil isə şəriətdən dərs deyərmiş. 1920-ci ildə Qızılağacda 3-sinifli məktəb təşkil edildi. Burada cəmi 25 şagird təhsil alırdı. Məktəbin birinci sinfində 1894-cü ildə təşkil olunmuş 2 - sinifli məktəbin məzunu Mirzə İsa Tağıyev və Lənkərandan gəlmiş müəllim Nəhməd Əmənov dərs deyərdilər. XVIII əsrin 2-ci yarısından etibarən rusların Azərbaycan ərazisinə köçürülməsi başlandı. Azərbaycan kəndlərinin əhatəsində özlərinə məskən salan ruslar (eləcə rus dilli xalqlar) yaşadıqları kəndlərdə özlərinin məktəblərini yaradırlar. Rus balalarının müasir elmləri öyrəndiklərini görən azərbaycanlılar onlardan geri qalmaq istəmirdilər. Rus kəndləri ilə birgə Azərbaycan kəndlərində rus dilini, eləcə də müasir elmləri öyrədən xalq məktəbləri açıldı.

Qabaqcıl ziyalıların səsinə səs verən elm fədailəri yerlərdə məktəblərin açılmasına səy edir, qarşıya çıxan çətinlikləri dəf etməyə çalışırlar.

Xalqın gələcəyinin parlaq olması üçün gərək xalq kütləsi elimli olsun.

Şəmsi Təbrizi deyib:

***"İnsan insanın güzgüsü olsaydı, onda bütün çirkinliklər aradan qalxardı".*** İnsan bu cür həyatda ibrət götürməlidir.







***1 saylı məktəbin ümumi görünüşü.***

1895-ci ilin oktyabr ayında Qızılağacda Hüseynhacılı, Yeddioymaq və Qızılağac camaatının iştirakı ilə yığıncaq keçirilir.

Yığıncağın məqsədi məktəbin sinif otaqlarının sayını çoxaltmaq və ibtidai siniflər təşkil etmək idi. Camaat məktəbin fəaliyyət göstərməsi üçün dövlətə 350 manat pul köçürəcəklərinə razı oldular. Yığıncaqda iştirak edən 450 nəfərin imzaladığı iclas qərarına dövlət tərəfindən Ərkivan starşinası qol çəkdi. Nəhayət 1896-cı ildə Qızılağacda yeni tipli ibtidai məktəbin açılmasına icazə verildi. Məktəbin ilk müəllimi isə Qori Seminariyasının məzunu, əslən qarabağlı olan dövrünün tanınmış pedaqoqu Mahmuhbəy Mahmudbəyov (1863-1923) oldu. Həmin məktəbdə şəriət dərsi də tədris edilirdi.

1896-cı il fevralın 17-də Qızılağac kəndində təntənəli surətdə M.Mahmudbəyovun iştirakı ilə məktəbin açılışı oldu. M.Mahmudbəyovun ciddi səyi nəticəsində az zamanda şagirdlərin sayı artdı. Tədrisin keyfiyyəti yüksəldi. Məktəbin nüfuzu əhali arasında artdı. Ümumiyyətlə ibtidai xalq məktəblə-

rində dərs deyən şəriət müəllimləri - mollalar dünyəvi fənlərin tədrisinə hər vasitə ilə mane olmağa çalışır, son çıxış yolunu isə şagirdlərin məktəbdən yayınmasını təşkil etməkdə görürdülər. Molla Abdulla bu qəbildən idi. Odur ki, kənd camaatının çox hissəsi Molla Abdullanın məktəbdə dərs deməsinin əleyhinə idi. M.Mahmudbəyov Bakı quberniyası və Dağıstan vilayət Xalq məktəbləri direktoruna yazdığı raportda Molla Abdullanın şəriət müəllimliyindən azad edilməsini və məktəbə başqa, daha münasib, ləyaqətli şəriət müəllimi təyin edilməsini xahiş edirdi. O, həm də Lənkəran qəzasının Bütəsər, Küryədi, Andreyevka kəndlərində məktəb açmağı təklif edirdi.

1921-ci ildə bu məktəbdə bir sinif də artırıldı. 1925-ci ildə Qızılağacda olan 4 - sinifli məktəb beşillk, 1930-cu ildə yeddiillik məktəbə çevrildi.

1938-ci ildə Qızılağacda orta məktəb açıldı və 1941-ci ildə bu məktəbin ilk buraxılışı oldu. Belə bir vaxtda uşaqların oxumasını və cəmiyyətin maariflənməsini istəyən Hüseynhacılı, Qızılağac, Yeddioymaq kəndlərinin camaatı bir yerə yığışaraq məktəbin ilk buraxılışını qeyd etdi. İkinci dünya müharibəsinin başlanması orta məktəbə də təsir etdi. Məktəb yeddi illik kimi fəaliyyət göstərdi. İlk orta məktəb məzunlarından Qüdrət Məmmədov, Şeybə Nağıyev və Yunus Əliyev Tibb İnstitutuna, Əlizaman Həsənov Universitetin biologiya şöbəsinə, Zəkəriyyə Ələkbərov isə Xalq Təsərrüfatı İnstitutuna daxil olublar. Müharibənin başlanması ilə əlaqədar olaraq kənddə orta məktəbin fəaliyyəti dayandırıldı. 1951-ci ildən sonra Qızılağacda orta məktəb yenidən fəaliyyət göstərdi. Həmin dövrlərdə "Şkola" adlanan məktəbdə sinif otaqları az idi. Odur ki, 1951-1954-cü illərdə 4 otaqdan ibarət əlavə yeni məktəb binası tikildi.

1960-cı illərdə sinif otaqları azlıq təşkil etdiyi üçün Əşrəfin evini məktəbə çevirdilər.





1971-ci ildə isə 1 saylı orta məktəbin bazasında yeni müasir tipli iki mərtəbəli 700 şagird yerli məktəb inşa edildi.

Məktəbin geniş sinif otaqları və idman zalı şagirdlərin ixtiyarına verildi. İndi 1 saylı orta məktəbdə 694 şagird dərs alır.

Onların tədris və tərbiyə işləri ilə 31 ali təhsilli və 17 ali orta təhsilli müəllim kollektivi məşğul olur. Məktəbdə 1956-cı ildən 2001-ci il yanvar ayının 11-nə kimi Salman Abdullayev direktor olub. Məktəbə vaxtı ilə məktəbin məzunu olan şəhid Subhan Xəlilovun adı verilib.



*Sübhan Xəlilov adına 1 saylı orta məktəbin binası qarşıdan.*

## DƏMİRLİ MƏKTƏB

Qızılağacda olan iki məktəbdə təkcə qızılağaclılar yox, qonşu kəndlərdən gələnlər də təhsil alırdılar. O məktəbin biri Dəmirli məktəb adı ilə tanınan məktəb idi. Bura qonşu kəndlərdən - Qarğalıq, Qədirli, Eminli, Yeddioymaq, Qasımlı, Təzəkənd kəndlərindən də təhsil almağa gələrdilər. Məktəblərdə onlar üçün yataqxana şəraiti də yaradılmışdı.



***Dəmirli məktəbin binası.***

1927-ci ilin sürgün qurbanları cərgəsində Hacı Məmmədin vərəsələri də oldu. Belə ki, onlara məxsus olan yaşayış binası müsadirə edildi. Kənd camaatı həmin evi məktəb kimi istifadə etməyi qərara aldılar. Bu bina çox hündür və yaraşıqlı olmaqla yanaşı, otaqları çox idi. Otaqların hündürlüyü 3 metrdən yuxarı idi. Bina bir metr hündürlükdən sonra inşa edilmişdi. Binanın ikinci mərtəbəsinə taxta fiqurlu nərdivan vasitəsi ilə çıxırdılar. 2-ci mərtəbə aynabənd şüşəli idi və aynabəndlər şəbəkə tipli qurulmuşdu. Aynabəndin şüşələri kiçik ölçülü qırmızı, yaşıl, göy, qara, ağ və s. rəngli şüşələr idi. Həmin şüşələrdən ətrafa





baxmaq adama xüsusi zövq verirdi. Bina hündür olduğundan 2-ci mərtəbədən baxanda elə bilirdin ki, uzaqda olan hərbi hissə və dəniz ayağının altındadır. Binanın üst örtüyü əvvəllər dəmirdən olduğu üçün dəmirli məktəb deyirdilər.

Bina Г şəkilli idi. Binanın gün çıxan tərəfindən olan iki sinifli otağı söküb "Şkola"ya aparıb əlavə sinif otağı tikiblər. 1951-ci ildə İbtidai - 4 sinif həcmində dərs tədris edilirdi. 5-ci sinfi oxumaq üçün"Şkola" adlanan orta məktəbə gedərdilər.



Allah rəhmət eləsin Hacı Məmmədə və onun balalarına. Onların qoyub getdiyi bina neçə-neçə uşaqların maariflənməsi üçün böyük kömək olmuşdur. Yeri var deyəsən.

*Mən aşiq bizim qala,*
*Gəzməyə bizim qala,*
*Gəlmədim özüm qalam,*
*Gəldim ki, izim qala.*

Hacı Məmməd kişi iz qoyub getdi. O izlə addımlayanlar elm yolunu tutdu. Hacı Məmməd, Hacı Sadiq, Hacı Tağı xeyriyyəçi insanlar olublar. Bunlar əsasən Həştərxan ilə ticarət əlaqəsi qurdular. Həştərxandan taxta-şalban gətizdirib qonşu rayonlara satırmışlar. Hətta onlar imkansızlara ev tikmək üçün pulsuz taxta şalban da verərmişlər.

Keçmiş qocalar deyərdilər ki, Bakının Maştağa kəndinin adamları Hacı Sadığı yaxşı tanıyırmışlar. Onlarla ticarət əlaqəsi olduğuna görə Hacı ilə möhkəm dost olublar. Deyərdilər ki, Maştağada olan hamama hansı Qızılağaclı girib çimsə idi, hamamçı onlardan pul almazmış və deyərmiş, bu hamam Qızılağaclı Hacı Sadığındı, ona görə pul almıram. O kişi bu böyüklükdə hamam qoyub gedib. Mən onun həmyerlilərindən pul ala bilmərəm.

3-cü məktəb kimi fəaliyyət göstərən bina bizim hazırki evin günbatanında olan Məşhədi Məhəmməd həyətindəki iki mərtəbəli ev olub. Həmin evin üç otağı aşağıda, üç otağı yuxarıda olub. Aşağı üç otaq sinif otaqları, yuxarı üç otaq isə həkim məntəqəsi olub.

Deyirlər ki, həmin məktəbdə dərs deyən Məmməd Şükürzadə və Əhməd adlı müəllimlər olmuşdur.





## 2 SAYLI ORTA MƏKTƏB

Məktəb 1989-cu ildə istifadəyə verilib. Həmin ildən də orta məktəbə çevrilib. Məktəbdə 34 nəfər müəllim kollektivi şagirdlərin təlim-tərbiyəsi ilə məşğul olur. Onlardan 27 nəfəri ali, 7 nəfəri isə orta təhsillidir. Məktəbdə 400 nəfərə qədər şagird təhsil alır.



*2 saylı orta məktəb.*

2 saylı məktəb istifadəyə veriləndən sonra "Dəmirli" məktəbin binası Hacı Məmmədin vərəsəsinə qaytarıldı. Bina söküldü. Ancaq unudulmasın deyə yerində bir mərtəbəli 3 sinifli bina tikildi. İndi də orda kənd balaları dərs keçirlər.

## MƏDRƏSƏLƏR

Qızılağac kəndində 1941-ci ilə kimi şəxsi mədrəsələr fəaliyyət göstərirdi. Elmə maraq göstərən hər bir dindar o mədrəsələrdə şəriət elmin öyrənirdilər. Mədrəsələrdə dərslər haqq rizasına keçirilirdi.

Molla Lətif, Molla Baba, Molla Hüseyn, Molla Abdulla və s. kimi şəxslər öz həyətlərində binalar tikdirib şəriət dərsi deyirmişlər.

1800-1920-ci illər ərzində Masallıda və kəndlərdə orta molla təhsili verən 25-dək mədrəsə fəaliyyət göstərirdi. Onun üçü Qızılağacda olub. Kənd məscidinin həyətində indiki mədrəsənin yerində mədrəsə binası mövcud imiş. Tikilmə tarixi haqda məlumat əldə edə bilmədim. Lakin söylənilənlərə əsaslanaraq keçmiş mədrəsənin bir sıra əlamətlərini 1994-cü ildə inşa edilmiş indiki Hacı Həsənağa mədrəsəsində qoruyub saxlamışıq.



*Hacı Həsənağa mədrəsəsi.*

## KİÇİK HAMAM

Əvvəlki mövzularda Qızılağacın ticarət mərkəzi olduğunu qeyd etdim. Onu da bildirmək istəyirəm ki, bu kənddə iki hamam da olub. İkisi də eyni vaxtda fəaliyyət göstərirmiş.

Kiçik hamam bizim babamız "Kərbəlayı Nəsrullah hamamı" idi. Onun yeri indiki Mədəniyyət evinin giriş qapısının gün batanında idi. Hazırda onun yerində aptek, dəllək dükanı tikilib. Əsasən qış fəslində tez qızarmış, hamamın çimilən yeri yerin altında - 2 metr dərinlikdə imiş. Bir az odunla qızarmış. Böyük hamamdan fərqli cəhəti onun kiçik olması idi.





Bu hamamda kiçik axund Molla Abdulla təmizlikdən çıxıb qurulanan yerdə vəfat edib. Allah rəhmət eləsin. Hamam 1937-ci ildə sahibləri sürgün edildiyinə görə bağlanıldı. Baxımsızlıq ucbatından uçulub-dağıldı. 1949-cu ildə onun avadanlıqları sökülüb hərbi hissəyə aparılıb və orada hamam tikilib (Məhərrəm müəllimin dediyinə əsasən). Hamamın quyusu son illərə qədər qalırdı.

## BÖYÜK HAMAM

Böyük hamam məşhur xeyriyyəçi Hacı Məmmədə məxsusdur. Tikilmə tarixi məlum deyil. Ancaq Hacının yaşadığı dövrlə götürülsə, 180-ildən yuxarıdı. Hamam gözəl memarlıq əsəridir. Özünə məxsus Şərq memarlıq üslubunda tikilib. İçərisində çoxlu sayda kiçik hücrələr, çimmək üçün fərdi və ümumi salonları var. Qüsul etmək, digər məxsusi işləri görmək üçün hücrələr ümumi salonda da mövcuddur.

Deyilənlərə görə həmin hücrələrin hamısından istifadə olunurdu. Hamam çox gözəl qızma ardıcıllığına malikdir. Kürəxana yerdən 3 metr, hamamın çimilən yeri isə 2 metr dərinlikdə idi. Kürəxananın içərisinə odun yığılır və sonra yandırılırdı. Yanan odunun tüstüsü çimilən yerin altındakı boşluğu dövr edib bayıra çıxardı. Hətta ayaq qoyulan yer o qədər isti olardı ki, ayaq qoymaq olmazdı. Odun yanıb qurtarandan sonra kürəxanının ağzı kərpiclə hörülərdi ki, istilik bayıra çıxmasın. Bu hesaba kürəxanada olan istilik suyu və hamamı bir neçə gün isti saxlayardı.

Hamam həm də qədim şərq üslubunda şəriət tələbləri səviyyəsində tikilib. Peyğəmbər (ə) buyurub. Hamamdan çıxandan sonra ayaqlara soyuq su tökmək bir neçə xəstəliyin müalicəsidir. Odur ki, çimilən yerdən çıxandan sonra qurulanan yerdəki çarhovuzun suyundan ayaqlara tökürlər.

Hər iki hamama qonşu kəndlərdən də gələrmişlər. Əhali çoxaldıqca böyük hamam növbəli şəkildə istifadə olunardı. Hamamın işləməyini xüsusi şeypur çalınması ilə bildirərdilər. Qonşu Yeddioymaq, Qasımlı, Kalinovka, Qədirli, Eminli, Qarğalıq və digər kəndlərdən bura yuyunmağa gələrdilər. Hamamın suyunu öz quyusu təmin edirdi. Quyudan suyu mancalaq ilə çəkib nova tökərdilər. Ordan su hovuza axardı. Su çəkən Cəfər adlı bir şəxs idi. Hamamçı isə Sadıq idi (Billə deyirdilər).



*XIX əsrin abidəsi Qədim hamam binası (Böyük hamam).*

1960-cı ildən sonra hamama müdür Yaqub Həmidovu təyin ediblər. O, yeni konstruksiyada qızdırıcılar qurdurdu və hamam mazutla işlədi. Rəhmətlik Yaqub Həmidov hamamı 40 ildən çox işlədib. İndi də onun oğlu Yaşar Həmidov işlədir.





## KƏNDDƏ DƏYİRMAN

Kənddə Quru çayın kənarında "Viniston" markalı mühərriki ilə işləyən od dəyirmanı var idi.

Bu dəyirmanın ilk müdiri Xəlil müəllim adlı gözəl xasiyyətli bir şəxs olub. Xəlil müəllim əslən iranlı olub. Ancaq Qızılağacı doğma torpağı bilirdi, o, Bakı şəhərində yaşayan da qızılağaclılara qardaşlıq köməyini əsirgəməzdi.

Dəyirmanda çəkilən dənə haqq alardılar, o da dənin miqdarından asılı idi. İmkansızlar orda un çəkdirənlərdən kömək istəyirdilər. Bütün un çəkdirənlər orda olan imkansızlara pay verərdi. Dəyirmandan evlərə gecə vaxtı işıq verilərdi. Bu da bütün evlərin tələbatın ödəmirdi. Dən çəkdirmək üçün çox əziyyət çəkmirdilər. At arabası, əl arabası ilə dəni dəyirmana gətirərdilər. Bu dəyirmanda çəkilən undan bişirilən çörəyin iyi təndirdən xeyli kənara yayılardı. Sovxoz quruluşu dövründə də bu dəyirmandan istifadə olunurdu. Lakin dövlətin istehsal etdiyi undan mağazalara mütəmadi gətirilməsi dəyirmanda un çəkdirənlərin sayının azalmasına səbəb oldu və dəyirman fəaliyyətdən dayandı. Sonradan söküldü. Onun yeri Fərhad müəllimin evinin indiki yeridir. Son dəyirmançı İman kişi olub.

## QƏBRİSTANLIQ

Kənd qəbristanlığının çox qədim tarixi var. Əvvəlki söhbətimizdə Sultan pirin o yerdə qeyb olunmasını demişdik. O vaxtdan etibarən həmin ərazi qəbristanlıq üçün vəqf edilib. Qədimliyi üçün əsas Sultan pir ziyarətgahı və orada olan Kufi xətlə yazılan Sandıq tipli baş daşlarıdır. Ocağın sol tərəfində bir daş var. Ona əno (dalaq) daşı deyərlər. İnamı olanlar əvvəllər gəlib o daşın üstünə üzü aşağı uzanardılar. Bir neçə dəqiqədən sonra durub gedəndə, özlərini sağlam hiss edərdilər. Qəbristanlıq əra-

zisində qəbir qazanda hər yerdə köhnə qəbir əlamətləri görünür. Əvvəllər qəbristanlıq sıx qarağac meşəsi olub.




*Qəbristanlığın giriş hissəsi.*

Hətta gündüz ora qorxudan girmək olmazmış. Yırtıcı heyvanlar olarmış. Ağaverdi müəllim belə bir əhvalat söyləyirdi: Biz "Dəmirli" məktəbdə 4 sinifdən sonra 5-ci sinifə "Şkola"ya gəldik.



*Qədim daş əno (dalaq) daşı.*





Coğrafiya dərsində müəllim uşaqlarla tanış oldu. Məndən kimin oğlusan? - deyə sual eylədi. Dedim: usta Nəsrullahın. Dedi: bala, sənin baban molla Əbil kəndin ilk axundlarından olub. Öz dövründə Molla Əbil məscidin təmiri üçün qəbristanlıqdan ağac kəsib gətirib işlətməyə göstəriş verir. Usta balta, mişar götürüb qəbristanlığa gəlib çatanda qorxudan dayanır. Ona görə ki, müqəddəs yerdən ağac kəsməyin yaxşı əlamət olmadığını başa düşür, ancaq Molla Əbilin sözündən də çıxmağı rəva bilmirdi. Ağacı kəsməsəydi Molla Əbil onu incidərdi. Odur ki, usta Məmməd çıxış yolunu belə görür:

***Ey pir, Səndən kəsirəm bir tir***
***Mənimlə işin olmasın***
***Molla Əbilnən özün bil.***

Bundan sonra o, qəbristanlığa girir, ağacı kəsib aparır.



*Qəbristanlığın ümumi görünüşü.*

Məhərrəm ayında qəbristanlıqda aşura mərasimləri keçirilir. Aşura günü kənar yerlərdən də bura çoxlu insanlar gəlir. Həmin günlərdə aşura mərasimi çox canlı təsir bağışlayır. Mərasim

Sultan pir ziyarətgahının ətrafında tamamlanır. Qəbristanlığın ərazisi 3 hektardan çoxdur. Burada görkəmli din xadimləri, alimlər, seyidlər, o cümlədən kəramət sahibləri olan Sultan pir, Mir Həsən ağa, Mir Cəfər ağa kimi imanlı şəxslər də dəfn olmuşlar.

## TİBB MƏNTƏQƏSİ

Kənddə həkim məntəqəsi (əvvəllər doxturxana) deyilən bir neçə yer olub. Bəzən bu məqsədlə yaşayış evlərindən də istifadə ediblər. Ona görə ki, bu məqsədə xidmət edən başqa bina yox idi. Odur ki, tibb məntəqəsi yeri tez-tez dəyişilirdi. Bizim həyətdəki Məşhədi Məhəmməd evinin üç otağı tibb məntəqəsi olub. Kərbəlayı Ağakişinin oğlu Adgözəl orada həkim işləyib. Qızılağacın tibb mütəxəssisəlri 1940-cı ildən sonra rayonda böyük məsul vəzifəyə qədər yüksəliblər. Onlardan biri Əbdülsəməd Abbasov olub. O, 1941-ci ildə Masallı Rayon Səhiyyə Şöbəsinin müdiri işləyib. O, çox böyük fədakarlıqla yatalaq xəstəliyi ilə mübarizəyə başlayıb. Səhiyyənin çətin vaxtlarında Əbdülsəməd bacarıqlı təşkilatçı kimi Masallı tibb ordusuna başçılıq edib, 1944-cü ildə vəfat edib. Onun dəfni dövlət səviyyəsində keçirilib. Cənazə qəbristanlığa orkestr ilə yola salınmışdır. Onun iki oğlu Namik və Nazim də atalarının yolunu davam etdirərək hər ikisi tibb üzrə görkəmli alim kimi tanınır və Bakıda yaşayırlar. Bacarıqlı tibb işçilərindən Yunus Əliyevi, Hacı Üzeyir Məmmədovu, Şahin Musa oğlunu, Fərman Abdullayevi Ümbülbəni Nəsrullayevanı, Təyyar Ağabalayevi, Namik Abbasovu, Musa Abdullayevi və s. göstərmək olar. Kənd camaatından orta tibb təhsili alanlar da insanların sağlamlığına xidmət göstərirdilər. Onlardan biri Mirzə Müseyib olub. Mirzə Müseyibə həkim Müseyib deyərdilər. Tibbi kurs keçən bu şəxs göz xəstəlikləri üzrə bacarıqlı





mütəxəssis olub. Elə bacarığı da onu məşhurlaşdırmışdı. Bölgənin müxtəlif yerlərindən ona müalicəyə görə müraciət edərdilər. Hətta Lerikdən olan zəmanənin ən görkəmli din xadimi Molla Qələm axund da onun xəstəsi olub və sağalaraq şəfa tapıb. Həmin günlərdə Abışova Mədinə Məlikməmməd qızı vəfat etmişdi. Axund Molla Qələm də məclisdə iştirak edirdi. Bu zaman o, Mirzə Müseyib barədə xoş sözlər danışdı və razılığını bildirdi. Mirzə Müseyib çox mehriban şəxs idi. Özünü dövrün insanlarından fərqləndirməzdi. Kiçik yaşlı uşaqlar onu harda görsə idi qaçıb əl tutub görüşərdilər. Görüşəndən sonra uşaqlar o qədər sevinərdilər ki, elə bil dünyanı onlara bağışlayıblar . Həkim Müseyiblə uzun müddət tibb işçisi işləyənlərdən biri də Nərgiz xala idi. Nərgiz xala da çox səriştəli tibb işçisi idi. Hər kəsə dərman lazım olsa idi, Nərgiz xala kinəkinə verərdi. Yəhya Hüseynov, Nadir Muxtar oğlu, Hacəli Əliyev, Əliyusif Ağayev də o çətin illərdə xalqa çox xidmət göstərib və yardım ediblər. Qızılağaclı Məşədi Yusif Respublikada ilk tibb alimlərindən biri olub.



*Ginekoloq Əzizə Mirzəyeva.*

1969-72-ci illərdə Məmmədov Üzeyir Ağaverdi oğlu Masallı rayon səhiyyə şöbəsinə rəhbərlik edib.

1960-cı ildən sonra əslən Lənkəranlı olan ginekoloq Əzizə Mirzəyevanın da Qızılağacda xidmətləri çox olub. O, işgüzarlığı və bacarığı ilə çox fərqlənib. Kamil mütəxəssis kimi məşhurlaşmışdı. Hətta öz hesabına doğum evi təşkil etdi. 1960-cı ildən sonra dünyaya gələnlərə demək olar ki, Mirzəyeva Əzizə yardımçı olub.

El arasında gənc olmasına baxmayaraq, hamı ona Əzizə "mama" deyə müraciət edərdilər. El anası olan Əzizə ata-anasına da yüksək xidmət göstərərdi. Həmişə salamlı, hal-əhval tutan bu mehriban insan 2001-ci ildə vəfat edib. Qəbri Qızılağac qəbristanlığındadır. O, həmişə analara lazımi tövsiyələr edərdi. Onun tövsiyələri şair Əvəz Lələdağın "Körpələrə döşünüzdən süd verin" şerilə həmahəng səslənir:

## KÖRPƏLƏRƏ DÖŞÜNÜZDƏN SÜD VERİN

*Ana südü cəsarətdir, qeyrətdir,*
*Körpələrə döşünüzdən süd verin,*
*O süd bizə qəhrəmanlıq öyrətdi,*
*Körpələrə döşünüzdən süd verin.*

*Anam gəlin, qundağını əmizdir,*
*Sənin südün təmizlərdən təmizdir,*
*Müqəddəsdir, safdır, pakdır, əzizdir,*
*Körpələrə döşünüzdən süd verin.*

*Ay gəlinlər, əl götürün "malışdan",*
*"Malış" bizi ayrı salır gülüşdən,*
*Siz yapışın təmiz işdən, gül işdən,*
*Körpələrə döşünüzdən süd verin.*





*Övladları sağlam ana böyüdür,*
*O, zəhmətdən gəlməz cana böyüdür,*
*İnək südü buzov, dana böyüdür,*
*Körpələrə döşünüzdən süd verin.*

*Əndamını qoru, saxla sözüm yox,*
*"Malış", "smes" yeyənlərdə dözüm yox,*
*Döş əmməyən körpələrdə gözüm yox*
*Körpələrə döşünüzdən süd verin.*

*Belə hala bülbül ağlar, gül inlər,*
*Nənəm bilsə ürəyində tel inlər,*
*Siz Əvəzdən inciməyin gəlinlər,*
*Körpələrə döşünüzdən süd verin.*

## KƏNDİN SU PROBLEMLƏRİ

Qızılağaca şirin su 1958-ci ilə kimi Kalinovka kəndinə 1909-cu ildə çəkilmiş quyulardan verilərdi. Belə ki, şirin su kənd ərazisindəki təmbəki quyusuna, müseyiblər quyusuna və "şkola" qabağındakı quyuya gələrdi. Bu su kənd camaatının tələbatını ödəməzdi. Öküz arabası, at arabası ilə quyulardan su gətirib satardılar. Camaat nehrə, gürü, səhəng, vedrə ilə su daşıyardılar.

1957-ci ildə kənd camaatı Kalinovkadakı (Qızılağaca gələndə) yolun sağ tərəfində olan quyudan kəndə su çəkməyi qərara aldılar. İşin həcmi çox və ağır idi. Çoxlu işçi qüvvəsinə ehtiyac var idi. O vaxt qazma texnikası yox idi. Kənarlarda, Sarıda, Portda yaşayan qızılağaclılar da bir yerə yığışıb bu suyun kəndə gəlməsinə münasibətlərini bildirdilər. Onlar uzunluğu 3 km olan məsafədən suyu gətirmək üçün kömək etməyə söz verdilər. Turba çəkiləcək yerlər təsərrüfat hesabı ilə bölündü. Qazıntı aparmaq üçün hazırlıq görüldü. Bəzi yerlərdə 4-6 metr dərinliyində xəndəklər qazılırdı. Daşlı-çınqıllı yerləri lomla, kü-

lünglə qoparırdılar. Hər gün Port-İliçdən, Sarıdan 45-50 nəfər maşınla köməyə gəlirdi. 4 il müddətinə həmin iş hamamın yanındakı quyuda tamamlandı. Qara çuqun su turbaları 200 mm diametrində olmaqla, uzunluğu 5 metr idi. O turbaları da əl ilə qazılan yerə qoyaraq birləşən yerlərini kipləşdirirdilər.

Hərbi şəhərcik ərazində 3 quyu, kənd ərazində isə 7 quyu inşa edildi. Su quyulara gələndən sonra, camaat quyulardan suyu çəkib istifadə edirdilər. Kalinovkadakı quyulara su Ərkivandan "Mehdi" bulağından gəlirdi. 1970-ci ildə bulaqdan istifadə edənlərin sayı çox olduğu üçün, su Kalinovkaya gələn turbadan kəsildi. Sovxozun direktoru İbrahim Səlimov dövlət vəsaiti hesabına Ərkivandan su xətti çəkdirmək üçün böyük ərazi aldı, orada 9 ədəd quyu qazıldı. Suları bir-birinə birləşdirildi.

Su nasoslar vasitəsilə hündürlükdə qoyulan çənlərə vurulurdu su, yeni çəkilən xətt ilə Lürən, Gəyəçöl Şıxlar, Yeddioymaq, Kalinovka kəndlərindən keçərək Qızılağaca gələn yolun sol tərəfi ilə "Kolxoz həyəti" deyilən yerə qədər gətirildi. Həmin yerdə böyük su çəni (başnya) qoydular. Suyu ora vurmaqla kəndə çəkilən yeni turbalarla paylayırdılar. Ordan da su hər şəxsin evinə çəkdiyi boru ilə həyətinə gəlirdi. Bir neçə il bu xəttdən istifadə olundu. Sonra su keçən kəndlərin adamları o xətti korladılar. Suyun Qızılağaca gəlməsi kəsildi. Abdullayev Əhməd Mirsaleh oğlu kəndin içərisində "Əzim" diki deyilən yerdə 100 metr dərinliyində artezian quyu qazdırdı. Ordan da su şor çıxdı. Su problem olaraq yenə də qalır. "Viləş" tikinti idarəsi kənd yollarına və məhəllələrə şirin su xətləri çəkdi. Bura su Viləş çay dəryaçasında tikiləcək təmizləyici qurğuda təmizləndikdən sonra gələcəkdi. O da SSRİ dağılandan sonra yarımçıq qaldı. Onu da deyim ki, Əhməd Abdullayev respublika torpaq idarəsinə kənd ərazisində başqa quyular qazmaq üçün müraciət etmiş, bu zaman ona bildiriblər: Qızılığacdan 14 km aralı ərazidə şirin su süxurları var. Qızılıağac ərazisində şirin su çuxurları yoxdur. Ona görə də bundan sonra yeni artezian quyuların qazılmasına ehtiyac olmadı.





## QIZILAĞAC

*Ey ağalar, bir fikir var könlümdə,*
*Yadıma düşübdür adı kəndimin,*
*Adı Qızılağacdır, torpağı boldur,*
*Qəlbimdən getməyir dadı kəndimin.*

*Xəzərin sahili, Viləşin sonu,*
*Bahar vaxtı geyib yam-yaşıl donu,*
*Xəlqi türk soyludur, təmizdir qanı,*
*Boldur əti, quşu, yağı kəndimin.*

*Bir neçə qəbilə yaşayır orda,*
*Kəndini qoymazlar heç zaman darda,*
*Qonağa hörmət var hər zaman orda,*
*Toylu-mağarlıdır günü kəndimin.*

*Orda yaşamışdır Qızılağac xanı,*
*Bu fikri öyrənib-yazanı hanı?*
*Allah bəxş eləsin belə oğlanı,*
*Yazsın tarixini bir gün kəndimin.*

*Köküm Abışlıdır, soyum Nəsirli,*
*Məhəlləm batırlı, əlim gəlirli,*
*Çıxsa ov etməyə Qızılağac əhli,*
*Çoxdur ov etməyə yeri kəndimin.*

*Alçalı, Cınqırlı, Muradxanlısı,*
*Bəllidir bizə də Qəramanlısı,*
*Bəylər məhəlləsi adlı-sanlısı,*
*Vardır təmiz eli, yurdu kəndimin.*

*Sovet quruluşu dağıtdı kəndimi,*
*Yarandı bir yerdə Port-İliç kəndi,*
*Biz köçdük Sarıya, onda ada idi,*
*Hər yanı dağıldı xəlqi kəndimin.*

*Qızılağac qoruğu dünyada məşhur,*
*Toxuna bilməyib ona heç bir qurd,*
*Analar doğurlar pələng tək oğul,*
*Qeyrətin qoruyub daim kəndimin.*

*Veribdir Vətənə çoxlu zabitlər,*
*General, polkovnik, həm də şəhidlər,*
*Alimi, yazarı çoxdu, ay ellər,*
*Fəxri yaraşığı adı kəndimin.*

*Xəzərə körpüdür, sahili boldur,*
*Çəkilən oradan mərkəzi yoldur,*
*Vətən torpağıdır, məhsulu boldur,*
*İndi uzaqdadır yolu kəndimin.*

*Nəsil deyir: biz dağıldıq hər yana,*
*Lənət olsun bizi yurdsuz qoyana,*
*Qurban olum bu tarixi yazana,*
*Qoy yaşasın daim adı kəndimin.*

***Bu sətirləri doğma kəndinə yüksək məhəbbəti olan, qəlbi həmişə Vətən həsrəti ilə döyünən, gözəl insan, ömrünü xalq yolunda xeyirxahlığa, İslami birlikləri öyrənməyə sərf etməklə yanaşı, qəlbindən keçənləri qələmə almağı da özünə lazım bilən şair Hacı Məhəmmədnəsir Qulamhüseyn oğlu Sarıda (Nərimanabad) yaşayır. Onun poeziyası insanları vətənpərvərliyə, xeyirxahlığa səsləyir. Allahdan arzu edərdim ki, Qızılağacda doğulub kənarda yaşayan qızılağaclılar bu istək mövqeyində olsunlar.***





## KEÇMİŞƏ BİR NƏZƏR

Din xadimlərinin çoxluq təşkil etdiyi bir vaxtda Şura hökuməti onlara qarşı amansız mövqedə durmuşdu. Neçə-neçə din xadimləri qətlə yetirildi. Dini kitablar yasaq olundu. O qiymətli kitabları evlərdə saxlamağa heç kəsin cürəti olmadığı üçün onları köhnə qəbirlərdə basdırdılar. Qəbristanlıqda olan ocağın banına tökdülər. Bütün bunlara baxmayaraq, imanlı insanlar dinin mövqeyini qoruyub saxlamaq məqsədilə dini ayinlərə olan münasibəti qəlblərindən silməmişlər.

Daş təkkəsi, Zəncir təkkəsinin fəaliyyəti dayandırıldı, binalar söküldü. Məscidin həyətində Aşura günü keçirilən şəbeh ləğv edildi. Bunun müqabilində kənd ağsaqqalları şəxsi evlərə üz tutdular. Mir Baba ağa öz evini onların ixtiyarına verdi, Məşhədi Fərəculla, Molla Fətulla evlərində təkyələr qurdular. İmam Hüseynə (ə) matəm saxladılar. Yenə qorxu labüd idi. Pəncərələrə qara pərdə çəkərdilər ki, işıq bayırda hiss edilməsin. 1937-ci ildən sonra çox qorxu keçirənlər 1941-ci ilin müharibəsində çətinlik ilə üzləşdilər. Çox adamlar müharibəyə aparılmışdı. Kənddə iqtisadi çətinlik hökm sürürdü. Evlərdə aclıq təsirindən vəfat edənləri gündüzlər beş-on nəfər ağsaqqallar aparıb dəfn edərmişlər. Kəfən tapılmazdı. Yorğan və döşək mitillərindən istifadə olunurdu.

*Zaman bəzən nəğmə, bəzən də nalə*
*Bəzən cəhənnəmdir, bəzən də cənnət*
*Sevinclə, nəşəylə qoşa yaşamış*
*Göz yaşı, ayrılıq, möhnət, əziyyət.*

Bu əziyyətli günlər 1950-ci ilə kimi hökm sürdü. Ancaq həyat öz axarında davam edirdi. İnsanlar aclıq, sıxıntılıq hisslərindən tam xilas ola bilməmişdilər. Kənddə olan keçmiş axundları

mollalar əvəz etmişdilər. Onlar da qorxu təsirindən fəal hərəkət göstərə bilmirdilər.

Gündüz dəfn olunan üçün qorxudan axşam gedib onun qəbrinə meyit namazı qılarmışlar.

*Yaxşı dura-dura yaman göyərdi*
*Bəlkə də, zaman günahkardır buna*
*Yaman sığallanır yaxşı tənədə*
*Zaman yox insanlar günahkardır buna*

O gözəl elimli insanların, din xadimlərinin və alimlərin fəaliyyətinə məhdudiyyət qoyan günahkar insanlar idilər. Ona görə ki, tərəqqi həddinə yüksələn Qızılağacın din xadimlərinə edilən cəfa bu dini çətinliyə gətirib yetirdi.

*İndiki ilan tək, sürünür əngəl,*
*Ellər ziyalansın, nur çırağından,*
*Pislər ki, pislikdən, götürməyir əl,*
*Sən də əl götürmə yaxşılığından.*

1950-ci ildən Nəcəf şəhərində ali ruhani təhsil alan Mir Möhsum ağa (Mir Möhsi müəllim) qorxudan dini yox, dünyəvi elmləri tədris edirdi.

Hətta ondan din barəsində soruşsaydılar, qorxudan cavab verməzdi.

Bu gözəl insan malik olduğu dini bilikləri başqalarına çatdıra bilmədi. Bütün bunlar dinin bəlası idi. Nəhayət, əski əlifba ilə (fars qrafikası) ilə yazılan kitabların oxunması müşkülləşdi. Çünki oxuyanlar azlıq təşkil edirdi və tədris olunmurdu. Həmin dövrlərdə Mirzə Müseyib, Mir Yəhya, Mir Ələkbər, Kərbəlayi Ağakişi, Molla Fətulla, Molla Mahmud, Molla Adıgözəl, Babaş





oğlu Musa və başqaları dini biliklərə malik olmaqlarına baxmayaraq, qorxudan hökumət işlərində, yaxud öz təsərrüfatlarında işləyirdilər. 1956-cı ilədək Molla Mahmudun məclis mollası kimi fəaliyyəti çox olub.

Əvvəllər hüzr məclisləri ev şəraitində keçirilərdi. Bir evdə Molla və ağsaqqallar, o biri evdə cavanlar əyləşərdilər. Bir evdə dini söhbətlər eşidilirdi, o biri evdə isə dünyəvi söhbətlər edilirdi. Bu da islamın təbliği üçün şərait yaratmırdı. O vaxtlar hüzr yerinə xörəkləri hüzürə gələnlər özləri gətirərdi və yaxud sonradan göndərərdilər. Gələn xörəklər bir evə yığılardı. Məclisi idarə edən Ramazan və Ələsgər qardaşları həmin gətirilən xörək dolu qabları səhv etmədən öz sahibinə verərdilər. Bu onlarda olan səriştədən irəli olurdu. Ona görə ki, onlar həqq rizasına mütəmadi olaraq kasıb və ya dövlətliyə fərq qoymadan bu xidməti həyata keçirərdilər.

Həmin günlərdə hüzr sahibləri ancaq özləri üçün ehsan bişirərdilər. Bildiyimiz kimi bu ardıcıllığı tətbiq etməyi peyğəmbər (ə) öz əmisi Həmzə Səyidi Şühədanın şəhadətindən sonra təklif etdi. O gündən də müsəlman aləmində bu mövqe qorunub saxlanılırdı. Sonralar bunlar ləğv edildi. Güc hüzr sahiblərinə düşdü. Həmin dövrlərdə hüzürə gələnlər islami biliklərə maraq göstərsəydilər belə molla olan otaqda yer olmadığı üçün ora daxil ola bilmirdilər. Nəhayət ev şəraiti əlverişli olmadığı üçün 1987-cı ildə Rəsulov Ədalət Adil oğlunun hüzr məclisində başqa kənddən çadır gətirmək üçün adam göndərildi. Həmin kəndin çadırı özlərinə lazım olduğu üçün vermədilər. Çox çətinliklə Port-İliç qəsəbəsindən çadır gətirib qurdular. Atalar yaxşı deyib: "Arifə bir işarə bəs edər". Həmin gün İltimas Rəsulov və Sağır Ağabala camaata müraciət etdilər ki, hər təsərrüfat 10 manat və ya çox vermək şərtilə pul yığılsın və çadır alınsın.

*Hünərmi ey Qüdsi, xəlqə əziyyət,*
*Mərdsənsə et xalqının dərdinə dərman.*

Az vaxt içərisində yığılan pula hər biri 16 metr uzunluğunda iki ədəd çadır alındı. Eyni vaxtda iki məclisdə istifadə etmək mümkün idi. Beləliklə, islama təbliğat gücləndi. Ona görə ki, çadırda olan hər hansı bir adam mollanın islami danışıqlarına qulaq asmağı lazım bilirdi. "Təkrar biliyin anasıdır" deyiblər. Təkrar danışılan söhbətlərə diqqətlə qulaq asanlar isə geniş məlumat əldə edirlər. Artıq indiki dövrdə də İslami auditoriya yeri olan çadırda aparılan dini söhbətlərdən bəhrələnənlər dinə daha möhkəm bağlanırlar.

*Adəm oğlu insandırsa - amalının*
*arxasınca getməlidir.*
*Çətindirsə, asandırsa nə dəxli var,*
*istəyinə yetməlidir.*

Bəli, dininə məhəbbət bəslənən ailədə ərsəyə çatanlar öz amallarına yetirlər. İnsan həyatda Allahı tanımalı, mənsub olduğu dinə xidmət etməlidir.

1998-ci ildən kənd məscidi respublika Ədliyyə Nazirliyinin qeydiyyatından keçib, rəsmi status alıb. O gündən etibarən kənd dini icma üzvləri seçilib. Onların sayı birinci qeydiyyat müddətində altı nəfər idi. Məscid ikinci qeydiyyatdan keçəndə dini icmanın üzvləri on iki nəfər oldu. İcma üzvlərinin vəzifəsi dini ayinləri və adətləri qoruyub saxlamaqdan ibarətdir. Onlar dini bayram mərasimlərdə və hər hansı xeyriyyə işlərində fəal iştirak edirlər.





## DİNİ İCMANIN ÜZVLƏRİ

| | |
|---|---|
| *Kərbəlayi Nüsrət Nəsrullah oğlu* | *Ağayev Əliyusif Əliəsgər oğlu* |
| *M.Rəhimov Eynal M.Rəhim oğlu* | *İsayev İsa Mürsəl oğlu* |
| *Əliyev Hadı M.Hüseyn oğlu* | *Xəlilov Yadulla Abdulla oğlu* |
| *Əzizov İlkin M.Meysəm oğlu* | *Mustafayev Telman Hüseyn oğlu* |
| *Məmmədov Qulu Vəci oğlu* | *Səfərov Əhməd Haqverdi oğlu* |
| *Əliyev Cavid Hacıəli oğlu* | *Məhərrəmov Naib Sahib oğlu* |

1938-ci ildə fəaliyyəti dayandırılan Qızılağac kənd məscidi 1998-ci ildən rəsmi şəkildə işə başladı. Qafqaz Müsəlmanları İdarəsinin Cənub zonası üzrə qazisi Hacı Mirqiyas Mirxac oğlunun əmri ilə 60 illik fasilədən sonra ilk dəfə bu sətirlərin müəllifi Kərbəlayi Nüsrət Nəsrullah oğlu Qızılağac kənd məscidinə axund təyin edildi. Bu həm də kənd camaatının və dindarların ona olan böyük etimadı idi. Bununla da kənardan kəndə axund gətirilməsinə son qoyuldu. Kərbəlayi Nüsrətin tələbə və yetirmələri çoxdur. Onlardan biri də Qafqaz İslam Universitetinin məzunu, altı il Suriya Ərəb Respublikasında təhsil almış Abdullayev Mir Feyzi Mir Qadir oğludur. Mir Feyzi babalarının yolunu davam etdirərək islami biliklərə dərindən yiyələnib.

Onu da deyim ki, biz beşinci sinifdə oxuyarkən, coğrafiya müəllimi Ağaverdi Ağaəli oğlu mənə dedi: "Bala, sənin baban Molla Əbil kəndin ilk axundu olub. Arzu edirəm ki, sən də o ada layiq olasan". Bəli, Allah kömək oldu, mən də bu yazıları yazdım. Az da olsa xidmətim varsa, özümü yenə də borclu hesab edirəm.

# MƏSCİD TİKİNTİSİ

*Allahın məscidlərini yalnız Allah və qiyamət gününə iman gətirən, namaz qılan, zəkat verən və Allahdan başqa heç kəsdən qorxmayanlar təmir edə bilərlər. (Yalnız o qəbildən olan şəxslərin əməlləri Allah dərgahında qəbul olunar.)*

*Məhz onlar doğru yolu tapa bilənlərdən ola bilərlər.*

**(Qurani Kərim "Tövbə" surəsi ayə 18)**



*Kənd məscidinin ümumi görünüşü.*

1989-cu ildə rayon mərkəzlərində və bəzi böyük kəndlərdə camaatın köməkliyi ilə məscid tikilməsi, təmiri haqda məlumatlar eşidirdim. Eşitdiklərimi axşamçağları məscidin həyətinə cəmlənən ağsaqallara söyləyərdim. Onlara məscidin mühafizəsi, təmiri, təmizlənməsi, tikilməsi, bərpası və s. işlərin savabı haqqında dini kitablarda, quranda yazılanları da deyirdim. Məqsədim qəlblərdə bu sahəyə məhəbbəti artırmaq idi. Söz





arası rəhmətlik Mir Musa, Sağır Ağabala, Səhəl Baba, Həsənağa, Məşhədi Zəkəriyyə və s. müraciət edərək dedim: Gəlün biz də məscidi bərpa edək. Ona görə ki, kəndimiz böyük kənddir. Əhalisi də çox. Mən elə bilirəm bu işdə bizə kömək göstərərlər. Onlar dedilər: ay bala, bundan ötəri çoxlu vəsait lazımdır. Ona görə ki, bu, böyük həcmli işdir. Mən onlara öz təkliflərimi danışdım. Onlar dedilər: kaş bu təklif icra olunaydı, biz də ən böyük savabı olan işdə iştirak edəydik. Ona görə ki, bizdən əvvəlkilər məscidin qapılarının açılması həsrəti ilə dünyadan köçdülər. Heç olmasa biz onun qapılarını açıq görəydük. 1990-cı il yanvar ayının 18-də mən avtobazada Masallıda iş yerində idim. İş yoldaşlarımdan biri mənə dedi: Nüsrət, xəbərin var? Dedim: nədən? Dedi: sərhədlər açılıb, camaat İrana keçir. Mən maraqlanıb gördüm düzdür. Tez iş yoldaşlarımızın maşınına minib Cəlilabadın Dələli kəndinə getdik. Çox uzaq yol idi. Saat 12-də ora çatdıq. Gördüm İrandan Azərbaycana, Azərbaycandan İrana insan axını sel kimi hərəkət edir. Mən maşından düşən kimi, yoldaşlarıma dedim: Evdəkilərə xəbər verərsiniz ki, Nüsrət İrana keçdi. İranda qohumlarım yox idi. Ancaq hər gün saat 12-dən sonra Ərdəbildən Azərbaycanca verilişdə Hacı Ağa Şəhnami adlı bir alimə qulaq asırdım. Məqsədim onun yanına gedib tanış olmaq və mənə Məşhədə getmək idi. Saat $13^{00}$-da İran Biləsuvarının "Came" məscidində İmam cümə Hacı Şəfiyə iqtida edib namaz qıldıq. Burada çoxlu sayda həm İran, həm də Azərbaycan vətəndaşı var idi. Onların içərisində prişibli Molla Bəylər, Əli Bayramlıdan Molla Vaqif də var idi. Mən onları tanıyırdım. Namazdan sonra məqsədim Ərdəbilə getməkdi. Ancaq o gözəl məscid binasına baxmaqdan doymurdum. Ürəyimdən keçirdimdi ki, kaş bizim kənddə də belə məscid olaydı. Nə isə, mən Serah (üç yol) deyilən Parsabad, Biləsuvar, "Ərdəbil yolunun ayrıcında Ərdəbilə gedən

maşın axtarırdım. Onu da deyim ki, həmin günlərdə İran hökuməti bütün nəqliyyat növlərinin pulsuz hərəkətinə göstəriş vermişdi. "Şurəvi"dən gələnlərə görə hətta xüsusi maşınlarda lavaş, pendir, alma və digər ərzaq məhsulları da pulsuz paylanırdı. Saat 4-dən keçib gələn maşınlarda isə yer yox idi. Deyərlər: qəribi axşamçağı ağlamaq tutar. Əgər nəqliyyat olmasa, gərək bu kəndlərin birinə pənah aparam. Nə çox məni kimi Şurəvidən gələn qonaqlar.

Fikirləşməkdən, bir tərəfdən də bu maşının, o maşının qabağına qaçmaqdan yorulmuşdum. Gördüm bir minik maşını məndən 40-50 metr aralı üzü Ərdəbilə tərəf gedir, qaçıb maşında olanlara dedim: yeriniz varsa, məni də Ərdəbilə aparın. Qabaq oturacaqda oturan yaşlı qoca dedi: gözləməmiz var! Mən qayıtdım əvvəl durduğum yerə. Heç bir maşın saxlamır, çünki bütün maşınlar dolu keçir. 30-40 dəqiqədən sonra həmin maşından bir cavan oğlan dedi: Hacı be fərma (İranda hər hansı bir şəxsə hörmət əlaməti olaraq Hacı, Səyid deyə müraciət edirlər). Mən fars dilini bilirəm deyə onu başa düşdüm. Məni Ərdəbilə apararsan? Dedi: Benişin (əyləşin), arxa tərəfdə əyləşdim. Mənim yanımda bir iranlının qabaqdakı şəxsə farsca dediklərini anladım, tez söhbətə müdaxilə etdim. Farsca dedim, siz səhv edirsiniz. O deyirdi ki, Hacıağa, bax (Cəlilabad ərazisini göstərir), onlar hamısı kafər vilayətidi. Bu əsnada mən deyirəm ki, o yerlər Cəlilabad ərazisidi. Bu tərəfdə olan kəndlərin yarısı o tərəfdədir. Quran bizdə, kitab bizdə, kəbin bizdə, şəriət bizdə. Sürücü çevrilib mənə baxdı və dedi: hansı mahaldansan? Dedim: Masallıdan! Qızılağac kəndindənəm. Qabaq oturacaqda olan adam mənim sözlərimdən təsirləndi: Əgər bu dediklərin düzdürsə, onda siz bizdən iman cəhətində üstünsünüz. Mənim adətimdir, həmişə cibimdə kiçik həcmli Quran surəsi olan kitabça olar. Tez qoltuq cibimdən həmin kitabçanı çıxarıb dedim: bax iman nümunəsi





budur mömin şəxs məndən bu sözləri eşitdi və "Yasin" surəsini gördü. Dedi: Baba, bizə belə təbliğ ediblər. Demə, həmin şəxs ali təhsilli fizika müəllimi imiş. Mən dedim: ixtisasın nədir, o mənə dedi (mən bildim, ki o, fizika müəllimidir). Mən isə dedim. Mən də ali təhsilliyəm. Avtonəqliyyatın istismarı üzrə, dövlət bizi təmənnasız oxutdurub. Onlar təəccüb etdi. Əgər bu söhbətlər olmasaydı, maşında olmağım mənim üçün darıxdırıcı olardı.

Bir də gördüm yol nişanlarında yazılıb: "Gerni şəhəri". Nə vaxt gəlib çıxmağımızı bilmədim. Elə isə bu hekayət yazmaq yaxşı olar.

Deyirlər Şah Abbasın veziri Allahverdi xan səfərə çıxır. Yolda bir şəxsə rast gəlib deyir: a kişi, yola körpü salaq. Həmin şəxs deyir: mən kasıb adamam, körpüyə pulum yoxdur. Vəzir görür kişi avamdır. Bir az gedirlər. Görür ki, cənazə aparırlar soruşur: a kişi, cənazədə aparılan meyid ölüdür, ya diri? Həmin şəxs deyir: meyid ölü olar da. 3-cü dəfə gördü bir əkinçi arabaya taxıl yükləyib, deyir: a kişi, o taxılı yeyib ya yeyəcək? Deyir: Aparır yeməyə. Nə isə vəzir görür ki, bu kişi heç bir şey anlamadı. Bu zaman vəzir dedi: Mən vəzir Allahverdi xanam. Əgər bu dediklərimi üç günə şərh eləməsən səni cəzalandıracağam. Kişi qəmgin evə gəlir. Onun bir qızı var imiş. Çox nəzakətli, ağıllı. Deyir: ay ata: nə olub qəmginsən? Deyir: bala heç! Qız görür ki, ata narahatçılığını ondan gizlədir, əl çəkmir, kişi əhvalatı şərh edir. Qız deyir: ata, get vəzirə de ki, mənim bir qızım var, evimdədir gəl o suallara cavab versin. Vəzir gəlir. Qız atasına deyilənləri izah edir. 1-ci yola körpü salaq, yəni söhbət eyləyək, başımız qarışsın. Onda yol tez başa çatar. 2-ci əgər o cənazədəki xeyirxah insandırsa, ölsə də əməli onu yaşadacaq, əksinə olsa elə ölüdür ki, ölü! 3-cü əgər o əkinçi biçinə qədər borc edibsə yeyib, eyləməyibsə yeyəcək. Vəzir razı qalır.

Biz də yola körpü saldıq. Germi şəhərinə çatduq. Mərkəzi küçədə maşın dayandı. Biz düşdük, qabaqda əyləşən şəxs Hacı İbrahim Fuladi idi. Məni evinə apardı. Saat 6-ya işləyəndə şəhərə gəzməyə çıxdıq. Məni Hacının yanında görən, "Hacı qohumundur?" - deyə sual edirlər. O da deyir: bəli. Məni öpür və deyirdilər: Hacı, mənə qonaqdı. Hacı dedi: özümə qonaqdı.

Mən orada bir neçə məscid gördüm. Biri-birindən böyük, uca minarələri özünə məxsus gözəlliyi olan məscidlər. Mən dedim Hacı məni Ərdəbilə yola sal. Dedi: sabah səhər. Nəhayət 1990-cı il yanvarın 19-da şəhəri gəzdük. Hacı dedi: 20-də Ərdəbilə gedərük. Mən kitab mağazalarını ziyarət yerlərini gəzdim.

Axşam Hacının evinə 20-dən çox dostları gəldi. Mənim gəlişimə xatir bizim ölkə haqda hərə öz sözün deyirdi. Gördüm bunlar Azərbaycan haqqında düz fikirdə deyillər. Cibimdə Füzulinin kiçik həcmli kitabı da var idi. Onu çıxarıb özümə məxsus şəkildə oxudum. Gördüm ağlayırlar. Sonra dedilər, baba, siz nə qədər imanlı insanlarsınız. Bizə belə deməyiblər. Mən şəriət hökmlərindən onlara söz açdım. Gecə saat 2-yə qədər söhbət davam eylədi. Yanvarın 20-də biz Ərdəbilə getmək üçün avtobus gözləyirdik. Bizim avtobazanın sürücüsü Akif (Gəyəçöldən) məni görən kimi dedi: Nüsrət, Bakıda qırğındı vəziyyəti danışdı. Mən dedim: Hacı İbrahim, məni Biləsuvara gedən maşına mindir. Daha qala bilmərəm. Dedi: Baba, gəl gedək. Dedim: olmaz. Mən də bir kisə kitab alıb Hacının evinə qoymuşdum. Gedib onu götürdüm. Gəldim, nəhayət bir az İran nemətlərindən pay məqsədi ilə aldım. Biləsuvara az qalmış Dələlidə düşdüm. Kiçik çay idi, keçdim Cəlilabad Dələlisinə, gördüm iki gün bundan qabaqkı deyil. Çox çətinliklə o yolu 4 saata gəldim kəndə. Dostlar, tanışlar gəldilər. Hamısı İran haqda sual eylədilər. Mən gördüklərimi söyləyirdim. Məscidləri özümə məxsus şəkildə vəsf edirdim.





1990-cı ilin iyun ayında artıq bütün qədim kəndlərdəki köhnə məscidlər təzələnirdi. 1990-cı ilin iyulunda qəti qərara gəldim, fikrimi xalqa bildirməliyəm. Muxtar Hacı Kərim oğlunun (Molla Muxtar) hüzr məclisiydi, 3-cü axşamı bu təklifi dedim. Məni məzəmmətlədilər və dedilər: Belə təklifi burda demə. Təkcə mənim təklifimə Nağıyev Əhməd razılıq verdi. Dedi, Molla, biz də kömək edərik. Məclisin mollası Ərkivanlı Məşhədi Əzim idi. Dedi: ay Nüsrət, ay bala, bu işdən yayınma, xeyirxah işlərin bədxahları çox olar. Sözünün üstündə möhkəm dur. Bizim kənddə də Molla Mir Kərim elə bir məscid tikdirir. 1990-cı ildə İbadbəyin arvadı Sonanın dəfnindən sonra mən Məhəmməd Sadıq Baba oğluna dedim İbad kişini çağır ondan icazə alım. Təklifim var deməyə. O, dedi: mən onun bacısı oğluyam. Mən məclisə rəhbərlik edirəm, nə deyirsən de, heç kəs sənə bir söz deməz. Dedim: məscidin binasını el köməyi ilə təzələmək barədə təklifim var. Təklifim hüzrdə olanlar: İltimas Rəsulov, Yasər Əliyev, Sağır Ağabala, Həsənağa, Cəfər Sadıqov və s. tərəfindən alqışlandı və elə oradaca 1000 manatdan çox pul yığdım. Bu təklif hər tərəfə yayıldı. Hüzürün 7-si qurtarana qədər 2500 manat pul yığdım. Elə bil hər bir adam o məclisin gedişində pul verməyi əhd eyləmişdi. Məclisdən sonra pul verən olmadı. Hər gün axşamçağılar Mir Musa ağa, Sağır Ağabala, Həsənağa, Səhəl baba, Məşhədi Zəkəriyyə, Məşhədi Rza, Həsəncan məscidin həyətində olurdular. Dedim: ay əmilər bu camaatın marağı sönükdü. Heç kim pul vermək istəmir.

Allah Sağır Ağabalaya rəhmət eləsin. O dedi ki, bacı oğlu, heyif səndən. Bu kənddə səni başa düşməyəcəklər, tək qalacaqsan, hörmətdən düşəcəksən. Çünkü sən bu camaatı tanımırsan (onu da deyim ki, mən 1987-ci ilə kimi işimlə əlaqədar kənddə gündüzlər az olurdum). Dedim: ay dadaş, (ona dadaş deyib müraciət edirdim) atam üçün tikdirmirəm ki, el üçündür. Allah üçündür. Allah kömək olar, tək qalmaram!

*Məkana, zamana, dövrə o Sultan*
*Odur həqiqətə qapılar açan*
*Könlünün yolunda qəlbə nur saçan*
*İmam şöləsidir Allahu Əkbər.*

Dedim: Dadaş, Allah kərimdir! Nə etməli? Kimə müraciət etməli? fikirləri məni yorurdu. Yeganə ümüdüm yuxarıda Allah, aşağıda rayon partiya komitəsinin 1-ci katibi İltifat Məmmədov oldu. Anasının cümə axşamlarının birində ona öz fikrimi, təklifimi çatdırdım. Dedim: müəllim, bu vaxta qədər səndən vəzifədən ötəri xahişim olmayıb. Amma bu xahişimə əməl elə. Dedi: Nüsrət, arxayın ol. Var qüvvəmlə sənə bu işdə kömək edəcəyəm. İstəyirsən pul da yığma. Mən dedim ki, müəllim, pul yığmaqda məqsədim hamının bu işdə iştirakının olmasıdır. Dedi: özün bilərsən.

Şair gözəl deyib:

*Quş qanadla uçar, insan diləklə*
*Yatır ürəklərdə min-min arzular.*

Bilmədim ki, gecəni necə yatım. səhər nə vaxt açılar. Mənə bu sahədə kömək etməyənlərə müəllimlə olan söhbəti çatdırım. Səhər oldu. Mən artıq arxayınam ki, yuxarıda Allah, aşağıda 1-ci katibin köməkliyi ilə bir iş görəcəyəm. İşlərin ardıcıllığı üçün öz fikrimi yenə də münasib adamlara bildirdim. Sonra isə İltifat müəllimin kömək edəcəyini xəbər verdim. Sağır Ağabala dedi: Bacı oğlu, indi heç bir şeydən qorxma, fikründə nə varsa, onu tətbiq et. Mən İltifat müəllimin atası Ağaverdi müəllimi də çox yaxşı tanıyırdım. Çox xeyirxah və imanlı kişi idi. Onun oğlu da ona çəkər.

***Sən də, mən də, gedəcəyik dünyadan***
***Bizdən sonra söylənəcək karımız***
***Nə sən, nə mən güvənmədik boş ada***
***İnsanlığa səadətdir varımız.***





Artıq çoxları mənim ətrafımda cəmləşdilər. Mən hər gün məscidi sökmək təklifini verirdim. Bir neçə nəfər nüfuzlular buna imkan vermirdilər. Onlar mənə deyirdi, əvvəl tikinti materialların yığ sonra sök. Mən isə deyirdim: əgər sökülməsə tikə bilmərik. Nə isə bir aydan çox bu mübahisəli məsələ ətrafında söz-söhbət eylədük. Gördüm artıq sentyabr ayı daxil olub. Əgər belə getsə iş görülməyəcək. Üstəlik pul verənlərin nə üçün iş görülmür? sual etməklərinə ehtiyac olacaq. Sentyabr ayının 13-ü səhər saat 10-dan sonra (avtobazadan) rayon partiya komitəsinə getmək üçün iş yerimdən çıxdım. Onu da deyim ki, İltifat müəllim demişdi: Nüsrət, nə vaxt mənə ehtiyacın olsa, məscid işi ilə əlaqədar, evim də, iş yerim də həmişə sənin üzünə açıqdır. Gör nə gözəl səlahiyyətdir. Rayon partiya komitəsində I katibin qəbuluna düşmək üçün qəbul otağında olan işçiyə dedim: müəllimə de, Qızılağac



***Məscid və bazarın görüntüsü.***

kəndinin mollası gəlib. İçəri daxil olan növbətçi həmin anda bayıra çıxaraq qapını mənim üçün açdı. Daxil oldum içəri. Birinci katib yerindən durdu, daxil olduğum qapıya qədər gəlib məni qarşıladı. Mənə oturduğu mizin qarşısındakı stolda yer verdi. Əziz oxucu, elə zənn etmə ki, İltifat müəllim otaqda tək idi. Sən

demə, rayon inzibati idarə başçıları ilə müşavirə keçirirmiş. Məndən qabaq onlarla nə danışdıqlarını bilmirdim. Mən əyləşəndən sonra dedi: bu bizim kəndin mollasıdır. Məscid tikmək təşəbbüsü ilə çıxış edib. Orda olanlar minnətdarlıqlarını bildirdilər. Birinci katib 10-15 dəqiqə onlara göstəriş verib müşavirəni bağlı elan elədi. Mənə müraciət edərək dedi: Molla nə əcəb? Oturduğum stol günbatan tərəfdəki pəncərənin qarşısında idi. Dedim: müəllim hansı fəsildir. Dedi: yayın qurtarmasına az qalıb. Dedim: bəs onda nə vaxt xalqa verdiyimiz vədə sadiq olacağıq. Dedi: nə barədə? Dedim: məscid barədə. Dedi: iş getmir? Məgər çatışmamazlıq var? Dedim: maraqlı qüvvələr imkan vermir məscidi sökməyə. Dedi: mən elə bilirdim hər şey qaydasındadır, ona görə gəlmirsən. Mən də maraqlanmırdım.



*Məscidin ümumi görünüşü.*

Qaldı ki, Molla get, SSRİ Ali Sovetinə deputatlığa Zeynəb Xanlarovanın namizədliyini bizim dairədən irəli sürüblər. Seçicilər ilə saat $15^{00}$-da görüşə gələcək. Mən də gələcəyəm. Orda məsələni həll edərik. Mən birbaşa kəndə gəldim. Müəllimin dediklərini ətrafımda olanlara - Mir Musa, Eynal M.Rəhim oğlu, Hadı Mir Hüseyn oğlu, Sadıq Məmməd oğlu və s. bildirdim. Kalinin adına sovxozun partiya komitəsinin sədri Suma Tağıyeva, sovxoz direktoru Yasər Əliyev, fəhlə komitəsinin sədri Məhəmməd Məmmədov, kənd sovetinin sədri Yunus Sadıqov seçicilərin namizədlə görüşünü təşkil etmək üçün idarə işləri görürdülər. Mən Turkoba kəndinə bir maşın göndərdim. Məscidi tikəcək. "Bərpaçı" idarəsinin zona üzrə nümayəndəsi Mirişi tez gətirsin.





**Haşiyə:** Mirişi bu işə cəlb etməyi məsləhət görən Asəf Cəfərov olub. Asəf Cəfərov çox bacarıqlı inşaat mütəxəssisidir. Əvvəl ona bu işi təklif elədim. O, dedi: Molla, düzdür mən inşaatçıyam, ancaq bu iş memar işidi. Mənim tanıdığım şəxs var, adı Mirişdi. Gözəl insandır, bərpaçı idarəsinin zona nümayəndəsidir. Əgər istəsən onu gətirim, onunla danış. Bir neçə gündən sonra Mirişi gətirdi. İşin həcmini bildi və dedi, molla bu böyüklükdə tikinti camaatdan yığılan pul ilə tamamlanmaz. Mən dedim: çalışarıq yığaq. Dedi: bir neçə rayonlarda, o cümlədən Türkobada, Masallıda bərpaya çəkilən xərci bilirəm. Bu el gücü ilə mümkün olmaz. Dedim: bəs nə köməklik edə bilərsən? Dedi: Əgər siz məscidi, qədim tarixi olan bu əzəmətli binanı Respublika Mədəniyyət Nazirliyinin Tarixi Abidələr fonduna daxil etdirə bilsəniz, onlar da kömək edər, bərpa tamamlanar. Mirişi götürüb gəldim İltifat müəllimin evinə. Müəllim işə gedirdi. Mirişi görüb köhnə dostlar kimi görüşdülər. Dedi: Miriş, Molla Nüsrətin bu işdə yuxarıda Allah, aşağıda kömək edənləri biz olmalıyıq. Nə ehtiyac varsa mollaya de. Sənin işün olmasın. Ancaq Miriş, bil ki, hansı kənddəsən və nə iş görürsən. Miriş dedi: Müəllim: sənin mənə böyük köməyin dəyib. Əgər sizin köməyiniz olmasaydı mən tikintidə işləyəndə sıradan çıxmışdım. O vaxt siz mənə kömək etmisiniz. Mən sizə həmişə özümü borclu bilmişəm.

Müəllim, atalar sözüdür: borclu borclunun sağlığını istər. Mənə deməyə ehtiyac yoxdur. Bu möhtəşəm binanın bərpasın-

da bütün xidməti göstərəcəyəm. 1-cisi onun sahibi Allaha xatir, 2-cisi Sizə və qədim kəndin adamlarına xatir. Miriş bir neçə günə sənədləri hazırladı. Onu 4 dəfə Bakıya Mədəniyyət Nazirliyinə göndərdük, bir iş görə bilmədi. O da mənə dedi: xahiş edirəm, məscidi sökmə, tamamlaya bilməzsən. Nə etməli? İşi gərək Allah düzəltsin.

*Sən Allaha inan, Allahdan istə*
*Arzun göyərəcək, bitəcək, qardaş.*
*Ruhun bakirəsə, qəlbin təmizsə*
*Sənin istəyini verəcək, qardaş.*

Allah istəyimizi, inşaallah, verəcək. Xalqımızın fəxri, Azərbaycanın qədim musiqisini dünyaya tanıtdıran, mahir ifaçı, SSRİ və Azərbaycan SSR xalq artisti Zeynəb Xanlarovanın görüşünə çoxlu insanlar gəlmişdi. Saat $15^{00}$-da maşınlar gəldi. $15^{30}$-da kənd mədəniyyət evində iclas başladı.



*Zeynəb Xanlarova.*





Mən də Zeynəb xanım haqqında məzmunlu çıxış etdim. Çıxışdan sonra durub mənə minnətdarlıq etdi. Görüş başa çatdı. Zeynəb xanım partiya təşkilatının otağına daxil oldu. Mən İltifat müəllimin yadına məscidin həyətinə getməyi saldım. O mənimlə məscidin həyətinə getdi. Müəllim dedi: Molla Nüsrət, gəz rayonda və qonşu rayonlarda olan məscidlərdən də böyük və hündür məscid tik. Hətta hündürlüyü məscidin arxasında olan Qarağac ağacı qədər olsun. At ələ düşər, meydan ələ düşməz. Tez Eynala dedim. Nərdivanı gətizdir. Müəllim orda ikən nərdivanı qoydurdum məscidin pəncərəsinin üstündən xəlfəyə. Tez dama çıxıb kirəmitdən qabaqcadan düzəltdirdiyim axura qoyub aşağı sürüşdürdüm. Bazarda olan müxaliflər deyirdilər məscidi sökmək olmaz. Düşüb öləcək. Müəllim xudahafizləşmək üçün məni çağırdı. Mən aşağı düşdüm. Əliabbas Əliheydər oğlu, Xalıq Yadulla oğlu çıxıb qabaq hissənin kirəmitlərini aşağı verməyə başladılar. Miriş gəlib çatdı. Hazırladığı kağızları mənə verdi: Molla, gir içəri Zeynəb xanımdan məscidin fonda daxil edilməsini xahiş et. Mən partiya təşkilatının otağına daxil oldum. Müəllim dedi: Molla, nə işdi? Dedim: müəllim, hörmətli deputatımızdan bir xahişimiz var. Zeynəb Xanlarova dedi: buyur. Mən xahiş elədim ki, bizə Məscidin Mədəniyyət Nazirliyinin fonduna salınması üçün kömək etsin. Dedi: bir sənədiniz var? Dedim: bəli, 4 dəfə memar Bakıya gedib Respublika Mədəniyyət Nazirliyinin Tarixi Abidələr fonduna daxil etdirə bilməyib. Dedi: baş üstə! Mən sənədləri Mirişdən alıb daxil oldum içəri, Zeynəb xanım Hüseynağa Qəniyevə (o vaxt Mərkəzi Komitənin bizim zona üzrə kuratoru idi) dedi: al sənədləri saxla. Hüseynağa Qəniyev aldı. Mənə Zeynəb xanım dedi: 2 gündən sonra gedib sənədləri Mədəniyyət Nazirliyinin katibliyindən götürərsiniz. Xalqımızın Həcər şücaətli, Nigar məhəbbətli, mərd, mübariz, qayğıkeş, mehriban, qəhrəman qızına, bu günün və gələcəyin qızılağaclıları adından minnətdarlığımı bildirdim. Allah təala buyurur:

***Xeyrə səbəbə olan hər bir şey tərif olunmalıdır.***

Zeynəb Xanlarovanın bu xeyirxahlığının qiymətini Allah verəcək. Çünki o Allah evinə köməklik göstərməklə İslamın inkişafına təkan verdi, atalar yaxşı deyib:

*Aslanın erkəyi, dişisi olmaz.*

Onlar axşam saat 6-nın yarısında getdilər. Artıq məscidin qabaq hissəsinin kirəmiti yerdə idi. Nə qədər ruh yüksəkliyi əmələ gəlmişdi. Qaranlığa qədər iş görüldü. Səhər tezdən heç kəsə demədən adamlar özləri gəlib kirəmiti yerə yığırdılar. Bir tərəfdən də köhnə xəlfə və reykələr sökülüb yerə yığılırdı. 2 gündən sonra Miriş Bakıya getdi. Gələndə uzaqdan gülürdü. Miriş nə oldu? Dedi: Sənəd hazırdı, məscid Mədəniyyət Nazirliyinin Tarixi Abidələr fonduna daxil edildi. İş görmək olar. Miriş dedi: Molla, məscid nə vaxt sökülüb qurtarsa mənə xəbər ver işçiləri gətirim. Düz bir həftə ərzində məscid bünövrəyə qədər söküldü. Mirişi çağırdıq. Gördü biz daş divarı da sökmüşük. Dedi: Heyf, siz bərpa olunmalı divarı da sökməklə əsaslı tikinti işinə səbəb olmusunuz. O, bir az ehtiyat eylədi. Onu başa saldım ki, inşaallah, heç bir şey olmaz, işə başla! Məscidin kərpiclərinin ölçüləri 20x25 sm, qalınlığı isə 5 sm idi. Gilnən işlənmişdi. Bünövrə isə ağ mərcan qulağı ilə şəffaf məhlulun qarışığı idi. Gün çıxan tərəfdən 5 m məscidin uzunluğunu 5 m də artırdıq. Ekskavatorla bünövrə üçün o, beş metr yeri qazdırdıq. Hətta ekskavator köhnə bünövrə qarışığı sındırıb qopara bilmədi. Allah rəhmət eləsin. Sağır Ağabala, Mir Musa, Həsən ağa, Məşhədi Rza, Məşədi Zəkəriyyə və digərlərinə onlar işləyənlərə ruh verirdilər. Məhəmməd Sadıq, Əlmusa müəllim, Sərraf Bulud oğlu, Əliabbas Əliheydər oğlu Mir Hadı və s. adamlar söküntüləri saf-çürük edirdilər. Mən Mirişin 12 nəfər usta gətirdiyi vaxtda öz ustalarımızı da səfərbərliyə alıb bu xeyirxah və savab işə cəlb etdim.





Usta Zabir, Ağaşirin, Cəmil, Füzuli, Nizam, Əhəd və s. orda hazır durmuşdular. Rəhmətlik Həsənağa dedi: Molla, eşitmişəm məscidləri tikəndə sütunların birinin altına pul qoyurlar təmiri üçün! Dedim: Ağa, sən dur burda, mən adam gətirim. Əziz Tağıyevi və Musa Abıyevi və s. gətirdüm, onlar sütunun altını yerə qədər qazdılar, bir şey hasil olmadı. Bünövrə üçün 1,5 ton sementi Tofiq Ələkbərov verdi. 18 sentyabrdan dam hörgüsünə başlandı. 80 santimetr arxa divar bir metr qabaq divar hörülür. 26 cərgə - 14 kərpicdən yəni səki hündürlüyündən sonra məscidin öz kərpicidir içəri və qabaq tərəfə işləndi. Aralıq hissəsinə isə Masallı kombinatından gələn kərpic işlənirdi. Ona görə ki, o kərpiclər bərk idi, yonmaq mümkün olmurdu.



*Məscidin həyətində su yeri.*

Məscidin öz kərpici qurtarandan sonra hər gün Məmmədoba, Mişkəmi, Hişkədərə, Tüklə, Molalan kəndlərində şəxsi evlərdən 5-10 min bişmiş kərpiclər alırdıq. Onu da deyim ki kərpic bişirənlər məndən xahiş etdilər ki, Qızılağac ərazisində bağ dalı yerində Tofiq Ələkbərov kanal qazdırır, o torpaqdan

onlara aparmağa kömək edim. Kömək olundu. Öz ərazimizin torpağı aparılıb kərpic halında bizə satıldı. Soruşduq torpağın nə fərqi? Dedilər: bu torpağın kərpici çatlamır. İş gedişatında pul verənlər və iş görənlər çoxalır. İnşaat materialı, sement çatmır. Həmin vaxtlarda sementin 50 kq kisəsi 120 manat idi. Bünövrə qoyulanda Mir Musa, Həsənağa, mən, Səhəl baba və s. iştirak etdik. Bünövrəyə kərpici Məşhədi Valeh qoydu. Bərpa tarixini 3 dildə yazıb şüşə qab içərisinə 4 tində qoyub kərpici hördülər. Sementdən korluq çəkdiyimiz üçün işdə zəiflik hiss olunurdu. 19 sentyabrda Lənkərandan 5 ədəd əl arabası aldırdım. Uşaqlar kərpici onunla daşıyırdılar. 1 və 2 saylı məktəbin şagirdləri hər gün iştirak edirdi. Sement olmadığı üçün Miriş dedi: Molla, sabah gəlməyəcəyik, sementiniz yoxdu. Dedim: Miriş, gəlin, sement üçün narahat olma, Allah kərimdi. İltimas Rəsulovdan 12 kisə sement (evində var idi) aldıq. Səhərisi gün iş davam elədi. Mən Abıyev Musa, Əliyusif Ağayev və Musanın "Moskviç - 412" markalı maşını ilə Prişibə (indi Göytəpə) yol nəzarəti şöbəsinə getdik. Məqsədim Qulaməli Səfərov və Şahbaz Babayevdən xahiş edək, sement maşınlarından bizim üçün sement alsın. Qulaməli dedi: Gedün, 25 ton sement göndərərəm. Şahbazı çağırdı, Qaradağa göndərdi. Bizə dedi: gedin, sabah axşam sementi kəndə gətirərlər. Sabahı gün də iş gördük, axşamçağı sementdən xəbər olmadı. Səhərə sement də yox! Gecə saat 1-dən sonra yuxuda eşitdim ki, həyətdə maşın səsi gəlir. Yerimdən durdum gördüm, DAM maşınıdı. Dedi: Molla, Şahbazam, gəl maşını boşaltdır. Dedim: ay Şahbaz, gecənin bu vaxt mən onu hara boşaldım? Dedi: maşın qayıtmalıdı. Yerimdən durub gedib Abıyev Musanı çağırdım. Musa, gəl kömək et, sementi boşaldaq. Bizim 8 tonluq taxta sement qabımız, 4 tonluq kiçik qablarımız var idi. Şahbaz qabları doldurduqdan sonra dedi: qalanını





da tök bir küncə. Dedik: heyfdir, yağış dəyər korlanar. Nə isə, qalanını qaytarduq. Miriş demişdi ki, gəlməyəcəyəm. Səhər gəldi, sementi görüb dedi: Əla! İş düzəldi. Miriş içəri sütun üçün 40x27 sm ölçüdə 6 metrlik 10 ədəd şalban tədarük etməyi göstəriş verdi. Rəhmətlik İltimas Rəsulov, Musa Abıyev və qəssab Zakir getdbk Allahyarlı kəndinə. Orda İltimasın dostu var idi. Onun dostunun yeznəsi meşə bəyi idi. Onun vasitəsilə meşədən ağac kəsdirdük. "Kraz"a yükləyib Qodman hərəxanasına gətirdik. Ağaclar hazır oldu, quruyanda əyildi, çatladı. Gətirdik kəndə, memar Miriş dedi: bu vec eləməz, çünki yetişməyən ağacdı, hökmən Narrat ağacı olmalıdı. Özü də gərək onun bir tərəfi 85-90 sm, o biri tərəfi 60-70 sm olsun ki, 40x27 sm ölçüsü alınsın. Bu diametrdə ağac tapmaq çətinlik törətdi. Neyləməli, axtarmaq lazım idi. Birdən biz Prişibdəki yol nəzarət məntəqəsinə gedərkən Masallı stansiyasında sağ tərəfdə gördüyüm taxta-şalban bazası yadıma düşdü. Tez Vidadi Sadıqovun Jiqulisinə minib o bazaya gəldim. Soruşdum kimə məxsusdur. Gözətçi dedi. Hacı Sərdar adlı idarə müdirinə. İdarəsi də Prişibdə xəstəxananın yanındadır. İdarəni tapdıq. İş otağını soruşdum. İcazə alıb içəri daxil oldum. Qızılağacdan gəldiyimi və məqsədimi bəyan etdim. Bu şəxs çox imanlı, təqvalı xeyirxah insan kimi tanınırmış. Birinci dəfə idi bu şəxsi görürdüm. Zahiri əlaməti batinin təcəssümü idi. Çox təmkinli, çox nurani bir şəxs idi. O mənə dedi ki, molla mənim iki bazam var, biri idarənin həyətində, biri stansiyada, hansında sizə lazım olan ağac varsa, seçib qoydurun kənara, tapşıraram, aparar-sınız. Mən dedim: Hacı, bu sahədə təcrübəm azdır. Səhər adam gətirərəm seçərik. Dedi: nə vaxt istəsən gəl. Səhər getdük. Ustalarla yanaşı Musa Abıyev, Əliyusif, Ağayevlə İdarə həyətində olan iki vaqon ağacın içindən 9 ədəd 95x60 sm ölçüsündə ağac götürdü. Şahbaz Babayevlə Qulaməli Səfərovun göndərdiyi kran-

la maşına yükləyib, qurtarduq. Mən daxil oldum Hacının iş otağına ona minnətdarlıq eylədim. Cibimdə olan 500 manat pulu çıxardıb ona vermək istəyəndə dedi: Molla, Allah qəbul eləsin, aparın əgər taxta lazım olsa, 10 $m^3$ da taxta gəlin aparın. Pul əlimdə, dedim Hacı, bu pulu al, halallıq olsun. Dedi: Molla, mən onu sizə halal eləmişəm. Mənim pula ehtiyacım yoxdur. Əgər pul çatışmazlığı olsa, kömək edərəm. Əhsən! Məhəbbət, istək, inam, qüdrət sahibi olan səxavətli şəxs!

Hacı Sərdar Cəlilabadın Hasıllı kəndində Sovet hökumətinin vaxtında öz hesabına məscid tikdirib. Bu şəxs bizdən başqa məscidlərə də köməklik edib. Bu xeyirxah insan dünyasını dəyişsə də, əməlləri onu yaşadır. Necə ki, hədislərdə buyurulub:

Allah təala öz həbiblərindən birinə hatifdən nida yetirdi. Sabah sübh namazından sonra şəhərdən kənara çıxarsan, 1-ci qarşına nə rast gəlsə, onu ye! 2-ci nə rast gəlsə, yeri qazıb basdır! Səhər namazdan sonra şəhəri tərk etdi. Qarşısında böyük dağ görsəndi. Göstərişə əməl etmək üçün irəli getdi. Getdikcə o dağ kiçildi, axırda bir tikə ləzzətli loxma kimi göründü. Onu götürüb yedi. İkinci dəfə bir teşt dolusu ləli-cəvahirat gördü, yeri qazıb basdırdı, bir az gedəndən sonra gördü arxadan səs gəlir. Geri dönüb baxdı, gördü teşt dolusu basdırdığı ləl-cəvahiratdı. Dedi: bəlkə dayaz qazıb basdırmışam. Bir az da dərin qazıb basdırdı, yenə üzə çıxdı. 3-cü dəfə çox dərin qazıb basdırdı, çıxıb getdi. Axşam yatdı aləmi röyada ona nida yetdi: ey mənim həbibim, o iki əməli bildin nə idi? Dedi: İlahi sizsiniz alim! Cavab gəldi 1-cisi sənin səbrin, 2-cisi isə əməlindi. Hansı dərinlikdə olsa, o zahirə çıxar. Bəli, Hacı Sərdarın da əməlləri onun yaşaması üçün ölümündən sonra bir əsas idi. Allah ona rəhmət eləsin.

Ağacları 2-ci Yeddioymaqda olan hərəxanaya apardıq. 40x27-yə 5 ədəd, 27x27-yə 5 ədəd çəkdirdik. Memar Miriş kərpic hörülməsi işinə sürət vermək üçün əlavə ustalar da gətirdi. Kənd ustaları ilə birgə əl-ələ verib sürətlə iş görürdülər. Hörgü işlərinə işlədilən sement qumdan çox idi. Bəzi adamlar iş görməklə yanaşı ehsanlar da verirdilər. Sentyabrın 15-dən axıra kimi hər gün orda işləyənlər üçün növbə ilə ehsanlar verilirdi. Kimisi qoyun, kimisi düyü, yağ, çörək gətirirdi. Qabaqcadan sabah kimin ehsan verəcəyini planlaşdırırdıq. Heç kəs yeməyə günorta vaxtı evə getməzdi. Çay da hər an hazır idi. Gözəl ahəngdar iş ahəngi qorunurdu. Kimisi qumu sementə qatıb məhlul hazırlayır, kimisi məhlul qaldırır, kimisi kərpici yuxarı atır. Divar qalxdıqca iş ağırlaşırdı. Köməyə ehtiyac var idi. Uşaqlar məktəbdən gəlib xırda işləri, böyüklər isə ağır işləri görürdülər. Onu da qeyd edim ki, 1 və 2 saylı məktəbin şagirdləri növbə ilə gəlib məscid tikintisində iştirak edirdilər. Həmin uşaqlar Allah yanında hər hansı məscid tikilməyən dövrün insanlarından əzizdirlər, çünki onların dövrünə məscid tikintisi təsadüf etdi.





Mustafa Məməş oğlu arabanı məhlul ilə doldurdu, götürən olmadı. Sağır Ağabala, o yaşda gözü zəif görən adam arabanı məscidin arxası ilə sürüb gün çıxan tərəfə gətirməliydi. Arabanı asfaltın üstü ilə güclə sürürdü. Kənardan onu görənlər gəlib arabanı, onun əlindən aldılar, o isə dedi: bax, bu da bir fənddir! Araba dayanmadan əldən-ələ keçdi. İşçilərə məhlul mütəmadi çatdırılırdı. Ağabala kişi dedi: bacıoğlu, sabah ehsana bir nəfər qoyun gətirəcək, ət almazsan, ümid oldum. Səhər saat ona qədər ət gəlmədi. Mən bazardan 10 kq ət aldım. Həmin günün ehsanını verdik. O qoyun vəd edəndən xəbər olmadı. Dedim: ay Dadaş, kim idi vəd verən? Dedi: ay bala, mən deməmişdim, özü demişdi həmin adam. Ancaq neyləməli?! Səhəri gün dedilər, həmin adamın tövləsindən 7 baş yaxşı qoyununu aparıblar. Həmin adam gəlib Ağabala kişiyə deyir ki, sabah ət almayın

ehsan üçün qoyunu mən gətirəcəyəm. Ağabala kişi isə cavabında deyib: əgər 7 baş qoyunun getməsəydi, gətirməyəcəkdin ha... Qədirli kəndindən Misir Məşədi Əbdül oğlu 1 baş cöngə, 1 kisə düyü, bir qutu 25 kq yağ gətirdi, ehsan verdi. Ehsan verənlər (Allah hamısından razı olsun!) çox olub, mən ehsan edənləri bir qisminin adını çəkdim. Artıq divar tamamlanmaq üzrədi. Taxta-şalbana ehtiyac olacaq. Bundan ötəri maraqlanmaq lazımdır. Divarı hörən ustaların biri mənə tanış gəlmədi. Mən soruşdum Mirişdən, kimdir o usta? Dedi: Molla, kimsə kənardan gəlib. Mən yuxarı qalxdım. "Allah qüvvət versin" - dedim. Soruşdum: nə əcəb? Dedi: Molla, mən Musaküçə kəndindənəm. K-701 markalı traktorla burdan dünən keçərkən, bu tikintini gördüm. Bu gün 6-cı gündü direktor məni işə göndərirdi, mən dedim: əlimdən ustalıq gəlir, gərək bir gün Qızılağac məscidində işləyəm. Molla, o niyyətlə gəlmişəm. Əhsən, var olsun yaradan əllər! Qonşu kəndlərdən Qızılağaca gələnlər də kömək edir, pul verirdilər. Əvəz Əziz oğlu gəldi, mənə dedi: Molla, Lənkərandan bir nəfər bura gələcəkdi məscidə pul verməyə. Dedi: dalımcan maşın gəlib, Qızılağaca gedə bilməyəcəyəm. Əgər imkanı olsa, Molla gəlib Lənkəranda qızılçı dükanının qarşısında görüşək, mən pulu ona verim. Əvəzlə gedib həmin adamı tapdıq. Əvəz dedi: həmin molla budur. Əlini qoltuq cibinə salıb bir onluq bağlaması verdi, 1000 manat idi. Mən almadım, dedim gərək adınızı deyəsiz. Dedi: Bala, adım nəyə lazım? Mən pulu Allah yolunda verirəm. Nə edirsən, et. Mən, nəhayət, onun adını öyrəndim. Mətləb Rəhman oğlu! Məndən xahiş elədi ki, çatmasa gəl, yenə verim. Görəsən, bu şəxsi necə qiymətləndirmək olar? Qiymətini Allah verər, inşaallah! Tofiq Ələkbərov 6 tondan çox sement verib. İltimas Rəsulov məscid tikintisinə çox pul verən adamdı. Gülsənəmoğlu Abı min ədəd





Masallı kərpic kombinatından 2 min ədəd kərpic aldı. Məscid üçün həm də 1000 ədəd kirəmit verdi.

Elə adamlar da var ki, əvvəldən axıra kimi var qüvvəsi ilə işləyiblər. Allah Qurani - Kərimdə buyurur:

***Kim (dünyada) zərrə qədər yaxşı iş görmüşdürsə onun xeyrini görəcəkdir (mükafatını alacaqdır).***

**(Zil-Zal surəsi)**

Tikintidə işləyənlərin, pul verənlərin hamısının adını deyə biləcəyim, imkandan kənardır. Allah hamıya kömək olsun. Ölənlərə rəhmət eləsin. Qalanlara can sağlığı, islami nailiyyətlər bəxş eləsin.

Tikinti üçün şalbana ehtiyac çox idi. Lakin Rusiyadan o qədər material gəlmirdi. Bir gün dedilər ki, Qasımlı stansiyasına 2 vaqon şalban gəlib. Mən Musa Abıyevin maşını ilə gedib baxdım. Gəlib səhər tezdən İltifat müəllimi evində görüb dedim: 2 vaqon şalban gəlib. Yeşik bazasındadır. 50 kub m. ehtiyac var. O dedi: mən indi işə gedirəm, göstəriş verərəm bir vaqon sizə verərlər. Saat onda bazanın müdiri dedi: gəlin şalbanı aparın. Hərbi şəhərcikdəki bazadan 46 kub 60 sot şalban götürdük. Pulunu Mədəniyyət Nazirliyi ödədi. Nə ki, ustaların əmək haqqını və alınmış materialların pulunu Nazirlik ödəyib. Şalbanlar Yeddioymaqdakı hərəxanada çəkilib. Onu da deyim ki, 100 kub metrə qədər taxta şalban həmin hərəxanada çəkdirdük. Hərəxananı işlədən Adbala adlı şəxs Qasımlı kəndindəndi. Heç bir zəhmət haqqı almadı. Allah ölənlərinə rəhmət eləsin. Nə qədər ki, məscid üçün iş görənlər olub, pul təmənnasında olmayıblar. Şalbanlar naxışlandı, şalbanları üç mərtəbə düzmək lazım idi. Hər mərtəbədə ikilik taxta təbəqəsi vurulandan sonra şalban düzülməli idi. Şalbanın divardan çıxıntısı 50 sm olmalı idi. Birinci şalbanı 40 sm çıxarmışdılar. Məscidin şalbanlarının 3 - çıxıntısının uzunluğu damcı tökülən yerə kimi 1 m 40 sm-dir.

Şalbanları dəmir sırğa ilə (skoba) bir-birinə tikmək üçün I Yeddioymaq kəndində dəmirçi Niyaza armatur verdik. O da 300 ədəd sırğa düzəltdi. Onu gətirib şalbanları bir-birinə tikdilər.

Şalbanların altına tinlərdə 3 dildə bərpa tarixin yazıb qoydum.



*Məscidin içərisi.*

Məscidin içərisində taxta yonan dəzgah qurulmuşdu. Onun vasitəsilə iş tezləşdirildi. Məscidin içərisindəki 40x27 sütunları və onun üstündəki şalbanları 27x27-yə nəqşləyən Hişkədərə kəndindən olan Fəyyaz və Həzərxan adlı ustalar olub. Fəyyaz Turkobalı idi və çox təcrübəli idi. Məscidin arxa tərəfində usta Fəyyaz reykə vururdu. Bu vaxt onun gözünə Dəmirçi kəndindən olan "Təzə pir" məscidində işləyən Hacı Museyib görsəndi. Dedi: ay Hacı, hardan belə? Dedi: usta Fəyyaz, ziyarətdən, ocaqdan, ağaların ziyarətindən. Hacı Museyib dedi: mənə yuxuda deyiblər: nə vaxt rayona getsən, əvvəl get Qızılağacdakı ağaları, ocağı, qəbristanlığı ziyarət eylə, sonra kəndinə get. Odur ki, mən o göstərişə əməl edirəm. Həmişə gəlib buranı ziyarət edəndən sonra Dəmirçi kəndinə gedirəm. Bəli əziz oxucu sənin kəndinin qəbristanlığında Mirhəsən ağa, Mir Cəfər ağa, Mir-





Möhsün ağa, Sultan pir ziyarətgahı var. Onların ziyarətində olmağa sən də səy göstər! Reykələr vuruldu. Xəlfə qalxan gün kənd camaatı çoxlu xələt, pul verdilər. Vedrə yuxarıdan məscidin 4 tinindən sallanmışdı. Xələt və pulu ora qoyurdular, yuxarı çəkirdik. Axşamçağı 3 kisə xələt, çoxlu pul yığıldı, ustalara verdik. Kirəmit düzməyə Gəyəçöl kəndindən olan Əli kişi gəldi. O, 3 gün müddətinə kirəmiti düzüb qurtardı. Həmin gün Ən maraqlı hadisə bu oldu. Masallıdan gələn maşınlarda olan adamlar deyirdilər: ay Molla, kolxoz həyətinə qədər güclü yağış yağır. Mən dedim Allah kərimdi, Allah möhlət verər. Əlimizdə 2 metr enində kirəmit düzmə işi qalmışdı, 2 saata qədər düzülüb tini bağlandı. Yağış yağmır, ancaq hava tutulmuşdu, biz yerə düşüb çay içmək üçün oturduq. Bu zaman güclü yağış yağmağa başladı. Bəli, Allah möhlət verdi, iş tamam oldu, binanın üstünün örtülməsi dekabr ayının 16-da başa çatdı. Məscidin sökülüb-tikilməsi 3 ay çəkdi. Uğurlu nəticə idi. Böyük olan Allahın köməkliyi ilə, xeyirxah insanların, kənd camaatının, uşaqların kənardan köməyə gələnlərin gücü ilə bu iş görüldü.

Taxta materialını ilk dəfə Hacı Əhmədağa o vaxtkı UPTK-nın müdiri ehsan edib: 2,5 kub! O da xeyriyyəçi hacılardan idi. Hətta Lənkəranın girəcəyində bir məscid də tikdirib.

Tamasa üçün 3 mm qalınlıqda taxta vuruldu. Qapını usta Fəyyaz qurdu, düzəltdi. Qapı salınıb, ban vurulub pəncərə isə hazır deyil. Sual olunar: nə səbəbə? Ona görə ki, məscidin pəncərələri şəbəkəli idi. Şəki xan sarayının pəncərələri kimi. Memar Miriş bizə 25 kub.m. Ərkivan hərəxanasından Qızıl göz ağac aldırmış və Respublika bərpaçı idarəsinin Binəqədi qəsəbəsində olan sexinə göndərmişdi. 1991-ci il fevral ayının 2-də mən, Məhəmməd Sadiq və Valeh Məşhədə VIII İmam Rza (ə)-ziyarətinə getdik. (Qızılağacda ilk dəfə Məşhədə gedən bu şəxslər olublar). Biz orada Allaha məscidimizin tikintisində hər növ fəaliyyəti olanlara çoxlu dualar etdik.



*Məşədi Məhəmməd Sadiq, Hacı İbrahim Füladi (İran), Məşədi Nüsrət və Məşədi Valeh (Məşhəd ziyarəti), 1991-ci il.*





**Haşiyə:** Məşədi Valeh 1991-ci il fevralın 2-də Sovet quruluşu dövründə Qızılağac kəndindən ilk dəfə on bir yaşında Məşhədə gedən uşaq olub. 1991-ci il fevral ayının 6-da Təbriz şəhərində İmam Cümə Ayətullah Mələkutinin yanında olarkən ona Quran oxutduraraq, "Şurəvi"dən gələn bu uşağa böyük rəğbət bəslədi. Ayətullah Mələkuti müavini ağayi Çauşini çağırtdırıb ona göstəriş verib dedi: Təbriz şəhərinin radio, televiziya şirkətinin müdiri ağayi Fətəbadini mənim yanıma çağır gətizdir. Ağayi Fətəbadi gələndən sonra Ayətullah Mələkuti Məşədi Valehin səsini yazmağı və onun haqqında veriliş səsləndirməyi tapşırdı. Həmin verilişi mart ayının 14-də Təbriz şəhərindən Azərbaycan dilində səsləndirdi. Ağayi Mələkuti Məşədi Valehi öz yanında saxlamaq istədiyini bildirsə də, müəyyən səbəblərə görə saxlamadıq. Hətta Məşədi Valehin İmam Rza (ə)-ın barrigahında Qurandan Sureyi-Rəhmanı oxumağına ziyarətdə olanlar böyük maraq göstərdilər, çünki, o, SSRİ-dən gəlmişdi.



*Məşədi Valeh.*

Kəndə fevralın 14-də gəldik. Məsciddə iş getmirdi. Mirişlə əlaqə yaratdım. Pəncərə haqda sual eylədim. Dedi: çətin işdi, hələ hazır deyil. 1991-ci ilin iyul ayında banın taxtalarını vururdular. Ancaq pəncərədən xəbər yoxdu. İltifat müəllim işdən çıxarılıb. Miriş də kəndə gəlmir. Avqust ayında Nağıyev Əhmədin hüzr məclisinə İltifat müəllim də gəldi. Mən dedim: kaş 3-4 ayda Allah möhlət verəydi siz işləyəydiniz, bəlkə, pəncərənin işi tamalanaydı. İltifat müəllim dedi: Məşhədi Nüsrət, Allah elə edər ki, bir başqa şəxsi o işi görməkçin sizə rast edər. "Nəfəs haqdan gələr" - deyib atalar. Mirişə narazılıq etmək üçün Türkobaya getdik. O dedi: - Məndən asılı deyil, idarə gecikdirir. İltimas Rəsulovu Musa Abıyevlə o idarəyə göndərdim. Onlar gəlib dedilər, pəncərə üzərində iş gedir, bu yaxınlarda hazır olar. Bir ay keçməmiş xəbər gəldi ki, gəlin, pəncərəni aparın. Əli Abdulla oğlu Bakıda "Mebel" daşıyan maşında işləyirdi. Bir neçə dəfə o həmin sexə pəncərə ilə əlaqədar getmişdi. Əli kişi kəndə gələndə dedik: pəncərə hazırdı, onu gətirmək lazımdı. O dedi: Baş üstə! 3 gündən sonra çoxdan intizarla gözlədiyimiz pəncərələr gəlib çıxdı.

Səhəri gün Mirişə xəbər eylədik. Miriş gəldi. Pəncərəni yerinə qoymaq üçün ustalara göstəriş verdi. Bazar tərəfdəki pəncərəni qoydular. Gördük ki, pəncərə tağ formasında deyil. Ona görə də yuxarı hissədən baca əmələ gəldi. Dedim: Miriş, belə niyə? O dedi: Zərəri yoxdur. O yerə balaca gözlük qoyaram. Dedim: sən memarsan özü də vəd vermisən elə bina tikəcəyəm ki, nöqsanı olmasın. Bundan böyük nöqsan! O mənə əhəmiyyət vermirdi. Məscidin həyətinə yığılanların müdafiəsi ilə pəncərəni yerinə otuzdurdu. Mən məscidin arxa tərəfinə keçdim. Vidadi Sadıqov maşını ilə orada idi. Dedim: Vidadi, get Məşhədi Məhəmməd Sadiqi gətir. 10 dəqiqə çəkmədi ki, Məhəmməd Sadiq gəldi. Mən ona dedim: o pəncərə nöqsanlıdı, qoymaq olmaz. O gəldi, amiranə halətdə, sökün bu pəncərəni, dedi. Məşədi Məhəmməd Sadiqin əməyini





xüsusi qiymətləndirmək vacibdir. Çünki o bu işdə mənə həm köməkçi, həm də Allah yolunda dayaq dururdu. Hər hansı işi tapşırsaydım 65 yaşına baxmayaraq, onu layiqincə yerinə yetirirdi. Allah razı olsun! Miriş nə qədər fənd işlətdisə, baş tutmadı. Mirişə dedi: get necə var, o vəziyyətdə qurdur. O getdi, pəncərəni də apardılar. Nə Miriş gəldi, nə pəncərə. Biz bir neçə gündən sonra Türkobaya getdik. Sərraf Nurəliyevi (partiya nəzarət komitəsinin sədri olub) gördük, Mirişin qaynatası idi. O da bizlə Mirişgilə gəldi. Dedi: Miriş, qızılağaclılar mərddirlər, onların işini gördür. Miriş dedi: Sərraf müəllim, işi gecikdirən Binəqədidəki sexin işçiləridir.

*Sən insanlıq naminə*
*Yandırasan bir od ocaq.*
*Sən Allahınla olsan,*
*Allah sənlə olacaq.*



*Məscidin qarşısındakı küçə.*

Miriş çoxdan idi kəndə gəlmirdi. Bir gün dedilər: məşhədi Nüsrət, Miriş səni axtarır. Mən onunla görüşdüm. Mənə dedi:

Məşhədi, Əsli Qızılağacdan olan Malik kimdi. Mən tanımadım. Dedim: atasının adı nədir? Dedi: Əsəd. Soruşduq, dedilər o molla Əsədin nəvəsi Ağababanın oğludur. Deyəsən, iş ilahi köməkliyi ilə yoluna düşür. Ay Miriş, bu adamı niyə soruşdun? Dedi ki, onu Respublika Bərpaçı İdarəsinə müdir veriblər. Çox tələbkar adamdır, inan. kiçik nöqsanı olana da hörmət eləmir. Məni ona tapşırın. Artıq İltifat müəllimin dediyi xeyirxah insan peyda oldu. Əliyusif Ağayevin dayısı oğlu olan Malik haqda ondan soruşduq. O dedi: bu yaxınlarda oğlum Rahimin toyuna gələcək onda görüşərik. Elə də oldu, o toya gəldi. Onunla tanış olduq.



*Məscidin arxasındakı küçə.*

Fikrimizi ona çatdırdıq, tapşırdı arxayın olun dediyiniz iş tezliklə başa çatar.

***Şərəf hər kişiyə qismət olmayır.***
***Susuz quyu su tökməklə dolmayır***
***Sənin tək insanın gül əməlləri***
***Yaz kimi qışda da açır solmayır.***





Bəli Molla Əsəd kimi onun da nəvəsi xalqa xidmət etməyi özünə borc bildi. Bir neçə gündən sonra Miriş kəndə gəldi, dedi: məşhədi Nüsrət, bu yaxınlarda pəncərələr hazır olacaq. Malik müəllim elə göstəriş verib ki, ustalar bir an o işdən əl çəkmirlər. O böyüklükdə sexin işçiləri həm Şəbistan arakəsmələrini həm də pəncərə şəbəkələrini qururlar.

Nəzmdəki fikir bunu təsdiq edir ki, Malik vaxtilə babası Molla Əsəd və onun atası Molla Fətullanın islamı təbliğ etdiyi köhnə məscidin təzə işlərini görür. Əziz oxucu, tale elə gətirdi ki, Malik də babaları xidmət göstərən məscidin bərpa işində iştirak etdi:

***Müqəddəs əməllər icrası üçün***
***İstəyə, eşqə dal Allah sənlədir***
***Mütləq gəlməlidir səadətli gün***
***Sən Allahınla ol, Allah sənlədir.***

Babası Molla Əsəddən gəlib çatan xeyirxah əməllər ona gözləmədiyi bir savabı qazandırdı.

Az vəqt içərisində xəbər gəldi ki, pəncərələr hazırdı. Əli Abdulla oğlundan yenə xahiş elədük getsin onu gətirsin. Onun sürdüyü QAZ-53 markalı maşının üstü bağlı idi. Ancaq "Mebel" daşımaq üçün idi. Ona deyiblər ki, üstü açıq maşın göndərsinlər. Əli Abdulla oğlunun xeyirxahlığı çox olub. O da bir neçə dəfə məscidin həyətində el üçün ehsan verib. Hətta Məscidə "Çinar" markalı soyuducu da ehsan edib. Atası da Molla Abdulla çox natiq idi. Uzun müddət mərsiyəxanlıq və mollalıq edib. Nadir İsmayıl oğlu Əliyevin pəncərələri gətirməyə getməsini məsləhət gördük. O idarə etdiyi QAZ-53 markalı maşınla pəncərə və şəbistan arakəsmələrini gətirdi. Pəncərələr və arakəsmələr indi məsciddə olanlardır. Şəbəkəlidir, gözəl memarlıq əsəridir. Əziz oxucu bu müxtəlif yazılarda gördün ki,

xeyirxahların nəsib olmasına Allah öz evinin tikintisi üçün necə istəkli, məhəbbətli, səxavətli insanlar qismət etdi.

Onu da nəzərinizə çatdırım ki, pəncərələrin də düzəldilməsi üçün pulu Mədəniyyət Nazirliyi verib. Məscidin yerinə döşəmək üçün 16 min ədəd Masallı yerli kombinatından qırmızı kərpic aldıq. Tini üstə şahmat qaydada düzdürdük.

***MƏSCİDİN QABARİT ÖLÇÜLƏRİ***

***Məscidin uzunluğu 25 m, eni 9,5 m***
***Yerdən səkiyə hündürlüyü - 1,4 m qabaq tərəfdən***
***Səkidən tavana qədər hündürlüyü - 5 m 80 sm***
***Arxa tərəfdən yerdən səkiyə qədər hündürlüyü - 1,0 m***
***Səki bərabərliyində 18 mm-lik armaturdan kəmər atılıb.***
***Pəncərə üstündən də armatur kəmər atılıb.***

Günbəzi onun üstünə qoymaq üçün məscidin banında 4 ədəd 11 m 50 sm uzunluğunda şalban dayaqlar qaldırılıb. Günbəzi məscidin həyətində yerdə usta Fəyaz düzəldib. Sonra "Dnepr" markalı, yükü 25 m hündürlüyə qaldıra bilən qaldırıcı kran ilə yerinə qoymuşuq. Kranı idarə edən Lürən kəndindən olan Mir Səftər idi. O bizim üçün həm də məscidin içində olan sütunları və atmaları da qaldırmışdı. Allah razı olsun! Gümbəzin hündürlüyü məscidin banından gümbəzin axırına kimi 14 metrdir. Məscidin ümumi hündürlüyü günbəzin üstünə qədər 21 metrdən çoxdur. Həqiqətən də qarağac hündürlüyü qədər oldu. Mən hər sübh orucluq günlərində (onda işıqlar həmişə yanardı) məscidə gedib mikrafon qoşub azan verərdim. İlk dəfə məscid tam hazır olanda 1993-cü ildə məhərrəmlik mərasimini orada keçirtdik. Gələnlər o qədər olurdu ki, deyirdilər yer olmaz. Ancaq məscid böyük olduğu üçün hamı yerləşirdi. Şəbistanda qadınlar əyləşirdilər. Ordan məclisə qulaq asırdılar.







***Məscidin içərisində mənbər.***

Oruc tutanlar çoxalır, namaz qılanların sayı artır, dinə maraq yüksəlir. Lakin kənd camaatı yenə də Molla üçün kənara gedirlər. Nəhayət camaat mənə təkid etdi ki, kəndin dini işlərinin icrasına yəni mollalığa başladım. Yavaş-yavaş kənddə quran oxuyanlar, məclis aparanlar yetişdirdik. Artıq həyatda dönüş yaranıb, hamı xeyirxahlığa maraq göstərir. Bu xeyirxahlığı gərək insanlara bəyan edəsən. Qoy bilsinlər ki, xeyirxahlıq hara nə sərf edib və insanlar ondan nə kimi fayda götürüb.

Aslan Fətullayevin qardaşı Ağacəfərin hüzr məclisində Həsənin oğlu Rahim, mənim əxlaqi-tərbiyəvi xeyirxahlıq haqqındakı söhbətimə qulaq asandan sonra məndən sual eylədi. Mən

cavab verdim. Gördüm onun niyyəti nə isə bir iş görməkdi. Mən ona məscidin arxa tərəfinə armaturdan çəpər tutmağı məsləhət gördüm. O da icra eylədi. Sağ olsun. Məscidin gün çıxan tərəfi hasarsız idi. Buna görə də həyətin təmizliyini qorumaq olmurdu. 1995-ci ildə Məhərrəmlikdən yığılan pula kubik daş aldıq ki, çəpər çəkək. Ancaq çoxları müqavimət göstərdi. Biri dedi: mən burda dükan salacağam, biri dedi: maşın saxlayacam. Nə isə mən bənnaya ipi çəkdirdim. Əlində bıçaq ipi kəsməyə bir nəfər gəldi. Onu da öyrətmişdilər. Bu vaxt Abışov Məmmədin oğlu Azər onu söykədi divara bir dənə yumruq vurdu. bununla da iş qaydasına düşdü. Heç kəs artıq narazılıq etmədi. Belə də lazım imiş.

*Bismillahla başla bütün işini*
*Allah qarşısında acizdi bəndə*
*Tövbə et, at nə var pis vərdişinin*
*Əvəzin alarsan əbədiyyətdə.*

Tövbə et qardaş, tövbə et, qayıt haqq yoluna. Çünki bu yoldan başqa yol yoxdur. Nəhayət, hasar tamamlandı, yol məscidin həyətinə darvazadan idi. 1982-ci ildə Məscidin qabaq tərəfinə çay daşından hasar çəkmişdilər. Bu hasar çox hündür idi. Ona görə ki, sovxoz idarəsinə giriş - çıxış məscidin qarşısından idi. O qorxulu vaxtlarda sovxoz idarəsinə gələnlərin məscidi görməməsindən ötəri hasar hündür çəkilmişdi. Məscidin həyətində əvvəllər neft saxlanarmış. Bunun ucbatından indiki dəstəmazxananın yerində olan iki ədəd böyük qaragac ağac yanıb. Məscidin həyətində çayxana olub. Dəlləklər baş qırxarmışlar. Bunlar hamısı məscidə zəif münasibətdən əmələ gəlirdi. 1981-ci ildə hasar çəkiləndən sonra çayçını da ordan götürdülər. Məscidin həyətində quyu qazıldı. Həmin illərdə suyu kəmşirindi.

Allah evinin qarşısında çox iş görülməlidir. Bütün bunlar hamısı mənim planımda var, ancaq insanlarda maraq oyatmaq la-





zımdır... Gələcək nəslin bizi hansı cəhətdən öyrənəcəyini deyə bilmərik. Odur ki gələcəyin önündə üzü ağ olmaq üçün işimizi qəlbimizin səsinə uyğun qursaq, daha yaxşı olar. Məscidin həyətindəki su qülləsi Ədalət Babayevin xatirəsinə qardaşı Şahbaz tərəfindən qurulub.

Əziz oxucu, heç də bu işlərin görülməsi asanlıqla həyata keçmir. Çoxlu müqavimətlərə, tənələrə, təsirlərə məruz qala bilərsən. Lakin bundan qorxmaq, çəkinmək lazım deyil. Allah xatirinə el üçün görülən işlərə görə təzyiqlərə məruz qalsa da belə axırda yaxşı olur.

Necə ki şair deyib.

*Hərzə danışanın, hərzə gülənin*
*Dünyanı əyləncə, oyun bilənin*
*Qafil yaşayanın, qafil ölənin*
*Sönük imanına yazığım gəlir.*

Xeyir işlərə təzyiq göstərənlər həmişə yanılıblar. Həyatda qafil yaşayanlar sönük iman sahibi oldular. Qoy həmişə xeyir işə müdaxilə edənlər bu yazıları oxuyub nəticə hasil eləsin. Bilsin ki, yaxşı insanlar xatırlanır. Əməlləri onları yaşadır.

İmanı zəif olanlar yarasanın işıqdan acığı gəldiyi kimi, imanı zəif olanlar da xeyirxahlıq qarşısında acığa düşür. Onların acığı gəlsə də, işlər xeyirxahların köməyi ilə öz qaydasında gedər. 1990-cı ildən indiyə qədər az müddətdə kəndimizdə belə iri həcmli işlər görülməyib.

Mədrəsə tikintisi, dəstəmazxana, məscidin ətrafının hasara tutulması, məscidin bərpası böyük inkişaf mərhələsidir. Alqış yaradan əllərə. Belə də olmalıdır. Axı əcdadlarımız da xeyir əməl sahibləri olublar. Kəndin abadlıq, quruculuq işlərinə fikir veriblər. İnsan öz əcdadının işini davam etdirməsə gələcəyə xoş məramla baxa bilməz. Gələcək nəsil sual edər: bizə nə çatdırmısınız? Nə ibrət dərsi qoyubsunuz? Sual etməyə haqları var. Nə iş görülüb bizə çatdırılıbsa, biz də onun əlamət nümunələri-

ni gələcək nəslə bəxş etməliyik ki, onlar bu işlərdən təsirlənsinlər və xeyirxahlıqdan nümunə götürsünlər. Məhz bu indiki işlər gələcək nəsil tərəfindən həyata daha da yeni xeyirxahlığın bəxş olunmasına əsas olacaqdır.

*Yaşamaq yanmaqdır yanasan gərək*
*Həyatın mənası yalnız ondadır*
*Şam əgər yanmırsa, yaşamır demək*
*Onun yaşamağı yanmağındadır.*

İnsanın yaşamağı onun axirətinə gərək xeyir versin.

Deməyin ki, bizə fəaliyyət meydanı verilməyib. Hər kəsin həyata münasibəti onun üçün fəaliyyət meydanı deyilmi? Bu fəaliyyət meydanıdır, axirət üçün bu həyatdan gərək bəhrələnəsən.



*Məscidin qarşısındakı küçə.*





## YARADANLAR YAŞAYIR

**Allah təala o kəsləri ki iman gətiriblər və saleh əmələ əncam verirlər, onları behişt bağlarına daxil edər ki, içlərində çaylar və sular axır. Orda qızıl ziynət alət və mirvarid onlar üçün halal və azad olar. Onların paltarlaı behiştdə xalis ipəkdən olar.**

**(Qurani Kərim Həcc surəsi 23 ayə)**

Qızılağac kəndinin əhalisi həmişə dini və dünyəvi elmlərə maraq göstərənlər sırasında olub. İlk dini təhsil verən elm mərkəzi əvvəllər mədrəsələr idi. 1800-cu ildən bəri çoxlu mədrəsələr tikilib. Bizim kənddə Hacı Həsənağa mədrəsəsinin yerində mədrəsə olub. Biz gözümüzü açanda o mədrəsənin yerində voleybol meydançası, sonra yay kino klubu görmüşük. Ağsaqqal ata və babalarımız, ağbirçək ana və nənələrimiz mədrəsə haqda söhbət edəndə çox maraqla qulaq asardım. Bəs necə oldu o bina yox oldu? Keçmişə nəzər salaq. Dinə və dindarlara Şura hökuməti tərəfindən təqiblər, təzyiqlər olan vaxtlarda mədrəsə də nəzərdən yayınmadı. İlk öncə dərs deyən din xadimlərini, dindarları məhv etdilər. Binanı sahibsiz qoydular. Nəhayət, 1937-ci ildə mədrəsəni sökməyə başladılar. Elə etdilər ki, bir işartısı da qalmadı. 1961-ci ildə onun yerində, nəhayət, yay kino klubu tikdilər. Klub məscidin onsuz da kiçik olan həyətini daha da kiçiltmişdir. Nə böyük qəbahətli iş! Bir tərəfdə Allah evi o biri tərəfdə şəriətə zidd olan işlər! 1985-ci ildən sonra məscidlərin qapıları mömünlərin üzünə açıldı. Tək-tək namaz qılanlar məsciddə olardı. Kino səsi də həmin zaman ətrafa yayılardı. Heç cür imkan olmazdı ki, namazı sakit qılasan. Nə isə...

***Özgənin dilini öyrənməyə nə var! Oğulsansa öz dilini özgəyə öyrət!***

Rəhmətlik Ağa Rəsul Mir Möhsi oğlu deyərdi: biz uşaq idük, gəlib mədrəsənin qarşısında verilən ehsana, gəlib gedənlərə baxardıq. Onun səkisi bir metrdən yuxarı idi. Ağa Rəsul çox iman-

lı, təmkinli, öz yerini bilən, həmişə barışdırıcı mövqedə duran şəxs idi. Allah ona rəhmət eləsin. İndi də onun övladları ata yolunun davamçılarıdırlar. Həyatda min bir yol var. Onlardan yalnız biri düzdür. Gərək hər bir insan bu yolu getsin.

Bəli zaman dəyişir, mövcud olanlar bəzən sökülüb məhv edilir ki, heç kəs bu haqda məlumata malik olmasın. Mən yeni Hacı Həsənağa mədrəsəsinin tikilmə səbəblərini və əvvələ qayıdış yolunu möhtərəm oxuculara bu kitab vasitəsilə çatdırıram. Ona görə ki, gələcəkdə, bəlkə, bu yazılardan təsirlənən oxucular da öz imkanı çərçivəsində xeyirxahlıqlar eləməyə çalışarlar.

***Həyatda pisliklər yaranmasaydı***
***Dünya başdan-başa cənnət olardı.***
***Həqiqət qiymə tək doğranmasaydı***
***Bəşər hürüləşmiş xilqət olardı.***

Əgər hər hansı xalqa məxsus tarixi işlər yazılmasa, bir neçə on illərdən sonra unudular, yeni nəsil məlumata malik olmaz... Böyüklüyü o adam qazanar ki, xarici təsirlər ona diktator yox , müəllim olur.

1994-cü il mart ayının 30-u idi. Qızılağac kənd sakini Sona Məşhədi Qəni qızının hüzr məclisində mən molla idim. Qarşıdan həcc mövsümü gəlirdi. Mən söhbəti, moizəni tamamlayıb dua edəndən sonra fatihə dedim. Məclisdəkilər yerindən durmadılar. Mən məclis iştirakçılarına müraciət etdim: bəlkə sualınız var?

Məclisin orta bərabərliyində əyləşən şəxsin səsini eşitdim. Adam çox idi. Müraciət edəni dəqiqləşdirə bilmədim. Dedi: Molla, Həcc mövsümü qaydaları haqda xahiş edirəm söhbət edəsiniz. Mən müctəhidin yazdığı ardıcıllığı vacib və müstəhəbbi əməllərin fəzilətini söylədim.





Hətta bu hədisi danışdım.

Bir gün peyğəmbər (ə) xidmətinə dövrün imkanlı adamlarından biri təşrif buyurur. Salam edir. Salamdan sonra buyurur ki, ya Rəsul Allah, mən çox dövlətli, imkanlı adamam. İstəmirəm Həccə gedəm. Həccə sərf ediləcək pulu imkansızlara, abadlığa sərf etmək istəyirəm ki, həccin savabı mənə çatsın. O həzrət buyurdu: nəzər et, bu dağın ağırlığı qədər qızılı Allah yolunda xərc edəsən, bir həccin savabını qazana bilməzsən. Məkkəyə həcc günlərində ilahi tərəfindən 120 rəhmət bəxş edilir. Onun 60-ı təvaf edənlər üçün, 40-ı namaz qılanlar üçün, 20-si isə Məkkəyə nəzir edənlər üçündür. Həcc ziyarətində bir rəkət namaz, Hərəmi Məkkədə 100 000 rəkətin bərabərindədir. Bir şəxs 100 dirhəm təsəddüq eləyə, o da 100 000 dirhəmin müqabilindədir. Qeyri yerdə xərc olunan 100 000 dirhəmdən, həccdə xərc edilən bir dirhəm yazşıdır..

Mən söhbətimi bitirəndən sonra hiss etdim ki, söhbətim sual verən şəxsə yaxşı təsir bağışlayıb. O şəxs gözəl insan, səmimi, qayğıkeş, mehriban rəftarı ilə tanınmış, Bakı şəhərində yaşayan həmyerlimiz Həsənağa Hüseyn oğlu Mustafayev idi. O dedi: Məşhədi Nüsrət, sual etməkdə məqsədim var. Dedim: bilmirəm fikrimi sizə çatdıra bildim, ya yox. Ancaq məqsədini bilmirəm. Molla, mən razı qaldım. İnşaallah məclisdəkilər də razı qalar. Mənə sözün davam etdirərək dedi: mən Həccə gedəcəyəm, qardaşım Rafiqi də özümlə aparacağam. Məşhədi, mənim bu qardaşım Rafiq xəstə idi. Mən Allahla razi-niyaz eylədim. Dedim: ilahi, qardaşım sağalsın, onu da Həcc ziyarətinə aparım. Həcc mövsümünə qədər sağaldı. İndi onu da Həccə aparıram. Məşhədi Nüsrət, həccə Bakıdan gedəcəyəm. Ancaq qayıdanda kəndə gələcəyəm, birbaşa qurban kəsib ehsan verəcəyəm.

**Haşiyə**: Həsənağa hər il el üçün böyük ehsan verər. Bakıda bəslədiyi 120-140 kq çəkidə cöngə gətirib kəsərdi. Çadır qurub bütün camaatı ehsana dəvət edərdi. Ehsana gələ bilməyən

adamların da siyahısını verərdim, evlərinə ət göndərərdi. Ehsanda quran oxunar, röza deyilərdi ehsanda. Bu ehsan vermək bir neçə il idi ki, icra olunurdu. Allah qəbul eləsin. Dedim: Həsən, (el içində Həsən çağrılırdı, sənəddə isə Həsən ağa idi) hansı ehsanı istəyirsən əbədi yadda qalan ehsanı yoxsa müəyyən günlərdən sonra yaddan çıxan ehsanı? Dedi: Əvvəllər necə ehsan verirdimsə, elə də davam etdirəcəyəm. Mən əksəriyyəti kənd camaatı olan məscidə müraciət etdim. 1993-cü ildə Hacı Həsənağanın verdiyi ehsan barədə bir neçə sual etdim, gördüm ki çox şey unudulub. Dedim: üstündən bir il keçib. Ehsanda olanlar nə yediyini də unudublar. 1990-cı ildən qabaqkılar heç yadda qalmaz. Odur ki, Həsənağa, inşallah həccdən gələndən sonra əgər mənim təklifimi qəbul eyləsən özünə əbədi ehsan etməyi rəva bil! Soruşdu: əbədi ehsan nədir? Dedim: Həsənağa, ehsana xərc edəcəyin pulun üstünə bir az da pul qoyarsan. Məscidin həyətində yay klubunun yerində vaxtilə mədrəsə olub. Onu tikdirərsən. O tikinti sənin üçün əbədi ehsan, axirətin üçün isə mənfəətin olar. Həsənağa dedi: Məşhədi Nüsrət, mən bu təklifi qəbul edirəm və alqışlayıram. Söz verirəm ki, həccdən qayıdandan sonra inşallah ehsan da verəcəm. Mədrəsə də tikdirəcəm.

**Haşiyə:** Məscid barədə təklifim Sona adlı qadının hüzüründə qəbul olunmuşdu. Mədrəsə barədə təklifim də Sona adlı digər bir qadının hüzr məclisində qəbul olundu. Allah hər ikisinə rəhmət eləsin. Bəli, tarixi keçmişimizi təzələmək üçün ümid var. Mən yenə də xeyirxahlıq haqqında, xeyriyyəçilik haqqında hədislər dedim. Hətta Hacı Zeynalabdinin (h) Nəcəf şəhərindəki Əli (ə) Əbəlfəzl (ə) İmam Hüseyn (ə) barigahlarına verdiyi çilçıraqlardan söhbət açdım. Mən və məclisdə olanlar qardaşların ziyarətinin qəbul olunması haqda Allaha dua etdik. Həsənağa və Rafiq qardaşları Bakıda yaşadıqlarına baxmayaraq, kəndin xeyirşərində iştirak edirlər. Qardaşları Afiq müəllim və Telman kimi!





Günlər keçdi. May ayında Hacı Bədəlin nəvələrini, sovet quruluşu dövründə Qızılağacın ilk hacılarını kənd camaatı qarşıladı. Biz rəhmətlik Həsənağa ilə onun ziyarətinə getdik. Bizi görən kimi hacılar qarşımıza gəldilər. Ziyarət eylədik. Ağaya azan verən saat və səccadə, mənə də səccadə və möhür hədiyyə eylədilər. Ziyarət məqamları haqda sorğu-suala başladıq. Gələnlərə çox maraqlı söhbətləri ilə məlumat verirdilər. Adamın iki məntiqi olur: istəyin yerinə yetirilməsinə qədərki və ondan sonrakı dövrün məntiqi.

Allah təala Quranda Həcc surəsi 27-ci ayədə buyurur: "İnsanları Həccə çağır ki, onlar sənin yanına piyada və hər uzaqyoldan hər cür miniklə gəlsinlər". Bəli, indi Həcc ziyarətinə hər cür nəqliyyatla gedirlər. Amma Hacı Bədəl 39 il mütəmadi Həccə atla gedib. Hacı Bədələ Həcc ziyarəti üçün 1901-ci ildə çarın şəxsi icazəsi ilə ömürlük "viza" verilmişdi . O 39 il Həccə gedənlərə bələdçi olub. Bu özü də böyük məharət və məhəbbətdi. Hacı Bədəl, Hacı Həsənağa və Hacı Rafilin ata babalarıdır. Hacı Bədəldən sonra Qızılağac kəndindən Həccə gedənlər məhz onun nəvələri olmuşdur. Oğulların ata babalarının yolunu getməsi böyük şərəfdir. Qızılağacın indiki dövrünün ilk Hacıları ilə söhbət edəndən sonra Hacı Həsənağa dedi: Məşhədi Nüsrət, sabah ehsan verəcəyik. Məscidi tikən memar Mirişi gətirmək lazımdır ki, mədrəsənin bünövrəsini nişanlasın. Səhəri gün ehsandan sonra Miriş və Asəf Cəfərov mədrəsə yeri üçün nişan vurdular. Memar Miriş mədrəsə və məscid binalarının simmetriya qaydası ilə qurulmasını əsas götürərək indiki vəziyyəti qoruyub saxladı. Həmin gün heç də hamı bu işi yaxşı qarşılamadı, narazılıq edənlər də oldu.

***Əgər olmasaydı pislik dünyada***
***Dünya insanlara heyran olardı***
***İnsan əyilməsəydi şöhrətə, ada.***
***İnsan mələklənmiş insan olardı.***

*İndi ki ilan tək sürünür əngəl*
*Ellər ziyalansın nur çırağından*
*Pislər ki pislikdən götürməyir əl.*
*Sən də əl götürmə yaxşılığından.*

Ancaq onların narazılığı nə özlərinə fayda verdi, nə də əməllərinə. Gözlər o nöqtəni dərk etmişdir ki, orda ümid çırağı olsun. Bu mədrəsə ümid çırağı bəxş edən bir məkandır. Gələcəkdə bəhrəsini görəcəyik. İnşallah.

Həmin dövrdə Zakir Abışov icra hakimiyyətinin yerli nümayəndəsi, Məmmədov Natiq Qüdrət oğlu isə sovxoz direktoru idi. Onu da qeyd edim ki, Zakir Abışov işlədiyi müddətdə kəndin dindarlarına və xeyir əməl sahiblərinə həmişə öz köməkliyini göstərib. Hüzr məclisi üçün çadırın köhnə ləvazimatları məhz onun rəhbərliyi ilə təzələndi. Az vaxt ərzində onun təşkilatçılığı sayəsində işi tamamlatdıraraq, çadırı istifadəyə verdi. Mədrəsənin bünövrə işi başlayanda çağırdıq onlar da gəldilər. Bu təşəbbüsü alqışladılar. Növbəti gün hörgü işi görülürdü. Həmin gün rəhmətlik Tofiq Ələkbərov Bəbir oğlu Zakir Abışov gilə gəlmişdi. O, öz işini bilən inşaatçı idi. Zakir müəllimi gözləyirdi. Mən ondan xahiş etdim, bir təcrübəli inşaatçı kimi, görülən işlərə öz münasibətini bildirsin. Ona məqsədi bəyan eylədim. Çox sevindi və dedi ki, öz hesabına tikirsə, sağ olsun, xalqın xeyrinə görülən işdir. Molla, işi görən kimdir? - deyə mənə müraciət etdi. Dedim: Asəf Cəfərov və Mirişdir. Dedi: onların işinə ancaq baxıb zövq almaq olar, nəinki onlara göstəriş vermək. Hər ikisi gözəl mütəxəssisdirlər. Bəli, Tofiq Ələkbərov təvazökarlıq göstərib başqasının əməyinə yüksək qiymət verməyi bacarırdı. Bu, onun insanlıq keyfiyyəti idi.

*Bircə igidlik var - insanilik*
*Bircə gözəllik var - insanilik*
*Bircə həqq var - insanilik*
*Bircə istedad var - insanilik*





*Bircə elm var - insanilik*
*Bircə varidat var - insanilik*
*Bircə ölməzlik var - insanilik*
*Bircə gələcək var - insanilik!*

O gəlib işə uğurlar dilədi və Hacı Həsənağaya minnətdarlığını bildirdi. Bəli, insan gərək başqasının əməyinə qiymət verə bilsin. Təkəbbür və riya mövqeyində durub mənəmlik etməsin. İnsan dahi də olsa, zərrə qədər riya və təkəbbürü varsa onun dahiliyi fayda verməz. Allah təbarək və təala Davud peyğəmbərə (ə) nida yetirdi, ya Davud (ə), mömini qorxuz, kafərə müjdə xəbəri ver. Səhər Davud (ə) fikrə getdi. Özü-özlüyündə dedi: mömini necə qorxuzum? Halbuki o, mömindir. Kafər də günahkardır ona müjdə xəbəri necə verim? Axşam yatdı. Aləmi röyada yenə nida yetişdi, ya Davud (ə), bildinmi o dediklərimizi! Davud (ə) dedi: Mən bilmədim, sizsiniz alim. Allah buyurdu, ya Davud (ə), mömin arxayın olar, günah edər, mömünlükdən uzaqlaşar. Kafərə də müjdə xəbəri ver ki, Allahın rəhmətindən naümid olmasın. Bir iş görər, mömin olar. Odur ki, uzaqgörənlər bu tikintini alqışladı. Bədxahlar hər vasitə ilə müdaxiləyə səy göstərdi, ancaq səyləri fayda vermədi. Mənə həmin vaxtlarda xəbər verdilər ki, axşam müxalif qüvvələr bir yerə yığışıb qərara gəlmək istəyirmiş ki, bu işi ləğv etsinlər. Məqsədləri də bu olub ki, guya tikinti yolu kəsir. Allah rəhmət eləsin İltimas Rəsulova. Onu da çağırırlar, bu işə qarşı çıxış etməyi məsləhət görürlər. İltimas rəhmətlik işdən hali olandan sonra soruşur: Hacı Həsənağa o binanı kimin üçün tikir. Özü üçün, ya xalq üçün? Onlar deyirlər: xalq üçün. Deyir: əgər xalq üçün tikirsə, buna görə ona “sağ ol” deməliyik, nəinki yolu bəhanə gətirib işi pozmaq. İndi mən sizə müraciət edirəm: o, sizdən bir kömək istəyir? Deyirlər: yox. Onda elə isə siz gedin o mərkəzi yolun üstündə öz pulunuza kiçik xalqın istifadəsi üçün lazım olan bir bina inşa edün, görüm sizə kim nə deyə bilər.



*Mədrəsənin ümumi görünüşü.*

Onlar deyirlər: biz pulumuzdan bezmişik? Rəhmətlik İltimas deyər: oturun yerinizdə, əcəb eləyir tikir. Sağ olsun! Allah atasına rəhmət eləsin. Bizim balalarımız üçün kişi o qədər xərc çəkir. Ancaq siz ona maneçilik eləmək istəyirsiniz. İltimas rəhmətliyin bu sözündən sonra müxaliflər susdu, mane törədənlərin səsi kəsildi. İş davam etdirildi. İmam Hüseyn (ə) buyurub: ***Allah ilk vacib işlərdən birini yaxşılığa əmr etmək və pisliklərdən çəkindirməyi buyurmuşdur. Çünki Allah bilir ki, bu iki ilahi fəzilətin yerinə yetirilməsi digər vacib işlərin (istər çətin, istərsə də asan) görülməsini asanlaşdırır. Səbəb budur ki, yaxşı işlərə əmr etmək və pis işlərdən çəkindirmək bütün insanları İslama doğru dəvət edər, haqq sahiblərinin hüquqlarını özlərinə qaytarar və zülm edənlərlə müxalifət edər.*** Keçmiş ağsaqqalların Mədrəsə haqda dedikləri yadımda idi. Bina 5 daş üstündə quruldu, dama (ban) kimi isə 72 kərpic hündürlüyü hörüldü. 5 daş, 5 kimsənə 72 kərpic, 72 şühəda rəmzidir. 1-ci mərtəbəni usta Nizam və Davud işlədi. Onu da deyim ki, Hacı Həsənağa gəlib camaatın içində mənə dedi, Məşhədi Nüsrət, al bu pulları, tikintidə işləyən





fəhlələrin haqqını verərsən. Dedi nə qardaşım Afiq müəllimə verirəm, nə də Telmana. Bütün iqtisadi təminat işləri və rəhbərliyi sənə həvalə edirəm.

***Ağıllı adamla oturub-duran***
***Ağıldan, şüurdan alar bir nişan.***
**(Nizami)**



*Hacı Həsənağa.*

Bir gün bir damla dəryaya düşdü. O ümman müqabilində, damla özü-özünə dedi: mən bu həcimli suya nə təsir edəcəyəm? Allah onun özünü kiçiltməyini görəndə hökm eylədi. Sədəf balığı, o damlanı ud! Sədəf balığı o damlanı uddu. Bir müddətdən sonra Allah göstəriş verdi, istehsal etdiyün məhsulu sahil yaxınlığında xaric et. Balıq udduğu damlanı Sədəfə çevirmişdi. Gəlib dərya kənarında xaric etdi. Sərrafı tapıldı. Onu ziynətli daş-qaş kimi tanıtdırdı. Həmişə əzizləndi və qorundu. İnsan kiçikliyi ilə böyüyər. Allah rəhmət eləsin Hacı Həsən ağanı o münasibəti ilə seçilirdi, fərqlənirdi. Binanın səkidən yuxarı hissəsinə kənd us-

taları gəlib köməklik etdilər. Ustaların yeməyi və bütün xərci Hacı Həsənağanın hesabına ödənilirdi. Mədrəsə 17 metr uzunluğundadır, deyilən əvvəlki mədrəsə kimi üç otağı var. Ortadakı otaq müəllimlər otağı, bir otaq qızların dərs alması, o biri otaq oğlanların dərs alması üçündür. Otaqların içərisini torpaq və qum ilə doldurmaq lazım idi ki, divarı hörmək mümkün olsun. Ekskavator torpaq yükləyir, traktorlar isə gətirirdi. O, torpaqları otaqların içərisinə tökmək üçün məhəllələrdən ağsaqqallar təyin etdim. Növbə ilə gəlib o torpağı xərək, kisə, vedrə ilə daşıyıb otaqların yerinə tökdülər. 1-ci mərtəbədə armatur karkas kəmər atduq. Az vaxt içərisində divar hörülüb qurtardı. Divar üçün qırmızı kərpic Bakıdan gətirilib. Qum "Duvannı" qumudu. Bu işdə Zabir, Ağaşirin, Cəmil, Füzuli, Seyid Tapdıq, Rafiq Quliyev, Əhəd Ələmqulu oğlu, usta Əbülfət və s. fəal iştirak ediblər. Ağac materialı Alvadı hərəxanasından alındı. Binanın pəncərə və qapı üçün lazım olan taxtasını Usta Əbdüləhədin evinə apardıq. Binanın üstü üçün olanlar tikildi, kirəmiti gəyəçöllü Əli düzdü. Rəhmətlik çox yaxşı insan idi.

1994-cü ilin noyabrında Hacı Həsənağa ilə birgə müqəddəs Kərbəla ziyarətinə getdük. Hacı Həsənağa o ziyarət məqamlarından keçməklə həm də 14 məsumçu oldu. Ona görə ki Həccə gedəndə bu yerləri ziyarət etməmişdi. İmam Hüseyn (ə) Əbəlfəzl (ə) Əli (ə) Hürr (ər) və s. ziyarətgahlarında olduq. Bizimlə Boradigah kəndindən ixtisası ingilis dili müəllimi olan Ədalət də getmişdi. Onun video aparatı da var idi. Bütün gedişləri lentə çəkirdi. İmam Hüseyn (ə) barigahından Əbəlfəzl (ə) barigahına 270 m məsafəni piyada getdik. Ədalət müəllim isə lentə çəkirdi. Mən Hacı Həsənağadan bir addım olar-olmaz qabağa keçəndə əlini uzadıb mənim əlimdən tutdu. Dedi: Kərbəlayi Nüsrət, bizə dünya lentinə yox, Allah videosunun lentinə düşmək lazımdı. Bax gör bu sözü ilə bu şəxs Allaha bağlılığını necə də gözəl təsdiqlədi. Kufə məscidini, Əli (ə) evini ziyarət





etdikdən sonra mən avtobusda əyləşmişdim. Hacı Həsənağa aşağıda gəzişirdi. Getməyə hazırlıq xəbəri verildi. Maşına minməyə başladılar. Biz 22 nəfər idik. Ziyafətin fəzilətini dərk edənlər həmişə o amal eşqilə yaşayırlar. Ziyarətdən gələndə İranın Mazandaran şəhərinə axşam saat 8-də çatdıq. Bizim avtobusun qabaq şüşəsində yazılmış "Kərbəla" sözünü oxuyanda yerli sakinlər bizə tərəf gəldilər. Biz onların hərəkətinə təəccüb etdik. Onlar dedilər: Baba, siz elə yerin ziyarətindən gəlirsiniz ki, biz o ziyarət həsrətilə yaşayırıq. Bizdən təbərrük istədilər. Yüklər yük yerində olduğu üçün təsbeh, möhür vermək mümkün deyildi. Ancaq Kufədən İmam Əli (ə) evinin içində olan quyudan götürdüyümüz su dolu qablar yanımızda idi. Suyu verdik, qabları olmadı götürməyə. Hardansa polietilen materialdan hazırlanan torba gətirdilər və suyun həmin torbalara tökülməsini xahiş etdilər. Hərə müəyyən miqdar suyu götürüb evlərinə getdilər ki, ailələri ilə bu sudan ailə üzvləri ilə birlikdə istifadə etsinlər.

Hər kəs yerində Hacı Həsənağa avtobusun pilləkəninə qalxıb dayandı və özünəməxsus bir ahənglə - Kərbəlayi Nüsrət, bu təsbehi sənə hədiyyə edirəm, özü də Firuzədəndir. O təsbeh indi də qalır. Hacı dostluğa, yoldaşlığa çox sadiq idi.

Bu anda mənim yadıma ölməz Nizaminin bu beytləri düşdü:

*Göhərlər olanda mədəndə aşkar,*
*Dünyanı bürüdü göhər alanlar.*
*Gohərə olsa da hamı müştəri,*
*Gohər tanıyanlar alar gohəri.*
*Daşın göbəyindən çıxardım gohər,*
*Əlimdə tərəzi dursam da əgər.*
*Sanma ki düşmüşəm dövlət eşqinə,*
*Mənə gərək deyil əsla xəzinə.*
*İstəyim budur ki, osahibi-dövlət,*
*Versin əməyimə layiq bir qiymət.*

Hacı Həsənağa bu xidmətləri ilə bəşərdən yox, Allahdan pay almaq istəyirdi.

Kərbəladan gəldük. Tehran yolunun başlanğıcından Məşhədə yol gedir. Bizimlə Sabirabad rayonundan da gedənlər var idi. Bizim avtobusda olan Sabirabadlılardan da var idi. Gərək hər iki avtobus buraxılış məntəqəsindən eyni vaxt keçsin. Sənədlərə görə Sabirabadlılar dedilər: biz Məşhədə getmirik. Hacı Mirqiyas ağa onlara çox dedi, onlar az eşitdilər.

Hacı Həsənağa avtobusdan düşüb gəldi onların avtobusunun adamlarının yanına, dedi: hamınızın pulunu mən verirəm, gəlin gedəyin, onlar razı olmadı, (ordan Məşhədə getmək üçün adamın hər birinə 20 dollar gərək əlavə pul veriləydi) onlar getmədi. Biz getdik. 3 gündən sonra gəldik. Gördük ki, o avtobusu sənədlərə görə hələ də buraxmayıblar. Onlar dedi: kaş biz də gedəydik. Ancaq hər adama İmam (ə) ziyarətinə getmək nəsib olmur.

Mədrəsənin taxiası və qapısı 2000-ci ilə kimi ustanın evində qaldı. Çox səy göstərdiksə də, ustalar bir iş görmədi. Hacı Xocavarda pəncərə, qapı sifariş verdi, bir ay müddətində hazır oldu. Usta gətirib yerində otuzdurdu. Çox maraqlı danışığa qulaq asmaq insanda maraq oyadır. Ustanın əl işinə baxanlar onun sənətini qiymətləndirirdilər. O isə deyirdi: mən usta ola bilmək üçün çox çalışmalıyam. Məndən də gözəl sənətkar Turkobadadır. Onu da deyim ki, usta pəncərə və qapının düzəldilməsinə əl muzdu almadı. Gör nə dedi: Mənim babam, atam da taxta ustası olub. Onlara bu müqəddəs yerlərdə iş görmək nəsib olmayıb. Allah mənə mərhəmət göstərib bu iş mənə həvalə edilib. Bu mənim üçün dünya var-dövlətindən üstündür.

*Mən sənin gücünə etmişəm heyrət*
*Gözlərim önündə sən varsan hər an*
*Getdiyin bu yolun yolu səadət*
*Bircə parça yazdım həyat yolundan.*





Qapı-pəncərə yerinə oturduldu. 1999-cu il ötüb keçdi. 2000-ci il oktyabr ayında bir xəbər çoxlarını sarsıtdı, ürəkləri kövrəltdi, qəlbləri titrətdi, istəklilərin göz yaşına səbəb oldu. Hacı Həsənağa Bakı şəhərində iş yerindən evinə qayıdarkən idarə etdiyi QAZ-24 markalı maşında ürək çatışmamazlığından dünyasını dəyişdi. Allah rəhmət eləsin.

Dəfni Qızılağac kəndində keçirildi. Böyük insan izdihamı ilə cənazə qəbiristanlığa gətirildi. Mitinq oldu. Mərhum torpağa tapşırıldı. Allah rəhmət eləsin. Mərhumun ilində Qulu Vəci oğlu ona həsr etdiyi şeri oxudu.

*Yaşadıq bir il də dünyada sənsiz*
*Elə bir ömürdən yel ötdü, qardaş.*
*Baxıram dünyanın gözəlliyinə*
*Hayıf, sənli günlər tez getdi, qardaş.*

*Olmuşdun bir nəslin arxa köməyi,*
*El-oba, qohumlar, dostlar gərəyi.*
*Sənin ayrılığın neçə ürəyi,*
*Sızlatdı, ağlatdı, göynətdi, qardaş.*

*Köç etdün ilahi eşqinlə quş tək,*
*Qəlb deyir, bir daha o dönməyəcək.*
*Vaxtsız ölümünü amansız fələk*
*Duyan ürəklərdə dərd etdi, qardaş.*

*Qalıb yaddaşlarda sözün, söhbətin.*
*Yaxşı insanları unutmaq çətin,*
*Əzablı yolunda əbədiyyətin*
*Əməlin zülməti əritdi, qardaş.*

*Cismin bu ocaqdan ayrıldı, nə qəm*
*Axı işindədir əzəldən aləm.*
*Şad edilən ruhun yox buna şübhəm*
*Bu yurda yenə də qayıtdı, qardaş.*

Hacı Həsənağa mədrəsəsində ilk dəfə 2001-ci ildə ramazan ayında əhyə saxladıq. Ancaq Hacı dünyasını dəyişsə də belə onun qoyduğu abidə gecənin yarısında onun ruhunun şadlığına səbəb olurdu. Hər vaxt ruhu əhyə gecəsinin əziz anlarında yad edilir. Bundan böyük mənfəət nə ola bilər. Bəli bu binada böyük bir hikmət var. Onu isə yalnız duyan qəlblər hiss edə bilər.

## RAMAZAN AYI

*Ayların içində məqamı uca*
*İlahi bir ay var, ey insan oğlu.*
*Günahdan uzaqlaş axı açıqdır*
*Göydəki qapılar ey insan oğlu.*

*Tanrı süfrəsidir sənin qarşında,*
*Fürsətdir bəhrələn yerli-yerində.*
*Mələklər insanı ziyarət üçün*
*Yerə enər Qədr gecələrində.*

*Tanrı süfrəsinə çağırır səni,*
*O bizi bəxtiyar görmək istəyir*
*Tanrı süfrəsində oturmaq özü*
*Adamdan imanlı ürək istəyir.*

*Ey insan sən onun yoluna qayıt*
*Bütün günahlardan azad olarsan*
*Şeytani hisslərdən uzaqlaşaraq*
*Tanrıya qovuşub çox şad olarsan.*

*Sən ara yolunu on dörd məsumun*
*Bacar aldatmasın səni bu dünya*
*Duyarsan zövqünü əbədiyyətin*
*Qədr gecəsində saxlasan əhya.*





*Quran nazil olub axı bu ayda*
*Qoru Ədəbini bu əziz ayın.*
*Tanrının açdığı bu bol süfrədən*
*Nə qədər gec deyil uzaq durmayın*

*İlahi, bizləri binəsib etmə.*
*Bu əziz günlərdə mərhəmətindən.*
*Adilsən torpağa ya rəbb, nazil et*
*Bu müqəddəs ayın bərəkətindən*

*Vallah, çox çətindir qəbul etməmək*
*Tanrı süfrəsinə olan dəvəti*
*Ey insan, unutma tanrının çoxdur*
*Bu əziz günlərdə rəhmi şəfqəti.*

*Böyük bir hikmət var, anlaya bilsən*
*Tanrıya məxsusdur sevin bu ayı*
*Onun süfrəsində hamıya par var*
*Çalışıb süfrədən götür o payı.*

*Tanrı süfrəsidir sənin qarşında*
*Gec deyil, bəhrələn yerli-yerində*
*Mələklər insanı ziyarət üçün*
*Yerə enər Qədr gecələrində*

**Qulu Vəci oğlu**

Hacı Həsənağa mədrəsəsində artıq 2-ci ildir ki, orada əhya saxlayırlar. Allah qəbul eləsin, Allah Hacı Həsənağaya rəhmət eləsin. Qəbri nurla dolsun, yaxşı işlərinə, əməllərinə görə Allah axirətini behiştlə qiymətləndirsin. Necə ki Şeyx Nizami deyib:

*Nizami aləmə bir də səs salsın*
*Adı bu əsərlə əbədi qalsın*
*Bunun adı kimi olsun bəxtəvər*
*Dolandıqca dövran, keçdikcə illər.*

## ÜRƏYƏ HƏKK OLUNMUŞ MƏHƏBBƏT

*Müştərilər gəzdi dükan-bazarı,*
*Axır ki tapdılar həmin əttarı.*
**Nizami**

Hər kəs öz daxilini düzəltsə (öz niyyətini düz etsə) Allah onun xaricini düzəldər. (Pis işlərdən uzaqlaşdırar. Hər kəs öz dini üçün (İslam) iş görsə Allah onun dünya işlərinin çətinliklərin asan edər. Hər kəs Allah və özü arasında olan işləri yerinə yetirsə (Allahdan başqasına göz tikməsə) Allah onun camaat arasında olan işlərini düzəldər (imam Əli (ə) İnsana bəxş edilən ömürü insan elə keçirməlidi ki, o ömürdən başqaları faydalana bilsin. Allah əməllərə görə insana qiymət verir. İnsanlar da yaxşı əməl sahiblərinin həyata bəxş etdiklərindən bəhrələnərək onları xeyirxahlıq ilə yad edirlər. İnsan özü həyatda səadət yolu axtaran vaxtlarda Allah ona qismət edir, o səadət qisməti çoxcəhətli olarsa sahibinə çoxlu dünya və axirət xeyri verər.

Sədi gözəl deyib:

*Uysan da çox uyma xəzə, atlasa*
*Çünki xəz və atlasla doludur bazar*
*Sən qədir bilənin xidmətində ol*
*Qədrini bil, olma nəfsə giriftar*

Allah bəndəsinin qədrini bilir, Bəndə də gərək öz qədrini bilsin. İmami Sadiq (ə) buyurub:

Allah-təala dünyanı dostuna və düşməninə verər. Amma dinini (imanı) tənha seçilmiş bəndələrinə verər.

Allahın dostu olan şəxs Allah rizasını görmək mövqeyində ya durmalıdı ya da o işi görməlidi.







*Sakit Əliyev.*

2000-ci il ramazan ayının ilk günündə bir gənclə olan söhbətim çox böyük xeyirxahlığın həyata bəxş olunmasına səbəb oldu. Bu gənc Əliyev Sakit Hacıəli oğlu idi. Mən onların yəni Sakitin və qardaşlarının tərbiyəsinə, insani keyfiyyətlərinə yaxından bələdəm. Tərbiyə və xoş rəftarı bu qardaşları həmişə digər qardaşdan fərqləndirib. Sakiti mən demək olar ki, üzdən tanıyırdım, adını soruşsa idilər bilməzdim. Ancaq deyərdim ki, rəhmətlik Hacıəlinin oğludur. Sakitin atası Hacıəli 1946-75-ci illərdə kənd tibb məntəqəsində kiçik tibb işçisi işləyirdi. Deyirlər hər hansı bir adam gecənin, gündüzünün nə vaxt onu xəstə üstünə çağırsaydı gəlməyini, müalicə etməyi əsirgəməzdi. Bu şəxs əməli ilə o dövrün insanlarının yaddaşında xatırlanır. Onun böyüdüb başa çatdırdığı 6 oğlanlarından biri də Sakitdir. Əvvəllər xeyriyyə məqsədi ilə həm Sakit həm də qardaşları ehsan verərdilər. Onun 12 il (1990-2001-ci il) müddətində kəndin abadlıq işlərində köməyini görmüşdük. O cümlədən qardaşı Davud hüzr məclislərində istifadə etmək üçün çadıra qab, qaşıq, boşqab və s.ləvazimatlar ehsan etmişdi. Qardaşlar

deməek olar ki, hamısı oruc tuturlar. Namaz da qılırlar. Onlar bu işlərdən özlərinə məxsus zövq alırlar. Sakitin həyat yoldaşı Şəfəq, oğlu Əli, qızı Məryəm də dini ainləri yerinə yetirirlər. Namaz vaxtı eyni zamanda 4 ədəd səccadə sərirlər və üstündə namaz qılırlar.

Əhyə axşamları qardaşları və özü bizimlə əhya saxlayır. Həmin il məscidin içindəki şəbistanın aşağısını tutub bərkitmişdik. Soyuq olmasın deyə əhyəni orda keçirirdik. Həmin məclisdə ehsan tədarükünü o görmüşdü. Səhərisi gün günorta namazına yaxın mənə yaxınlaşıb salamlaşdı, hal-əhval soruşduqdan sonra dedi: Kərbəlayi Nüsrət, sonrakı yeni əhyələrdə sizlə olacağam. Ancaq sənə sözüm var. Dedim: buyur. Əlin cibinə saldı. Əlində bir avtomaşının işəsalma açarını mənə tərəf uzadaraq dedi: bu mənə məxsus olan QAZ - 24 markalı avtomaşının açarıdır. Sənə hədiyyə verirəm. Öz işini də gör, ehtiyacı olanlardan da yeri gələndə əsirgəmə. Dedim: ay Sakit nə səbəbə bu addımı atırsan, səni bu işə sövq edən nədir. O dedi: Kərbəlayı Nüsrət, şəxsiyyətinə olan məhəbbətim. Dedim: məndən elə bir yaxşı iş hasil olmayıb sən mənə bu cür qiymət verirsən. Dedi: insan öz əməlləri ilə şöhrətlənər.

Sən kəndin ağsaqqalı, axundu olmaqla, həm də hörmətini qoruyub saxlayan bir şəxssən. Ona görə bu addımı atdım.

Layiq olmadığım bu deyilənlər üçün ona minnətdarlığımı bildirdim. Dedim: Sakit, mən 20-ildən çox vəzifədə işləyərkən dövlət maşınını idarə etmişəm. Dövlət mənə hər növ minik maşını vermişdi. Mənim maşın saxlamağa qarajım yoxdur. O çox təkidlə xahiş etdi ki, qəbul edəm, mən açarı qəbul etdim. Sonra açarı ona tərəf uzadıb dedim: Sakit, indiki belədir, bu maşını sat onun puluna məscidin həyətində sənə bir iş görməyi məsləhət görüm. Ondan həm biz, şəm də xalq faydalansın. Maşının məndə qalmasından başqasına nə fayda. Burada S.Ə.Şirvaninin bu beytləri yadıma düşdü.





*Səxavətdir sifətullahi əhsən.*
*Səxavətdən olursan bəxtəvər sən.*
*Səxavət bir diyari xoş fəzadır*
*Onun şahi Əliyyi-Mutəzadır.*

Soruşdu ki, o iş nədir? 1990-cı ildə məscidin qabaq tərəfində gün batan səmtdə bir alçaq örtüklü yarımçıq bina tikmişdik. Ora qab-qacaq yığırduq. Məscid və Mədrəsə tikintisindən sonra o otaq məscid kompleksinə yaraşmırdı. Mən o otağı göstərib dedim. Bunun yerində bir dəstəmaz almaq üçün otaq tikdir. O bizə və sənə çox mənfəətli olar. O, dedi: Kərbəlayı, baş üstə, maşını satmıram verirəm bacım oğluna. Nə vaxt istəsən istifadə et. Günü sabahdan o işə başlayıram. Qardaşı Cavidi çağırdım, ondan usta Elşən Salayevi və Azad Məmmədovu tapıb gətirməyi xahiş etdim. Səhəri ustalar gəldilər. Sakit onlara dedi: elə bilməyin ki, tikinti məscid həyətindədir deyə güzəştə getməlisiniz. Dəstəmazxananı öz hesabıma tikdirirəm. Başqasından nə alacaqsınızsa, məndən də onu alın ki, halallıq olsun. Usta Elşən və Azad böyük maraq və hədsiz həvəslə işə başladılar. Tikinti bir ay ərzində başa çatdı. Gözəl və yaraşıqlı bir bina alındı. Əlləriniz var olsun, usta Elşən və Azad! Bundan başqa usta Elşən və Azad məscid hasarının yenidən qurulması, daş məcərlərin düzülməsi və s. işlərdə də fəallıq göstərmişlər. Allah yaxşı iş görənlərdən razı olsun.

*Əməllərin xeyirdirsə,*
*Tanrı verər əvəzini.*
*İnsan gərək unutmasın,*
*İman adlı tərəzini.*

*Vaxt var ikən bir iz qoyun,*
*Görülən iş ad, nişandır.*
*Nə yaratsan bu dünyada,*
*Gələcəyə ərməğandır!*

Atalar yaxşı deyib. Gözəllik ondur, doqquzu dondur. Dəstəmazxana tikildi. Məscid kompleksi indiki gözəl formada tamamlandı.



*Dəstəmazxana.*

Sadə insan, Allaha qəlbən bağlı olan bu cavanın tikdirdiyi bina hər hansı vaxt olur olsun, onu yad etdirəcək, adını yaşadacaq. Necə ki hədislərdə buyurublar, hər kəs Allah yolunda bir versə, Allah ona on dəfə çox əvəz verər.

Allah yolunda sədəqə verməyin də savabı çoxdur. Sədəqənin az çoxluğu şərt deyil. Burada Allah bəndəsi münasibətin qoruyucusu olur. Əsas məsələ bəndənin bu sahəyə inam bəsləməyidir. Söyləyəcəyim hədis bu deyilənlərə tutarlı bir əsasdır.

Bir gün Molla minbərdə moizə edib qurtarandan sonra iştirakçılara dedi. Allah yolunda ehsan edin, sədəqə verin. Hər kəs Allah yolunda bir versə, Allah onun əvəzini 10 dəfə çox bəxş edər deyib iştirakçılara dua etdi, məclis tamamlandı. Moizəyə qulaq asan bir şəxs dedi: Mollanın dediyin sınaq edəcəyəm. Görüm düz deyir yoxsa yalan. Onun cibində 1 dirhəm pul var idi. Məsciddən çıxandan sonra bir dilənçiyə rast gəldi, Allah yolunda mənə kömək edin deyə həmin şəxsə müraciət etdi. O cibində olan bir dirhəmi dilənçiyə verdi. Həmin pula o ailəsinin bir günlük ehtiyacını ödəyəcəkdi. Yoluna davam edərək evinə tərəf üz tutdu. Bir az getmişdi bir nəfər onu səslədi. Ay Allah bəndəsi xahiş edirəm ayaq saxla, dayandı. Çağıran adam dedi: qoyun başı kəsə bilərsən? Dedi: bəli. Dedi: al on dirhəmi mənimlə gedək qoyunumu kəs. O pulu alıb cibinə qoydu. Qoyunun başını kəsdi. Həyətdən çıxanda qoyun sahibi dedi ey Allah bəndəsi əgər qəbul etsəydin bu baş-ayağı da sən apardın. Ona görə ki, bizim ailə üzvlərimizin sayı azdır. Kişi baş-ayağı götürdü. Gedib pula bazarlıq elədi. İki əli dolu həyətə daxil olanda arvadı təəccübləndi. Bu nə işdi, ərim hardan bunları alıb, deyə fikirləşdi. Kişi dedi: arvad, heç şübhə etmə, mən mollanın sözünü imtahan eylədim. Onun sözü bu idi ki, hər kəs Allah yolunda bir verə, Allah əvəzini 10 dəfə çox yetirər. Arvad, Molla bunu düz deyib. Ancaq bir səhvi var, onu deməyib, o da kəllə-paçadır. Səhər gedib mollaya deyəcəyəm. Səhər məscidə gəlib moizəyə qulaq asdı. Molla o mövzunu deyib sözünü qurtardı. Bu zaman kişi ayağa durub dedi: Molla, onun üstünə bir kəlləpaça da gəl! Əhvalatı onlara da söylədi. Bəli Allah birə on bəxş edər, baxır hansı bəndəyə.

Allah hər bir xeyir əməli inşallah bu cür qiymətləndirər.

Xeyirxahlıq insana Allah tərəfindən bəxş edilən ən böyük mənəvi bağlılıqdır. Əgər xeyirxahlıq insana ilahi qisməti olmasa insan onu həyata bəxş edə bilməz. Ona görə də, insana gərək daxili inam buna əməl etmək üçün qüvvə versin. Əgər daxili inam zahiri əməllə vəhdaniyyət yaratsa bu insana ən böyük qüvvə və qüdrət olar. Sakitin bu işi bir örnəkdir. Gənclərə, gələcək nəslə bir örnəkdir. Odur ki, şair Qulu Vəcioğlu onun haqqında yazır:

*Əzəldən bağlısan doğma torpağın,*
*Dağına, daşına, düzünə, qardaş.*
*Görürəm xeyirxah əməllərinlə,*
*Oxşamısan yalnız özünə, qardaş.*

*Allah rizasına gördüyün hər iş,*
*Sənə gətiribdir uğur, yüksəliş.*
*Xeyir verən kəslər yaxşılar imiş,*
*Xoş günlər nur saçsın üzünə, qardaş.*

*Biz nəzər saldıqca ömür yoluna,*
*Sevinsin qoy sənə süd verən ana!*
*El-oba sənintək mərd eloğluna*
*Dedi iman dolu xəzinə qardaş.*

*Qəlbim saflıq ilə dil açır, dinir,*
*Önündə paxıllıq şamları sönür.*
*Yaxşı əməllərin çırağa dönür.*
*Nur yağır qəlblərin gözünə, qardaş.*

*Təmiz niyyət ilə, alıb dəstəmaz,*
*Dərgaha üz tutub qılırıq namaz.*
*İnsana, gərəkdir düşünsək bir az*
*Əməlindən başqa axı nə, qardaş?*

*Günlər ötüşsə də, qaralı, ağlı,*
*Olmusan Peyğəmbər, imam soraqlı.*
*Vuruldum mən sənin Tanrıya bağlı,*
*Xeyirxah işinə, sözünə qardaş.*

Sakit özünə sədaqətli oldu. İndi hər bir şəxs o dəstəmazxana binasına daxil olanda beş guşəli hovuzun içinə dəstəmazın suyu töküləndə deyir: Allah bunu tikdirənin canını salamat eyləsin. Məscid kompleksinin tikintisində xidməti olanlar illər





keçsə də həmişə hörmət və ehtiramla yad ediləcək. Ən böyük dərəcə və yüksəliş budur. Buna görə hər hansı insan fikirləşib desin:

*Salam gülüm, günəşim,*
*Salam olsun hüsnünə,*
*Hansı savab işi üçün,*
*Nur səpirsən üstümə.*

Dəstəmazxananın 2000-ci ilin Qurban bayramında təntənəli açılışı oldu.

Arzu edərdim ki, hər hansı imkanı olan şəxslər də bu addımlardan atsın, xalqına xeyirxahlıq bəxş etsin. Hər imkanlı bir iş görsə, gələcək nəsillər üçün yadigar olar, özü də unudulmaz.

## QÜRBƏTDƏ GÖRÜŞ

*Dinləyin, ey yurddan uzaq düşənlər*
*Bu qərib diyarda "xoş gördük" sizi*
*Çalışın, ömrünüz getməsin hədər,*
*Üzməyin vətəndən əllərinizi!*

*Sizinlə görüşdüm dərdim qocaldı*
*Daim məğrur olun bu dağlar kimi*
*Yaxşı işinizlə başım ucaldı,*
*Qəlb coşdu nəğməkar bulaqlar kimi.*

*Danışım, siz anım ötən günləri*
*Qəlbiniz bir vursun vətənlə qardaş*
*Bu gün qəriblikdə itən günləri*
*Tanrı ömrümüzdən saymayaydı kaş!*

*Sizinlə görüşə gətirmişəm mən*
*Uşaqlıq dövrünün sən dünyasını.*
*Dinib-danışdıqca duy nəfəsindən,*
*O, doğma yerlərin ab-havasını.*

*Qoy düşsün yadına "Həzi təpəsi"*
*O, dəmir dövrünün yadigarıdı*
*Həzin nəğmə deyən Viləşin səsi*
*Mehriban baharın söz notlarıdır.*

*Qoy düşsün yadına "Ülgə" adlı yer,*
*Qoruq tərəfdəki "Meşə talası".*
*"Şor kanal"la, "Körfəz" cənnət dadlı yer*
*Dinlə, ey qeyrətli Vətən balası.*

*Qoy düşsün yadına o "Daşlı quyu",*
*Çay ağrı "Su tutar" dağıdlan yer.*
*Namərd gülləsini həmişə qoru*
*Qoçu Məmməd qanı axıdılan yer.*

*Qoy düşsün yadına dost, "Vaqon yolu"*
*Gəmilər qaynayan "liman yeri" də.*
*Qəlbiniz olandan həsrətlə dolu*
*İz qoyur gözün yaş gülələri də.*

*Qoy düşsün yadına "Toppuzluq", "Pirman",*
*"Bataqlıq", "Qamışlıq", yolğun ağacı.*
*Yox, kişi deyilsən əgər unutsan,*
*Əcdadın uyuyan Qızılağacı!*





*Qoy düşsün yadına Mir Həsən ağa,*
*Seyidlər, alimlər, ağsaqqal kəslər.*
*And için "Sultan Pir" adlı ocağa,*
*O, sizi hifs edib qoynuna səslər.*

*Qoy düşsün yadına dost, Axund Əhməd*
*Onun məsum yazı Leyla nənə də*
*Həqiqət yolçusu elçi Məhəmməd*
*Şəfa lütf eyləsin sizə, mənə də!*

*Qoy düşsün ydına təhsil aldığın*
*Yaşı əsri ötmüş məktəb binası*
*Şirin arzularla yola saldığın*
*Müəllim dünyası, şagird dünyası.*

*Qoy düşsün yadına o "Köhnə hamam",*
*Məscid binası da yaşayır, durur.*
*Vallah, mən sizləri unutmamışam,*
*Ürəyim yenə də sizinlə vurur.*

*Qoy düşsün yadına "Köhnə dəyirman"*
*"Quru çay yatağı", "göz oxşayan çöl"*
*Babalar deyəni pozmadı zaman,*
*Yenə məhsulu az torpaqdı "Ağ göl!"*

*Qoy düşsün yadına qəbristan yeri,*
*Danışsın doğma tək məzar daşları.*
*Andıqca sükutlu dəqiqələri,*
*Düşün: "Mənzil uzaq, ömürsə yarı".*

*Qoy düşsün yadına "Dəmirli məktəb",*
*Hacı Sadıqoğlu, Hacı Tağı da.*
*Yaxşı insanlara yetdikcə qəzəb,*
*Qırıldı "Tut bağı", "Meyvə bağı" da.*

*Qoy düşsün yadına Şəhid oğullar,*
*Duy, Vətən torpağı, namus, ar nədir?*
*Başına döndüyüm bu ana diyar,*
*Bir şanlı tarixdir, bir salnamədir.*

*Qoy düşsün yadına yaxın, uzaqlar,*
*Dünyada nə varsa, elin varıdır.*
*Ancaq unutmayın saydığım nə var,*
*Bu torpağın şöhrət nişanlarıdır.*

*Yayılıb getsək də hansı tərəfə,*
*Yurda bağlı olsun hər ürək dostlar!*
*Yaxın olmaq üçün ildə bir dəfə*
*"Qızılağac günü" keçirək dostlar!*

**Qulu Vəci oğlu**





## VƏTƏN HƏSRƏTİ

***Sənsən acizlərə hər zaman pənah,***
***Mən də bir acizəm kömək ol Allah.***

Yaxın uzaq ellərdə məlum olmayan səbəblər ucbatından çoxlu sayda Qızılağaclılar var. Ancaq biz onlarla ünsiyyətdə ola bilmədiyimiz üçün onların taleyindən xəbərsizik. Repressiyaya məruz qalanlar, müharibə illərində itkin düşənlər, ehtiyac ucbatından cəlayı vətən olanlar. Daha kimlər... kimlər. Mən həmişə kəndimizin müdrik dünya görmüş qocalarının söhbətlərində Həsənqulu adlı şəxsin adını eşidirdim.

Bir gün mən onlardan sual eylədim: kimdir bu Həsənqulu? Dedilər əslən iranlıdır. Aclıq illərində Qızılağaca gəlib. Qızılağaclı qızla evlənib. İki oğlu var idi. Əlirza və Əlizaman. Uşaqlar 3-4 yaşında ikən anaları vəfat edib. Həsənqulu o iki uşağa həm ana, həm də ata olub. Həsənqulu camaat üçün qoyun otarardı. Soruşdum: kimə qohumdur arvadı? Dedilər: Əhməd müəllimə. 1937-ci ildə Həsənqulunu iki uşağı ilə məcbur İrana köçürtdülər. Ondan sonra xəbər olmadı. 1993-cü ildə mən, Kərbəlayı Əliheydər və Hacı Qafil Məşhəd ziyarətinə gedəcəydik. Təsadüf nəticəsində o mövzuya müraciət olundu. Əhməd müəllim dedi ki, bacım Xeyri həyat yoldaşı Nəhmədlə İrana gedib Əlizamanı tapıblar. Mən dedim əgər ünvanı bilsə idim Məşhədə gədəciyəm, mən də onu görərdim. Mənə ünvanı verdilər. Ünvan Məşhəd şəhəri ətrafı idi. Biz getdik Məşhədə, ziyarətdən sonra həmin Əlizaman Təbrizi adlı şəxsi axtarmağı qarşıma məqsəd qoydum. Hansı dükançıya Əlizaman Təbrizini tanıyırsınız deyə müraciət edirdimsə heç kəs tanımırdı. Təsadüfi bir dükanı gəzirdim, demə dükan sahibi Təbrizli imiş. Adın öyrəndim, Hacı Məcid idi. Dedim: ağa mənim bir həmyerlim burda yaşayır. Adı Əlizaman Təbrizidir, onu tanıyırsınızmı? Dedi: tanımayanda nə olar, axtarıb taparıq. Mən də tanıyaram. Hacı Kərim yanında

olan oğluna dedi: sən bu qardaşlarla - Hacı Qafil, Kərbəlayı Əliheydəri göstərdi, qal, biz gedək axtarmağa. Hacı Məcid qısa boylu dolu bədənli 70-75 yaşlı kişi idi. Hansı dükana daxil olurdusa ona dükan sahibləri böyük ehtiram edirdilər. Əlizaman Təbrizini tanıyırsınız? soruşanda deyərdilər Hacı biz Məşhədə təzə gəlmişik. O biri dükanda olan 30 il bundan qabaq bura gələndir. Ondan soruşun. İki saata qədər Məşhəddə olan dükanlarda işləyən bütün təbrizlilərdən soruşduq, lakin heç kəs tanımadı. Hacı Məcid dedi: bu necə ola bilər ki, onu tanımasınlar. O mənə dedi: bəlkə başqa adı var. Mən cibimdə olan ünvanı, yazılmış kağızı çıxardıb ona göstərdim, oxuyub dedi: ay pir olmuş, bu ünvan Məşhəddən 85 km uzaqda olan rayonun yeridir. Sən məni şəhərdə gəzdirirsən. Gəl gedək. Bu yaş həddində olan Hacı Məcidin yorğunluğu hiss olunurdu.

Bazardan çıxdıq, əl eylədi, maşın saxlatdırdı. Dedi: əyləş. Sürücüyə ünvanı göstərdik, yola düşdük. Bir saata qədər yol gedəndən sonra abad yerə daxil olduq. Haşiyə: abad yer ona görə deyirəm ki, Məşhədin ətrafı ancaq çılpaq dağlar və qumluq yerlərdir. Hansı yerdə yaşayış məskəni var ora abadlaşdırılıb. Dayandığımız ünvanda olan yaşayış məntəqəsi imiş. Sürücü maşını saxladı. Bizə müraciətlə dedi: ağalar bu məntəqə həmin yerdir. Düşə bilərsiniz. Mən tez əlimi cibimə salıb sürücüyə pul vermək istədim, gördüm Hacı Məcid mənə kinayəli şəkildə müraciət etdi: Ağayi Nüsrət, o pul nəmənədir? Dedim: Hacı, sürücünün haqqını vermək üçündür. Dedi: pulu qoy cibinə, mənə pul göstərirsən. Halbuki, mənim dükanlarımı görmüsən. Mən olan yerdə sənin pul verməyə haqqın yoxdur. Ona görə ki, bu işdə heç kəs məni məcbur etməyib ki səninlə axtarışa çıxam. Məni məcbur edən və bu işə sövq etdirən batini inamımdır. Onu da Allah rizası mən həyata keçirirəm. Yol pulu və yemək xərcləri də mənim öhdəmdədir. Xahiş edirəm bir də belə hərəkət etmə. Mən əgər inşallah sənin kəndçini tapıb səninlə görüşdürsəm istəklilərin qovuşmasında xidmətçi olmağım mənə bəs edər.





Mən Hacı Məcidin bu sözlərindən sonra daha bir söz demədim. Maşından düşüb yerli adamlara ünvanı göstərdik. Onlar dedi bu məntəqədir, ancaq bu küçədə bir hamam var, onun yaxınlığındadır. Bizə o yeri nişan verməyi xahiş etdik. Bir nəfər bizi o ünvana aparıb evi bizə göstərdi. Biz evin qapısını taqqıldadırıq (onlarda evlərin qapısında halqavari taqqıldatmaq üçün asılqan qoyulur). Bir nəfər 40-45 yaşında kişi qapını açdı. Bizə salam eylədi. Biz ondan, Əlizaman Təbrizi bu evdə yaşayırmı? deyə sual etdik. O isə dedi. Ağalar o burada yaşayırdı. Düz on bir ay bundan qabaq evi mənə satıb özü isə burdan 50 kilometr aralı bir kəndə köçüb. Biz onun ünvanını soruşduq. Həmin şəxs dedi: mən sürücüyəm. Əlizamanın ev əşyalarını o kəndə mən aparmışam. Mən ora çatanda axşam qaranlığı düşmüşdü. Ünvanını öyrənə bilmədim. Ancaq o yadımda qalıb ki, onun aldığı ev köhnə dəyirmanın yaxınlığındadır. Hacı Məcid dedi: ağayi Nüsrət, dedim: bəli! Dedi: sən elə xəyal etmə ki, mən burdan Məşhədə qayıdacağam. Arxayın ol səni o kəndə aparıb həmyerlin ilə görüşdürəcəm. Gözlənilmədən bu sözləri eşitdim və Hacı Məcidə çox minnətdarlıq etdim. Yenə bir maşın tutduq ki, bizi deyilən kəndə aparsın. Hacı Məcid yol pulunu verdi. Sürücü çıxıb getdi.

Kimdən soruşuruqsa Əlizaman Təbrizini heç kəs tanımır. Kənd yeri, yağış təzə dayanıb. Hacı Məcid mənə dedi, ehtiyatlı ol bu torpaqlar yağış dəyəndə sürüşkən olur. Biz əl-ələ tutub kəndin çox çətinliklə köhnə dəyirman olan küçəsinə getdik. Çünki yer palçıq idi. Nəhayət dəyirmanı tapdıq. Kimdən soruşduqsa yenə soraq verən olmadı. Evlərə müraciət eylədik, yenə tanımadılar. Bir nəfər bizim axtarışımızı görüb soruşdu: Hacılar sizə kim lazımdır? Dedik: on bir ay bundan qabaq bura yaşamağa gələn Əlizaman Təbrizini axtarırıq. O dedi: adını bilmirəm,

ancaq dəyirmanın gün batan tərəfindəki küçəyə təzə sakin gəlib. Bir il olar. Evin yerini bizə göstərdi. Biz həyət darvazasını taqqıldatdıq. Xəbər olmadı. Təxminən 10 dəqiqə bu işlə məşğul olduq. Qapını açan olmadı. Nə etməli? Birdən qapının arxa tərəfindən, sizə kim lazımdır? Bir qarının səsi eşidildi. Hacı Məcid dedi: xanım, Əlizaman Təbrizinin evidir? Dedi: bəli. O qapını açdı. Başında çadra, üzündə niqab. Hacı Məcid dedi: Xanım bu şəxs Azərbaycandan gəlib, Əlizamanın həmyerlisidir. Əlizamanı görmək istəyir. Xanım dedi: Əlizaman evdə yoxdur. O qonşu kənddə yaşayan bacısına dəyməyə gedib. Buyurun içəri. Biz dedik: qala bilmərik. Xanım mən Məşhəddə oteldəyəm. Sabah saat 16-ya kimi gəlsə məni görə bilər. Xanım dedi: Ağalar, xahiş edirəm, evə daxil olun. Əgər sizin gəlməyinizi bilsə və evə daxil olmadığınızı bilsə, məni evdən qovar. Mənə yazığınız gəlsin, evə buyurun. Hacı Məcid çox şən zarafat edən idi. Dedi: xanım, qoymarıq səni evdən qovsun, baş üstə. Biz həyətə daxil olduq, sən demə qapının gec açılmasına səbəb evin darvazadan 100 m aralı olması imiş.

Biz bir mərtəbəli çox mənzilli evə daxil olduq. Qonaq otağında əyləşdik. Birdən Hacı Məcidin şəkilə gözü sataşdı. Oturduğu yerdən durdu, şəklə diqqətlə baxıb dedi. Mən ki bu şəkildəkiləri tanıyıram. Onun biri Həsənquludur, o biri də Əlizaman. Bu Əlizaman ticarətçidir Məşhəddə. Çay içib xanımla xudafizləşib evdən çıxdıq. Məşhədə axşam saat altıya az qalmış gəlib çatdıq. Hacı Məcidin oğlunun yanında bizi gözləyən Əliheydər və Qafil çox gözlədiklərinə görə narahat idilər. Mənə dedilər ki, bu nə qohumluqdur ki, nə o səni tanıyır, nə də sən onu tanıyırsan. Bizi burada saxlamısan, biz də narahat olduq. Axşam namazını İmam Rza (ə) barigahında qılıb olduğumuz motelə gəldik. Motelin xidmətçisi mənə müraciətlə dedi: Ağayi Nüsrət, həmyerlun gəlibdir. Səni soruşurdu. Mən əvvəl elə bildim ki, Azərbaycandan ziyarətə gələnlərdəndir. Ani olaraq dayanıb ondan





farsca soruşdum: Ağa, o şəxs iranlı idi yoxsa, azərbaycanlı? Dedi: Baba, İranlıdır, sevindim. Dedi sabah saat 8-də gələcək. Tez yoldaşlarımın yanına gedib həmin məni soruşan Əlizaman olacaq, dedim. Səhər sübh namazını İmam Rza (ə) barigahında qıldıq. Tez motelə qayıtdım. Otaq nömrəsini Əlizamanın xanımına vermişdim. Olduğum otağın qapısının açılacağı saatı gözləyirdim. Saat 8-ə 5 dəqiqə qalmış qapı döyüldü. Mən yerimdən durub qapını açdım. Qapıdan içəriyə orta boylu, qırmızı yanaqlı, dolu bədənli bir şəxs daxil olanda, Əlizamansan? deyə ona müraciət eylədim. O mənə bəli deyən kimi qeyri ixtiyari mən onu, oda məni qucaqladı. Hər ikimiz göz yaşı töküb elə ağlayırdıq ki, deyiləsi deyil. Nəhayət sakitləşdik, yerimizdə əyləşdik. Biz üç nəfər o bir nəfərə diqqətlə baxırıq. O isə hər üçümüzə baxır və deyir: mən dünən sizdən yarım saat sonra evə gəldim. Həyat yoldaşım mənə gəlmək xəbərinizi verdi. Qalmamağınızın da səbəbini izah etdi, mən maşına minib birbaşa sizin ardınızca gəldim. Sizi görə bilmədim. Xahiş edirəm mənim evimə təşrif buyurasınız. Orda söhbət edərik. Mən dedim: saat 16-da Tehrana gedəcəyik. Bu mümkün deyil. Elə buradaca söhbətə başlayaq. Razılaşdıq. Mən ondan qısaca olaraq keçmişi haqda danışmağı xahiş etdim. O dedi: mənim və qardaşım Əlirzanın həyatı Qızılağacı tərk edəndən sonra elə məşəqqətli olub ki, keçmişi bir daha dilə gətirmək istəmirəm.

Mən fürsəti əldən vermədim. Dedim: Əlizaman, biz hamımız sənin doğulduğun torpağın övladlarıyıq. Nə sən, nə də biz sənə qohum deyilik. Ancaq Qızılağacda dünyaya gəlib, yaşadığın torpağa olan münasibətimizi öyrənmək istəyirəm. Qızılağacdakı evinizi xatırlayırsanmı? Dedi: evimizin yerini indi təxminən deyə bilərəm, bazardan günbatan tərəfə idi. Evimizin gün çıxan tərəfində incil ağacları var idi. Bu sözləri deyib ağladı. Dedim: nə üçün ağlayırsan? Dedi: qardaşım və mən 6-7 il Qızılağacda yaşamışıq. Ancaq Qızılağac həyatı mənim yaddaşımda silinməz

izlər buraxıb. Çünki aclıq illəri idi. Atam nökərçilik edər bizə çörək qazanardı. Onun qazancı bizi təmin etməzdi. Ondan kəndimizdən yadında kimlər qalıb? - sualını etdim. O fikirləşmədən dedi: Dünya arvad! Dedim: o sənin nəyin idi? Dedi: qohumum deyildi. Ancaq onun bizə etdiyi köməklik yadımdan çıxmır. Axı nə köməklik edib? Dedi: ay Məşhədi Nüsrət, yenə mənim kövrək qəlbimin sızıldamasına bais oldun. Biz iki qardaş Əlirza və mən 4-5 yaşında əl-ələ tutub bazar meydanına gəldik. Gəlişimizin məqsədi bu idi. Kimsə bizə köməklik etsin, çünkü anamız vəfat etmişdi. Atamız bizə həm də ana idi. O gündüzlər qoyun otarmağa gedəndə biz iki qardaş evdə ac qalmayaq deyə bazara gedərdik. Dünya arvadın evi bazarın yanında idi. O hər gün bizi bazar yanından götürüb evinə aparardı. Bizə ana münasibəti ilə yanaşardı. Çörək verərdi, yedizdirərdi. Bizə o qədər qayğı nəvaziş bəsləyərdi ki, elə bil onun doğma övladları idik. Aclıq illərində bizi ölməyə qoymayan yuxarıda Allah, aşağıda Dünya arvad oldu. Mən dedim ki, o mehriban insan vəfat edib. Ona oğul məhəbbəti olan övlad kimi göz yaşı töküb ağladı. Dedi: həyatım boyu onun yaxşılığı yadımdan çıxmaz.

Dünya Qələm müəllimin anası idi. Dedim: Əlizaman, daha kim yadında qalıb. Dedi: Ləmsə (Kalinovka) də xalam var idi. Mən ona dedim: Qızılağacı necə yad edirsən? Dedi: hər gün, hər gecə yeddi il yaşadığım və dünyaya gəldiyim o torpağın məhəbbəti qəlbimdə elə yer tutub ki, sanki qəlbimin bir hissəsi torpaq kimi qaralıb. Mən əgər bir dəfə o yerə gəlib oranı ziyarət etsəm dünyadan nakam getmərəm. Əgər mümkün olmasa bil ki, vətən həsrəti ilə narahat olacağam. Həsənqulu 1937-ci ildə iki oğlu ilə zorla İrana göndərilib. Əlizaman Təbriz həyatı haqqında çox ürək ağrılı sözlər danışdı. Analıq əlində əziyyət çəkmələrindən, 12 yaşından kiçik ticarət etməyindən, 20 yaşında Tehrana getməyindən və yavaş-yavaş çörək qazanmağın yolunu tapmasından danışdı. Qardaşım Əlirza Təbrizdə qaldı. Mən isə yavaş-ya-





vaş gəlib bura çatmışam. Acınacaqlı həyat tərzi keçirməsindən də söz açdı.

Mən onda Əlizaman, Qızılağaca gəlsən evinizin yerini tanıyarsanmı? O dedi: indi tanımaram. Amma doğma torpaq hissiyyatı onu mənə bildirər. Axı o yer anadan olduğum torpaqdır. Torpaq da anadır. Necə ola bilər ki, ana balasına özünü nişan verməsin?

*Vətənim verdi mənə nanu nəmək*
*Vətəni məncə unutmaq nə deməк*
*Anadır hər kişiyə öz vətəni:*
*Bəsləyib sinəsi üstündə onu.*

*Südüdür kim dolanıb qanım olub*
*O mənim sevgili cananım olub.*
*Saxlaram gözlərim üstündə onu mən*
*Ölərəm əldən əgər getsə vətən.*

*Vətənin neməti nisyan olmaz,*
*Naxələflər ona qurban olmaz.*
*Vətən əcdadımızın mədfənidir,*
*Vətən övladımızın məskənidir.*
*Vətəni sevməyən insan olmaz,*
*Olsa o şəxsdə vicdan olmaz.*

Hara gedirsən get, harada yaşayırsan yaşa,, Vətən yenə də Vətəndir.

Nəhayət xudahafizləşib, ondan doğma qardaş kimi ayrıldıq.

Hörmətli oxucu, 7 il Qızılağacda yaşayan uşaq həyatı boyu anadan olduğu yerin həsrəti ilə yaşadığını deyir. Bəs biz? Hansı ki, bu torpaqda dünyaya gəlmiş, bu torpaqda pərvəriş tapmışıq. Nə üçün onu can kimi sevməyək və əzizləməyək?!

## ŞEYX FƏTULLA AXUND

*Əgər bu elmi istəsən, əvvəl gərək bəndəçiliyin həqiqətini özündə axtarasan. Elmi əməl etməklə tələb et. Məsələləri başa düşməyi Allahdan istə ki, o da bunları sənə dərk elətdirsin.*
**İmam C.Sadiq (ə)**

Şeyx Fətulla axund İsmayıl oğlu Bahadırlı 1837-ci ildə Qızılağac kəndində anadan olmuşdur. İbtidai təhsilini mollaxanada aldıqdan sonra atası İsmayıl kişinin arzusu və məsləhəti ilə Ərdəbil şəhərinə yola düşüb orada orta ruhani təhsili alıb. Ərəb dilinin qrammatikasını öyrənəndən sonra Nəcəf şəhərində ali ruhani məktəbinə daxil olmuşdur. Nəcəfdə 24 fənn üzrə elm öyrənən tələbələr şəxsi maraqlarından asılı olaraq biri fəlsəfəyə, digəri, fiqh elminə, bəzisi də astronomiyaya güclü meyl və maraq göstərirdi.

Şeyx Fətulla axundun ən çox sevdiyi elm astronomiya idi. Onu tanıyan yaşlı adamların söhbətləri yaddaşlardan-yaddaşlara ötürülüb bu günəcən gəlib çıxıb. Deyilənə görə Şeyx Fətulla axund şərqin böyük alimi Nəsrəddin Tusinin astronomik hesablama cədvəlinə mükəmməl bələd olduğundan orucluğun, məhərrəmliyin və ya Novruz bayramının, Qurban bayramının hansı gün olacağını bilmək üçün ətraf kəndlərdən də tanınmış alimlər ona üz tuturmuşlar.

Şeyx Fətulla da digər din xadimləri kimi maarifpərvər bir şəxsiyyət olub. Oğlu Şeyx Əsəd axund onun yolunu davam etdirmiş, ümid bəslədiyi tələbələrdən olmuşdur.

Şeyx Fətulla axund 1912-ci ildə 75 yaşında vəfat etmişdir. Məzarı unudulmasın deyə qəbrinin üstə kiçik bir abidə tikilmişdir. Qızılağaclılar onun ruhuna yas mərasimlərində həmişə fatihə surəsi oxuyurlar.

Mən 15 il Xıl kəndində baş mühəndis işləmişəm. Orada olan dünya görmüş müdrik qocalardan Şeyx Fətulla axund haqqında çoxlu xatirələr eşitmişəm. Onlardan biri budur. Şeyx Fətulla





axundla eyni dövrdə yaşamış Molla Mücrimlə dost olmuşlar. Molla Mücrüm şeyx Fətulla axundun şəxsiyyətinə və elminə qibtə edərmiş.

**Haşiyə:** Hacı Mirzə Məhəmməd Hacı Əli oğlu (Mücrim) 1830-cu ildə Cənubi Azərbaycanın Ərdəbil mahalının Pilaçay kəndindən gəlmişdir. Təhsilini Tehranda və Nəcəfdə almış, 25 yaşında (1855-56-cı illərdə) Lənkəran qəzasının Öncəqala kəndinə dayısının dəvəti ilə köçüb gəlmişdir. Bir müddətdən sonra Molla Mücrüm Xıl kəndindən olan bir qızla ailə həyatı qurmuşdur. Xıl kəndinə köçərək ömrünün axırına qədər orada yaşamışdır. “Mücrim” (günahkar) təxəllüsü ilə farsca və ərəbcə şerlər yazarmış. Onun yüzlərcə qəsidə, münacat, mərsiyə və rübailəri, şerlə qələmə aldığı qısa hekayələri “divan” halında tərtib edilmişdir. O, 1885-ci ildə Xıl kəndində vəfat etmişdir.

Xıl ağsaqqalları deyərdilər: Molla Mücrim bütün şəri məsələlərdə Şeyx Fətullaha inanarmış. Deyirlər ki, Ramazan ayının əvvəl və axırını, qurban və novruz bayramı günləri haqda ondan məlumatlar alarmışlar. Molla Mücrim öz tərəfindən bir adam göndərərmiş Şeyx Fətullahın yanına Ramazan haqda məlumat öyrənsin. O isə deyərmiş ki, bu axşam niyyət axşamıdır və yaxud fitr axşamıdır. Əgər inanmasalar gələrlər ayı qoltuğumun altından çıxarıb onlara göstərərəm.

... Bu söyləmələr həm Xılda həm də Qızılağacda tez-tez danışılardı. O dövrün tanınmış axundu ilə Şeyx Fətulla arasında müəyyən şəriət məsələlərinə görə narazılıqlar olarmış. Onların arasında elmi soyuqluq əlaməti var idi. Səbəb də bu olub; Şeyx Fətulla bu ərazidə astronomiya üzrə kamil bilikli alim imiş. Axund Ərdəbilə gedəndə dövrün müctəhidinin xidmətində olur. Hal-əhvaldan sonra həmin axund müctəhidə deyir: Şeyx həzrətləri, Qızılağaclı Şeyx Fətulla özündən hökm verir. Müctəhid deyir ki, mən bilirəm ki, Şeyx Fətullah imandar, təqvalı, pəhrizkar bir alimdir. O heç vaxt şəriətə müxalif olmaz. Nə isə Müctəhid

bir məktub yazıb göndərir Şeyx Fətullaha ki, məktubu alan kimi Ərdəbilə gəl, yol xərci mali imamdan ödəniləcək. Şeyx Fətulla Ərdəbilə gedir. Müctəhidin xidmətinə təşrif aparır. İçəri daxil olanda həmin axundu onun yanında oturan görür. Müctəhid hal-əhvalı soruşandan sonra deyir: Şeyx Fətulla, eşitdim özündən hökm verirsən. Şeyx Fətulla deyir ola bilməz. Başa düşür ki, bu sualla ona müraciət etməyi həmin axund lazım bilib.



*Şeyx Fətulla məqbərəsi.*

Yenə deyər şeyx, bəs ay haqqında, Ramazanın əvvəli və axırı barədə hökm verirsən? Şeyx Fətulla deyir: Şeyx həzrətləri mən belə hərəkət edirəm. Ramazan ayında hər gün səhər axşam məsciddə mənə iqtida edib namaz qılırlar. Orucluğun əvvəl axşamında deyirəm, mən sübh namazına gəlməyəcəyəm. Sual edirlər: Şeyx, nə üçün gəlməyəcəksiniz. Cavab verirəm ki, mən bu axşam niyyət axşamı edəcəyəm. Ayın axırında da həmçinin axşam namazına gəlməyəcəyəm deyirəm. Sual edirlər nə üçün? Deyirəm ki, fitr axşamı edəcəyəm. Mənə inananlar əməl edir-





lər. Mən heç kəsi məcbur etmirəm. Şeyx Fətulla ilə eyni sahə üzrə ixtisası olanlar da biri də Şeyx Əsədulla olub. Bir gün orucluq ayının daxil olması müxtəlif günlərə aid edilir. Şeyx Əsədulla gəlir Şeyx Fətullanın yanına və deyir: Şeyx Fətulla , eşitmişəm ki, bu gün oruc tutdurmusan? Şeyx Fətulla deyir: Şeyx Əsədulla, mən özüm buna əməl etmişəm, hətta həyat yoldaşıma da bu gün oruc tutmağa göstəriş verməmişəm. Şeyx Əsədulla bunu eşidəndən sonra görür ki, həqiqətən də Şeyx Fətulla öz edəcəyi işi başqasına məcbur etməyib.

**Haşiyə:** Şeyx Əsədulla Axund 1871-ci ildə Seybətin kəndində anadan olmuşdur.

Ərdəbildə, sonra isə Nəcəfdə Ali Ruhani məktəbində təhsil almışdır.

Burada 24 fənn üzrə təhsilini başa vuran məzunlar öz vətənlərinə qayıtsalar da o iki ildə orda qalaraq əlavə təhsil alır.

Şeyx Əsədulla Axund 1956-cı ildə 85 yaşında ikən Masallıda vəfat etmişdir.

Məzarı şəhər qəbristanlığındadır.

Şeyx Fətulla axundun nəvə və nəticələri də ziyalı və alimdirlər.

## ŞEYX ƏSƏD AXUND

***Allah istədiyini dərəcələrə yüksəldir. Hər bilik sahibinin fövqündə ondan üstün bir bilici də vardır.***
**Qurani - Kərim.**

Ruhani alim Şeyx Əsəd axund Şeyx Fətulla oğlu Bahadırlı 1893-cü ildə Qızılağac kəndində anadan olmuşdur. İbtidai dini təhsilini atası Şeyx Fətulla axunddan almışdır. Onun ilahiyyət elmlərinə marağını görən atası mükəmməl dini təhsil alsın deyə onu əvvəlcə Ərdəbil şəhərinə, sonra isə İraqın Nəcəf şəhərinə göndərmişdir. Ali Ruhani təhsilini başa vurandan sonra Şeyx

Əsəd Şeyx Fətulla oğlu doğma Qızılağac kəndinə dönüb, burada ruhanilik fəaliyyətinə başlamışdır. Dini moizələrlə yanaşı o, Qızılağacda mədrəsə açıb, həmkəndlilərinə yazıb-oxumaq öyrətmişdir.

Şeyx Əsəd axund göstərdiyi dini xidmətlərə görə camaatdan pul almazmış. Əksinə şəxsi təsərrüfatından əldə etdiyi qazancla həm ailəsini dolandırır, həm də fəqir-füqəralara yardım göstərirmiş.

Otuzuncu illərdə bütün din xadimləri kimi Şeyx Əsəd də təqiblərə məruz qalmışdır. Həbsə alınmaq və Sibirə sürgün olunmaq qorxusundan müxtəlif yerlərdə gizlənmişdir. Bu qorxu və həyəcanlara dözməyən Şeyx Əsəd axundun ürəyi 1937-ci ildə dayanmışdır. Məzarı Qızılağac kəndinin qəbristanlığındadır.

Şeyx Əsəd axundun çoxlu nəvələri var. Oğlanlarından biri hal-hazırda sağdır. Nəvəsinin birinin adı Əsəddir. Əli-Bayramlı şəhərində hüquq-müfahizə işçisidir. Çox təəssübkeş və yerlipərəstdir. Əli-Bayramlı təhsil şöbəsinin müdiri Şükür Hacıbala oğlu Qəribov deyir: Əsəd eşitsə ki, qonşu rayonlarda qızılağaclı var. Məni də götürüb həmin adamın yanına gedər, nə ehtiyacı varsa soruşar və kömək edər. Hətta qonşu Sabirabad rayonunun kəndlərində bir nəfər qızılağaclını da bu yolla tapıb onunla əlaqə yaratdı.

***Nə baban, nə atan nədə ki özün***
***Bir yol getməmisiz günaha doğru***
***Pak olub əməlin, düz olub sözün***
***İndi yol almısa Allaha doğru.***





## AXUND OĞLU ƏHMƏD

***Bir kərə yüksələn bayraq***
***bir daha enməz.***
**M.Ə.Rəsulzadə**

Dünyada hər bir xalqın tarixində ən müqəddəs və əziz bir gün var. O da həmin xalqın azadlığa çıxdığı **İSTİQLAL** gündür. Xalqımızın tarixində belə bir müqəddəs gün **28 may 1918-ci ildir**. Həmin gün xalqımız öz varlığını axşam saat $19^{10}$-da bir xalq kimi mövcudluğunu bütün bəşəriyyətə çatdırmış və onun da dünyada müstəqil surətdə yaşayan xalqlar kimi öz etnoqrafik sərhədləri daxilində azad yaşamağa hüququ olduğunu qeyd etmişdir... Xalqımızın XX əsrdə ilk müstəqil dövləti olan **Azərbaycan Demokratik Respublikası** yarandı. M.Ə.Rəsulzadənin rəhbərliyi altında **Azərbaycan Milli Şurası** və ona tabe olan F.Xoyskinin hökumət kabinəsi iyunun 16-sı müvəqqəti paytaxt olan Gəncəyə köçdü. Beləliklə Azərbaycanda müstəqil milli dövlət orqanizminin yaradılmasının özülü qoyulmuşdur. Həmin özülün qoruyucularından biri də həmyerlimiz, müsavatçı M.Ə.Rəsulzadə şövqi, məhəbbəti, duası rəğbəti ilə pərvəriş tapan Axund oğlu Əhməd idi.

Axund oğlu Əhməd haqqında məlum səbəblərə görə heç bir sənəd qalmayıb. Onun haqqında məlumatı qızı Şövkət nənədən, kənd camaatından eşitdiyim, yadımda qalan məlumatdan, və "Yeni Müsavat" qəzetinin 11 mart 1993-cü il tarixli 10 saylı nüsxəsində getmiş arxiv materialı olan yazıdan öyrənə bildik.

Axund oğlu Əhməd 1873-cü ildə Lənkəran qəzasının Qızılağac kəndində anadan olmuşdur. 1926-cı ildən gizli təşkilat yaranandan sonra təşkilatın fəal və bacarıqlı üzvü kimi fəaliyyətə başlamışdır. O öz fəallığına görə Lənkəran qəza komitəsinə sədr təyin olunmuş, təşkilatın bütün işlərinə rəhbərlik etmişdir. Axund oğlu Əhməd təşkilatın iclaslarını keçirir, İrandakı müsavat mühacirləri ilə əlaqə yaradıb, nümayəndə göndərmək məsə-

lələrini həll edir. Eləcə də Bakı ilə Lənkəran qəzasının Sovet hökumətinə qarşı barışmaz mövqedə duran gizli qrupları ilə əlaqə yaradılmasında iştirak edirdi. Doğma kəndi Qızılağacda Müsavat firqəsinə rəhbərlik etməklə Sovet hökumətinin kənddə keçirdiyi tədbir və kompaniyalara qarşı təbliğat aparırdı.

Axund oğlu Əhməd atasından ərəb, fars dillərini, müstəqil oxu nəticəsində rus dilini öyrənməklə sərbəst danışarmış.

Öz dövrünün savadlı və tanınmış adamlarından olmuşdur. O ticarət etməklə yanaşı bank işi ilə də məşğul olmuş, 3 il Qızılağacda (İlk bank binası indiki hamamın yanında olan iki mərtəbəli bina olub), 6 il Masallıda bankda işləmişdir.

Onun kənd camaatı arasında böyük nüfuzu olmuşdur.

Axund oğlu Əhmədin 9 uşağı olmuş, bunlardan qızı Şövkət Qızılağac kəndində, oğlu isə Bakıda yaşayır. Onun Azərbaycan Demokratik Respublikasının başçısı M.Ə.Rəsulzadəyə böyük məhəbbəti və rəğbəti olmuşdur. Buna görə də öz oğullarının adını M.Ə.Rəsulzadənin adına uyğunlaşdırmışdır.

**1. Məhəmməd Mehdi**
**2 Məhəmməd Şəfi**
**3. Məhəmməd Rəsul**
**4. Məhəmməd Kamil**
**5. Məhəmməd Səid**
**6. Məhəmməd Əmin**

"Yeni Müsavat" qəzetinin 11 mart 1993-cü il tarixli 10-cu sayında DTK-nın arxiv materiallarından götürülmüş məlumatda göstərilir ki, Axund oğlu Əhməd 1928-ci il 4 apreldə 55 yaşında həbs olunmuş, ona qarşı xaricdəki Müsavat mühacirləri ilə əksinqlabi əlaqələrinə görə, siyasi ünsürlərlə əlaqəyə görə, sovet hökumətinə qarşı silahlı qiyamın hazırlanmasındakı fəaliyyətinə görə Az.SSR Cinayət Məcəlləsi 34,66,72,73-cü maddələri ilə cinayət işi qaldırılmışdır. İstintaqın gedişində özünü qatı müsavatçı və Sovet hökumətinin barışmaz düşməni kimi büruzə vermişdir.





Axund oğlu Əhməd tutulandan sonra ailəsi incidilib, ailəsinin səsi alınaraq uşaqları məktəbdən çıxarılıb. Yaşadığı ev dəfələrlə yoxlanılıb və üç dəfə satışa qoyulub. Satışa qoyulmuş evi iki dəfə onun həyat yoldaşı Leyla xanım Yusif qızı, bir dəfə də Leyla xanımın qardaşı alıbdır. Leyla xanımın əri tutulandan sonra dəfələrlə dindirilib, olmazın mənəvi əzablar çəkib və 1970-ci ildə vəfat vedib.

Axund oğlu Əhmədin Qızılağac kəndində yaşayan qızı Şövkət nənə ilə görüşəndə atası haqqında maraqlı məlumatlar verdi. O, atasının düzgün yol tutaraq üzv olduğu Müsavat partiyasının indi də fəaliyyət göstərdiyini bildikdə çox sevindi və şükr etdi ki, atasının həyatında üstün tutduğu Müsavat partiyasının davamçıları indi də vardır. Şövkət nənə atasının gördüyü işlərdən, onun camaat arasında olan hörmətindən ərəb, fars, rus dilində təmiz danışmasından, dövrünün savadlı adamı olmasından, evlərinə tanımadığı adamların yığışıb gizli söhbətlər etməsindən ürək dolusu danışdı. O, dedi - Ağam tutulmamışdan əvvəl bizim evə ağamın işlərinə göz qoymaq üçün təxminən 30 yaşında hündür, axsaq, qoltuq ağacı ilə gəzən bir oğlan göndərilmişdi. Təxminən 2 ay bu oğlan bizdə qaldı. Ağam hər gecə onunla oxuduğu kitablardan, Qurani Kərimdən, Kərbəla müsibətindən, xalqımızın bu günü və gələcəyindən danışırdı. Bir gecə NKVD işçiləri bizim evə gəlib ağanı aparmaq istəyirdilər. Öz qulaqlarımla eşitdim ki, həmin axsaq oğlan onlarla mübahisə edib deyirdi:

- Axı bu adam təmiz adamdır, kasıblara əl tutur, camaata ürəyi yanır, savadlıdır, dövlət əleyhinə heç bir iş görmür. Gələnlərdən biri həmin axsaq adamın üstünə qışqırıb dedi: Deməli o səni yoldan çıxarıb yedizdirib, içirdib, kökəldib. Biz səni kurorta göndərmişdik, yoxsa ona göz qoymağa?

Yaxşı, sənin dərsini verərik. Görünür yaşamaq istəmirsən.

Axsaq oğlan cavabında dedi: Mən axund oğlu Əhməd kimi adamlarla ölümə belə gedərəm!

Sonra onları götürüb apardılar. Axund oğlu Əhməd tutulandan sonra onun barəsində ailəsinə heç bir məlumat verilməyib. Ailəsi müxtəlif yerlərə dəfələrlə müraciət edib heç bir cavab olmayandan sonra M.C.Bacırovla görüşüb Axund oğlu Əhməd haqqında məlumat almaq istəyiblər. M.C.Bağırovla görüşdükdən sonra ailəsinə bildiriblər ki, guya Axund oğlu Əhməd Türkiyəyə qaçıb. Əslində bu yalan məlumat idi. Şövkət nənə ağlaya-ağlaya dedi ki, sonradan eşitdiyinə görə Nargin adasında boğublar. O cinayətkar insanlar Axund oğlu Əhmədi qətlə yetirsələr də, ancaq haqqı boğa bilmədilər. Demokratik dövlətin yaranış vaxtında və sonralar **"Gültəkin"** ləqəbi ilə şerlər yazan Əmin Abid (1898-1938) 28 may İstiqlal gününü belə tərənnüm etmişdir:

***İstiqlal, o yaşayan millətin qəlbində qan***
***İstiqlal, o səadət, həyat, zəfər, şərəf, şan***
***İstiqlal, o sönməyən bir məhəbbət məşəli***
***Könüllərdə tutuşur, gözlərdə sönsə belə!***

## MOLLA ABDULLA AXUND

***Nəfsin günahlardan təmizləyən***
***şəxslər mütləq nicat tapacaqlar.***
**Qurani - Kərim**

Buna kiçik axund deyərdilər. Şeyx Fətulla ilə eyni dövrdə yaşayıb Şeyx Fətullanı böyük axund, Molla Abdullanı isə kiçik axund adlandırırdılar. Molla Abdulla uzun müddət mədrəsədə şəriət müəllimi işləyib. 1885-ci ildə ilk iki sinifli məktəbdə, sonra 1896-cı ildə Mahmudbəy Mahmudbəyovun müdir olduğu "Şkola" məktəbində şəriət müəllimi işləmiş, 1897-ci ildə onu məktəbdə şəriət dərsi deməkdən uzaqlaşdırıblar. Sonralar mədrəsədə fəaliyyət göstərib. Daha sonra axundluq vəzifəsini icra edib. Şeyx Fətulla ilə eyni zamanda məsciddə oturub şəriət elmlərindən xalqı xəbərdar edərdilər.





Molla Abdulla indiki ATS-in yerində olan zəncir təkkəsində ey Kuf adlı şəxslə məhərrəmlik mərasimi saxlayarmış və həm də mərsiyələr deyərmiş.

Qış klubunun yerində olan zəncir təkkəsində də fəaliyyət göstərirmiş. Məscid həyətində aşura günü şəbeh çıxarmağı təşkil edərmiş. Onun dərs dediyi adamlardan biri Zəhraxanım Əhməd qızı söyləyərdi ki, kiçik axund həmişə məsciddə olardı və şəri suallara cavab verərdi. Molla Abdulla kiçik hamamda çimib qırağa çıxıb qurulanan yerdə vəfat edib. Zəhraxanım Əhməd qızı deyərdi: Kiçik axundun çoxlu şagirdləri olub. Sonradan onlar da mollalıq ediblər. Kiçik axund Molla Abdulla qardaşı Molla Lətiflə eyni dövrdə yaşayıb və hər ikisi şəriət elmlərini tədris ediblər. Artıq onlar unudulmaq üzrə idilər. Mən bu kiçik həcimli yazıda onların xatırlanması üçün məlumat verməyi özümə borc bilmişəm.

## AĞA MİR HƏSƏN AĞA

***Allah yolunda əziz və yaxın olan***
***şəxslər onlardırlar ki təqvaları çox olur.***
**Hücurət surəsi ayə 13**

Mir Həsən ağanın adı hər dəfə gələndə, hər dəfə ağanın Müqəddəs adıyla Cəddini çağrılanda Seyid Əzimin

***"Movti-cismanım ilə sanma mənim ölməyimi***
***Səyyida ölmərəm, aləmdə səsim var mənim"***

- misraları düşür.

El arasında Seyidlər bir-birinə əmoğlu deyirlər. Məncə bu ölməz misralar bütün seyidlərin ruhundan qopan müqəddəs kəlam, ürəkdən deyilən ilahi sözdür. Və bu ilahi sözün işığında adını eşidib, üzünü görmədiyim bir kəramət sahibi olan Ağa Mirhəsən ağa haqqında bir kitablıq söhbətlər dinləmişəm. Bu söhbətlərdə qədəm basdığım ocaqları şərəfləndirən Mir Möhsün ağa, Seyid Camal, Mir Tağı Seyidağa, Hacı Mir Heydər ağa, Seyid Mir Heydər, Seyid Sadıq, Mir Səmid, Mirzə Hüseyn ağa,

Hacı Mir Hüseyn ağa, Hacı Mir Sultan ağa və çox mötəbər seyidlərimizin adları zikr olunub... Bu yazımda adları çəkilən və çəkilməyən, Cəddinin hikmətindən kömək umduğumuz bütün seyidlərimizə Allah təaladan rəhmət və Savab diləyirəm. Allah onların Müqəddəs cəddinə rəhmət eyləsin.

...Ağa və Seyid deyə müraciət etdiyimiz, adlarını hörmətlə və ehtiramla anıb, Cəddinə ümidlə pənah apardığımız bu mömün insanlar kainat sahibi Allahın rəsulu, dünyanın və axirətin seyidi həzrəti peyğəmbərimizin (s) nəslindən olanlardır. İmam Hüseyn (ə) yadigarlarıdır. 1868-ci ildə, İsfahanda dünyaya gələn, yeniyetmə yaşlarında Qızılağaca ata-baba ocağına qədəm basan Mir Həsən ağa Mir İbrahim oğlu əməlisalehliyi və səxavəti ilə öz adını ürəklərə nəqş etmişdir. Müqəddəs şəcərəsi yeddinci imamımız Museyi Kazımdan zinətlənən Mir Həsənağa qəlbində daşıdığı İman Nurunu sınıq könüllərdən əsirgəməyib: Cəddi və duası ilə binəsiblərin imdadına çatıb, ocağına pənah gətirənlərin Şəfa tapmaları üçün Uca və Qadir Allahdan yardım diləyib.



***Mir Həsən ağa.***





Cəddin bizə kömək olsun ağa. "Mömün o kəslərdir ki, namaz qılar. Verdiyimizi Allah yolunda sərf eləyər onlar... Onları rütbələr, məğfirətlər bol-bol ruzilər gözləyir. Rəbblərinin dərgahında... Yardım diləyirdiniz siz Rəbbinizdən... Mən sizə bir-birinin ardınca gedən min Mələklə yardım edərəm. (Quran, ənfal surəsi, ayə 8).

... Ağanın ulu babası Seyid Camalın məzarı Astarada ziyarətgaha çevrilib. Babası Mir Abdulla axund "öz dövrünün müctəhidi olub. (Allah hər ikisinə rəhmət eləsin) Onun Qızılağacda məskən salmasının maraqlı tarixçəsi var. Deyilənlərə görə, düz yeddi il kənddə quraqlıq imiş. Bir dəfə axundun yolu bura düşür. Camaat deyir ki, ağa dua elə yağış yağsın! Həzrəti Əli Əleyhissəlam buyurur ki, hər kəs mömün adama dərdini desə, elə bil Allaha deyir... Və axundun duasından sonra həqiqətən də yağış yağır. Bunu görən adamlar Mir Abdulla axundu kənddən buraxmırlar.

... Axund Mir Abdulla Qızılağaclı Qubad bəyin qızı ilə ailə həyatı qurur. Bəy ona öz mülkündən ev verir. Mir Abdullanın oğlu Mir İbrahim burada dünyaya gəlir. Ailə qurur (Bu günə kimi bu ocaqda çalğı səsi eşidən olmayıb) Mir İbrahim İsfahanda dini təhsil alarkən fars qızı Ruqiyyə Soltanla siğə edilib... Mir Həsən ağa və bacısı Mir Səkinə dünyaya bu izdivacdan gəliblər.

Sağlığında müdrikliyi, kimsəsizlərə həyan durmağı, verilən nəzir-niyazları fəqir-füqəraya paylamağı ilə camaat arasında unudulmaz xatirələr qoymuş Ağa Mir Həsən ağa Mir İbrahim oğlunun əməlləri bu gün əfsanəvi hekayətlərin mövzusuna çevrilib...

Qapısına gələni naümüd qaytarmayan Ağa son tikəsini ehtiyacı olana verər, hətta əyninin paltarını belə soyunub biçarə fəqirlərə bağışlarmış. Həzrəti Əli öz müqəddəs kəlamlarında buyurur ki, hər kim fəqirlərə kömək etsə, Allaha kömək edər, hər kim onları incitsə Allahı incidər.

Haqqında danışılan hədislərdən. ...

Bir dəfə Mir Həsən ağanın yolu içməli su həsrəti ilə yaşayan bu kəndə düşür. Kənd əhli yalvarır ki, ağa cəddinə qurban olaq, suyumuz qəhətə çıxıb. Deyir ağa dua oxuyub, sonra üzünü camaata tutub deyir ki, məni qovun, harada yorulub yıxılsam, oranı qazarsınız! Elə də olur. Ağanın yıxıldığı yeri qazırlar, şirin su çıxır.

... 30-cu illərdə mömin adamların başı çox müsibət çəkib. Ürəklərində Allah xofu olmayanlar, ruhanilərimizi, Seyidlərimizi izləyib, çoxunu sürgünə göndərib vətəndən didərgin salıblar. Bir gün NKVD işçiləri MirHəsən ağanı dini təbliğ etdiyi üçün günahlandırıb, maşınla harasa aparmaq istəyirlər. Maşın yerindən tərpənmir. Ağanı düşürürlər.

Maşın işə düşmür. Qərəz, bu möcüzə bir də təkrar olunduqdan sonra gələnlər: "Biz səni görməmişik" deyə kor-peşiman geri qayıdırlar.

"Dünyada Seyidlər vardır ki, duası ilə yanan zəmiləri söndürür!... Onların qəlbini sındıranlara pərvərdigar tərəfindən ən dəhşətli cəzalar qismət olur... Güllənin icadı möcüzə deyil. Möcüzə onun hədəfdən yayındıran Cəddin ağırlığındadır. (Hacı Azərin Hacı MirSultan ağanın xatirəsinə yazdığı "Behişt zəvvarı" kitabından)

... MirHəsən ağa öz evində ata-baba ocağında məhərrəmlikdə, qədr gecələrində həmişə ehsan verərmiş. Mötəbər adamlar, hakim zümrə ağaya divarlarında quşlar yuva salan köhnə evini söküb, yerində təzəsini tikməyi məsləhət görərmiş. Ağa da cavab verərmiş ki, bəs sizin bu zavallı quşlara rəhminiz gəlmir? Nə qədər nəfəsim gəlir onların yuvalarından didərgin düşməsinə razı ola bilmərəm.

"O ruzi ki, kifayət edər, bəsdir"- Həzrət Əli (ə)

... Bir dəfə mətləbinə çatan bir şəxs ağanın ocağına nəzir etdiyi yanıbalalı inək gətirir. Mirhəsən ağa özünə və ailəsinə "ziyan" vuran adamın qəlbini sındırmaq istəmir. Soruşur ki, pulun var? - Bəli, ağa var! - deyə həmin şəxs dillənir. - Onda sən mənə beş-on manat ver!... Nəzir edən verir. Ağa deyir: Mən də bu inəyi yanı balalı verdim sənə, götür apar. "Allah yolunda az nəzir verənin savabı çox olar!"





Yol daşını yol quşuna atma, qardaş, kərəm eylə...

- Bu sözlər Şah Xətainindir.

Nəql edirlər ki, Mirhəsən ağa yolu çox vaxt pay-piyada gedərmiş. Rastına çıxan daşları götürüb, yolun kənarına qoyarmış... Ağa yol adamı kimi, yol quşunun da bu daşlardan görməsini istəməzmiş... Ağa adamları günah işlərdən çəkindirər, onlara öz davranışı ilə ibrət dərsi verir, qəlblərində ədəb-ərkan çırağı yandırardı. Bir dəfə ağanı üstüaçıq arabasında aparan şəxs öz atını bərk qamçılayır, ürəyi soyumur, hələ bir söyür də. Ağa deyir, bala arabanı saxla! Və düşür. Deyir "Sür get! mən piyada gedərəm"... Arabaçı peşimançılıqla dillənir ki, ay ağa olmaya xətrinə dəydim?" Ağa deyir ki, rəhmətliyin oğlu, bu at sənə nə pislik edib? Həm döyürsən, həm də söyürsən... Evinə suyu, otu ruzini atla gətirmirsənmi? Deyilənlərə görə həmin adam bu hadisədən sonra özü ilə qırmanc gəzdirməyi belə tərk edib. Masallı Qala bazarını gəzərkən və ya qonşu rayonlara gedəndə verilən nəzir-niyazları Mirhəsən ağa həmin anda kimsəsizlərə və imkansızlara paylayarmış.

Bir dəfə onunla uzaqdan gələn bir adam Ağanın səxavətindən və alicənablığından heyrətə gəlib deyir ki, Cəddinə qurban olum ay ağa elə et ki, heç olmasa günorta yeməyə pul saxla!

Müharibə illərində və ondan sonrakı dövrdə ağa ailə başçıları cəbhəyə gedib - qayıtmayan ailələrə, qaragünlülərə baş çəkər, onlara ərzaq paylayarmış.

***Aşiqəm, öz ömrümü sevdaya qurban vermişəm.***
***Qəlbimi şan-şan kəsib, eşqimçin ehsan vermişəm.***

- Bu qəzəl də həmyerlimiz şair-təbib ağamız Mir Kazım Aslanlı - Sarəngindir. - (Və el arasında seyidlər bir-birlərinə əbəs yerə "Əmioğlu" demirlər) Allah sevgisindən böyük sevgi tanımayan, Aşiqi-Sadiq ağa! Ömrünü Cəddindəki Sevdaya qurban verməkdən usanmayan, Mir Həsən ağa! On dörd məsumi ümmətə bəxş edən, bu cahanı yoxdan var edən Pərvərdigar vurğunuydu: Mir Həsən ağa canında gəzdirdiyi ilahi sevgidən, İman nurundan Allah bəndələrinə ehsan verirdi... Ömrü tükənsə də baldan şirin tanrı eşqi, iman sevgisi qəlbində tükənmirdi. Əhli-beyt nişanəsi və pərvanəsi olan Mir Həsən ağa ömrünün müdrüklük çağında 1955-ci ildə - 87 yaşında haqq dünyasına qovuşub. Qızılağacda dəfn olunub. Yeri behişt olsun!

**P.S.** Mirhəsən ağanın haqqında yazmaq xoşdur. Həm də çətindir. Burada yazılanlar və yazmaq istədiklərimiz ağanın əməli-salehliyindən, kəramətindən bir zərrədir... Allah bizə bu unudulmaz və müqəddəs müsəlman kişi haqqında geniş söhbət açmaq imkanı nəsib eləsin.

Və bir də bu çətin anlarda tez-tez dua edirəm ki, Ağanın cəddi bizlərə kömək olsun. Sanki qulaqlarımız ölməz Seyidin ilahi aləmdən mehriban səsi gəlir:

"İçimiz də çölümüz də günahlarla dopdoludur"

Dualarınız müstəcəb olsun, deyə günahlardan təmizlənin! Qoy mərhəmətli Allah günahlarımızı əfv eləsin. Qəlblərinizi iman duyğuları ilə barışdırsın.

Amin ya Rəbb!





## MİR CƏFƏR AĞA

***Kişi öz qəlbində imanın şirinliyini dərk etmək üçün gərək dünyaya laqeyd olsun və heç maraqlanmasın ki, dünyanı yeyən kimdir.***

**Məhəmməd Peyğəmbər (ə)**

Mir Cəfər Mir Kərim oğlu 1895-ci ildə Qızılağacda anadan olub. Çox təqvalı, imanlı, xoş əhval-ruhiyyə sahibi olub. Əhval-ruhiyyəsi olmasına baxmayaraq nəfsi ağır olub. Hər kəs onun cəddini çağırsa nicat tapardı. Ağa Mir Cəfər çox hazırcavab və kəramətli ağa olub. Əsasən onun kəramətini görən adamlar indi də ürək dolusu danışırlar. Bir vaxt əkin sahələrini gəmiricilər korlayırmış. Ağaya müraciət edirlər Ağa həmin gəmiricilərin əlamətin soruşur. Sonra ağa deyir ki, bu bir bəladı buna ağanın gücü çatmaz. Ancaq bu bəlanı Allah dəf eləsin.

Ağaya kimi özlüyündə nəzir etsəymiş Ağa onu duyarmış. Səhər gedərmiş həmin adamın evinə deyərmiş: dünən mənə nəzir boyun alıb kasaya qoyduğun pulu gətir. Həmin adam deyərmiş: -Ağa nə bildün deyərmiş, mənə ilham edirlər.

Ağaya inəyin ətindən bir bud nəzir boyun olan adama ağa deyib: - beş manat ver qalanı sənin olsun.

Ağa söhbətə maraq göstərən olub. Bir gün onu Babakosa (Təzə kənd) kəndinə qonaq çağırırlar. Ağa özü ilə Dadaşbala kişini aparır. Süfrə sərirlər. Allah verən nemətin süfrədə olan vaxtında Dadaşbala kişi deyir: - Ağa şor yeməz, Ağa ət yeməz, Ağa pendir yeməz. Nəhayət heç bir şeydən yeməyən ağa qonaq evindən çıxıb gələndə Dadaşbalanı tutur və onu vurmağa başlayır. Deyir ağa nə edirsən? Deyir: - Ağa ət yeməz, Ağa şor yeməz, Ağa pendir yeməz, Dadaşbala kötək yeyər.

Ağanı həmişə kənd camaatı həyətlərinə aparıb həyət-bacanı, ev-eşiyi kiymələtdirərmişlər. Ağa həyətə girib üç-dörd dəfə tüpürərək oranı kiyməliyərdi və məhsul çox olardı. Ağanın oğlu Mir Abdulda ilanı ram etmək məharəti var idi. O vaxtlar kənd

evlərində qızıl ilan çox olardı, ev sahibləri qorxudan evə girə bilməzdilər. Mir Abdul kişi bir dəfə ilanı çağırmaqla neçə metr uzunluğu olan ilan qıvrılıb yığılardı. O isə onu götürüb boynuna dolayardı. Cibinə qoyardı.

Əlihəsən Kərbəlayi Ağakişioğlu deyir. Bir gün anam rəfdə olan kasaların içində çox qorxu bəxş edən qızılilan görür. Ağa Mircəfəri gedib gətirirlər. Ağa ilana üz tutub deyir. Ey Allahın heyvanı buranı tərk eylə. Bir də buralara gəlmə. İlan rəfdən düşür. Rahatca çıxıb gedir bir daha oralarda ilan görsənmir.



*Mir Cəfər ağa.*

Keçmiş günlərdə Mir Cəfər ağa vətəgədə işləyərmiş. Ağaya və ondan əlavə üç yoldaşına deyirlər gedin yovşanda olan küməni söküb odun ocağını gətirin. Yoldaşları ağaya işin təfsilatını deyirlər. Dekabr ayı olsa da, hava günlü və isti idi. Ağa deyir: gözləyin gəlirəm. Ağa girir evinə, yoldaşları onu tələsdirirlər. O isə deyir: gözləyin gəlirəm. Nəhayət ağa bir kisə dolusu yükü atır belinə və deyir: indi gedə bilərik. Yoldaşları soruşur:





Ay ağa, kisədəki nədir? Deyir: yorğan. Deyirlər: ay ağa, yorğanı neyləyirsən isti havadır. Deyir: lazım olar. Biri o birinə deyir: Ağa səfi olub. Ağa bu sözü eşidir, əhəmiyyət vermir. Gedib yovşana çatırlar.

**Haşiyə:** Yoşan Qızılağac qoruğunda yer adıdır. Kənddən xeyli uzaqdır.

Sökəcəkləri kümənin yanına çatar-çatmaz hava dəyişir, qar tökür, soyuq başlayır. Ağa yorğana bürünüb uzanır o biri üç nəfər kümənin ağacını söküb yandırırlar ki, soyuq olmasın. Hərdən ağa yorğanın altından başını çıxarıb onlara istehza ilə deyərmiş: Ağa səfi olub.

Ağa Mir Cəfər bir gün bazara satmağa yanında cücəsi olan toyuq gətirir. O toyuğu alırlar. Səhər toyuq alanın oğlundan soruşur: toyuq neyləyir? Deyir: Ağa, dənləyir. Deyir: elə et ki, pişik cücələri dənləməsin a... Mən pişiyin əlindən satmışam.

Zarafatyana ağanı yoxlamaq üçün ağanın toyuğunu oğurlayıb özünə satırlar. 3 dəfə bu iş təkrarlanır. Ağa pul verib alır. Ancaq satanlara elə münasibət bildirir ki, guya ağa bu toyuğu tanımır. Sovet hökumətinin vaxtında, işsizliklə mübarizə dövründə ağanı altı ay məcburi əməyə cəlb edirlər. Kənd ərazisində əkiləcək üzüm tingləri üçün qazılan çaladan ağa da qazmalı idi. Ağa görür ondan qabaqda gedənlər bir neçə çala qazıblar. Ağa deyir: qazdınız? Deyirlər: bəli. Ağa çalanın birinə tüpürərək deyir: tufu mərəyə. Deyirlər o ərazidəki əkindən heç nə hasil olmadı.

Ağa Mir Cəfəri o vaxtlar şam məclisinə dəvət edirdilər. Ağa təşrif buyurardı. Söhbət edərdi, uzun qarlı qış gecələrində bir gün ağa bizdə qonaq olur. Evi bizim evə yaxın idi. Bizim evin gün çıxan səmtində Məhəmmədin pələdində o vaxt kolluq olub. Ağa gedərkən əynindəki əba kola ilişir, ağa deyir: adə, burax! Görür buraxmır, əbanı əynindən çıxardıb qaçır evə həyat yoldaşı Kifayət xalaya deyir ki, məni soyundururlar. Deyir: ay ağa səninlə kimin nə işi. Ağa deyir: Əgər soymasaydılar əbam əy-

nimdə olardı. Səhər yerindən durub bazara gedəndə görür əba kola ilişib qalıb orda. Sən demə ağanı soyunduran kol ağacı imiş.

Ağanın xoş təbəssümlü sözləri dərin məna kəsb edirdi. Ağa Mircəfər dünyaya məhəbbəti olan insanlara həmişə keçmişlərdən ibrət götürün deyirdi. Ağanın bu sözləri dahi Füzulinin aşağıdakı beytləri ilə səsləşir:

***Bu aləm kim, könül, qeydin çəkərkən möhnəti qəmdir,***
***Fəna sər mənzilin seyr elə kim, bir xoşca aləmdir.***
***Anıb tənhalığı qəbr içrə nifrət qılma ölməkdən ,***
***Təriqi-müns tutkin, hər ovuc torpaq bir aləmdir.***

## MİR KAZIM AXUND

***Bəndələr arasında alimlər,***
***Allahdan ən çox qorxandırlar.***
**Quran - Kərim**

Mir Kazım Mir Məmməd oğlu 1888-ci ildə Qızılağacda anadan olub. Molla Əsəd ilə eyni dövrdə yaşayıb. Nəcəf şəhərində ali dini təhsil alıb.



*Mirkazım axund.*





Mir Kazım axund ali təhsil alandan sonra Qızılağaca gəlib dini təbliğ etməyə başlayıb. O həm Qızılağacda və həm də qonşu Hüseynhacılı kəndində eyni zamanda axundluq edib. Sovet hökumətinin dinə qarşı qoyduğu qadağanları əsas tutaraq o dövrdə kənd soveti tərəfindən təzyiqlərə məruz qalıb. Belə bir vaxtda o Qızılağacı tərk edərək həyat yoldaşının kəndinə Xoşçabanlıya pənah aparıb. Orada da bir neçə il gizli fəaliyyət göstərib. 1938-ci ildə Qızılağac kənd soveti işçiləri tərəfindən tutdurulub. 1954-cü ildə ölüm xəbəri gəlir. 1989-cu ildə bəraət verilib.

Onun yaşadığı həyətdə qaraca xəstəliyinə müalicə təsiri bağışlayan əlamət olub (ocaq olub). Göytəpə kəndindən qaraca xəstəliyinə tutulan atları ora gətirərmişlər. Atlar sağalarmış və aparарmışlar. Mir Kazım axund söhbətlərinin birində deyib: Quranda bir ayə var kim bir xətt çəkib və xəttin üstünə çıxsa o ayəni oxusa göyə qalxar. Ani sükutdan sonra deyərmiş:

Əfsus ki, onu mən bilmirəm. Onu peyğəmbər (ə) bilirdi.

Axund sakit təbiətli, xoş rəftarlığı ilə fərqlənən şəxs olub.

***Fələyin nə günahı. Fələk neyləsin buna.***
***Onun çarxını tərsinə döndərən bizik-biz.***
***İnsan oğlun çıxardıb cənnətin kənarına***
***Bir odlu cəhənnəmə göndərən bizik-biz.***

## AXUND MOLLA MİR MÖHSÜN AĞA MİR HƏSƏN OĞLU

***Qiyamətin günündə alimlərin qələmlərinin mürəkkəbi şəhidlərin qanı ilə bir ölçülər. Alimlərin qələmlərinin mürəkkəbi şəhidlərin qanından ağır gələr.***
**Məhəmməd Peyğəmbər (ə)**

Mir Möhsün ağa 1893-cü ildə Qızılağac kəndində dindar ailəsində anadan olmuşdur. Atası Ağa Mir Həsənin köməkliyi ilə dini biliklər qazanmış, sonradan Nəcəf şəhərində ali ruhani təhsili alır. Təhsilini başa vurub kəndə qayıdır. Onun təhsildən qa-

yıdarkən qarşılanma mərasimi haqda yadda qalanları keçmiş qocalar belə nəql edərdilər.

Ağa Mir Möhsün təhsildən qayıdanda 200 metr uzunluqda yolu xalça kilim ilə döşəyərək onu təmtəraqlı surətdə qarşılayırlar. Hətta xüsusi atlarda zəvvarların onun müşahidə etməklərini də söyləyirlər. Həmin illərdə dindarlara qarşı amansız cəzalar tətbiq edilirdi. Ağa Mir Möhsün bu qorxudan özünü xilas etmək üçün ruhani qiyafəsini tərk edir. Dini yox, dünyəvi elmləri tədris edir. Ömrünün axırına kimi müəllimlik etdi.



*Mir Möhsüm axund.*

Ağa Mir Möhsün çox təqvalı və pəhrizkar şəxs idi. Heç vaxt bazardan aldığı ərzaq məhsulunu açıq vəziyyətdə aparmazdı. Deyirlər bir gün onun yaşadığı ev od tutub yanırmış. Camaat səsə onun həyətinə gələndə görürlər ki, aşağı mərtəbədə olan ot koması od tutub yanır, ağa isə bir zənbil kitabı evdən çıxardıb evinin qabağındakı nar ağacının altına tərəf gedir. Deyirlər: ay ağa ev yanır, sən isə arxayıncasına hərəkət edirsən. Ağa deyir: narahat olmayın inşallah yanmaz. Görürlər ağa zənbildən bir kitab çıxardıb oturduğu yerdə oxumağa başlayır. Camaat cəmlənərək təəccüblə yanğının sönməsinə tamaşa edirlər. Çox çəkmir yanğın özü özünə sönür.





Ağa Mir Möhsündən dini suallara dəqiq cavab alan dindarlar ona dini təbliğ etməyi məsləhət görürlər. O isə qorxudan bunu qəbul etmir. İbrahim Səlimov onu qorxudan uzaqlaşdırmaq üçün təsəlli verərmiş. Ağanın vəsiyyətinə əsasən məxsusi kitablarını onunla birgə basdırırlar. Hətta vəfatından sonra onun kitablarının içində müctəhidlik vəsiqəsi də tapıldığını deyirdilər. Mən ağanın şəklini almaq üçün həyat yoldaşı Sura xalanın xidmətinə təşrif buyurdum. İsrail müəllim və onun həyat yoldaşı Elmira ilə onun otağına daxil olanda 80 yaşdan yuxarı yaşı olan bu qoca qadın məni görən kimi Kərbəlayı Nüsrət, xoş gəlmisən. Dedim: ay Sura xala mən güman etməzdim ki, siz məni görən kimi tanıyasınız. Maşallah həm iti yaddaş və görmə qabiliyyətinə malik imişsiniz. Mən gəlişimin məqsədini dedim. O əlini göyə qaldıraraq dedi: ilahi şükür sizə. Dedim: Sura xala bu minnətdarlığı nəyə əsasən Allaha bildirdiniz. O dedi: Kərbəlayı Nüsrət, ona görə şükür eylədim ki, o cür gözəl ruhani haqqında maraq göstərib, onu yazı vasitəsilə xatırlayacaqsınız. Mən bilirdim ki, bu şəxsin elmi onun xatırlanmasına səbəb olacaqdır. Sura xala ağa haqqında gözəl təəssüratlar danışdı və hətta dedi: Ağa əyləşərdi ocağın altında, özü-özünə zümzümə edərdi bu sözləri.

***Demirəm vicdanı dar olur.***
***Hal bilən hal duyan bir sənətkar olur.***
***Xanalıq yaxşılıq yaşasa qoşa.***
***Səni də qaldırar çıxardar başa***
***Götür ürəyimdən yaralı daşı***
***Bəlalı olur insanın başı.***

Qonşu qadın demə bu sözlərə qulaq asırmış. Deyir: ay Ağa bərkdən de biz də eşidək. Ağa həmin qadının sözünü eşidən kimi ardını bir daha demir.

Mir Möhsün Ağa 1965-ci ildə vəfat edib. Qəbri Qızılağac qəbristanlığındadır.

## KƏRBƏLAYI HÜSEYNALI

*Bilin ki, elm çox oxumaq və çox öyrənməklə deyildir. Elm elə bir nurdur ki, Allah taala onu hidayət etmək istədiyi bəndəsinin qəlbinə əta edir.*

**İmam C.Sadiq (ə)**



*Kərbəlayı Hüseynalı.*

Kərbəlayı Hüseynalı çox zəhmətkeş və qayğıkeş insan olub. Heç bir təhsilə malik olmayıb. Nə yazıb nə oxuyub. Həm yazanlar həm də oxuyanlar dərəcəsində söhbətlər edərdi. Yazıb-oxuya bilməyən şəxs haqqında o dediklərimə təəccüb etməyin. İnsan yazıb-oxuyur, təkrarlayır, oxuduğu, yazdığı yadında qalsın. Ancaq Kərbəlayi Hüseynalıya Allah iti yaddaş bəxş etmişdi. Yazmadan, oxumadan eşidilənləri kəlmə-kəlmə, sətir-sətir yadında saxlayardı.

Qızılağaca Kəlbəhüseynli kəndindən mollalığa gələn Molla Sadıq axund deyib: ay camaat Kərbəlayi Hüseynalı eşitdiklərini elə danışır ki, elə bil o əhvalatı özü söyləyib və iştirakçısı olub.





Çox gözəl səlist tələffüzə, məharətli nitqə, cəlb edici məlahətli səsə malik olan şəxs olub. Bu istedadı ona bəxş edən Aləmlərin rəbbi idi. Tarixdə belə şəxsiyyətlər, yəni iti yaddaşı olanlar haqda xəbərlər var. O xəbərlərin biri Bəni Abbasi xəlifələrindən Mənsur Dəvaniqi haqqında belə yazırlar. Mənsur Dəvaniqi Bağdadın bünövrəsini qoymuşdur. Elmə çox maraq göstərən olub, öz dövründə yunan filosoflarının əsərlərini Bağdada gətizdirib ərəb dilinə tərcümə etdirib yaydırmışdır. Lakin Quranı oxumağı yasaq etmişdir. O əhli-beytin düşməni olub. Mənsura Allah elə bir iti yaddaş veribmiş ki hər kim onun yanında həcmindən asılı olmayaraq bir kitab oxusaymış o yadında saxlayarmış. Oğluna verilən yaddaş ikinci oxunuşda həmin əsərin yadda saxlanılmasına kifayət edərdi. Mənsurun bir kənizi olub, o üçüncü dəfə eşitdiyin yadda saxlayarmış.

Mənsur baxıb görür məndə, oğlumda və kənizimdə bu məharət var. Bizim yanımızda heç kəs yazdığın deyə bilməyəcək ki, mən yazmışam. Odur ki, car çəkdirir hər kəs yazdığı əsəri başqası bilmədən oxuyub Xəlifəyə təqdim etsə həmin yazılan əsərin ağırlığı qədər ona xəzinədən qızıl, ləl-cəvahirat verəcəyəm. Xəbər yayıldı. Yazanlar öz əsərlərini gətirdilər. Xəlifə məclis tərtib etdirdi. Yazana dedi - oxu! Yazan öz əsərini oxudu. Mənsur dedi mən bunu bilirəm inanmırsan bax mən sənə sətirbəsətir söyləyim. Yazan kitaba baxdı. Mənsur əvvəldən axıra kimi yazını söylədi və dedi bunu elə mənim oğlum da bilir. Odur ki, oğluna dedi bala sən de o da dedi. Dedi üstəlik pərdənin arxasında olan kənizin də bilir. Üçüncü oxunuşda kəniz də əzbərləmişdi. O da dedi. Bu qayda ilə nə qədər yazanlar gəldisə istəklərinə nail ola bilmədilər. Ona görə ki, iti yaddaşlılar onları əzbərləyirdilər. O dövrdə İmam Cəfər Sadiqin (ə) Hüşşam adında bir şagirdi var idi. Gördü ki, Allah bəndəsi Allahın ona verdiyi iti yaddaşa xatir camaatı məsxərəyə qoyur. Gedib mərmər qırıqlarına, daş parçalarına, ağır kütləli qırıntılara kəlmə və cümlə təsiri bağışlamayan qarışıq hərflərdən

ibarət cümlələr qurdu. Həmin yazdıqlarını iki cuvala yığıb ulağın belinə çatdı. Gəldi xəlifə sarayının qarşısına. Təğyiri libas olan Hüşşamı heç kəs tanımadı. Nəhayət Xəlifə hüzurunda yazdığını oxudu. Xəlifə yadda saxlaya bilmədi. Dedi: oğul, o da bilmədi. Dedi: kəniz, o da bilmədi. Xəlifə dedi: kişi vədim vəddir. Gətir yazılarını qoy tərəziyə qızıl al. Hüşşam dedi, Xəlifə yazdıqlarımın çoxu həyətdə ulağın yanındadır. Dedi: get gətir. Bir kisə dolusu ağır yükü gətirib yerə qoydu. Xəlifə dedi: bu qədər qızıl versəm xəzinənin sərvəti tükənəcək. Hüşşam ikinci çuvalı gətirməyə gedəndə xəlifə dedi: hara gedirsən? Dedi: bir çuval qalıb onu da gətirirəm. Dedi: ay kişi, mənim evimi yıxdın, de görüm bu ağılla sən kimsən? Hüşşam təğyiri libas olub özünü bildirərək dedi: Xəlifə, Allah sənə, oğluna, kənizinə bu iti yaddaşı verib ki, camaatı ələ salasan? Bəsdir, çəkil bu yoldan. Huşşamın bu işindən xəlifə nəticə çıxarıb bir daha belə addım atmadı.

Kərbəlayı Hüseynalı və oğlu İbrahim kişi də iti yaddaşlı insan idilər. Kərbəlayı Hüseynalı söhbətlərini dinləmək arzusunda olanlar çox idi. Onun rəvan, incə ardıcıl kəlmələri hamını özünə cəlb edərdi.

Peyğəmbər (ə) buyurub, o şəxslə oturub durun ki, onun Allahın varlığı, danışığı sizə Allahı xatırlatsın. Kərbəlayı Hüseynalının danışığı məhz Allah, Quran və 14 məsum əleyhissəlam haqqında idi. Sual olunar o bu geniş mövzuları bəs necə öyrənib? Cavab birdir məhəbbət və istəkdən. Kərbəlayı Hüseynalı Hacı Mir Hüseyn ağa ilə Kərbəla ziyarətinə gedib.

**Haşiyə:** Hacı Mir Hüseyn Axund Mir Feyzi ağanın atası olub. Hacı Mir Hüseyn axundun ali ruhani təhsili var idi. Kərbəlayı Hüseynalı Mir Hüseyn axundla Kərbəlada olarkən Hacı Mir Hüseyn xəstələnir. Altı ay xəstə yatır. Kərbəlayı Hüseynalı onun xidmətində övlad kimi xidmətgüzarlıq eyləyir. Bu altı ay müddətində Hacı Mir Hüseyn axundun yanına zəmanənin bir çox müctəhid, alim, üləma və din xadimləri gəlir. Hər gələn





şəxslər elmi dini söhbətlər edərmiş. Kərbəlayı Hüseynalı o söhbətləri Allahın bəxş etdiyi iti yaddaşına həkk edərmiş. Bəli Kərbalayı Hüseynalı oxumayıb, yazmayıb ancaq eşitdiklərini həm kağızı, həm qələmi olan yaddaşına yazıb. Soruşa bilərsiniz Hacı Mir Hüseyn axundun yanına bu qədər din xadimlərinin gəlməkdə məqsədi nə imiş? Məqsədləri Allahın rəhminə özlərini şamil etdirmək idi. Şəriət xəstə ziyarətinə getməyi ən gözəl bəyənilmiş işlərdən hesab edir. Məhz bu cəhətə tanınmış axundun xidmətinə gələnlər çoxluq təşkil edirdi.

Hətta İbrahim əmi deyərdi ki, Atam Fazili Dərbəndinin söhbətlərinə çox qulaq asıb, xidmətində durub. Hacı MirHüseyn axund vəfat etməmişdən qabaq Kərbəlayı Hüseynalının ona göstərdiyi xidməti qiymətləndirir. Öz dəsti xətti ilə qəbalə yazaraq öz irsinə onu varis qərar verir. Hacı Mir Hüseyn axund vəfat edəndən sonra Kərbəlada dəfn olunur. Kərbəlayı Hüseynalı Qızılağaca gəlir. Gələndən sonra gedir Hacı Mir Hüseyn axundun evinə. Evladlarına vəfat xəbərini verir. Hüzr məclisi tərtib edilir ehsanlar verilir. Növbəti günlərin birində Kərbəlayı Hüseynalı Hacı Mir Hüseyn axundun yazdığı qəbaləni oğlanlarına verir. Hacının övladları ata vəsiyyətinə sadiq olaraq Kərbəlayı Hüseynalını irsdən bir pay qiymətləndirirlər. Kərbəlayı Hüseynalı deyir atanız məni sizə siğə qardaş qərar verib. Qardaşın malı qardaşa halaldır. Mən də öz payımı siz qardaşlara verirəm. O gündən Kərbəlayı Hüseynalını onlar qardaş kimi qəbul edir.

Kərbəlayı Hüseynalı əsasən Kərbəlayı Nəsrulla çayçısında çox söhbət edərdi. Həmin vaxtlar dünya görmüş qocalar onun söhbətlərinə qulaq asmaqdan doymazdılar.

***Urfan əhli halidir. Hər an iki dünya üçün,***
***Dahini sev, alimi sev, insanı sev, urfanı sev.***
***Sən bəqa mülkü üçün rəhmət qazanmaq istəsən.***
***Vaxtını vermə hədər günlər keçir hər anı sev.***

O müdrük qocalar vaxtlarını hədər verməmək üçün Kərbəlayı Hüseynalının söhbətinə çox qulaq asmağı sevirdilər. Kərbəlayı Hüseynalı çox tutarlı tarixi faktlar əsasında söhbət edər və deyərdi: camaat mənim savadım yoxdur, ancaq eşitdiklərimi sizə söyləyirəm. Savadlı adamlar deyərmiş, Kərbəlayı əgər savadun olsa idi sən müctəhid olardın. Çünki sənin iti zehnin və yaddaşun var. Kərbəlayı Hüseynalı məscidin günbəzində azan da verərdi. Onunla yanaşı Lətif və Məmmədəli də azan deyən olublar. O vaxtlar vəfat edənin ölüm xəbəri əzan deməklə camaata çatdırılarmış. Bilərmişlər ki, vəfat edən var. Kərbəlayı Hüseynalı 117 yaşında Qızılağacda vəfat edib. Oğlu İbrahim əmi bir gün bir məscidə stulun üstündə əyləşmişdi yaşı 95-dən yuxarı idi. Ayağa qalxanda narahatçılıq hiss etdi. Sonra gördüm təbəssüm eylədi. Dedim ay İbrahim əmi nə səbəb oldu sizin təbəssüm etməyinizə? Dedi ay bala özüm-özümə gülürəm. Deyirəm ay İbrahim sənin atan Kərbalayı Hüseynalının 117 yaşı var idi. Yerindən duranda quş kimi qalxardı. İndi mənim 100-ə yaxun yaşım var stulun üstündən dura bilmirəm. Qıçlarım sözümə baxmır. İbrahim kişi də iti yaddaşı ilə heç də atasından geri qalmırdı. Din barəsində şirin söhbətlər edərdi.



***İbrahim kişi.***





Hər hansı islam qəzavatlarını yeri, tarixi, günü ilə deməyi bir tərəfə, hər iki tərəfin sərkərdələrini, mübariz döyüşçülərini və tərəfdarlarını da adı ilə söyləyərdi. Elə danışırdı ki, danışığı qulaq asana ilham verərdi. Soruşanda ay İbrahim əmi, bunları hardan bilirsən? Deyərdi: ay bala, atam söyləyib mən də onun söylədiklərini yadımda saxlamışam. Nə savadım var, nə də ki elmim. Ancaq Allahın bəxş etdiyi iti yaddaş varımdır.

İbrahim kişi uzun müddət təmənnasız meyit yuyub. Kəfndəfn eyləyib öz zəhməti ilə yaşayan şəxs olub. Kərbəlayı Hüseynalı nəvəsi Abasət Həsən oğlu da iti yaddaş sahibidir. Gözəl nitqə malikdir. Bədahətən şer və mərsiyələr söyləyir.

Kərbəlayı Hüseynalı dövrinin nurani şəxsiyyətlərindən olub.

1950-ci ildən bəri az da olsa dini bilikləri təbliğ edən ruhanilər var idi. Onlardan Molla Mahmud, Molla Fətulla, Musa Babaş oğlu, Molla Adgözəl Kərbəlayi Ağakişi, Şirməmməd Mir Yəhya, Mir Ələkbər, Heydər Şamil oğlu, Molla Abdulla (Həmşəri Abdulla), Molla Muxtar və s. məclislərdə iştirak edərdilər və cüzv oxuyardılar. Hətta bir məclisdə bir dəfəyə 32-33 nəfər Quran oxuyan əyləşərdi. Bir cüzv oxuyandan sonra durub gedərmişlər. Onlardan sonra məclisə təyin edilən molla qalardı.

1960-cı ilə qədər dini və iqtisadi çətinlik mövcud idi. Çətinliklərə baxmayaraq kənd camaatı ümumi xalq mənafeinə xidmət göstərən işlərdə fəal iştirak edirdilər. O cümlədən o xeyirxahlığın biri camaatdan pul yığıb qəbristanlıq ətrafını hasara tutmaq üçün ağ daş almaq idi. Ona görə ki, kənd qəbristanlığı çəpərsiz idi. Mal-qara və yırtıcı heyvanlar ora çoxlu zərər vururdular. Qəbirlər uçulurdu, əkilən ağaclar məhv olurdu. Yırtıcılardan mühafizə etmək üçün qəbirlərin üstünə kol döşənirdi. Sonradan o kol bitkisi göyərərək bütün ərazini əhatə edirdi. Bu iş qadağan olunsa da belə yenə ərazini koldan təmizləyib qurta-

ra bilməmişik. Yığılan pullara ağ daş alındı. 1964-cü ildə qəbristanlıq ətrafını çəpərə tutmaq üçün bünövrə töküldü. 1965-ci ildə isə iş tamamlandı.

*İnsan bəzən iblis, bəzən də mələk*
*Qəlbində kin-küdurət, sevgi-məhəbbət*
*İlahi gör necə durmuş üz-üzə*
*Soyuq nifrət ilə odlu məhəbbət.*

Odlu məhəbbətə soyuq nifrət xəsarət vermək azarına tutuldu.. O işə rəhbərlik edən Ağaverdi Ağaəli oğlunu, Abdrəhim Kərbəlayı Xalıq oğlunu, Sağır Ağabalanı və s. adamları hökumət tərəfindən cəzalandırmasına maraq göstərənlər yuxarı təşkilatlara məlumat yazdılar. Alınmış ağ daşların sənədlərini tələb etdilər, işi çətinləşdirdilər. Bu işdə İbrahim Səlimov böyük xeyirxahlıq göstərdi. O rayonda öz nüfuzuna görə heç bir şeydən qorxmadan alınan ağ daşları sovxoz hesabına keçirtdirdi. Sonradan daşların sənədini almaq üçün sorğu sual olunmadı. Kim idi onlar? Onlar da öz adamlarımız idi! Nə idi səbəb bu bədxahlığa! Səbəb paxıllıq idi. Ona görə paxıllıq edirdilər ki, qəbrlər mühafizə olunmasın. Lakin çətinliklər dəf olundu. İş tamamlandı. 1979-cu ildə Port-İliç şəhərində yaşayan əslən Qızılağaclı olan Qara oğlu Nəhməd giriş qapısının ağzında meyit namazı qılınan yerdə özbaşına çardax tikdirdi. Həmin vaxtdan indiyə qədər o çardax qalır. İnsana axirətdə rəhm edən varlıq yalnız Allah təaladır. Allahın bəndələri də bunu dərk edib bu işləri görürdülər.

Ancaq bədxahların bu nəzmdən xəbəri olmadığı üçün pislikdən faydalanırdılar. Şair Qumru demişkən:

*Ey dil göz oyan keçib onun cəvan halı*
*Bel bağlama bu cahana vəfan cahan daşı*
*Hər qərinədə dolur boşalır karvan keçir.*
*O karvansaraya gələn karvan hanı?*





*Çox sərv baş çəkib fələkə bəqa ömürdən*
*O sərv hanı o sərv xəzan hanı?*
*Torpaq dolub başlara əyməzdi cərgə baş*
*Əza hanı, cəsəd hanı cismimdə can hanı?*

Bəli, o bədxahların, cəsədi torpaq altda, adları isə pisliklə yad edilir. Qızılağacın bugünü və gələcəyi yerli sakinlərin, bütün qızılağaclıların kəndə olan münasibətindən asılıdır. Keçmiş insanların kəndə olan münasibəti qısa da olsa bəlli oldu. Gələcəyin imkanları da indiki insanlardan asılıdır. İndiki insanlar gələcəyə ruh yüksəkliyi ilə baxmağı bacarmalıdırlar. Bunun üçün onlara kənd və kənd sakinlərinin fəaliyyəti haqqında çoxlu söhbətlər etmək lazımdır.

Mən özüm şahidəm ki, son zamanlar cavanlar özlərini dini mövqe qoruyucuları kimi göstərirlər. Əsasən onlarla apardığımız təbliğat dəfn mərasimində, hüzr məclislərində, məhərrəmlik mərasimində və kəndin xeyriyyə işlərində onların fəal iştirakına səbəb olmuşdur. 1990-cı ilə kimi 15 yaşdan yuxarı olan gənclər, cavanlar məclisdən bəhrələnməzdilər. Onun da müəyyən səbəbləri var idi. Biri dövlət qorxusu, ikincisi isə dini təbliğatın zəifliyi idi. Lakin 1990-cı ildən başlanan yüksəliş bu sahəyə güclü təsir göstərdi. İndi cavanlar kənddə əsas aparıcı qüvvələrdir. Onların adlarını yazmaqla qurtarmaq olmaz. Allah bundan da sonra cavanlara hidayət yolu bəxş etsin.

Cavanlar, kiçik yaşlı uşaqlar Quran oxumağa maraq göstərirlər. Təkcə 1990-cı ildən indiyə kimi 100-ə yaxın uşaq, cavan yaşlı adamlar Quran oxuyur. Onların bir neçəsi səriştəli məclis mollası kimi püxtələşiblər. Ərəb və fars dilini mənimsəyiblər. Eyni zamanda qızlar və qadınlardan da xeyli Quran oxuyan, mərsiyə deyən, mollalıq edənləri var. Bu isə kənddə islamın inkişafını göstərir. Bütün bunlar insanların soya, kökə və mənəvi dəyərlərə olan tələbatının irəli gəlir bəhrələridir.

1990-cı ildə və sonrakı illərdə kənddə təkcə Molla Zəfər püxtələşmiş molla idi. Sonradan cavanlar əmələ gələrək onlar da səriştəli molla oldular. Vəfat edənləri əvvəllər ən çox yuyub qüsul edən Səhəl baba idi. O çox pəhrizkar şəxs idi. Xidmətinin müqabilində təmənna ummazdı. Məclisdən çıxarkən arxa-arxaya çıxardı. Onun kənddə bu sahədə əvəzsiz xidməti çox olub. Sonradan cavanlar bu yaş həddində olan qocaları əvəz etdilər. Onlar da qəbr qazmaq, meyit yumaq və s. işləri yerinə yetirməyə maraq göstərərək kamilləşirdilər.



*Səhəl baba.*

İndi demək olar ki, kənd adamları islami biliklərə malik olublar. Bu da onlarda bu sahəyə olan maraqdan hasil olmuşdu.

Kənddə İslama da maraq göstərənlər çoxalır. Bu sahədəki fəaliyyət keçmiş mövqe qoruyuculuğuna da şərait yaradır.

**M.Qorki** deyib "Keçmişi bilmək vacibdir. Bunsuz həyatda çaşmaq olar".

Çoxları Qızılağacın tarixini beş yüz-altı yüz il bundan qabaqla bağlayırlar. Bu da tarixi bilməməzlikdəndi. Ancaq bu kitabda qısa da olsa Qızılağac tarixi ilə tanış olan bilər ki, onun kəndi-





nin tarixi çox qədimdir. Sonralar axtarış aparar, araşdırar daha geniş ətraflı əsər yaza bilər.

İndiki dövrdə cavanların gücündən istifadə etməklə çox iş görmüşük. Təkcə onu demək yerinə düşər ki, cavanlar çox vətənpərvərdirlər. Məscidin qabaq tərəfində çay daşından 1982-ci ildə hasar tikmişdilər. Bu hasar hündür idi, həmişə də arxa tərəfi gün görmürdü. Əkilən ağac və güllər inkişaf etmirdi. 2001-ci ildə onun sökülüb məhəccərli çəpər tikilməsi təklifini verdim. Müqavimətə rast gəlməyimə baxmayaraq o işi görmək üçün köhnə hasarı sökdük. Əli Ağabala oğlu məhəccər üçün aldığı materialı təzələdik. İndiki formada hasar qurduq. Məscidin qabaq tərəfində giriş qapısı üçün yer qoyduq. Həmin yerə qapını Hacı Məzahim İbrahim oğlu öz hesabına alıb qurdurdu. Məscid ətrafdan hasarla təcrid olundu. Təkcə bu işləri sadalamaqla qurtarmaq olmaz. Ona görə ki, kiçik xeyriyyə işləri çox olduğu üçün onların hamısını yazmaq mümkün deyil. Onu deyim ki, hər kəsin gördüyü iş ona əməl cəhətinə görə üstünlük bəxş edəcək. Əziz oxucu, sən xeyriyyəçi olmasan da xeyir söz danışan ol!

İnsan özünü xeyir işin təkan verəni kimi göstərməlidir.

Kənddə xeyir əməl sahibləri çox olublar. Hamı xeyr əməl edənlər Allah rizasına iş görüblər. Sən də Allah rizası danış, xeyir əməl sahiblərinin işinə Allah özü qiymət verəndir. Necə ki, şair deyib:

***İnsanın şərəfi bəzəyi məncə***
***İnan nə ipəkdir, nə tirmə oğlum.***
***Yaxşıdan yaxşı ol ellər içində***
***Dostuna bir ziyan yetirmə oğlum***

***Yersiz gülümsəmə yersiz ağlama***
***Bir könül də qırma sinə dağlama***
***Sirrini ellərdən gizli saxlama***
***Dilinə yalan söz gətirmə oğlum***

*Yel qanadlı illər ömürdən keçir.*
*İnsan zəhmətilə kamala yetir.*
*Bağında nərgizlər, lalələr bitir*
*Tikanlı qanqallar bitirmə oğlum.*

*Ürəyim arzuyla doludur dolu*
*Hünər meydanıdır bu həyat yolu.*
*Bilmədiyin işi gözü yuxulu*
*Söz verib yerinə yetirmə oğlum.*

*Oxu öyüdümü sən sətir-sətir*
*Dilimdən məclisə saçılsın ətir*
*Qazancını itir, malını itir*
*Ancaq duz-çörəyi itirmə oğlum.*

***Suleyman Rüstəm***

Məndə hər hansı yerdə yaşamasından asılı olmayaraq bütün Qızılağaclılara müraciət edərək deyirəm: gəlin doğma kəndin qayğısına qalaq, xeyir işlərində fəal iştirak edək. Bu günkü xeyirxahlıq sabaha töhfədir. Kim kəndin perspektiv inkişafına kömək göstərmək istəyirsə imkan və bacarığını əsirgəməsin.

### Kəndin məhəlləri

Kəndin adamlarına adlardan əlavə ləqəblər verildiyi kimi kənd ərazisi də məhəllələrə bölünərək öz adı ilə tanınır.

1. ***Qərəymanlı (Karamanlı) məhəlləsi*** Türkiyədə olan Karaman tayfası ilə bağlıdır.

*Əslim Qaramanlıdı*
*Elim adlı sanlıdı*
*İgid döyüşdən gəlir*
*Gözlərim nə qanlıdı.*





2. ***Bahadırlı məhəlləsi.*** Şeyx Fətulla axundun babasının adı ilə bağlıdır.
3. ***Muradxanlı məhəlləsi.***
4. ***Cınqırlı məhəlləsi.***
5. ***Alçallı məhəlləsi*** Qızılağac ilə Qədirli kəndi arasında olan Alçallı yaşayış massivindən gələn adamlarla bağlıdır. Həmin adamlar öz kəndlərinin adı ilə o məhəlləni Alçallı adlandırıblar.

İlk dəfə həmin məhəlləyə 3-4 nəfər gəlib, sonradan onların qohum-əqrəbası artıb.

## USTA MƏMMƏDHƏSƏN NƏCCAR

Usta Məmməd Həsən Rəhim oğlu Nəccar 1837-ci ildə Qızılağac kəndində anadan olmuşdur. Atası yoxsul bir kəndli idi. Nəccar mollaxana təhsili almışdı. Gəncliyində dülgərlik sənətini çox sevdiyinə görə özünə "Nəccar" təxəllüsünü götürmüşdür. ("Nəccar" sözü ərəbcə dülgər, xarrat deməkdir). Nəccar şair kimi tanınsa da ömrünün sonuna qədər pərəstiş etdiyi dülgərlik sənətindən ayrıla bilməmişdir. Məhz buna görə o ədəbi məclislərdə "Usta M.Həsən Nəccar" adı ilə tanınmışdır. Nəccar Lənkəranda "Fövcül-Füsəha" ədəbi məclisinin ilk üzvlərindən biri olmuşdur. Bu ədəbi məclisin şagirdlərindən olan Usta Hüseynqulu Şuri bununla əlaqədar şerlərin birində yazır:

"Qasiru, Səid, Acizu, Fəttah ilə Nəccar Sadiqu, Əziz-cümləsi fövcül-füsəhadır". Nəccar gəncliyində atası ilə Qızılağacdan Lənkərana köçmüş, burada məşhur Nəccarların yanında şagird işləmiş və bu sənətin incəliklərinə yiyələnmişdir. O, Lənkəran şəhərindəki məscidlərin taxta işlərini görmüş və Mirəhməd xanın malikanəsində dülgərlik etmişdir. Nəccar Lənkəran qəzasında məşhur bir xarrat kimi tanınmışdır. Sənəti ilə əlaqədar olaraq xalqla həmişə yaxından təmasda ola bilmişdir. O, rəiyyətin həyat və məişətini əks etdirən satirik şerlərinin birində deyir:

*"Bu təqsirlər bilmirəm kimdədir.*
*Rəiyyətdə, yainki hakimdədir*
*Qaranquş yuvası kimi tiksən ev*
*Səni axtarırlar bütün evbəev*

*Əgər xiştxamdan tikə birisi*
*Yəqin bil boğazdan çıxar dərisi.*
*Birisi qamışdan çəkə bir hasar*
*Yığılıb hamısı başından basar.*

Usta M.Həsən Nəccar ədəbi məclisdə gözəl qəzəllər, müəbbe və satirik şerlər müəllifi kimi tanınmışdır. Nəccar M.Qasirlə yaxın dost olmuşdur. Nəccarın ilk tətqiqatçısı respublikamızın əməkdar müəllimi MirHaşım Talışlı olmuşdur. O, Lənkəranda çıxan "Leninçi" qəzetinin 2 dekabr 1962-ci il tarixli sayında Nəccar haqqında ilk dəfə məlumat vermişdir. M.Talışlı bu barədə yazır: "O vaxt şairin oğlu Usta Rəhim sağ idi. Mən ondan atasının öz əli ilə yazdığı şerlərindən ibarət kiçik bir dəftərçə aldım".

Şair haqqında dəqiq və maraqlı məlumatları həm bu dəftərçədən, həm də oğlu Usta Rəhimdən öyrənmişəm". ("Leninçi" qəzeti, 2 fevral 1982) Bu gün M.Talışlının şəxsi arxivində M.Nəccarın yaradıcılığına dair nümunələr saxlanılır. Lakin Nəccarın şerlərinin çox hissəsi müxtəlif səbəblərdən itib-batmışdır. M.Nəccar 1917-ci ildə Lənkəran şəhərində vəfat etmişdir. 1987-ci ildə "Yazıçı" nəşriyyatı tərəfindən çapdan çıxmış "Poetik məclislər" kitabında "Fövcül-füsəha" ədəbi məclisinin tanınmış şairləri haqqında qısa məlumatlarla yanaşı onların yaradıcılığından nümunələr də verilmişdir. M.Həsən Nəccar haqqında (səh 103-104) verilən bioqrafik məlumatlarda səhvən şairin doğulduğu yer Qızılacağ kəndi deyil, Lənkəran göstərilmişdir. Bununla yanaşı burada şairin anadan olduğu tarix də səhv verilmişdir.





Nəccar 1917-ci ildə 80 yaşında vəfat etmişdir. Deməli şair kitabda səhvən verilən 1819-cu ildə deyil 1837-ci ildə anadan olmuşdur. Fikrimizin sonunda M.Talışlının şəxsi arxivindən əldə etdiyimiz M.Nəccarın bir qəzəlini oxuculara çatdırmaq istəyirəm.

*Bilməm nə etmişəm yenə mən yarə tazədən*
*Məndən küsübdür, ram olub əğyarə tazədən*
*Ərz eylədim təbibə ki Allah rizasına*
*Bax görginən nə olub bu bimarə tazədən*

*Tutdu təbib nəbzimi, fəryad edib dedi:*
*Eşqə düşüb, haray, bu biçarə tazədən*
*Yusif cəmalınam, məni salma bu möhnətə*
*Qorxum budur ki, mən çəkiləm darə tazədən*
*Gəldi bahar, açdı gülü Taləzarlar.*

*Şurə gəlibdu, bülbülü-gülzarə tazədən*
*Axır o nazlı canına qurban olum sənin*
*Təcil elə, yetir özünü yarə təzədən*
*Al canımı, qurtar məni dərdi fəraqidən*
*Bir busə lütf eylə bu Nəccarə tazədən.*

**M.Mirzəyev,**
**"Mənim Masallım",**
**Azərnəşr - 1991**

## SƏMƏD QƏRİB

Səməd Qərib (Səməd Hüseyn oğlu İmanverdiyev), keçən əsrin sonu və XX əsrin əvvəllərində yaşayıb-yaratmış şairlərimizdəndir. O, Bakının Çəmbərəkənd deyilən yaşayış məntəqəsində təxminən 1886-cı ildə anadan olmuşdur. Erkən yaşlarında dini təhsil almaqla bərabər, şerlər yazmağa başlamış, poeziyaya xü-

susi maraq göstərmişdir. XX əsrin əvvəllərində Bakıda neft sənayesində çalışan fəhlələrin ağır vəziyyəti, şəhər zəhmətkeşlərinin məşəqqətli həyatı Səməd Qəribi mübarizəyə sövq etmiş və qohumlarının dediyinə görə böyük qardaşı Əliheydərlə şəhərdə dəfələrlə "şuluqluq" etdiyinə görə çar çinovniklərinin təkidilə Qızılağac kəndinə uzunmüddətli sürgünə göndərilmişdir. O ömrünün sonuna kimi Qızılağacda yaşamış, burada bərbərlik etmiş, şair Qəzəlxan kimi tanınmışdır. Onun "Qərib" təxəllüsünü qəbul etməsi, sürgün olunması, qürbətdə yaşaması ilə bağlıdır. Biz S.Qəribin əlimizə keçən şerlərindən bunu bir daha duyuruq. Onun qəzəllərində Bakı həsrəti, zəmanədən şikayət, bədbinliklə dolu motivlər aydın nəzərə çarpır.

S.Qərib qəzəllərinin birində deyir:

***Fani dünyada, yarəb, olmadı bu xəstə könlüm şad***
***Həmişə eylədim əfğan, dərd əlində dad.***
***Üzüm gülməz, ürək xəndan ola asudə zülmətdən***
***Müsibətlər çəkən canım edər bu qüssədən fəryad...***

S.Qəribin peşəkar qəzəlxan olması şəksizdir. Məhəbbət mövzusunda olan qəzəllərində o, klassik ədəbiyyatımızın özündən əvvəlki tanınmış nümayəndələrinin ən yaxşı ənənəsini davam etdirməklə bərabər, fərdi yaradıcılıq üslubuna da sadiq qalaraq orijinallığı, öz dəsti-xətti olmuşdur.

Şairin Bakıda çoxlu şair dostları var idi. Xüsusilə Əlağa Vahid və Mirzə Əli Möcüz, Səməd Qəribin ən yaxın dostları olmuşdur. Onlar dəfələrlə Qızılağaca gəlmiş, S.Qəriblə görüşərək onunla əlaqə yaratmışlar.

Xalqımızın istedadlı oğlu S.Qərib 1928-ci ildə Qızılağac kəndində vəfat etmişdir.

Nəql olunur ki, acı taleyindən gileyli olan şair vəfat edərkən yaxın qohumlarından xahiş edir ki, onu kənd qəbristanlığının girişindəki yolun üstündə dəfn etsinlər. Bu işin münasib olma-





ması və gələcəkdə onun qəbrinin itə biləcəyi söylənildikdə Səməd Qərib bədahətən demişdi:

***"Göyərməz qəbrimin torpağı, yüz min bahar olsa***
***Açılmaz qəlbi məyusun güllü dünya laləzar olsa***
***... Qəribin qəbrini ayaqlar altında qazın, xoşdur,***
***Ayaqlar altında qalsa da dəxi payimal olmaz.***

Şairin vəsiyyətinə əməl olunur.

Təəssüflə qeyd edək ki, bu gün Qızılağac kənd qəbristanlığının köhnə qapısının girəcəyində olan Səməd Qəribin qəbrini çoxları tanımır. Kənd əhalisi isə vaxtilə bu yerdə yaşamış və ömrünü burada başa vurmuş şairdən xəbərsiz idi.

S.Qəribin şerinin taleyi də özünün taleyi kimi acıdır. Belə ki, onun əsərlərinin çoxu itib-batmış, iyirmidən artıq qəzəli isə respublika Əlyazmalar İnstitutunda saxlanılır. Səməd Qərib adı müasirlərimizə az bəlli olan, irsi unudulmuş şairlərdəndir. Fərəhli haldır ki, Cəfər Rəmzi İsmayılzadə Abşeron torpağında göz açmış şairlərin şerlərindən ibarət çap etdirdiyi "Deyilən söz yadigardır" (B.1981 səh 260-264) toplusuna S.Qəribin də qəzəllərindən ibarət nümunələr daxil etmişdir. Bunu yalnız ilk addım kimi qiymətləndirmək olar. Məncə unudulmaz və nakam şairimiz Səməd Qəribin həyat və yaradıcılığı lazımi səviyyədə öyrənilməli, adı isə əbədiləşdirilməlidir.

***Olmaz cahanda eyləyən əfqan mənim kimi***
***Möhlət əsiri, halı pərişan mənim kimi.***
***Bülbül fəqanı tərk elədi, çəkdi güldən əl***
***Çün görməmişdi xanəsi viran mənim kimi.***

***Bir dərdə düşmüşəm, yanıram yoxdu çarəsi.***
***Heç kafər olmasın ürəyi qan mənim kimi.***
***Od tutdu, yandı hicr oduna könlümün quşu***
***Pərvanə ya rəbb olmaya suzan mənim kimi.***

*Dad ey fələk, əlindən olubdur qara günüm.*
*Düş dərdə, tapma dərdinə dərman mənim kimi.*
*Etmə, Qərib nalə qəmi-eşqə, səbr qıl*
*Çox dərdü-qüssə, möhnəti hicran mənim kimi.*

**M.Mirzəyev,**
**"Mənim Masallım",**
**Azərnəşr - 1991**

**Haşiyə:** Bu boşluğu aradan götürmək üçün Qulu Vəci oğlu ilə məsləhətləşdik ki, nə edək? Nəhayət qərara gəldik ki, nakam şairin qəbrini müəyyən edib, onu bərpa etdirən. Biz bu haqda söhbətlər aparırdıq. Mən bir gün Qızılağac kənd sakini Əliş Məmmədəeli oğlunun hüzr məclisində bu haqda söz açdım. Bu zaman Bakıda yaşayan həmyerlimiz Fərhad Əbülhəsən oğlu qəbirüsütü bütün işlərin görülməsini öhdəsinə götürdü. Səməd Qərib ana tərəfdən onun qohumudur. Allaha çox şükürlər olsun ki, bu xeyirxah iş yaxşı insanların köməyi nəticəsində tamamlanıb başa çatdırıldı. Başdaşına isə şair Qulu Vəcioğlunun Səməd Qəribə həsr etdiyi "Vəsiyyət" şerindən aşağıdakı bir bəndi yazdırdıq:

***Qəbrin qazılsa da ayaqlar altda,***
***Sən unudulmayıb yenə var oldun.***
***Yazıb yaratdığın getmədi bada.***
***Şair, nəsillərə yadigar oldun,***
***Sən unudulmayıb yenə var oldun.***





## RABİTƏ

Kənddə əvvəllər rabitə şöbəsi olmayıb. Qəzet və bağlamalar Kalinovka kəndindəki mərkəzi poçt şöbəsindən gətirilirdi.

1970-ci ildən sonra Rabitə şöbəsi yarandı. Sonradan 100 yerlik ATS quruldu. İndi isə müasir tipli ATS kənd camaatına xidmət edir. Kənddə əməliyyat kassası da fəaliyyət göstərir.

## MƏDƏNİ-MAARİF VƏ MƏİŞƏT İŞLƏRİ

Qızılağac kəndində 1957-ci ilə kimi qış klubu (1939-cu ilə kimi onun yerində daş təkkəsi var idi) səyyar kino nümayiş etdirmək üçün əsas bina idi. Sonra 1960-cı ildə məscidin həyətindəki köhnə mədrəsənin yerində voleybol mey-



***Keçmiş kənd klubu (daş təkkəsinin yeri).***

dançasını ləğv edib yay klubu tikdilər. Yayda kino orada nümayiş etdirilirdi. 1961-ci ildə Mədəniyyət evi tikilib istifadəyə verildi. Kolxoz və sovxoz idarəsi orada yerləşdi. Kənddə1964-cü ilə kimi kolxoz, 1964-cü ildən isə Sovxoz fəaliyyət göstərmişdir.

1961-ci ildə kəndə Mingəçevir işığı verilməyə başladı. Hər evə sayğac qoyuldu, kənd camaatı işıqdan istifadə etməyə başladı.

1956-59-cu illərdə məktəbdə oxuyan şagirdlər özfəaliyyət dərnəklərində öz istedadlarını nümayiş etdirirdilər. Onlar S.Vurğunun "Vaqif", C.Məmmədquluzadənin "Ölülər" və s. əsərləri səhnələşdirirdilər. Bu tamaşalar qış klubuna bitişik kitabxana binasının həyətində icra olunardı. 1964-cü ildən sonra Məişət binası tikildi. Kəndin ictimai inkişafı yüksəldi. 1970-ci ildən sonra yeni tipli məişət binası istifadəyə verildi. İndi isə xüsusi dükanlar da fəaliyyət göstərir. Bir neçə yeməkxana və pavilyon var.

Kənddə 2 mərtəbəli kənd soveti binası kimi tanınan bina Masallı rayonunun mərkəzi bankı olub. 1924-cü ildə bank Masallıya köçürülüb. 1975-ci ildən sonra kəndin "Ülgə" ərazisində iri heyvandarlıq kompleksi tikildi.



*Mədəniyyət evi.*





## ŞƏHİDLƏR

*El bilir ki, Vətənin*
*Şöhrətidir şəhidlər.*
*Dilimizin müqəddəs,*
*Şöhrətidir şəhidlər.*

*Bir qaladır hər dağım,*
*Qəlbə fərəh bayrağım!*
*Bu sevimli torpağın,*
*Qüdrətidir şəhidlər.*

*Anır onları ürək,*
*Hünərli qəhrəman tək!*
*Nigar, Koroğlu, Babək,*
*Qeyrətidir şəhidlər.*

*Məlhəmin el duası,*
*Salam, ruhlar dünyası!*
*Azadlığın mayası,*
*Qüdrətidir şəhidlər!*

**Qulu Vəcioğlu**

# ŞƏHİDLƏR

**Qarabağ müharibəsində Qızılağac kəndindən 4 nəfər şəhid olmuş, 1 nəfər itkin düşmüşdür.**

## XƏLİLOV SUBHAN MALİK OĞLU
## (1969-1992)

Qızılağac kəndində anadan olmuşdur. 1986-cı ildə orta məktəbi bitirmiş sonra Lənkəran şəhərində sürücülük kursunda təhsil almışdır. 1987-89-cu illərdə Krım vilayətində hərbi xidmətdə olmuşdur. 1989-cu ildə Bakı Neft Texnikumuna daxil olmuş. 1992-ci ilin oktyabr ayında isə könüllü olaraq Azərbaycan Milli Ordusunun tərkibində Qarabağa getmiş, bir çox kəndlərin müdafiəsində iştirak etmişdir. Laçın rayonunun Finqə kəndinin azad olunmasında böyük igidlik göstərmişdir. Oktyabr ayının 28-də Finqə kəndində gedən döyüşlərdə bomba qəlpəsindən qəhrəmancasına həlak olmuşdur. Subay idi.

Qızılağac bir saylı orta məktəbə cəsur döyüşçü şəhid Subhan Xəlilovun adı verilib.

***Axı nə görmüşdün bu dünyada sən***
***Bahar yetişməmiş bir qışa düşdün.***
***Bəlkə də taleyin hökmü beləymiş***
***Bəlkə də nagahan qarğışa düşdün.***







*Xəltlov Sübhan Malik oğlu.*

***Bu həsrət nə yaman həsrətdi qardaş.***
***Heç vəxt azalmayır qəmi, kədəri.***
***Min qayğı aldısa səni qoynuna***
***Yenə boş göründü atanın yeri.***

***Billur arzuların, təmiz niyyətin.***
***Fələyin hökmüylə toxundu daşa***
***Qaldı xatirəndə atanın sözü***
***"Oğul, ömrün boyu xalqınçın yaşa".***

## CABBAROV ƏHLİMAN MUĞDƏT OĞLU (1974-1993)

Qızılağac kəndində anadan olmuşdur. 1991-ci ildə həmin kənddə orta məktəbi bitirmiş, 1992-ci ildə hərbi xidmətə çağrılmışdır.

130 saylı Şəmkir hərbi hissəsinin tərkibində Ağdərənin erməni quldurlarından təmizlənməsində igidlik və cəsarət göstərmiş, neçə-neçə erməni dığasını cəhənnəmə vasil etmişdir. Onun batalyon döyüşçüləri arasında böyük hörməti və nüfuzu var idi. 1993-cü il fevralın 11-də Əhliman Ağdərənin müdafiəsi zamanı döyüşlərdə qəhrəmancasına həlak olmuşdur. Əhliman 18 yaşında ikən canından çox sevdiyi vətən yolunda gəncliyini qurban verdi. Onun məzarı Qızılağac kənd qəbristanlığındadır. Yoldaşları, məktəblilər bura daim baş çəkir. Məzarına gül-çiçək düzülür. Subay idi.

Əhlimanın 1993-cü il yanvarın 23-də anasına yazdığı məktubundan.

"Yaxşı qulluq etdiyimə görə məni oxumağa göndərəcəklər. Zabit olacağam. Son qələbəyə kimi müqəddəs torpağımızı qoruyacağam. Məni gözləməyin, qardaşım Telmanı evləndirin. Nə vaxt lazım olsa özüm gələcəyəm!

Keçmiş "Qızılağac" sovxozu onun adına idi.

*Mən kiməm, nəçiyəm? Cavab varmı, yox?*
*Gördüm ki, torpağın zərrəsiyəm mən.*
*Dünyanın insana ehtiyacı çox*
*Nə kifayətiyəm, nə bəsiyəm mən.*

*Həyatın önündə ömür bir ansa*
*Şam tək yanmalıyıq biz zaman-zaman.*
*Dar gündə vətənin özü sınansa*
*Bizlər çıxmalıyıq bu imtahandan.*







*Cabbarov Əhliman Muğdət oğlu.*

*Döyüş bir cəbhədə olmayır, dədə*
*Həyat da döyüşdür, məktəb də döyüş.*
*Su tökməklə quyu dolmayır dədə*
*Arzu da döyüşdür, məktəb də döyüş.*

*Sən könül vermədün hər dumanlığa*
*Qəlbində fırtına təlatüm vardır*
*Döyüşkən arzuna, qəhrəmanlığa*
*Həyat hekayətin bariz misaldır.*

# XANMURADOV AZAD ŞİKAR OĞLU
# (1974-1993)

Azad Şikar oğlu Xanmuradov 1974-cü ildə Qızılağac kəndində fəhlə ailəsində anadan olmuşdur. 1983-cü ilin sentyabr ayında Qızılağac orta məktəbin I sinfinə daxil olmuş, 1991-ci ildə həmin məktəbi müvəffəqiyyətlə bitirmişdir.

1992-ci il oktyabrın 8-də hərbi xidmətə çağrıldı. 1993-cü il iyunun 20-də Füzuli bölgəsində xidməti vəzifəsini yerinə yetirərkən həlak olmuşdur. Subay idi.

Qızılağac kənd qəbristanlığında dəfn olunmuşdur.

*Mələklərin qanadında uçdular*
*Köləlikdən, əsarətdən qaçdılar*
*Haqq önündə cənnət adlı sarayın*
*Qapısını əlləriylə açdılar.*

*Şəhadətin şöhrət tacı şəhidlər*
*Millətimin qeyrət tacı şəhidlər*

*Səadətə sevinc yolu açanlar*
*Günəş olub aləmə nur saçanlar*
*Ölümüylə ölməzliyə qovuşan.*
*Ruhlar kimi asimana uçanlar.*

*Şəhadətin şöhrət tacı şəhidlər.*
*Millətimin qeyrət tacı şəhidlər.*







*Azad Şikar oğlu Xanmuradov.*

*Kim deyir ki, ulduz kimi batdınız.*
*Siz Allahın dərgahına çatdınız.*
*Ana torpaq sizi aldı qoynuna.*
*Könüllərə həkk olundu adınız.*

*Şəhadətin şöhrət tacı şəhidlər!*
*Millətimin qeyrət tacı şəhidlər!*

## ABASOV ŞAHİN VƏLİ OĞLU
## (1971-1994)

1971-ci il martın 24-də Qızılağac kəndində anadan olmuşdur. 1988-ci ildə həmin kənddə orta məktəbi bitirmiş. 1989-1991-ci illərdə hərbi xidmətdə olmuşdur.

Bakı şəhərində sürücülük kursunu bitirdikdən sonra bir müddət sürücü işlədi. Erməni faşistlərinin Azərbaycan torpaqlarını işğal etməsi onun yuxusunu ərşə çəkmişdi. Evdə qərar tuta bilməmiş, 1993-cü ilin noyabr ayının 6-da könüllü olaraq cəbhəyə getmişdi. Beyləqanın müdafiəsində böyük fədakarlıq göstərmişdi. Yanvarın 6-da Beyləqan istiqamətində gedən döyüşlərdə Şahinin bircə sevgisi oldu: Vətən sevgisi - o bu sevgi uğrunda şəhidliyi şərəf hesab edib. Sevilməli vaxtı, ömrünün iyirmi üçüncü ilində şəhidlik zirvəsinə yüksəlib. Subay idi.

Ş.Abbasov Qızılağac kənd qəbristanlığında dəfn olunub.



*Abasov Şahin Vəli oğlu.*

*Tale yazan belə yazdı yazını*
*Qələm də onundur, kağız da onun,*
*Hər kəsə bir fəsil qismət eyləmiş,*
*Bahar da onundur, payız da onun.*





## QURBANOV LAÇIN SABİR OĞLU

1975-ci ilin sentyabr ayının 25-də Masallı rayonunun Qızılağac kəndində anadan olub.

1981-82-ci dərs ilində 2 saylı orta məktəbin 1-ci sinfinə daxil olub.

1991-92-ci tədris ilində 2 saylı orta məktəbi bitirib.

1994-cü ilin yanvarında Masallı rayon hərbi komissarlığından hərbi xidmətə göndərilib.

1994-cü ilin 20 aprelində Ağdamın İlxıçılar kəndində itkin düşüb.



*Qurbanov Laçın Sabir oğlu.*

*Qardaş demə qan olar*
*Yel əsər, fəğan olar*
*Qardaş gələn yollara*
*Bacılar qurban olar*

# QIZILAĞAC KƏND 1 VƏ 2 SAYLI ORTA MƏKTƏBDƏKİ ŞƏHİDLƏR GUŞƏSİ

## 1 SAYLI MƏKTƏB



*Soldan: Salman Əhmədov, Zakir Abışov, Təvəkkül Məmmədov.*

## 2 SAYLI MƏKTƏB




*Soldan: Əliyev Arzuman, Kərbəlayi Nüsrət, Fazil Abbasov.*





**Qızılağac kəndində öz zəhmətilə yüksək göstəricilər əldə edən cavanlar da çox olub.**

## SAFURA ABDULLAYEVA

O 1936-cı ildə Qızılağac kəndində anadan olmuşdur. Onlarca yaşıdları kimi məktəbdə təhsil almışdır.

1957-ci ildən kolxozda çalışmış, sonra sovxoz fermasında işləməyə başlamışdır.



*Safura Abdullayeva.*

On səkkiz yaşlı Safura Abdullayeva məktəbi bitirdikdən sonra sağıcı işləməyə başladıqda qarşısına bir sıra çətinliklər çıxmışdır. Fermada işləmək o qədər də asan deyildi. Fermanın təcrübəli işçiləri Safura Abdullayevaya diqqətlə, mehribanlıq, qayğı ilə yanaşdılar. Biliklərini təcrübələrini səbirlə, təmkinlə ona verdilər. İndi Safura Abdullayeva bunların hamısını hörmətlə xatırlayır. Həmin şəxsləri ehtiramla yad edir.

Safurə Abdullayeva qulluq etdiyi (o inəyin hərəsindən planda nəzərdə tutulduğuna nisbətən, xeyli çox süd götürürdü). İldə hər inəkdən 4000 litr süd sağmağa başladı. Bu nailiyyətin sirri

haqqında cavab verərək S.Abdullayeva deyir ki, müvəffəqiyyətin əsas sirri heyvanlara yaxşı qulluq etməkdən, onları vaxtlı-vaxtında yağlı, şirəli yemlə doydurmaqdan ibarətdir.

Heyvandarlığı inkişaf etdirmək, süd, ət və digər məhsulların istehsalını və tədarükünü artırmaq sahəsində qazandığı müvəffəqiyyətə görə Sosialist Əməyi Qəhrəmanı adı almışdır.

1965-ci ildə İsa Bayramovla ailə qurmuşdur.

Üç oğul, bir qız anasıdır.

Altıncı və yeddinci çağırış SSRİ Ali Sovetinin deputatı olmuş, Azərb. Komsomolunun Mərkəzi Komitəsi, rayon partiya və komsomol komitələri S.Abdullayevanın dəyərli işini yüksək qiymətləndirmişdir.

1964-cü ildə ona Respublikanın ən yaxşı gənc maldarı fəxri adı verilmişdir.

Azərbaycan Komsomolunun Mərkəzi Komitəsinin diplomu ilə mükafatlandırılmışdır.

Masallı rayon Partiya Komitəsinin fəxri fərmanını almışdır.

Bir çox dövlət fərmanları almışdır. S.Abdullayeva Bakı şəhərində yaşayır. Hal-hazırda Safura Abdullayeva prezident təqaüdçüsüdür.

## FATİMƏ SADIQOVA

Qızılağac kəndində S.Abdullayevadan sonra SSRİ Ali Sovetinə deputat Fatimə Sadıqova olmuşdur. O, 1946-cı ildə anadan olmuşdur. 1970-1975-ci ildə yüksək göstəricilər əldə etdiyinə görə F.Sadıqova SSRİ Ali Sovetinə deputat seçilmişdir. F.Sadıqovanın əməyini qiymətləndirərək onu "Qırmızı Əmək Bayrağı" ordeninə layiq görmüşlər.







*Fatimə Sadıqova.*

F.Sadıqova Kalinin adına sovxozda yerli komitənin sədri, sonralar isə sovxoz partiya təşkilatının katibi olmuşdur. F.Sadıqova təcrübəli işçi kimi Qızılağacda tikilib istifadəyə verilən südçülük kompleksinin müdiri işləmişdir. Ali təhsilli zootexnikdir. bir oğul iki qız anasıdır. Həyat yoldaşı A.Fətullayev ali təhsilli bioloqdur, Masallı rayonunun Təbiəti Mühafizə idarəsinin müdir müavinidir.

**QEYD**: Kəndimizin sakinlərindən Tükəzban Eynullayeva və İltifat Məmmədov da Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur.

## HACI ƏLİ TAHİR İSLAM OĞLU (HACI QAFİL)

Əsl adı Əli Tahir olub. Qafil kimi məşhurlaşan bu gənc 1962-ci ildə anadan olub. Hələ 10 yaşında ikən qeyri-adi istedadlı bir gənc kimi məşhurlaşdı. O ağ kağıza əlini çəkməklə dayanmadan oxuyardı. Ondan sual ediblər ki, bəs bu kağızda yazı yoxdur, sən onu hardan oxuyursan? O isə deyərdi mənim üçün yazılıb. Çox gözəl səsə, məlahətli nitqə malik olmaqla, davranışı ilə fərqlənən bir gənc idi. İlk əvvəllər Quran oxumağı Babaş oğlu Musadan almışdı. İti hafizəsi və yaddaşı var idi.

Bədahətən özü nəzm deyərdi.

Onun kənd məclislərində əvvəllər Quran oxuyan, mərsiyə deyən, sonradan rözaxan kimi fəaliyyəti hamının yadındadır. Xüsusən məhərrəmlik mərasimlərində öz məlahətli səsi və sözü ilə hər hansı bir dinləyicinin qəlbinə yol tapardı. Hətta iki saata qədər dayanmadan röza deyərdi və mərsiyə oxuyardı. Gözəl sinə mərsiyələri söyləyərdi. Onun məhərrəmlikdə özünəməxsus məharət göstərməsi çoxlarına güclü təsir bağışlayardı. Heç vaxt könül incitməz, qəlb sındırmazdı. 4 dəfə Həcc ziyarətində olub. Həmişə həccdən gələndə çoxlu ehsanlar verərdi. Orucluq ayında iftar açdı keçirərdi, kimsəsizlərə köməklik göstərərdi. 2 saylı orta məktəbə qış fəslində odun və peç alıb siniflərə qoydurardı. Hətta əlacı uşaqlar arasında həvəsləndirici mükafatlar təyin etdirən və öz hesabına ödəyərdi. Cavan olmasına baxmayaraq çoxlu dost-tanış qazanmışdı.

2000-ci ilədək Qızılağac kənd məscidinin rəisi, 2000-ci ildən ömrünün sonuna qədər Qafqaz müsəlmanları İdarəsinin Cənub Zonası üzrə qazisinin birinci müavini işləmişdir. Hacı Əli Tahir 2002-ci il noyabr ayının 4-də vəfat etmişdir. Qızılağac qəbristanlığında dəfn olunmuşdur. Allah rəhmət eləsin.







*Hacı Əlihəsən və Hacı Qafil, Kərbəla ziyarətində.*

*Həyat bir dənizdir, bizsə gəmiyik,*
*Sən öz limanına can atdın qardaş.*
*Axır bir sahilə yetişməliyik*
*Sən əbədi ünvan yaratdın qardaş.*

*Arzular qoynunda yandın-alışdın,*
*Neçə çətin günlər, adladın-aşdın,*
*Gecəni gündüzə qoşub çalışdın*
*Özün öz ruhunu oyatdın qardaş.*

*Tay-tuşun gedərkən min cürə kefə,*
*Öz cavan ömrünü verMədin yelə.*
*Sən namaz üstündə gündə üç dəfə*
*Əlini göylərə uzatdın qardaş.*

*Çinar oldun kölgən düşdü hər yana,*
*Bürünmədin min sifətli bir dona.*
*Səndən kömək əli uman insana,*
*Möhkəm körpü idin - siratdın qardaş.*

## HACI MƏZAHİM İBRAHİM OĞLU

*Hər kimə həcc nəsib olsa xuda qismət edər*
*Hər kimi istədiyi xanəsinə dəvət edər.*

Məzahim İbrahim oğlu Həsənov 1933-cü ildə Qızılağac kəndində kəndli ailəsində anadan olmuşdur. Kiçik yaşlarından zəhmətə bağlı olan Məzahim kolxozda müxtəlif sahələrdə işləmiş, sonradan kolxoz fermasında çoban və malabaxan işləmiş, öz işinin bilicisi olan Məzahim heyvanlara qulluq etməklə yüksək məhsuldarlıq əldə etmişdir. Onun əməyi dəfələrlə kolxoz idarə heyəti tərəfindən qiymətləndirilmişdir. Sovxoz dövründə onun təcrübəsi nüfuzunun artmasına səbəb oldu. Qulluq etdiyi heyvanları sağlam böyütmüş və həmişə yoldaşlarından fərqlənmişdir.

Sovxoz quruluşu dağılandan sonra heyvandarlığa bağlı olan Məzahim kişi öz təsərrüfatını genişləndirmək üçün kiçik bir tövlə tikərək üç oğluna və özünə məxsus olan heyvanları kiçik bir tölə tikərək köhnə ferma ərazisində saxladı və nümunəvi xidməti öz bəhrəsini verdi. Heyvandarlığı inkişaf etdirdi. Məzahim üç oğul, iki qız atasıdır. Oğlanlarından Natiq müəllim, Vələhəd iqtisadçı, Mikayıl isə avtomobil üzrə mühəndisdir. Məzahim kişi 2000-ci ildə 8-ci imam Rza (ə)-ın ziyarətində olmuşdur.







*Hacı Məzahim İbrahim oğlu.*

Məşhədi Məzahim xeyriyyəçidir. O, imkansızlara, başsız ailələrə həmişə yardım əlini uzadır. Kənd məscidinin ətrafındakı tikililərə köməklik edir. Öz hesabına məscid həyətində olan dəmir qapını hazırlatdırıb.

Elin xeyir və yas mərasimlərində fəal iştirak edir. Sakit təbiətli və təmkinlidir. 2003-cü ildə Müqəddəs torpağa Məkkə ziyarətinə gedən Hacı Məzahim o yerlər haqqında geniş məlumata malik olduğunu bildirir. Onu Həcc ziyarətinə yola salarkən öz övladlarına minnətdarlığını bildirən Məzahim kişi dedi: Allahdan arzu edirəm ki, atalar mən övladlarımdan yarıdığım kimi yarısın.

*İnsana min fərəh, sevinc gətirən*
*Bir baş ucalığı, şöhrətdir övlad.*
*Ata arzusunu sona yetirən.*
*Nurlu bir çıraqdır, niyyətdir övlad.*

*O, susuz səhrada bulağa bənzər*
*O, barlı-meyvəli budağa bənzər.*
*O, qayaya bənzər, o dağa bənzər*
*Bir nəslə arxadır, qeyrətdir övlad.*

*Atanın, ananın görən gözüdür*
*Qəlbin parçasıdır, ürək sözüdür.*
*Sevda dünyasının elə özüdür.*
*Narahat, qayğılı zəhmətdir övlad.*

*Hər kəsin taleyi öz əlindədir.*
*Körpəlik iqbalı səndə, məndədir.*
*O bir hədiyyədir, o bir töhfədir;*
*Allahın verdiyi xilqətdir övlad.*

## AĞABALAYEVAĞABALA MƏCİD OĞLU (Sağır Ağabala)

Öz dövrünün adamları içərisində fərqlənən, xeyirhah, təəssübkeş səxavət sahibi olan bu şəxs 1911-ci ildə Qızılağacda anadan olub. Atasını kiçik yaşlarında itirib. Ana himayəsində pərvəriş tapıb. Kiçik yaşlarından zəhmətə bağlı olub. Müxtəlif əmək sahələrində özünə və ailəsinə çörək pulu qazanmaq üçün çalışıb. Əsasən aclıq illərində Xəzər dənizinin sərvətlərindən bəhrələnən Ağabala kişi öz qazancından imkansızlara da kömək edib. Onun haqqında çox söhbətlər bilirdim. Lakin 1987-ci ildən isə onunla birbaşa ünsiyyət tapdığım gündən onun müsbət keyfiyyətlərinin şahidi oldum. Çünki bu şəxs xoş təbiətli və mehriban bir insan idi. Heç kəsə könül bulandıran sözlə münasibət bildirməzdi. Heç bir məktəb təhsili olmayan bu şəxs özlüyündə böyük bir zəka sahibi idi. Ona görə ki, bu adam elmə, təhsilə özü sahib olmasa da oğlanlarınında elmə maraq oyat-





maqda fəaliyyəti çox olub. Böyük oğlu Təyyar tibb elmləri namizədi, oğlu Əli milis mayoru, Güloğlan da milis kapitanıdır. Hər ikisi polis Akademiyasını bitiriblər. Digər övladları isə zəhmətə bağlı şəxslərdir.



*Ağabala Məcid oğlu.*

Ağabala kişi kənd camaatının önündə gedən ağsaqqal idi. Hər hansı bir yeniliyə yaxşı münasibət bəsləyərdi. O 1964-cü ildə kənd qəbristanlığının ətrafının çəpərə tutulmasının təşkilatçılarından idi. Kənd yollarının təmiri, məscid və təziyə binasının fəallıq göstərən şəxs idi. Əvəzsiz xidməti Maşa Fərəculla evində keçirilən Məhərrəmlik mərasimlərində öz əksini tapırdı. O mərasimin təşkilatçısı və iştirakçısı kimi əvvəldən axıradək orada olardı. Kənddə molla olmayan vaxtlarda o çox narahatçılıq keçirər və həmişə Allaha dua edərdi ki, ilahi, bizim öz kəndimizin adamlarından bu mərtəbəyə qalxmağa kömək ol. Mən əsasən məscid tikintisi ərəfəsində onun gördüyü işləri heç vaxt yaddan çıxarmaram. Çünkü o bu işə son dərəcə bağlı olan məhəbbətli insan idi. İşin təşkil olunmasında o yaşda olan kişi uşaq kimi fəaliyyət göstərirdi.

Ağabala kişi həm də çox şən əhval-ruhiyyə sahibi olmaqla böyük həyat təcrübəsinə malik olan insan idi.

Maraqlı epizodları indi də yaddan çıxmır. Bir gün mən məscid tikintisi üçün çay qumu gətirməyi traktorçudan xahiş eylədim. O dedi gətirərəm. Mən iş dayanmasın deyə dedim tez gətirərsən a... Bir neçə saat keçdi istifadə olunan qum qurtarmaq üzrə idi. Məni narahat görən Ağabala əmi dedi: bacı oğlu niyə narahatsan? Dedim: ay dadaş (ona hamı övladlarının dilində Dadaş deyirdilər), qum sifariş vermişəm, hələ gəlməyib. Dedi: pulunu vermisən ya yox? Dedim: sonra verəcəyəm. Dedi: onda gətirməyəcək. Dedim: nə üçün? Dedi: ay bacıoğlu, sifarişlə həcc qəbul olmaz. Mənə ver! (Məscidin bütün maliyyə və təsərrüfat haqq-hesabı məndə idi). Mən ona 10 manat verdim. Dedi: bacıoğlu, yadında qalsın, bir iş görmək istəsən pulu öz alnına yetişdir. Soruşsalar bu nədir? De ki, al bu pulu flan işi gör. Pulu əlində tutan "Dadaş" bir traktorçuya dedi: al bu pulu, o aldı. Dedi: bu nə üçündür? Dedi: bir lafet qum gətir, yarım saat keçmədi ki, qum gəldi. Onunla bağlı çox maraqlı məlumatlara malikəm. 1990-cı il yanvar ayının 2-də ehsanda bir neçə ixtisar aparmaq təklifi ilə çıxış etdim. Çoxları qəbul eylədi. Mən hüzr məclisindən məscidin həyətinə gəldim. Ağabala kişi məni görən kimi hal-əhval tutdu. Dedi: bacıoğlu, heyif ki, o təklifi sən demisən, başqası desə idi vuruşardım. Dedim: ay Dadaş, bu camaatın xeyrinədir. O isə dedi: mən min bir əziyyətlə övlad saxlamışam, oxutdurmuşam, evləndirmişəm, maşın almışam. Necə ola bilər ki, mən öləndən sonra onlar ehsan verməsinlər. Dedim: ay Dadaş ehsan veriləcək, lakin tək-tək adamlardan vədə alışmayacaq. O dedi: bu başqa məsələ! Ağabala kişi öz mövqeyini qoruyan adam idi. Mən 1980-ci ilin əvvəllərində rayon texnika birliyinə vəzifəmlə bağlı iş ardınca getmişdim. Oranın anbardarı Digah kəndindən olan Ağacan dayı adlı bir kişi idi. Ağacan dayı mənə dedi: ay Nüsrət, Qızılağacda Sağır Ağabala adlı adam





var, o kimdir? Mən dedim: bəli o adam öz halal zəhmətilə dolanandır. Ağacan dayı, o hara sən hara? Dedi ay bala, o Tatyan kəndində hüzr məclisində elə bir hərəkət eylədi ki, hamı heyran qaldı. Mən dedim: o çox mülayim və mehriban şəxsdir. Ondan qəbahətli iş ola bilməz. Ağacan dayı dedi: o özünü cəsarətli işin sahibi kimi göstərdi. Dedim: ay dayı, sən Allah de görüm nə olub. Dedi: Məmməd Kazımın atasının hüzüründə idik. Orada bir cavan oğlan mollaya dedi ki: quran oxumağı öyrənmişəm. Ancaq Quran almağa pulum yoxdur. Əgər mümkünsə, bu işdə mənə kömək edin. Oğlanın bu sözündən sonra Ağabala kişi ayağa durub dedi: Quran neçəyə olur? Dedilər: 100 manata. Bu zaman Ağabala kişi əlini şalvarın arxa cibinə salıb pulların içindən bir dənə şax yüzlük çıxarıb oğlana verdi və dedi: get, al oxu! Mən heç bir təmənna ummuram. Yerdəkilər təəccüblə dedilər: bu kişi kimdir? Dedilər: Qızılağacdandır, adı Sağır Ağabaladır. Ay Nüsrət, mən onu bu cür mərd gördüm. Sonra Ağacan dayıya onun haqqında bildiklərimdən danışdım. O, Sağır Ağabala haqda xoş fikirdə olmağından həmişə söz açardı. Həmin Quran oxuyan oğlan əvvəllər gəlib orucluqda Sağır Ağabala gildə quran tapşırardı. Yəni onu demək istəyirəm ki, bu şəxs öz xeyirxahlığından da əl çəkməyən bir insan idi.

*Ömrümüz boyunca borcluyuq sizə*
*Canını odlara yaxan atalar*
*Özünüz vermisiz həyatı bizə*
*Siz dərya atalar, ümman atalar.*

*Biriniz sərt qaya, biriniz kövrək.*
*Biriniz bəxti kəm, biriniz kövrək.*
*Biriniz Atilla, biriniz Babək.*
*Hər cür imtahandan çıxan atalar.*

*Alnı puçur tərli, əli qabarlı,*
*Tufanlar içində qəlbi baharlı.*
*Övlad qismətindən bəhrəli-barlı*
*Zülmün məhvərini yıxan atalar.*

Ağabala kişi 12 övlad atası olmaqla, həm də öz dövründə xalqın aiası idi. Allah rəhmət eyləsin əməli günahlarının yuyulmasına kömək olsun.

## MƏMMƏDOV AĞAVERDİ AĞAƏLİ OĞLU

1906-cı ildə Masallı rayonunun Qızılağac kəndində anadan olmuşdur.

A.Məmmədov 1926-cı ildə Bakı şəhərində ikiillik müəllimlər İnstitutunu bitirdikdən sonra Qutqaşen, sonra Yardımlı rayonlarında tarix və coğrafiya müəllimi işləmişdir. 1928-1930-cü illər arasında isə Cəlilabad rayonunda müəllim işləmişdir. 1930-1932-ci illərdə isə Masallı rayonunun Dadva və Digah məktəblərində çalışmışdır. Ağaverdi Məmmədov 1932-ci ildən ömrünün sonunadək - 1984-cü ilə kimi Qızılağac orta məktəbində işləmişdir.

O, ömrünün 60 ilə yaxın bir dövrünü xalq maarifinə və təhsilə həsr etmişdir. O, 1932-1937-ci illərdə Qızılağac kəndində ilk 7-illik məktəbin açılmasında xüsusi rol oynamış, 1938-ci ildə kəndinə ilk orta ümumtəhsil məktəbinin əsasını qoyanlardan biri olmuş və 1941-ci ildə orta məktəbin ilk buraxılışının rəhbəri olmuşdur.

Ağaverdi Məmmədov həmişə xeyirxah əməl sahibi kimi xalq arasında və bütün rayonda çox böyük hörmət və ad-san qazanmışdır. Elə bu hörmətə görə də ona xalq arasında “Mirzə” ləqəbi verilmiş və hər yerdə “Mirzə Ağaverdi” deyə çağırılmış-





dır. 1938-1945-ci illərdə Qızılağac orta məktəbinin direktoru vəzifəsində işləmişdir. O, bir müəllim kimi rayonun və Qızılağac kəndinin maariflənməsi üçün çox iş görmüşdür. Onun müəllim ömrünü bənzərsiz ömür adlandırmaq olar. Belə şəxsiyyətlərin həyatı gələcək nəsillər üçün böyük bir nümunədir.



*Ağaverdi Ağabala oğlu.*

Böyük dindar və Allah adamı olan Ağaverdi Məmmədov həmişə yoxsullara və kimsəsizlərə əl tutmuşdur. Böyük yaddaşa və möcüzəli hafizəyə malik olan A.Məmmədov Qızılağacın tarixini çox gözəl bilirdi. Bildiklərini gələcək nəsillərə çatdırmağa böyük səy göstərirdi. Belə xeyirxah insanlar və böyük şəxsiyyətlər heç vaxt unudulmur və xalqın yaddaşında əbədi yaşayırlar.

Ağaverdi Məmmədov 1984-cü ilin aprel ayının 6-da dünyasını dəyişmiş və haqq dərgahına qovuşmuşdur.

Allah rəhmət eyləsin!

## VETERAN

*Salam, ey veteran, şanlıdır yolun,*
*Anır qəhrəman tək nəsillər sizi.*
*Yenə də mübariz, fədakar olun,*
*Gül-çiçək bəzəyir abidənizi.*

*Ucalsın həmişə məğrur səsiniz,*
*Tanısın yerini yaxşıyla, yaman.*
*Vallah sizinləyik hər addımda biz,*
*Verir qiymətini hər işin zaman!*

*Çəkdiyin əzabı çox çətin duyar,*
*Kövrək qəlbinizə toxunan kəslər.*
*Vətəni şərəflə sevər, qoruyar,*
*İgidlər heç zaman biş girləməzlər!*

*Sənə, abidənə gül uzadanın*
*Tanrı uca edər daim başını.*
*Qələbə günüdür, sevinclə anın,*
*Ömrün baharını, ömrün qışını.*

*Əklillər qoyulur abidənizə*
*Ölmür qəhrəmanlıq, ölmür qəhrəman!*
*Ancaq hamı bilir borcluyuq sizə,*
*Bu gözəl həyatı şanlı veteran!*

**Qulu Vəcioğlu**





## QATARDA

*Qatar şütüdükcə şimala sarı,*
*Gəlir xatirimə bilsəniz nələr?*
*Düzü seyr etdikcə yaşıllıqları*
*Könlümdə dil açır lal xatirələr.*

*Yenə çiçəkləmiş moruq kolları,*
*Çöllərdə nə desən artıq var indi.*
*Atalar süngüylə keçən yolları,*
*Keçir şöhrət ilə oğullar endi*

**Qulu Vəcioğlu**

## MƏMMƏDBAĞIR KƏRİM OĞLU

Rayonumuzun tanınmış ziyalılarından olan Məmmədbağır Salayev 1911-ci ildə Masallı rayonunun Qızılağac kəndində anadan olmuşdur. Kənd ibtidai məktəbini başa vurduqdan sonra 1928-ci ildə Lənkəran Pedaqoji Texnikumuna qəbul olunmuşdur. 1932-ci ildə həmin texnikumu bitirərək riyaziyyat müəllimi kimi fəaliyyətə başlamışdır. Müharibə başlanana qədər rayonun Yeddioymaq, Qarğalıq və Xırmandalı kəndlərində məktəb direktoru vəzifəsində çalışmışdır. 1939-cu ildə hərbi xidmətə çağırılmış və faşizm üzərində qələbədən sonra doğma kəndə qayıtmışdır. Onun hərbi xidməti orden və medallarla qiymətləndirilmişdir.

M.Salayev yenidən Qızılağac kənd orta məktəbində işləməklə yanaşı qiyabi yolla Azərbaycan Dövlət Pedaqoji İnstitutunun riyaziyyat fakültəsini bitirmişdir. O ömrünün 65 ilini xalqın maariflənməsi və təhsilin inkişafına həsr etmişdir. Rayonun kəndlərində məktəb direktoru işləyərkən özünü təhsil sahəsində bacarıqlı təşkilatçı kimi göstərmişdir. B u xüsusiyyəti

ona rayon ziyalıları arasında hörmət qazandırıb. Yeddioymaq, Qarğalıq və Xırmandalı kəndlərində yaşlı nəsil indi də ondan ehtiramla söz açır, xidmətlərini qeyd edirlər.



*Məmmədbağır Salayev.*

Bir zaman, babası təhsil almış institutu bitirən nəvəsi Mənsurə xanım hazırda onun işləmiş olduğu Qızılağac orta məktəbində fizika-riyaziyyat müəllimi kimi babasının sənətini davam etdirir. Ruhu şad olsun!

Xeyirxah, səmimi və gözəl ailə başçısı olan M.Salayev 9 övladından 6-na ali təhsil vermişdir. M.Salayev dünyasını dəyişənə kimi, yəni 1987-ci ilədək Qızılağac orta məktəbində müəllim işləmişdir. Müəllim peşəsi Tanrıya bağlı olduğu üçün ölməzdir. Elə buna görə də dünyasını dəyişmiş həmkarları kimi, o da unudulmur, yaddaşlarda yaşayır.

***Sən elm öyrədənə hörmət et hər an,***
***Elmin gücü ilə ucalır insan.***
***Məşhərdə qələmin mürəkkəbi də***
***Üstün tutulacaq şəhid qanından!***

**Allah rəhmət eləsin!**





## MƏHƏRRƏMOV MƏHƏRRƏM XALİQ OĞLU

1918-ci ildə Masallı rayonunun Qızılağac kəndində anadan olmuşdur. Kənd ibtidai məktəbini bitirib. 1932-ci ildə Lənkəran Pedaqoji Texnikumuna qəbul olunmuşdur. 1936-cı ildə texnikumu bitirərək Kalinovka orta məktəbinə müəllim təyin olunur. 1939-cu ildə Azərbaycan Tibb İnstitutunda 3 ay oxuduqdan sonra ordu sıralarına çağırılmışdır. Hərbi xidmətə görə orden və medallar almışdır. Müharibədən sonra yenidən müəllimlik etmişdir. Hazırda S.Xəlilov adına Qızılağac 1 saylı orta məktəbində müəllim işləyir. 2003-cü il fevralın 15-də kənd orta məktəbində onun anadan olmasının 85 və pedaqoji fəaliyyətinin 67 illiyi təntənəli şəkildə qeyd edilmişdir.



*Məhərrəm Məhərrəmov.*

M.Məhərrəmov ağsaqqal, müharibə və əmək veteranı kimi kənd camaatı arasında nüfuza malikdir. Qocaman ziyalıya cansağlığı, pedaqoji fəaliyyətində gənclik ruhu diləyirik.

## QOCAMAN ZİYALI

*Gəlin müəllimləri sıraya düzün,*
*Ən öndə dayansın Məhərrəm əmi!*
*Baxıb bu büsatın təntənəsinə,*
*Sevincə boyansın Məhərrəm əmi!*

*Gördün hər üzün dövrün, zamanın,*
*Çəkdin ağrısını ahın, atanın.*
*Lakin qırılmadı heç vaxt gümanın,*
*Bunu çoxu qansın Məhərrəm əmi!*

*Taleyin ruzgarı əsəndən bəri,*
*Həyat nə aparır qaytarmır geri.*
*Anmamaq da olmur qəmli günləri,*
*Ötənləri ansın Məhərrəm əmi!*

*Vallah çox çətindir hər qəlbi duymaq,*
*Onun hər işini yoluna qoymaq.*
*Həyat çox şirindir, mümkünmü doymaq?*
*Yenidən oyansın Məhərrəm əmi!*

*Silib ürəyindən dərdi, ələmi,*
*Bizdən uzaq elə, kədəri, qəmi.*
*Veteran, ağsaqqal, ziyalı kimi,*
*Səmimi insansan Məhərrəm əmi!*

*Qara günlərinin üstündən xətt çək,*
*Ömür yolun olub gəncliyə örnək!*
*Yeri vardır sənə qəhrəman deyək,*
*Canlı qəhrəmansan Məhərrəm əmi!*

**Qulu Vəcioğlu**





## SƏLİMOV İBRAHİM MƏMMƏD OĞLU

Ötən əsrin 40-70-ci illərində adı az qala əfsanəyə çevrilən son günlərdə isə onu tanıyanların laqeydliyi ucbatından az qala unudulan... İbrahim Səlimov haqqında yazmamaq insafsızlıq olardı.

Cəmi 68 il yaşayan adı-sanı respublikanın bir çox bölgələrində hörmət və ehtiramla çəkilən, zəmanəsinin ən yüksək vəzifə postlarına və dövlət mükafatına layiq görülən mərd, mübariz, qurucu bir insan olan İ.Səlimov haqqında hətta bir kiçik nekroloq da belə yazılmadı.

İ.Səlimov 1911-ci ildə Masallı rayonunun Qızılağac kəndində anadan olub. Kənd məktəbini bitirdikdən sonra kənd sovetinin katibi vəzifəsinə irəli çəkilib. Yüksək iş qabiliyyəti və səriştəsi nəzərə alınaraq o, az sonra Masallı rayon milis şöbəsinə pasportis vəzifəsinə irəli çəkilir. Bununla da İ.Səlimov vəzifə pilləsi ilə yüksəlişə qədəm qoyur. Az sonra həmin şöbədə pasport masa və rəisi vəzifəsinə keçirilir.

Daha çox operativ işçi kimi diqqəti cəlb edən İ.Səlimov diqqətdən yayınmır. Respublikanın bir neçə rayonlarında rəhbər təhlükəsizlik orqanlarında çalışır. 1939-cu ildə ümumittifaq qiyabi hüquq institutuna daxil olur. Böyük Vətən müharibəsi başlanır. O təhsilini yarımçıq qoyur. Xalq daxili işlər komissarlığında onu qaynar nöqtəyə Cəlilabad rayon şöbəsinə rəis göndərirlər. İ.Səlimov burada həyatını dəfələrlə təhlükə qarşısında qoyur. İran ərazisində məskən salmış qaçaqçılara qarşı barışmaz mübarizə aparır.

Tarixçi alim Rəşid Əsədovun "Cəlilabad dünən bu gün və sabah" kitabında İ.Səlimovun o dövrlərdəki fəaliyyəti haqqında yazır: İ.Səlimov müharibənin qızğın vəqtlərində nəinki Cəlilabadın ev-eşiyini, mal-mülkünü həm də qız-gəlinlərinin qeyrətini qoruyurdu".

Həyatına risk etmək İ.Səlimov üçün adi bir iş idi:

Bir dəfə o, mülki geyimdə at belində meşədən keçərkən quldurların tələsinə düşür. Quldurbaşı Nəcəfqulu xan onun qabağını kəsərək sən kimsən soruşur. O isə mən İbrahim Səlimovam, sən isə Nəcəfqulusan. Sabah gəl şöbəyə təslim ol, silahı təhvil ver. Nəcəfqulu xan quldurlara ağacların arxasından irəli çıxmağı əmr edir. Əli silahlı quldurlar İ.Səlimovu dövrəyə alıb silahlarını ona qarşı devirirlər... İ.Səlimov heç halın da pozmayır. Quldurbaşı deyir: Sən ki, mərd-mərdanə İ.Səlimov olduğunu boynuna alırsan. Sənə qıymaq kişilikdən deyil, get yaşa. İ.Səlimov isə ona "Əbəs yerə bu adamları ailə uşaqlardan edib meşələrdə, dağlarda sərgərdan eləmə, qayıt bu yoldan, deyib yoluna davam edir. Ertəsi gün Nəcəfquluxan dəstəsi ilə birlikdə şöbəyə gəlib silahlarını təhvil verib, təslim olurlar. 2000-ci ildə kənd məclislərinin birində (Dilşad Hacıbala qızının) Əli Bayramlı şəhərindən çoxlu sayda qonaqlar gəlmişdi. Onların bizim kənd haqqında mən təsəvvürləri olmadığına əsasən qısa məlumat verdim. Söhbətimi qurtarandan sonra çox alicənab, zahiri görkəmində təvazökar bir şəxs məndən xahiş eylədi ki, ona çıxış üçün söz verim. Məmnuniyyətlə onun xahişini qəbul edib ona söz verdim.

Biz onu tanımırıq o isə öz çıxışının əvvəlində özün təqdim etdi. (Oqtay Cilovxanov Səmədov Hacıqabul Təhsil şöbəsinin müdiri. Respubltika təhsil şöbəsinin kollegiya üzvü.) O sözünə davam edərək dedi: Bizim ailənin Qızılağac haqqında geniş məlumatı var. Həm də bu kəndin yetişdirməsi olan İbrahim Səlimov haqqında. Ona görə bu şəxsin şəxsiyyətinə bizim ailənin böyük hörməti var. Çünkü o bizə əsil insanlıq mövqeyində himayədarlıq edib. O Hacıqabulda birinci katib işləyəndə mənim atam təzə ali təhsilini başa vurb öz yerimizə qayıtmışdı. Atam onun qəbulunda olanda Səlimovu atamın münasibəti ona qarşı diqqətli edr. İ.Səlimov bu gənci rayon icra komitəsində ixtisası





üzrə işlə təmin edir. Az vəqtdən sonra şöbə müdiri vəzifəsinə təyin edmr. Bu zaman atama görə İbrahim Səlimovla münasibəti dəyişənlər olur. İ.Səlimova bu gənci birdən-birə vəzifəyə verməyinə görə. Lakin İ.Səlimov son ana qədər öz mövqeyində duraraq atama qarşı çıxanları susdurur. Atam onun köməkliyi ilə digər vəzifələrə təyin edilir. Odur ki, bizim ailə İ.Səlimov timsalında Qızılağacı təsəvvür edirlər. Atam bizə tapşırıb onun xidmətini heç vəqt unutmayın. Bəli İ.Səlimov harda işləsə öz xüsusiyyəti, təşkilatçılığı, bacarığı çərçivəsində iş görüb. O işlər indi də onu xatırladır.



***İbrahim Səlimov.***

Hazırda Oqtay Səmədov Mill Məclisin deputatıdır. Şükür müəllim Qəribov Oqtay Səmədovla eyni sahədə işləməyindən ürək dolusu danışdı. Mən də şəxsən Oqtay Səmədova və qonaqların hamısına minnətdarlıq eylədim. İ.Səlimov haqqında Cəlilabad kənd ağsaqqalları da çox söhbətlər edirdilər. Onlardan biri Porneim kənd sakini İzzət kişidir. İzzət kişinin oğlu Həmdul-

la Sərçuçvar kəndindən baş mühəndis işləyəndə dostlaşmışdıq. Onlara gedib gələrdik. Bir gün onun yanında Xıldan gələnlərlə oturub söhbət edirdik. Mənə dedi ay qızılağaclı İbrahim Səlimov necədir? Dedim İzzət əmi işdən çıxıb. Ancaq səhhəti və vəziyyəti yaxşıdır. Dedi Səlimov mərd və cəsur kişidir. Dedim ay İzzətəmi onu hardan tanıyırsan dedi ay bala onun haqqında o qədər məndə təəssüratlar var. Əgər söyləsəm bir kitab yazmaq olar. (Kaş onun dediklərin o vəqt yazaydım) Mən və Xıldan mənimlə gedənlər xahiş eylədük bir az söhbət eləsin. O qocalmışdı. Lakin çox sağlam və nitqi yerində idi.

Dedi qulaq asın bir əhvalatı söyləyim. Mən gənc yaşlarında qaçaqçılıq etmişəm. Həmin günlər İbrahim Səlimovun Həməşarda NKVD işləyən vaxtı idi. Vəziyyət dolanışıq cəhətində çox ağır idi. Biz qaçaqçılıq edərdük. Hər gün İrana - İrandan bura keçərdük. Məni İbrahim Səlimov tutmuq üçün çox səy göstərirdi. Bir gün mənim meşədə olmağımı görənlər ona xəbər verirlər. İbrahim Səlimov əməliyyat qrupu təşkil edərək meşəyə gəlirlər. Mən böyük bir ağacın budaqları arasında gizləndim. Əlimdə beş açılan. Gördüm hər tərəfdən meşə zolağına NKVD işçiləri daxil oldular. Səlimov mənim olduğum ağacın altından keçərkən 25-30 yaşında olan bu cavandakı gözəllik, çeviklik insafsız olmağa maneçilik etdi. Çünki mən istəyirdim onu beş açılan ilə vuram. Ancaq o əlamətlər mənə mane oldu. Mən onu vurmadım. Onlar axtarıb getdilər. Mən ağacdan düşübyolumu getdim. Bir neçə il keçdi. Məni tutub NKVD-yə apardılar. Səlimov məni görən kimi dedi: İzzət axır ki, səni tutdurdum. İzzət deyir mən dedim. Səlimov sən nə işdi. Məni tutdura bilərdün nə də məni görə bilərdün. Əgər sənə qarşı insafsızlıq edib ağacdan səni vursaydım. Əhvalatı ona danışdım. O məni başa düşdü və məni buraxdı. Hətta dedi: İzzət nə qədər mən burdayam qorxma. Həqiqətən də sözünün üstündə durdu. O mərd, cəsur, mübariz insan idi.





İ.Səlimov 6 il Cəlilabadda işləyib. Sonra o Səlyan və Əlibayramlı rayonların NKVD rəisi təyin olunur. 1949-cu ildə bir qrup dövlət təhlükəsizlik işçisi partiya sovet orqanlarına irəli çəkilir. İ.Səlimov Qazıməmməd rayon icrayə komitəsinin sədri seçilir.

İki ildən sonra isə Qazı Məmməd rayon partiya komitəsinin birinci katibi vəzifəsinə irəli çəkilir.

Azərbaycan respublikasının Ali sovetinə deputat seçilir. Qazı Məmməddə böyük quruculuq işləri aparır. 1952-ci ildə Ali təhsil almaq üçün Ali partiya məktəbinə göndərilir. Burada da ona böyük etimad göstərirlər. Ali partiya məktəbinin partiya komitəsinin katibi seçilir.

Partiya məktəbini bitirdikdən 1956-cı ildə könüllü olaraq Qızılağac kəndinə kolxoz sədri vəzifəsinə göndərilir. İki il kolxoz sədri işlədikdən sonra Masallı rayon İcraiyyə Komitəsinin sədri vəzifəsinə irəli çəkilir.

İ.Səlimovun nüfuzu rayonda sürətlə artır. O rayonda baş verən neqativ hallara qarşı çıxır, dövlət əmlakını mənimsəyənlərə havadarlıq edən məmurlarla üz-bəüz qalır. Nöqsanlara qarşı açıq mübarizə edən bu insan tezliklə siyasi terrora məruz qalır. Masallı rayon İcraiyyə Komitəsi vəzifəsindən uzaqlaşdırılır. Yenidən kolxoz sədri təyin edilir. Siyasi terror və təqiblər səngimir. Kolxoza rayonun komissiyası göndərilir. Yoxlamalar, çək-çevirlər başlayır. Qorxu və xof yaratmaq məqsədi başlayan bu yoxlamalar mübariz insan olan İ.Səlimovun iradəsini qıra bilmir.

O, yuxarı partiya və dövlət orqanlarına müraciət edir... Uzun mübarizələrdən sonra ona qarşı mübarizələrə son qoyulur.

İ.Səlimov bütün həyatını doğma kəndinin inkişafına həsr edir. Rayonun ən geridə qalan kolxozun tezliklə qabaqcıl kolxozlar cərgəsinə qaldırır. 20 il kolxoz sədri və sovxoz direktoru işləyir. 1979-cu ildə dekabrın 6-da vəfat etdi.

*Pislər elə pisdir yaşar ilan tək*
*Nə qədər sürünsə yorulmaz yenə.*
*O qədər əyilib qalxıb ki, onlar.*
*Milyon il dartılsa qırılmaz onlar.*

*Amma yaxşıların əməli nurlu*
*Öz əməlindən təsəlli tapar.*
*Bəzən sarvan olar qəm karvanına*
*Özü də yükünü tənha aparar.*

## RƏSULOV İLTİMAS İSA OĞLU

1932-ci ildə Masallı rayon Qızılağac kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra ticarət texnikumunu bitirib. Uzun müddət təsərrüfat malları mağazasının müdiri olub. Xalq Təsərrüfatı İnstitutunu bitirib.

Kalinovka kənd istehlak cəmiyyətinin müdiri və Masallı şəhər İstehlak cəmiyyətinin müdir müavini işləyib. Çox zəhmətkeş, təsərrüfatçı və xeyirxah insan idi. Öz şəxsi əmlakının hər vaxt el yolunda xərc edən idi. Xüsusən onun başçılığı ilə kənd qəbiristanlığında tikilən "hücriyyə" bu dediklərimizə sübutdur.

O həmçinin kəndin xeyriyyəçisi idi. Allah rizası iş görən idi. 1969-cu ildə kənd hərbi hissəsində öldürülən iki müsəlman gənclərin (biri tacik o biri türkmən milləti idi) yuyulub dəfn olunmalarını və onların haqqında yeddi gün ehsan verməyi öz evində keçirib. Həmin vaxtlarda İ.Rəsulovun bu işini görənlər onun xidmətinin müqabilində Allahdan onun bağışlanmasını istəyirdilər. İ.Rəsulov kənd məscid və Mədrəsə binasının tikintisini alqışlayan ilkin şəxslərdən idi. Məscid həyətində Çarhovuz, şirin su üçün su çəni onun şəxsi vəsaiti hesabına tikilib.







*İltimas Rəsulov.*

Öz şəxsi maşınını toy və yas mərasimlərində onların ixtiyarında saxlayardı. Yeddi gün hər gecə mollanı başqa kəndə aparıb gətirmək və bazarlıq işlərində hüzür sahibləri o maşından istifadə edərdilər. Maşın onun qaynı Mirmeysəm Mircəfər oğlu idarə edərdi.

İ.Rəsulov ömrünün son anına kimi özünü xeyriyyəçi və ağsaqqal kimi tanıdı. 1994-cü ildə vəfat edib. Allah rəhmət eləsin.

*Nə yaxşı dünyada yaxşılar varmış*
*Yoxsa, bu dünyanın üzü dönərdi.*
*Nə yaxşı pisliyin meydanı darmış*
*Yoxsa, pak arzular yanıb sönərmiş.*

*Yaxşı ki, dünyada hələ yaxşı var.*
*Yaxşı ki, hər xatirə yaxşılar yaşar.*
*Yaxşı ki, yaşayır hələ yaxşılar.*
*Yoxsa ulduzlar da yerə enərdi.*

## ƏLƏKBƏROV CƏBRAYIL ƏLƏKBƏR OĞLU

1957-ci ildə Masallı rayonunun Qızılağac kəndində anadan olub. Həkim-ortoped-trovmatoloqdur. 1985-ci ildə Vladivostok dövlət tibb institutunun müalicə fakültəsini bitirmişdir. Sverdlovsk şəhərində cərrahiyə üzrə internaturanı bitirdikdən sonra 1986-1991-ci illər arası Kurqan şəhərində Q.A.İlizarovun rəhbərliyi altında trovmatologiya və ortopediya institutunda işləmiş və 2 illik klinik ordinaturanı bitirmişdir.

1991-ci ilin noyabr ayından 1993-cü ilin dekabr ayına kimi Ə.Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun travmotologiya klinikasında həkim-travmotoloq işləmişdir.



*Cəbrayıl Ələkbərov.*

16 dekabr 1993-cü ildən Türkiyənin İzmir şəhərində çalışır.

2000-ci ildə Moskva şəhərində tibb elmləri namizədi elmi adı almışdır.

Hal-hazırda doktorluq dissertasiyası üzərində çalışmaqdadır. **58 dünya qapıda məqalənin müəllifidir.**

Üzvü olduğu ortopedi və travmotologiya cəmiyyətləri aşağıdakılardır:





1. SIKOT - Dünya ortopedi və travmotologiya cəmiyyəti üzvü
2. FROT - Avropa ortopedi və travmotologiya cəmiyyəti üzv
3. ASAMI - Dünya İlizorev sistemi uyğulama və gelişdirmə cəmiyyətinin üzvü
4. TOTBID - Türkiyə ortopedi və travmotologiya cəmiyyətinin fəxri üzvü
5. Rusiya ortopediya və travmotologiya cəmiyyəti üzvü.

Cərrahiyə əməliyyatı etdiyi ölkələr və verdiyi konfranslar

1. Dünya ortopedi konqresi - SIKOT - Amsterdam, Hollandiya, 1996
2. Dünya konqresi - ASAMI - Hyuston, Texas AVD 1996, Amerika
3. Avropa ortopedi konqresi - EFORT - Barselona - İspaniya 1997
4. Balkan ölkələri ortopedi konqresi - Saloniki - Qreüiə 1997
5. Ərəb ölkələri travmotologi konqresi - Doxa - Katar 1998
6. Pakistan ortopedi konqresi - Karaçi, Lahor - Pakistan 1998
7. Dünya ortopedi konqresi - Sikot - Sidney - Melğburn - Avstraliə - 1999
8. Ərəb ölkələri ortopedi konqresi - Cidde - Səudiyə Ərəbistanı, 1999-2001
9. Dünya İlizarov konqresi - Asami - Roma - İtaliya 2001
10. Ərəb ölkələri ortopedi konqresi - Halep, Siriya 2002
11. Ərəb ölkələri İlizarov toplantısı - Bahreyn 2002
12. Dünya ortopedi konqresi - Sikot - S.Peterburq Russiya 2002
13. Asiya ölkələr ortopedi toplantısı - Cakkarta - İndoneziya, 2002

Hal-hazırda Türkiyədə İzmir Dokkuz Eylül universiteti tibb fakültəsi ortopedi və travmotologiya kafedrasında dosent işləyir.

Ümumdünya ortopediya və travmotologiya cəmiyyətinin üzvləri arasında yeganə azərbaycanlıdır. Qardaş Türkiyə Respublikasında yaşamasına baxmayaraq, iştirak etdiyi konqres, simpozium və s. tədbirlərdə həmişə Azərbaycan bayrağı altında çıxış edir.

## BİR OĞUL VAR...

*Bir oğul var. özü burdan uzaqda,*
*Əməlləri başımızı ucaldır.*
*Yaşasa da neçə başqa torpaqda,*
*Yurda bağlı əqidədir, amaldır.*

*Ağıl, kamal yol açdıqca hər işə,*
*Candan sevir doğma ynri, torpağı.*
*Çıxış edir məclislərdə həmişə,*
*Başı üstə Azərbaycan bayrağı.*

*Bu istəklə gedəcəksən irəli,*
*Tanrı eşqi, vətən eşqi var səndə.*
*Yüksəlişin sevindirir bu eli,*
*Sevinclərlə döyünsün qoy sinən də.*

*Həyatının yüksəlişi şəninə,*
*Ruhu daim duaçıdır atanın.*
*Tükənməyən məhəbbəti var sənə,*
*Namaz üstə dua edən ananın!*





*Sənin şanlı xidmətinin önündə,*
*Bu yazdığım sadə şer nədir, nə?*
*Dəyərlidir ilin, ayın, günün, də,*
*De, olarmı bundan gözəl dəfinə?!*

*Neçə-neçə simpozium, konqres,*
*Heyran-heyran durub səni alqışlar.*
*Uğurundan ilham alan ülvi hiss,*
*Ürəklərə sevinc, şadlıq bağışlar.*

*And içərək bir ocağın oduna,*
*Sevindirdin dostu, yarı, doğmanı.*
*Elə yaşa, elə yüksəl adına,*
*Qoy desinlər Azərbaycan Loğmanı!*

**Qulu Vəcioğlu**

## CƏFƏROV SABİR HEYDƏR OĞLU

1931-ci ildə anadan olub. 1939-cu ildə Qızılağac kənd orta məktəbinin 1-ci sinifinə daxil olmuş, 1947-ci ildə isə Masallı rayon Digah kəndindəki orta məktəbdə təhsilini davam etdirmişdir. 1949-cu ildə həmin məktəbi 10-cu sinifini bitirmiş, həmin ildə Bakı Dövlət Universitetinin Hüquq fakütəsinə daxil olmuş, 1954-cü ildə həmin fakültəni bitirmişdir. 1954-cü ildə Respublikanın ayrı-ayrı rayonlarında prokurorluq orqanlarında müstəntiq vəzifəsində işləmişdir. 1959-1965-ci illərdə isə Əli-Bayramlı şəhər prokurorluğunda baş müstəntiq işləyib. 1965-ci ildən 1970-ci ilə kimi Biləsuvar rayonunda, 1970-1975-ci ilə kimi Zəngilan rayonunda, 1975-1991-ci ilə kimi isə Kürdəmir rayonunda prokuror və prokuror köməkçisi işləyib. Hal-hazırda təqaüddədir. O işlədiyi müddətdə özünü bacaraqlı işçi kimi göstərmiş, SSRİ və Azərbaycan SSR Prokurorluğu tərəfindən dəfələrlə mükafatlandırılmışdır. SSRİ Ali Sovetinin fərmanı ilə "Əmək Veteranı" medalı ilə təltif olunmuşdur.



*Sabir Cəfərov.*





## SƏFƏROV QULAMƏLİ ABDULƏLİ OĞLU

1935-ci ildə anadan olub. 1961-ci ildə Kalinin adına kolxozda sürücü işləyib. 1979-cu ildə Respublika Daxili İşlər Nazirliyinin Masallı rayonunun Yol Polisində müfəttiş, 1982-ci ildən isə Dövlət Yol Polis idarəsinin Cəlilabad Motovzvodunun komandiri vəzifəsində çalışıb. Milis kapitanı idi. 1991-ci ildən təqaüdə çıxmış, 2002-ci ilin oktyabr ayında dünyasını dəyişmişdir. İki oğlu dörd qız atası idi. Böyük oğlu Səfərov İnqilab hal-hazırda Moskva şəhərində milis podpolkovniki rütbəsində çalışır, ikinci oğlu Səfərov Abdüləli hal-hazırda ADİN-nin Baş Dövlət Yol Polisi idarəsində işləyir, polis kapitanıdır. Səfərov Qulaməli nüfuzlu, Respublikada tanınmış şəxslərdən idi. O həmçinin kənd camaatının imkansızlarına xeyirxahlıq məqsədilə köməklik edərdi.



*Qulaməli Səfərov.*

## MƏMMƏDOV İLTİFAT AĞAVERDİ OĞLU

1944-cü ildə Masallı rayonunun Qızılağac kəndində anadan olmuşdur. 1960-cı ildə Qızılağac kənd orta məktəbini bitirdikdən sonra Azərbaycan Dövlət pedaqoji institutuna daxil olmuşdur. 1963-1966-cı illərdə ordu sıralarında hərbi-xidmətdə olmuşdur. 1968-ci ildə həmin İnstitutun tarix-filoloji fakültəsini əla qiymətlərlə bitirmişdir.

1968 -1975-ci illərdə Kalinovkada dil və ədəbiyyat müəllimi işləmişdir.



*İltifat Məmmədov.*

İ.Məmmədov 1975-1995-ci illər arasında Masallı rayonunda bir çox məsul və yüksək vəzifələrdə işləmişdir.

İltifat Məmmədov 1984-cü ildən 1989-cu ilədək 5 il Masallı Rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri olmuş, 1989-cu ildən 1997-ci ilədək Masallı Rayon Partiya Komitəsinin birinci katibi vəzifəsində işləmişdir.





O, 1975-ci ildən 1995-ci ilədək 20 il ardıcıl olaraq bütün çağırışlarda Masallı Rayon Sovetinin və Masallı şəhər sovetinin deputatı olmuşdur.

İltifat Məmmədov 1990 -1995-ci illər arasında isə 5 il Azərbaycan Respublikasının Deputatı olmuşdur.

İ.Məmmədov xeyirxah işlərdə də Respublikanın Deputatı kimi yaxından və fəal iştirak etmişdir. İ.Məmmədovun bilavasitə təşəbbüsü ilə Masallı - Qızılağac yoluna asfalt döşənmişdir.

1999-cu ildə Bələdiyyələrə keçirilən seçkilərdə İltifat Məmmədov Qızılağac bələdiyyəsinin ilk sədri seçilmişdir. Hal-hazırda bu vəzifədə çalışır.

## TAĞIYEV FİRDOVSİ RAMAZAN OĞLU

Azərbaycanın əməkdar məşqçisi, beynəlxalq dərəcəli idman ustası. Sambo üzrə dünya çempionu

Firdovsi Ramazan oğlu Tağıyev 1946-cı ildə Qızılağac kəndində dünyaya gəlib.

Orta məktəbi doğma kəndində bitirib. Bir il Kalinin adına sovxozda fəhlə işlədikdən sonra dənizçilik məktəbinə daxil olub. Məktəbdə sambo ilə məşğul olmağa başlayıb. Respublikanın əməkdar tənqidçisi Rauf Şəfiyevin rəhbərliyi altında Voqnik idman cəmiyyətində sambo üzrə təlim keçib.

1964-cü ildə yeniyetmələr arasında, 1965-ci ildə gənclər arasında respublika birinciliyinin qalibi olub.

1966-cı ildə yaşlılar arasında Avropa çempionu adını qazanıb.

F.Tağıyev həmin təqvimdən sonrakı 9-10 il ərzində müntəzəm olaraq respublika çempionluğunu özündə saxlayıb. R.Şəfiyevin məsləhəti ilə 1968-ci ildə dinamo idman cəmiyyətinə gəlib və tanınmış məşqçi Sabir Hüseynovun nəzarəti altında

məşqlərə başlayıb. Dənizçilik məktəbinin dördüncü kursunda oxuyarkən səhhətində əmələ gələn dəyişiklik ilə əlaqədar olaraq Politexnik Texnikumunun avtomobil şöbəsinə dəyişdirilib. Texnikumu bitirdikdən sonra 1970-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutuna qəbul olub. Elə həmin il dinamo Mərkəzi Şurasının çempionu şəxsində məşqçi kimi fəaliyyətə başlayıb.



***Firdovsi Tağıyev.***

Dinamo idman cəmiyyətində özünü həm idmançı, həm də püxtələşmiş məşqçi kimi göstərib.

1970-74-cü illərdə Azərbaycan yığma komandasının məşqçisi təyin edilib. O illərdə keçirilən sportakiadalarda yüksək yerlər uğrunda mübarizə aparıb və bir çox hallarda isə arzusuna çatıb. Keçmiş SSRİ-də DİN-nin sambo üzrə keçirilən yarışlarda ilk yerləri tutub.

1972-ci ildə dzyü-do idman növü üzrə keçirilən yarışlarda Azərbaycanda ilk dəfə olaraq çempion adını alıb. F.Tağıyev 1979-cu ildə sambo üzrə tanınmış mütəxəssis kimi Bədən Tərbiyəsi İnstitutuna dəvət olunub. Hal-hazırda güləşmə kafedrasının dosentidir.





Firdovsi müəllim respublikamızın hüdudlarını aşaraq çox-çox uzaqlarda, Əlcəzairdə də sanballı məşqçi kimi özünü göstərib. Ömrünün 3 (1985-1988-ci illər) ilini bu ölkədə güclü samboçular yetişdirməyə sərf edib.

O, zəhmətini bada verməyən şagirdlərindən Marif Hüseynovun, Nazit Şəfiyevin, Rəhman Abbasovun, Akif Qədimovun, Rəşad Quliyevin və başqalarının adını fəxrlə çəkir. F.Tağıyev idman sahəsində göstərdiyi şüurlu nəticələr dövlətimiz tərəfindən yüksək qiymətləndirilərək ona 1992-ci ildə "Azərbaycan Respublikasının əməkdar məşqçisi" fəxri adı verilib.

1993-cü ildən beynəlxalq dərəcəli hakim elə həmin ildən də beynəlxalq dərəcəli idman ustası kimi tanınan F.Tağıyev respublikada dzyu-do üzrə məşqlərə rəhbərlik edir. O, 1998-99-cu və 2001-ci illlərdə ustad sanboçular arasında dünya çempionu seçilib.

Evlidir. İki oğlan atasıdır.

Həyat yoldaşı voleybol üzrə idman ustalığına namizəddir.

Firdovsi Tağıyevin qazandığı bütün qələbələr onun aslan kimi güclü olmağına dəlalət edir, rəqiblərlə güləş meydanında üz-üzə durarkən sanki bu sözləri deyir:

***Gül gülüstan üstünə***
***Gün düşdü bostan üstünə***
***Sənə demədim ay tülkü,***
***Sən gəlmə aslan üstünə.***

## ABIŞOV ŞAKİR ZƏKƏRİYYƏ OĞLU

1950-ci il mayın 20-də anadan olmuşdur. 1967-ci ildə Qızılağac orta məktəbini bitirmişdir. 1968-1970-ci illərdə həqiqi hərbi xidmətdə olmuşdur. 1970-ci ildən əmək fəaliyyətinə başlamış, Qızılağacda Kalinin adına sovxozda fəhlə işləmiş. Sonradan Sumqayıt şəhərinə getmiş. 1972-ci ildən Sumqayıtda kimya zavodunda fəhlə, operator, sex və zavod komsomol təşkilatının katibi, sonradan Sumqayıt Şəhər Komsomol Komitəsinin katibi, şəhər partiya komitəsində təlimatçı, şöbə müdiri, Sumqayıt şəhər XDS icrayə komitəsinin sədri vəzifələrində işləmişdir. 1993-2000-ci illəri Sumqayıt şəhər icra başçısı olmuşdur.

S.M.Kirov adına ADU-nun filologiya fakültəsini, Ali partiya məktəbini bitirmişdir. Gənc yaşlarında bədii yaradıcılıqla məşğul olmuş, şer və hekayələri rayon qəzetində dərc olunmuşdur.

## ƏLİYEV MİR HADI MİR HÜSEYN OĞLU

1935-ci ildə anadan olub, orta təhsillidir. O, öz dövrünün insanları içərisində xeyirxahlığı olan münasibəti ilə fərqlənir. Məşhədi Mir Hadı geniş qəlbli, təmiz ürək sahibidir. O, məscid, mədrəsə, dəstəmazxana, məscid ətrafının yenidən qurma işlərində xeyriyyəçi kimi köməyini həyata keçirib. Xeyriyyə işlərin icra olunmasında fəal iştirak edib.

Hacı Həsənağa mədrəsəsində Ramazan ayında əhya saxlayanlardan biridir, həm də onların istifadəsi üçün ehsanlar verir. Məşhədi Mir Hadı şən təbiətli və sözünü hər zaman şən təsir bağışlayan kəlamlarla başqasına çatdırar. 5 oğul, 2 qız atasıdır. Məşhədi Mir Hadı, Qızılağac dini icması rəsmi





qaydada təsdiq edilən vaxtdan icmanın üzvüdür. İcma üzvü kimi ona verilən tapşırıqları layiqincə yerinə yetirir.



*Mir Hadı Əliyev.*

1996-cı ildə VIII İmam Əli ibn Musa - İmam Rza (ə) ziyarətində olmuşdur. İran İslam Respublikasında olarkən dövrün ən tanınmış müctəhidlərinin Ayətulla Fazili Lənkəran, Ayətulla Əbdül Hüseyn Lənkərani, Ayətulla Mürəbbir, Ayətulla Bəhidi və Ayətulla Mişkinin ziyarətində olmuşdur. Çoxlu sayda dini kitablar mütaliə etməklə dini biliklərə nail olmuşdur. Onun yeganə arzularından biri Kərbəlaya İmam Hüseyn ziyarətinə getməkdir. Allah istəyini versin. Ziyarəti Allah cəmi istəyənlərə nəsib edər, inşallah!

## SALAYEVA BALABƏYİM MƏMMƏDBAĞIR QIZI

1950-ci ildə Qızılağac kəndində müəllim ailəsində dünyaya gəlib. 1966-cı ildə Qızılağac kənd orta məktəbini bitirmişdir. İlk gündən ana dilinə məhəbbət hissləri ürəyinə yol tapıb. Elə buna görə də sənədlərini Azərbaycan Dövlət Pedaqoji İnstitutuna verib. 1971-ci ildə institutun filologiya fakültəsini bitirərək, bir zamanlar təhsil aldığı məktəbə müəllim təyin edilmişdir.



*Salayeva Balabəyim.*

İlk günlərdən elmi dünyagörüşü, bacarığı, milli ruha və mənəviyyata söykənən tərbiyə üsulu ona şagirdlərin, müəllim və ziyalı kimi pedaqoji kollektivin və kənd ictimaiyyətinin hörmətini qazandırmışdır. 1985-ci ildə "Baş müəllim" adına layiq görülüb. 1987-ci ildə Azərbaycan müəllimlərinin VII qurultayının nümayəndəsi olmuşdur. B.Salayeva şagirdlərə ana dili və ədəbiyyatımızı sevdirən bir müəllimdir.

Məhz buna görə də dərs dediyi şagirdlərin bir çoxu peşə seçərkən filoloq ixtisasına üstünlük vermişlər. Onun qızı Məmmədzadə Həbibə də filoloqdur. B.Salayeva 30 ildən





çoxdur ki, pedaqoji cəbhədə yorulmaq bilmədən çalışır. O,Qızılağac kəndinə ilk ali təhsilli qadın müəllimdir. Ona Rayon İcra Hakimiyyətinin Fəxri fərmanı verilmişdir. 2003-cü ildə Respublika müəllimlərinin XII qurultayına nümayəndə seçilmişdir. B.Salayeva ictimai həyatda da fəal iştirak edir. Qızılağac kənd Qadınlar şurasının sədridir. 2003-cü ildə keçirilən Azərbaycan Qadınlarının II qurultayının nümayəndəsi olub. Ailəlidir. Bir qızı, bir oğlu var. Həyat yoldaşı Məmmədov Qulu Vəci oğlu ali təhsilli mühəndisdir. Uzun müddət rayonda rəhbər vəzifədə çalışıb. Hazırda Qızılağac Bələdiyyəsində sədr müavini işləyir. O, həm də "Ürəyimin ağrıları" və "Yolum" şerlər kitabının müəllifidir.

## TƏRCÜMEYİ HAL

Nəsrullayev Nüsrət Nəsrulla oğlu 1947-ci il iyun ayının 14-də Masallı rayonunun Qızılağac kəndində anadan olub.

1953-cü ildə ibtidai məktəbin 1-ci sinfinə qəbul olunmuşdur. 1963-64 - tədris ilində orta məktəbin XI sinfini bitirmişdir. 1965-ci ildə Ç.İldırım adına AZP-in nəzdində Bakı Politexnik Texnikumun Avtonəqliyyat fakültəsinə qəbul olunmuşdur. 1968-ci ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir. İki il Bakı şəhəri "Dəniz neft birliyinin avtonəqliyyat müəssisəsində məsul vəzifələrdə işləmişdir.

1969-71-ci illərdə hərbi xidmətdə olmuşdur. 1971-ci ildə Qızılağac kəndində Kalinin adına sovxozda təhlükəsizlik texnikası üzrə mühəndis işləmişdir.

1970-cü ilə kimi Masallı rayon Oktyabr (Xıl kəndi) sovxozunda baş mühəndis işləmişdir. 1979-cu ildə Ç.İldırım adına Az.Rİ-in "Avtonəqliyyatın istismarı" fakültəsinə daxil olmuşdur. 1985-ci ildə oranı bitirərək, 1987-ci ildən 1995-ci ilədək 2715 saylı Masallı Avtobazasında işləmişdir.

Hal-hazırda Qızılağac kənd məscidinin axundudur. Ərəb, fars, rus dillərini bilir. 4 oğul, 2 qız atasıdır.

## AY MOLLA NÜSRƏT

*Olmasa heç cürə sənətin sənin*
*Kamil bir mollasan, ay molla Nüsrət!*
*Gəlirsən karına obanın, elin,*
*Səni var olasan, ay molla Nüsrət!*

*Nə xoşdur səliqə-sahmanun sənin,*
*Axır ki, yetişdi zamanın sənin.*
*Necə də güclüdür imanın sənin,*
*Dinə əl amansan, ay molla Nüsrət.*





*Sözündə nöqsan yox, ey gözəl insan,*
*Hədisi ayəni xırdalayırsan.*
*Elə bil incini, ləli sayırsan*
*Bəli sən dəryasan, ay molla Nüsrət!*

*Min zinət verirsən deyilən sözə,*
*İman qəlbə dolur, məhəbbət gözə.*
*Gəncləri apardın nurlu gündüzə,*
*Özündə ziyasan, ay molla Nüsrət!*

*Beytulla, yozduğun gerçəkdir, gerçək,*
*Nüsrəti sözlərlə yaxşı nəzmə çək.*
*İnsanlar öləcək söz ölməyəcək,*
*Sözlü bir dünyasan, ay molla Nüsrət!*

*Beytulla Əliyev*
*Masallı şəhəri*

Kərbəlayi Nüsrət şəxsiyyətinə dərindən bələd olan şair Qulu Vəcioğlu öz ürək sözlərini belə bildirmişdir.

## ELƏ ADIN KİMİ...

*De, danış elmdən, ədəbdən danış,*
*Quran nə deyibsə hidayət eylə.*
*Sən Tanrı yolunda inamla çalış,*
*Başa düşənlərə nəsihət eylə!*

*Elm peyğəmbərdən qalma mirasdır,*
*Öyrənək beşikdən elmi qəbrədək.*
*Demirəm işimiz tamam tarazdır,*
*Çalışsaq Tanrı da eyləyər kömək!*

*Öyrənib hər işi ucalıq saydıq,*
*Mənəvi ucalıq çəkirdi bizi.*
*Haqqa gedən yolda çalışmasaydıq,*
*Pislər girdabına çəkərdi bizi.*

*İslam dünyasına bağlı olandan,*
*Yeni bir aləmə qovuşmuş oldun.*
*Sən qaranlıqlara işıq salandan,*
*Neçə bəlalardan sovuşmuş oldun.*

*O köhnə məscidin bərpa işində,*
*Getdin irəlidə bir əsgər kimi.*
*Duyurdum səninlə hər görüşəndə*
*İşdən güc alırdın müjdələr kimi.*





*Tikilən mədrəsə, dəstəmaz yeri,*
*Şərdən uzaq edir ürəyimizi.*
*Minarədən qalxan əzan səsləri,*
*Mənəvi paklığa çağırır bizi.*

*Sən cavan çağından ağsaqqalları,*
*Toplayıb başına çox iş görmüsən.*
*Bəzən yatıraraq qeyli-qalları*
*Neçə könülləri sevindirmisən!*

*Sənə tənə edən, ağız büzənin,*
*Gördüyün işlərdən xəbəri varmı?*
*Sənə daldalarda böhtan düzənin*
*Görəsən kiməsə səməri varmı?*

*Vətəninə bağlı hər insan oğlu,*
*Kökündən, soyundan uzaq düşməsin.*
*Bağlansın hər yanda qoy sərin yolu,*
*Şeytanla, iblislə dostluğu kəsin!*

*Tutduğun bu yoldan dönən deyilsən,*
*Bu yol çətin yoldur, şərəfli yoldur.*
*Qalxdığın zirvədən enən deyilsən,*
*Buyur boşluqları imanla doldur.*

*Müqəddəs kitab da deyir bu sözü,*
*Nəsihət dinləyər imanlı kəslər.*
*Dərgaha qaldıraq əllərimizi,*
*Tanrı ucalığa insanı səslər.*

*Olanlar, keçənlər qaldı arxada,*
*Nurlu gələcəyə ümidlə baxaq.*
*Böyük dəyişiklik olan dünyada,*
*Biz də sınaqlardan uğurla çıxaq.*

*Deyilən mənasız sözlərə baxma,*
*Yel qayadan daşı qopara bilməz.*
*İnsana dərd olar minnətli loxma,*
*Dar gündə əqidə, vətən keçilməz!*

*Tanrıya, Qurana bağlı sözündə,*
*İlahi eşqi var, şəfqətdi, qardaş!*
*Bu günün, sabahın, gələcəyin də,*
*Elə adın kimi nüsrətdi, qardaş!*

*Sən axund olandan bu doğma kəndi*
*Çox qondarma dəbdən azad etmisən.*
*Dost, səni ucaldan əməllərindi,*
*Məscid ətrafını abad etmisən!*

*Hər şey olsun deyə yerli-yerində,*
*İslama vicdanla xidmət edirsən*
*Xalqın xeyirində, xalqın şərində,*
*Görürəm çalışıb öndə gedirsən.*

*Tanrıdan, Qurandan söhbət açaraq,*
*Hamının gözündə uca olursan.*
*Elminlə qəlblərə işıq saçaraq,*
*Kamala yetirsən, yaşa dolursan!*





*Ona sevinirəm məclislər içrə,*
*İndi öz yerin var, öz söhbətin var.*
*İslam baxçasından gül dərə-dərə,*
*Duyuram ki, nurlu çox niyyətin var.*

*Başqa bir rəngə də yoxdur ehtiyac,*
*Necə tanımışam elə yazıram.*
*Elminlə hər yana işıq saç, nur saç,*
*Yaxşı əməlləri vəsfə hazıram!*

*Tanrı rizasına vəsf etdim səni,*
*O haqq yolu tutmaq asan iş deyil.*
*Sən də yeri düşsə yada sal məni,*
*Axı, hər əməl də yüksəliş deyil.*

*Elmindən soraqdır yazdığın kitab,*
*Bu da el-obaya xidmətdi, ey dost!*
*Elmin yollarında çəkilən əzab,*
*İnsana əbədi şöhrətdi, ey dost!*

*Tanrıya, Qurana bağlı sözündə,*
*İlahi eşqi var, şəfqətdi, axund!*
*Bu günün, sabahın, gələcəyin də,*
*Elə adın kimi nüsrətdi, axund!*

## MİNNƏTDARLIQ

Çox hörmətli əziz və mehriban oxucular! Uzun müddət çəkdiyim zəhmətin, axtarışlarımın bəhrəsi olan bu kitab xeyirxah, təəssübkeş, səxavətli, mərhəmətli, mehriban insan olan Hidayət (Elman) Adiloğlunun köməkliyi ilə işıq üzü gördü. Hidayətin bu xeyirxahlığı müqabilində Allahdan həmişə ona uğurlar diləyirəm. Hörmətli oxucu, bu kitabda hər hansı səhv, nöqsan nəzərə çarpsa trad və təklif-lərinizlə birlikdə mənə bildirməyir ununmayın. Əgər müraciət niyyətində olmasan, onda məni bağışla. Bağışlamaq böyük nemətdirsə, bağışlayanlar müdrik insanlardır. Allahdan mənim də bağışlanmağımı istəyin.

*MÜƏLLİFDƏN*





## İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT


1. B.Həsənov, M.Talışlı. “Lənkəran” 1990
2. N.Novruzov, Masallı 1990
3. M.Mir Nəsir oğlu. Hacıqabuldan çıxan yollar. 2000
4. Şeyx Səduq - İləluş-şərai. çap Mustəvi Tehran 1398-hicri
5. Əhməd Əliyev, İlahə Əhmədqızı. Masallı dünən və bu gün. 2002.
6. N.Kərimov. Odlar yurdunun səyyah və coğrafiyaşünasları 1985
7. Axund Hacı Mirqiyas Hüseynli, Hüseyn Əsədli, Nurəddin Ədiloğlu. Əsrin sönməz imamları 1999.
8. Flora Azerbaydjana T.3. B.1952.
9. Putişestvenniki ob Azerbaydjane Baku 1961
10. Musa Rza Mirzəyev. Mənim Masallım. Bakı 1991
11. AZSE-3-cü cild

# KİTABIN İÇİNDƏKİLƏR


ÖN SÖZ ƏVƏZİ .....3
BİSMİLLAHİR-RƏHMANİR RƏHİM .....7
QƏDİM QIZILAĞAC .....10
QIZILAĞAC (ALNUS) .....16
QIZILAĞAC .....18
QIZILAĞAC QORUĞU .....19
VİLƏŞ ÇAYI KƏNDİN İÇƏRİSİNDƏN KEÇİRDİ .....32
ŞƏRQ-CƏNUB-ŞİMAL YOLU .....34
DƏNİZ YOLU .....37
KƏNDİN İNQİLAB DÖVRÜ .....42
BÖLGƏDƏ İLK MƏKTƏB .....49
DƏMİRLİ MƏKTƏB .....54
2 SAYLI ORTA MƏKTƏB .....57
MƏDRƏSƏLƏR .....57
KİÇİK HAMAM .....58
BÖYÜK HAMAM .....59
KƏNDDƏ DƏYİRMAN .....61
QƏBRİSTANLIQ .....61
TİBB MƏNTƏQƏSİ .....64
KƏNDİN SU PROBLEMLƏRİ .....67
KEÇMİŞƏ BİR NƏZƏR .....71
MƏSCİD TİKİNTİSİ .....76
YARADANLAR YAŞAYIR .....109
RAMAZAN AYI .....122
ÜRƏYƏ HƏKK OLUNMUŞ MƏHƏBBƏT .....124
QÜRBƏTDƏ GÖRÜŞ .....131
VƏTƏN HƏSRƏTİ .....135
ŞEYX FƏTULLA AXUND .....142
ŞEYX ƏSƏD AXUND .....145
AXUND OĞLU ƏHMƏD .....147
MOLLA ABDULLA AXUND .....150
AĞA MİRHƏSƏN AĞA .....151
MİR CƏFƏR AĞA .....157
MİR KAZIM AXUND .....160
AXUND MOLLA MİR MÖHSÜN AĞA MİR HƏSƏN .....161
KƏRBƏLAYİ HÜSEYNALI .....164







USTA MƏMMƏDHƏSƏN NƏCCAR .....175
SƏMƏD QƏRİB .....177
RABİTƏ .....181
MƏDƏNİ-MAARİF VƏ MƏİŞƏT İŞLƏRİ .....181
ŞƏHİDLƏR .....183
XƏLİLOV SUBHAN MALİK OĞLU (1969-1992) .....184
CABBAROV ƏLİMAN MUQDAT OĞLU (1974-1993) .....186
XANMURADOV AZAD ŞİKAR OĞLU (1974-1993) .....188
ABASOV ŞAHİN VƏLİ OĞLU (1971-1994) .....190
QURBANOV LAÇIN SABİR OĞLU .....191
SAFURA ABDULLAYEVA .....193
FATİMƏ SADIQOVA .....194
HACI ƏLİ TAHİR İSLAM OĞLU (HACI QAFİL) .....196
HACI MƏZAHİM İBRAHİM OĞLU .....198
AĞABALAYEV AĞABALA MƏCİD OĞLU .....200
MƏMMƏDOV AĞAVERDİ AĞAƏLİ OĞLU .....204
VETERAN .....206
QATARDA .....207
MƏMMƏDBAĞIR KƏRİM OĞLU .....207
MƏHƏRRƏMOV MƏHƏRRƏM XALİQ OĞLU .....209
QOCAMAN ZİYALI .....210
SƏLİMOV İBRAHİM MƏMMƏD OĞLU .....211
RƏSULOV İLTİMAS İSA OĞLU .....216
ƏLƏKBƏROV CƏBRAYIL ƏLƏKBƏR OĞLU .....218
BİR OĞUL VAR .....220
CƏFƏROV SABİR HEYDƏR OĞLU .....222
SƏFƏROV QULAMƏLİ ABDULƏLİ OĞLU .....223
MƏMMƏDOV İLTİFAT AĞAVERDİ OĞLU .....224
TAĞIYEV FİRDOVSİ RAMAZAN OĞLU .....225
ABIŞOV ŞAKİR ZƏKƏRİYYƏ OĞLU .....228
ƏLİYEV MİR HADI MİR HÜSEYN OĞLU .....228
SALAYEVA BALABƏYİM MƏMMƏDBAĞIR QIZI .....230
TƏRCÜMEYİ HAL .....232
AY MOLLA NÜSRƏT .....232
ELƏ ADIN KİMİ .....234
MİNNƏTDARLIQ .....238
İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT .....239
KİTABIN İÇİNDƏKİLƏR .....240

**Molla Kərbəlayi Nüsrət Qızılağaclı**
*(Nəsrullayev Nüsrət Nəsrulla oğlu)*
**"QIZILAĞAC DÜNƏN VƏ BU GÜN"**

***Bakı, "ADİLOĞLU" nəşriyyatı 2003, 242 səh.***

| | |
|---|---|
| Yığıcı: | **Elmira NƏSİROVA** |
| Dizayner: | **Suleyman İSGƏNDƏROV** |
| Bilgisayar tərtibatçısı: | **Ceyhun ABIŞLI** |
| Çapçı: | **Rövşən CƏFƏROV** |

| | |
|---|---|
| Yığılmağa verilmişdir: | **27.08.2003** |
| Çapa imzalanmışdır: | **24.10.2003** |
| Kağız formatı: | **60x84 1/16** |
| Hesab-nəşriyyat həcmi: | **15,12 ç.v.** |
| Sayı: | **500** |
| Sifariş: | **280** |

Kitab **"ADİLOĞLU"** MMC-nin mətbəəsində
hazır diapozitivlərdən istifadə olunmaqla
ofset üsulu ilə çap edilmişdir.
**Ünvan: Bakı şəh., Ü.Hacıbəyov küç., 38/3**
**Tel.: 98-68-25**